**Ü.R.Ağabəyova**

# Qədim dövr Uzaq Şərqdə fəlsəfənin təşəkkülü və inkişafı

**Dərs vəsaiti**

***Bakı Dövlət Universitetinin Rektorunun 15.03.2018-ci il tarixli R-27 saylı əmri ilə nəşr hüququ verilmişdir.***

**BAKI - 2018**

**Elmi redaktor:** **Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri,**
**fəlsəfə üzrə elmlər doktoru,**
**prof. R.N.Aslanova**

**Rəyçilər:** **Fəlsəfə üzrə elmlər doktoru, prof. F.Q.İsmayılov**
**Fəlsəfə üzrə elmlər doktoru**
**L.C.Mövsümova**

**Ü.R.Ağabəyova. Qədim dövr Uzaq Şərqdə fəlsəfənin təşəkkülü və inkişafı. Dərs vəsaiti.** Bakı: "Bakı Universiteti Nəşriyyatı", 2018, 220 s.

**İSBN**
**978-9952-37-1 53-6**

$\mathrm{A}\frac{0301030000}{M-658(07)} - 2018$

***© "Bakı Universiteti Nəşriyyatı", 2018***

# GİRİŞ

Çağdaş Azərbaycanda baş verən iqtisadi-siyasi, sosial-ictimai dəyişikliklər təhsil sahəsinə də öz təsirini göstərməkdədir. Müstəqillik əldə etdikdən sonra ali məktəblərdə ana dilimizdə dövrün tələblərinə cavab verən çoxsaylı dərsliklər, dərs vəsaitləri, tədris proqramları hazırlanmış və bu proses indi də davam etməkdədir.

Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Fəlsəfə ixtisasında Şərq və Qərb fəlsəfəsi tarixi fənni bütün dövrlər üzrə tədris olunur.

Dünya fəlsəfi fikrini öyrənməklə, biz ilk növbədə itirilmiş mənəvi dəyərlərimizin mənbəyini axtarıb tapmalı, bərqərar olan dövlətimizin inkişafı naminə bütün dəyərlərimizi qoruyub saxlamalı, yeni tarixi şəraitdə daha da inkişaf etdirib gənc nəslə çatdırmalıyıq.

Fəlsəfə ən qədim dünyagörüş formalarından biri kimi nəzəri baxışlar sistemidir.

Gerçəklikdə baş verən təbiət və cəmiyyət hadisələrini, mövcudatı dərk etmək və onu dəyərləndirmək fəlsəfə elminin öhdəsinə düşür. Bu dünyagörüş insanın həyatının və təcrübəsinin müəyyən sahələrində zaman-zaman formalaşmışdır. Fəlsəfə birdən-birə yaranmamış, dövrün tələblərinə uyğun meydana gəlmişdir. Fəlsəfi ideyaların yaranması tarixi köklərə bağlıdır. Fəlsəfənin inkişafı mühüm tarixi mərhələlər keçmişdir.

Fəlsəfi fikrin təşəkkülü və inkişafında həm Şərq, həm də Qərb filosoflarının mühüm rolu olmuşdur. Ümumiyyətlə, elmin bütün sahələrinin, ədəbiyyatın, incəsənətin meydana

gəlməsində Şərq və Qərb xalqları birlikdə iştirak etmişlər. Mədəniyyət və sivilizasiyanın beşiyi qədim Şərq dünyası olsa da, müəyyən zaman kəsiyində mədəniyyətin bu və ya digər sahələri həm Şərqdə, həm də Qərbdə inkişaf etmişdir. İlk fəsəfi baxışlar – teoqonik və kosmoqonik baxışlar məhz Misirdə və Babilistanda, fəlsəfi məktəblər isə Hindistanda, Çində təşəkkül tapmışdır. Bəzi qərb filosoflarının Şərqə olan qısqanc münasibətinə baxmayaraq, Şərq dünyası həm fəlsəfi, həm də dünyəvi elmlər sahəsində özünün inkişaf mərhələsinə çata bilmişdir.

Məsələn, orta əsrlərdə feodalizm dövründə Qərbi Avropa ölkələrində xristian dini hakim mövqe tutduğu üçün ictimai şüurun bütün formalarına öz təsirini göstərdiyi bir zamanda, Şərq dünyasında ilahiyyat elmləri ilə yanaşı, dünyəvi elmlər özünün böyük inkişaf yolunu keçmişdir. Xristian dünyasında mistik baxışların – sxolastika və patristikanın yayıldığı ərəfədə müsəlman dünyasında qeyri-dini təlimlərlə yanaşı, panteizm, sufizm, Azərbaycan filosoflarının yaratdıqları hürufizm və işraqilik kimi mühüm fəlsəfi təlimlər ortaya çıxmışdır. Fəlsəfə, təxminən ilk öncə Çində, Hindistanda, bir qədər sonra Yunanıstanda meydana gəlmişdir.

Şərq mədəniyyəti, sivilizasiyası, fəlsəfi bilikləri öz unikallığı ilə Qərb mənəviyyatından köklü şəkildə fərqlənir.

Bu baxımdan tələbələrə Şərq fəlsəfəsinin tədris olunması dünya fəlsəfi-tarixi prosesinin vəhdəti ideyasını təsdiqləmək, “avropamərkəzçilik” və “asiyamərkəzçilik” tezislərinin radikallığını aradan qaldırmaq, fəlsəfi ideyaların transregional xarakterini dərk etmək imkanı verir və eyni zamanda Qədim Şərqdə fəlsəfi ideyaların yaranması və inkişafı

prosesini izləmək və tarixi kontekstdən təhlil etmək, bu region fəlsəfəsinin dünya fəlsəfəsi sistemindəki yerini müəyyənləşdirmək bacarığını aşılayır.

Dərs vəsaitinin yazılmasında əsas məqsəd ondan ibarətdir ki, tələbələr dünya fəlsəfi fikri, eyni zamanda Şərq fəlsəfəsi tarixinin inkişaf mərhələləri barədə informasiya əldə etmək, özlərində yeni dünyagörüşü, intellektual səviyyəni formalaşdırmaq, bu fəndən əldə etdikləri bilikləri gələcək iş fəaliyyətlərində tətbiq etmək üçün müəyyən bacarıqlara yiyələnmək imkanı qazanacaqlar.

"Qədim dövr Uzaq Şərqdə fəlsəfənin təşəkkülü və inkişafı" kursu üzrə hazırlanmış dərs vəsaiti fəlsəfə tarixi üzrə professional hazırlığı nəzərdə tutur. Kursun tədrisində əsas məqsəd Şərq fəlsəfəsi (Hindistan, Çin) tarixinə dair əsaslı biliklərə yiyələnən, bu sahə üzrə tarixi-fəlsəfi tədqiqatlara müasir analitik yanaşma bacarığına və metodlara malik mütəxəssislər hazırlamaqdır.

## Fəsil 1

# Fəlsəfə tarixi elm kimi

### 1.Fəlsəfə tarixinin predmeti

Fəlsəfə ən qədim dünyagörüş forması, dünyanı dərk etmə vasitəsi və təfəkkür formasıdır. Dünyanın əsas mahiyyətini, yaranma səbəbini öyrənməyə çalışan bu elm ilk öncə Şərqdə, məhz Misirdə, Babilistanda, Çində, Hindistanda təşəkkül tapmış, daha sonralar e.ə. VII-VI əsrlərdə Antik Yunanıstanda inkişafını davam etdirmişdir [8, s.9].

Fəlsəfə şeylərin mahiyyətini, insan və onun həyatdakı yerini, təbiət və onun dünyadakı rolunu müəyyənləşdirməyə çalışır. Fəlsəfə həqiqəti görmə imkanıdır ki, hind ədəbiyyatında bu, "darşana" adlanır.

Fəlsəfə öz rasionallığı ilə, sistemliliyi ilə, məntiqi mühakiməsi ilə fərqlənən dünyagörüş forması, elmi-nəzəri bilikdir. Fəlsəfə insan həyatının əsas məsələlərini araşdırmaqla yanaşı, eyni zamanda onun intellektini, hisslərini, mənəvi aləmini öyrənməyə çalışır. Fəlsəfə dünyanın mahiyyəti, mənşəyi, insanın ondakı yeri və rolu haqqında problemləri araşdıran təfəkkür formasıdır.

Fəlsəfə tarixi fəlsəfi ideyaların, fəlsəfi məktəblərin, cərəyanların, istiqamətlərin meydana gəlməsi və inkişafı haqqında elm olub, dinlə, əsatirlərlə, miflərlə, ruhlar haqqında təlimlərlə varislik əlaqəsi ilə sıx bağlıdır. Fəlsəfə tarixi fəlsəfəyə qədər mövcud olmuş dünyagörüş formalarının inkişafı haqqında biliklər toplusudur. Antik yunan klassikləri

olan Sokratın, Platonun, Aristotelin əsərlərində fəlsəfi ideyaların meydana gəlməsi barədə fikirlər irəli sürülsə də, fəlsəfə tarixi müstəqil bir elm kimi öz təsdiqini yeni dövrdə tapmışdır. Orta əsrlər dövründə də bu məsələyə dair fikirlər bəzi mütəfəkkirlərin əsərlərində yer alsa da, nə antik dövrdə, nə də orta əsrlərdə fəlsəfə tarixi elm kimi yarana bilməmişdir.

Yeni dövrdə bir sıra mütəfəkkirlər, filosoflar, tarixçilər, dinşünas alimlər tərəfindən yazılmış əsərlərin tədqiqi və öyrənilməsi nəticəsində fəlsəfə tarixi elmi təşəkkül tapmışdır. Fəlsəfə tarixçiləri qədim dövrdən başlayaraq bu və ya digər filosofların həyat və yaradıcılığını öyrənərək, onların yaratmış olduqları fəlsəfi təlimlərin, fəlsəfi məktəblərin, cərəyanların mahiyyətini araşdırmış və izah etməyə çalışmışlar [14, s.19]. Eyni zamanda, onlar fəlsəfənin predmetinin əsas bölmələri olan ontologiyanı (varlıq nəzəriyyəsi), qnoseologiyanı (idrak nəzəriyyəsi), insanı, cəmiyyəti öyrənərək bu dörd əsas bölmə əsasında varlığın mahiyyəti, materiya, forma, şüur və insanın mahiyyəti, cəmiyyət və insan, təbiət və cəmiyyət, sivilizasiyalar və ictimai-iqtisadi formasiyalar haqqında mühüm biliklər əldə etməklə fəlsəfənin tarixini yaratmışlar [1, s.9].

Fəlsəfə tarixi fəlsəfə elmini tarixilik baxımından öyrənmək tələbindən meydana gəlmişdir.

Fəlsəfə tarixi mürəkkəb və son dərəcə əhatəli elmdir. Fəlsəfə tarixi bu elmin tarixi, fəlsəfə isə onun nəzəri hissəsidir. Fəlsəfə tarixi fəlsəfəyə aid olan bütün problemlərin həllinə çalışaraq əhatə dairəsini genişləndirmişdir. Fəlsəfə tarixi naturfəlsəfənin, ontologiyanın, qnoseologiyanın, dialektikanın, metafizikanın, materializmin, idealizmin,

materiyanın, şüurun, idrakın və s. tarixini yaradaraq, fəlsəfi məktəblərin, cərəyanların, istiqamətlərin meydana gəlməsi, inkişaf xüsusiyyətləri, varislik əlaqələri haqqında fundamental elmi biliklər sistemini ərsiyə gətirmişdir.

Fəlsəfə tarixinin predmeti haqqında bir çox filosoflar müxtəlif təriflər söyləmişlər. Məsələn, Qərb filosofları fəlsəfə tarixinin predmeti haqqında müxtəlif fikirlər irəli sürmüşlər. Alman klassik filosofu, obyektiv idealizm fəlsəfəsinin ən böyük nümayəndəsi Georq Vilhelm Fridrix Hegel (1770-1831) fəlsəfi fikrin inkişafı tarixində mühüm xidmətləri ilə seçilir. O, fəlsəfə ilə məntiq elminin sıx əlaqədə olduğunu qeyd edərək deyirdi ki, "yalnız o fəlsəfə tarixi elm adlana bilər ki, o, ideyaların inkişaf sistemi kimi başa düşülsün. Bir-birindən təcrid edilmiş ideyaları elm hesab etmək olmaz". Hegelə görə fəlsə tarixi ideyaların inkişaf sistemi və ağılın təzahürlərini öyrənən elmdir [14, s.19].

Fəlsəfə tarixi həm fəlsəfi, həm də tarixi baxımdan böyük əhəmiyyət kəsb etdiyi üçün bu elmin öyrənilməsi həm nəzəri, həm də praktik cəhətdən önəm daşıyır. Fəlsəfə tarixinin öyrənilməsi və tədrisi dünya fəlsəfi-tarixi prosesinin vəhdəti ideyasını təsdiqləmək, "avropamərkəzçilik" və "asiyamərkəzçilik" tezislərinin radikallığını aradan qaldırmaq, fəlsəfi ideyaların transregional xarakterini dərk etmək imkanı verir. Bu elmin öyrənilməsi insanın dünyagörüşünün, intellektual səviyyəsinin, təfəkkürünün inkişafına və zənginləşməsinə zəmin yaradır. Fəlsəfi bilik insanda siyasi və ictiami-sosial məsələlərin düzgün həlli üçün şərait yaradır. Fəlsəfə tarixini mənimsəmədən bəşəriyyətin fikir tarixini, filosofların yaradıcılığını, onların gerçəkliyin dərki

məsələsində tutduqları mövqenin nədən ibarət olduğunu öyrənmək mümkün deyildir [14, s.23].

Tarixin yetişdirdiyi filosofların əsərləri ilə tanış olmadan, onları oxuyub anlamadan dünyanı dərk etmək, dünyada baş verən prosesləri, təbiət hadisələrinin səbəblərini öyrənmək, bəşəriyyətin inkişafına mane olan ideyaların dəf edilməsinə nail olmaq mümkünsüzdür. Ona görə də fəlsəfə tarixinin öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Bu, dövlətlərarası əməkdaşlığın, qarşılıqlı münasibətin, millətlərarası dostluğun yaranmasına və qorunub saxlanmasına xidmət edir.

Dünya fəlsəfəsi tarixini öyrənməklə biz Azərbaycan fəlsəfəsi tarixinə dərindən yiyələnə bilərik. İslamaqədərki dövrdə Azərbaycanda maqlar təlimi, zərdüştilik, zərvanilik, manilik, məzdəkilik, xürrəmilik kimi dini-fəlsəfi təlimlər mövcud olmuşdur. Bu təlimlərin əsasını dualizm – xeyirlə şərin vəhdəti və mübarizəsi məsələsi təşkil edir. Bu təlimləri öyrənməklə, biz keçmişimizə, tariximizə, mənəvi dəyərlərimizə, adət – ənənələrimizə sahib çıxır, soy kökümüzə bağlanırıq.

İslam dininin Azərbaycanda yayılması həm fəlsəfədə, həm də elmin bir çox sahələrində əsaslı dönüş yaratdı. Şəriət elmləri ilə yanaşı, dünyəvi elmlər də böyük sıçrayışla inkişaf etdi. XII əsrdə Azərbaycanda qeyri-dini təlim olan İşraqilik, XIV əsrdə şiəlik əsasında hürufilik təlimi meydana çıxdı, peripatetizm, sufizm, sufi-panteist təlimləri yayıldı. Orta əsrlərdə böyük şair və mütəfəkkirlərimizin ədəbi-bədii və fəlsəfi irsini tədqiq etmək və dünya müstəvisində tanıtmaq vacib məsələlərdəndir. Bu baxımdan Azərbaycanın zəngin mədəniyyətinə sahib çıxmaq üçün fəlsəfə tarixini dərindən bilmək və onu iş təcrübəsində tətbiq etmək labüddür.

## 2. Fəlsəfi ideyaların meydana gəlməsi

Son dövrlərdə həm Qərbdə, həm də Şərqdə qədim Şərq tarixi, mədəniyyəti, elmi bilikləri, fəlsəfəsi haqqında geniş tədqiqat işləri aparılmış və bu sahədə böyük nailiyyətlər əldə edilmişdir. Misir, babil, yəhudi, Kənan, İran, Azərbaycan mədəniyyətinin və fəlsəfəsinin öyrənilməsinə dair bir sıra əsərlər yazılmış və oxucu kütləsinin öhdəsinə verilmişdir. Qədim Şərqin mədəni, iqtisadi-siyasi problemlərinə və fəlsəfə tarixinə dair materiallar bir çox Avropa dillərinə, eləcə də rus dilinə tərcümə edilərək çapdan çıxmışdır.

Qədim Şərq ölkələri coğrafi baxımdan geniş ərazini əhatə edir. Şərqin ən böyük qədim dövlətləri Misir, Mesopotamiya, İran, Hindistan, Çin, Kiçik Asiya və digərləri olmuşdur. Qədim Şərq dövlətləri bir neçə inkişaf mərhələsi keçmiş, ilk sinifli cəmiyyət və ilk dövlət yaranmışdır. Bu dövrdə, eyni zamanda dini məbədlər yaranmışdır. Fəlsəfəyəqədər dünyagörüş formaları – ibtidai din (şüur) formaları, əsatirlər, nağıllar, magiya da burada meydana gəlmişdir. İlk şəkli yazılar (piktoqrafiya) Şərqdə icad edilmişdir [ 13, s.7]

Bəs "Qədim Şərq" anlayışı nədir? Mövzunun təhlilinə keçməzdən əvvəl bu anlayışa nəzər salaq. Avropa qitəsində yerləşən Qədim Yunanıstan və Roma qərbə, bu ölkələrdən şərqdə və cənub-şərqdə yerləşən ölkələr isə Asiya və Afrika qitələrinə aid idi. Qədim zamanlardan Yunanıstan və Roma ədəbiyyatında Asiya əhalisi "Şərq xalqları", ərazisi isə "Şərq ölkələri" kimi göstərilirdi. "Şərq" anlayışı birmənalı şəkildə coğrafi məfhum kimi işlədilirdi.

Tarix elmi inkişaf etdikcə, "Qədim Şərq" anlayışı

elmi fənn sahəsi kimi tanınır və daha geniş əraziləri əhatə edir. “Qədim Şərq” anlayışına Misir, Mesopotamiya (İkiçayarası) - Şumer, Akkad, Babilistan, Assuriya kimi dövlətlər, Suriya, Finikiya, İran, Atropatena, Albaniya, Orta və Uzaq Şərqdə Hindistan, Koreya, Çin və digər ölkələr daxildir [13, s.9].

Sivilizasiyanın beşiyi qədim Misir olmuş, sonralar Mesopotamiya, Hindistan, Çində də öz yerini tutmuşdur. Qədim Şərq sivilizasiyasının əsas əlamətləri iqtisadi cəhətdən əkinçilik, dövlətin meydana gəlməsi, ilk sinifli cəmiyyətin yaranması, yazının ixtirası və sairədən ibarətdir. Eyni zamanda, Qədim Şərq bütün elmlərin vətəni hesab edilir. Misirdə riyaziyyat, həndəsə, tibb, astranomiya elmi inkişaf etmiş və digər ölkələrə öz təsirini göstərmişdir. Bu elmlərin meydana gəlməsi və inkişafı gündəlik tələbatdan yaranmış və təcrübədə istifadə edilmişdir. Dünyanı heyrətdə saxlayan böyük və nəhəng ehramların tikintisi riyazi və həndəsi bilgilərlə bağlı olmuşdur. Həndəsə sahəsində irəli gedərək düzbucağın, trapesiyanın, dairənin səthini müəyyənləşdirir və bu biliklərdən təcrübədə istifadə olunurdu. Astronomiya elmi bilikləri nəticəsində ulduzları planetlərdən ayırır, göy cisimlərinin xəritəsini yarada bilmişlər. Bu gün 365 günlük ümumbəşəri təqvimdən istifadə edilir ki, həmin təqvim misirlilər tərəfindən yaradılmışdır. Onlar hər ay otuz gündən ibarət olmaqla on iki aylıq il təqvimini yaratmış və ilin sonuna beş günü əlavə etmişlər. Eyni zamanda su və günəş saatları yaradılmışdır. Yazıda heroqliflərdən istifadə olunurdu.

Fironlar dünyalarını dəyişdikdən sonra mumyalanaraq dəfn edilirdi. Bu da Misirdə tibb elminin təşəkkülünə

və inkişafına səbəb olmuşdur. Cərrahiyyə inkişaf etmiş, göz, diş və digər xəstəliklərin müalicəsi mümkün olmuşdur.

Misir sivilizasiyası, misir mədəniyyəti öz inkişafını və nüfuzumu üç min il ərzində qoruyub saxlaya bilmişdir.

Şərq mədəniyyəti qədim yunan və Roma mədəniyyətindən öz ecazkarlığına və unikallığına görə köklü surətdə fərqlənmişdir. Qədim Şərq dövlətləri, əsasən çay vadilərində meydana gəlmişdir ki, bu da həyat şəraitini asanlaşdırırdı.

Belə ki, "Şərq" anlayışı antik dövrün ədəbiyyatlarında coğrafi termin kimi işlədilsə də, yeni və ən yeni dövrdə "Qədim Şərq" anlayışı kimi istifadə edilir.

Şərqin mədəni irsi antik yunanlar tərəfindən öyrənilsə də, nə qədim dövrdə, nə də orta əsrlərdə Şərq haqqında geniş məlumat olmamışdır. Yalnız yeni dövrdə elmin inkişafı ilə əlaqədar olaraq Şərq dünyasına olan marağın artması ilə geniş tədqiqat işləri aparılmağa başlamış və yeni-yeni məlumatlar və biliklər əldə edilmişdir.

Ümumbəşəri fəlsəfi fikri, mədəniyyəti bir-birindən təcrid olunmuş şəkildə meydana gəlməmiş, onların yaradılmasında şərq və qərb xalqları birlikdə iştirak etmişlər. Müəyyən dövrlərdə gah şərq xalqları qərb xalqlarının mədəniyyətindən bəhrələnmiş, gah da qərb mədəniyyəti şərq mədəniyyətinin, elminin, fəlsəfəsinin təsiri altında inkişaf etmişdir. Fəlsəfi fikir Şərq və Qərb xalqlarının qarşılıqlı münasibəti və əlaqəsi nəticəsində inkişaf yolu keçmişdir.

Bəzən Şərq xalqlarının mədəni irsinə qərb mütəfəkkirləri, filosofları qısqanclıq hissi ilə yanaşmış və mənfi münasibət bəsləmişlər. Məsələn, alman klassik filosofu Georq Vilhelm Fridrix Hegel özünün "Fəlsəfə tarixinə dair

mühazirələr” əsərində iddia edirdi ki, şərq peripatetikləri (Əl-Fərabi, İbn Sina, İbn Rüşd, Bəhmənyar və s.) olan müsəlman filosofları Aristotel yaradıcılığını mənimsəmiş və onun əsərlərinin şərhini verməklə məşğul olmuşlar. Həmin filosoflar fəlsəfənin inkişafı üçün heç bir iş görməmişlər və onların fəaliyyəti fəlsəfi fikrin inkişafı tarixində özünəməxsus yer tutmur. Ona görə də “şərq” anlayışını fəlsəfə anlayışı ilə birlikdə işlətmək olmaz və həmin anlayışı fəlsəfə tarixindən çıxarmaq lazımdır. Hegelin bu fikirləri onun Şərq mədəniyyətinə, şərq fəlsəfəsinə qısqanclıq hissi ilə yanaşdığının sübutudur [12, s.30].

Şərq mədəniyyəti, şərq fəlsəfəsi dünya tədqiqatçılarının, tarixçilərinin, mütəfəkkirlərinin nəzər-diqqətini cəlb etmiş, bəzi qərb mütəfəkkirləri bu mədəniyyətə etinasız yanaşsa da, digərləri həmin mədəniyyətin bəşər tarixi üçün mühüm əhəmiyyətə malik olduğunu iddia etmişlər.

Lakin bütün bunlara baxmayaraq, Şərq fəlsəfəsi bu günə qədər hələ də mükəmməl şəkildə tədqiq edilməmiş və oxucu kütləsinə çatdırılmamışdır.

Biz fəlsəfi məktəblərin, fəlsəfi istiqamətlərin, fəlsəfi cərəyanların meydana gəlməsi, inkişaf xüsusiyyətləri və qarşılıqlı əlaqəsi haqqında bilik əldə etmək üçün, ilk öncə fəlsəfi ideyaların yaranması səbəblərini araşdırmalıyıq. Fəlsəfi ideyaların meydana gəlməsi və inkişafında Şərq və Qərb filosoflarının rolu nədən ibarət olmuşdur?

Fəlsəfi ideyalar müxtəlif regionlarda fərqli zamanlarda meydana gəlmiş, sonralar qarşılıqlı şəkildə inkişaf etmişdir. Fəlsəfə zaman baxımından Şərqdə daha tez meydana gəlmiş və formalaşmışdır. Ilk fəlsəfi məktəblər Hindis-

tanda yaransa da, fəlsəfi ideyaların beşiyi məhz Misir və Babilistan hesab edilir. Daha sonralar, fəlsəfi ideyalar e.ə. birinci minillikdə Hindistanda, e.ə. VI-V əsrlərdə Çində, e.ə. ikinci minilliyin ortalarında Azərbaycanda Zərdüştilik dini ilə bağlı dini-fəlsəfi biliklər meydana gəlmişdir. E.ə. VII-VI əsrlərdə isə Yunanıstanda fəlsəfi fikirlər təşəkkül tapmışdır. Fəlsəfi ideyaların müxtəlif zamanlarda müxtəlif ərazilərdə meydana gəlməsinə baxmayaraq, istər şərq insanını, istərsə də qərb insanını eyni problemlər düşündürmüşdür. Dünyanın necə yaranması səbəbini, mövcudatın ilkin səbəbini, gerçəkliyin yaranması səbəbini, dünyada, təbiətdə və cəmiyyətdə baş verən hadisələrin və inkişaf prosesinin səbəbini öyrənməyə çalışan Şərq və Qərb filosofları bu sualların cavabını müxtəlif cür izah etməyə çalışmışlar.

Fəlsəfi ideyaların həm Şərqdə, həm də Qərbdə miflərdən, əsatirlərdən yarandığı iddia edilir. Hələ qədim dövrlərdə həm şərq, həm də qərb insanını xeyirlə şərin, işıqla qaranlığın, ədalət və ədalətsizliyin, xoşbəxtlik və bədbəxtliyin vəhdəti və mübarizəsi problemi düşündürmüş və bütün bunlara cavab axtarmağa çalışmışdır. Şərq və Qərb filosofları tarixən qarşılıqlı əlaqədə olmuş və bu problemlərə eyni yanaşmışlar.

Rus filosofu və tarixçisi Aleksandr Osipoviç Makovelski, əsasən antik dövr fəlsəfə tarixini tədqiq etmiş və qeyd etmişdir ki, qədim yunan atomisti Demokrit öz təlimində Maqlar tayfasının atomlar haqqında fikirlərindən bəhrələnmişdir.

Məsələn, Hegeldən fərqli olaraq, qərb dünyasının bir çox mütəfəkkirləri Piko Della Mirandola (1463-1495),

Cordano Bruno (1548-1600), XVIII əsrin fransız maarifçisi Antuan Kondorse (1743-1794), alman klassik fəlsəfəsinin nümayəndələri Herder (1744-1803), Fixte (176121-1814), Şellinq (1775-1854) Şərq fəlsəfəsini dünya sivilizasiyasının əsası və başlanğıcı hesab etmişlər [14, s.40].

Hegel özü isə fəlsəfi baxışlarında "Avesta"dan bəhrələnmiş, dialektikanın qanunlarını sistemləşdirmişdir.

Şərq peripatetiklərinin böyük ordusunu yaratmış Əl-Kindi, Əl-Fərabi, İbn Sina, İbn Rüşd, Bəhmənyar, Siracəd-din Ürməvi, Əfzələddin Xunəci və digərləri Aristotel fəlsəfəsindən bəhrələnmişlər. Şərq ölkələrində min illik tarixə söykənən peripatetik məktəblər meydana gəlmişdir. Orta əsrlərdə Qərbdə unudulan antik dövr fəlsəfəsi orta əsrlərdə Şərq mütəfəkkirləri və filosofları tərəfindən dircəldilərək yenidən Avropaya təqdim edilmişdir.

Şərq və Qərb filosofları tarix boyu bir-birindən bəhrələnsələrdə, onların dünyagörüşü, fəlsəfi təfəkkürü arasında mühüm fərqlər mövcuddur. Hələ qədim zamanlardan Şərq filosofları öz yaradıcılıqlarında əsas diqqəti insan və təbiət, insanın təbiətdəki yeri probleminə yönəltmişlər. Antik Yunanıstanda isə filosofların məşğul olduqları əsas məsələlər naturfəlsəfə, ontologiya, qnoseologiya, məntiq, hüquq, siyasət, etika, estetika kimi fəlsəfənin fundamental sahələri olmuşdur.

Şərq fəlsəfəsi ilə Qərb fəlsəfəsi arasında əsaslı fərqlər nədən ibarətdir?

1.Şərq fəlsəfəsi dinlə sıx bağlı olmuşdur. Fəlsəfə din, mifologiya ilə dialektik vəhdətdə inkişaf etmişdir. İstər Yaxın Şərqdə, istərsə də Uzaq Şərqdə fəlsəfi cərəyanların

əksəriyyəti həm fəlsəfi, həm də dini təlim kimi qiymətləndirilirdi.

2. Şərq fəlsəfəsində ənənəçilik üstünlük təşkil edirdi. Məsələn, qədim dövrdə Hindistanda, Çində mövcud olmuş fəlsəfi məktəblər, fəlsəfi təlimlər inkişaf etdirilərək sonrakı dövrlərə təqdim edilmişdir. Hindistanda buddizm, Çində konfusiçilik bu gün də öz nüfuzunu qorumaqdadır.

3. Qərbdən fərqli olaraq Şərq fəlsəfəsi poeziya ilə, şeriyyatla, musiqi ilə vəhdətdə inkişaf etmişdir.

4. Şərq fəlsəfəsində (Çin fəlsəfəsində) "Səma iradəsi" problemi mühüm yer tutur. Dünyada mövcud olan hər şeyin, eyni zamanda insanın mövcudluğunun, tale-alın yazısının "Səma iradəsi"ndən asılı olması prinsipi irəli sürülür.

5. Qərb düşüncə tərzində isə bu problemə başqa cür yanaşılır. Beləki, Milet məktəbinin nümayəndələrindən başlayaraq, Heraklit, Empidokl, Anaksaqor, yunan atomistləri Levkipp, Demokrit, Epikür, Tit Lukretsi Kar da daxil olmaqla bu məsələlərin həllinə materialist mövqedən çalışmışlar.

Beləliklə, həm Şərq, həm də Qərb filosofları eyni fəlsəfi problemlərin həllinə müxtəlif müstəvidən yanaşsalar da, bəşər fəlsəfi fikrinin inkişafında birlikdə iştirak etmişlər.

Fəlsəfəyə qədər dünyagörüş formaları olmuşdur ki, onların əsasında fəlsəfi ideyalar meydana çıxmışdır. Fəlsəfi biliklər, fəlsəfə elmi birdən-birə yaranmamış, müxtəlif tarixi inkişaf yolu keçmişdir. Qədim zamanlarda ibtidai insanın şüuru ibtidai formada olsa da, dünyanın dərki məsələsi, təbiətdə baş verən hadisələr sadə, bəsit şəkildə onu düşündürürdü. Qorxudan, əlacsızlıqdan yaranan fikirlər öz əksini animist, totemist, fetişist baxışlarda tapırdı ki, bu da

ibtidai şüur formalarının yaranmasına zəmin yaradırdı. İbtidai insan anlaya bilmədiyi hadisələrin izahını fövqəltəbii qüvvələrin köməyi ilə verməyə çalışırdı. Bu da öz ifadəsini tədricən magiyada, miflərdə tapırdı [14, s. 44].

Fəlsəfi ideyalar fəlsəfəyəqədər mövcud olmuş ibtidai din formaları, magiya, mifologiya əsasında meydana gəlməyə başlamışdır.

Şərqdə meydana gəlmiş miflər, əsatirlər fəlsəfi fikrin yaranmasına səbəb olmuşdur. Qədim Misir, Şumer, Akkad, Babil, Kanan, Hurrit və Het miflərində dünyanın mənşəyi, onun mahiyyəti, fövqəltəbii qüvvələr haqqında fikirlər öz əksini tapmışdır. Qədim Şərq fəlsəfəsi də həmin miflərin, əsatirlərin əsasında təşəkkül taparaq sonralar Hindistanda, Çində böyük fəlsəfi məktəblərin yaranmasına zəmin hazırlamışdır.

Şərq dünyası zəngin fəlsəfi fikirləri ilə dünya xalqlarının diqqətini cəlb etmiş və onlar Şərq fəlsəfəsindən tarix boyu bəhrələnmişlər.

İnsanın yaranması məhz Şərqdə baş vermiş, şüurlu insan yüz min il əvvəl meydana çıxmışdır. Tədricən insanlar mənimsəmə təsərrüfatindan istehsal təsərrüfatına keçmişlər. Adət-ənənələrin, dini təsəvvürlərin, təsərrüfat vərdişlərinin meydana gəlməsi insan təfəkkürünün inkişafının əsas şərtləri idi.

Şifahi xalq ədəbiyyatı nümunələri – nağıllar, rəvayətlər, dastanlar, eposlar, miflər müxtəlif xalqlar tərəfindən yaradılaraq mədəniyyətin inkişafını şərtləndirirdi. Nağıllarda əhalinin əkinçilik həyatı haqqında məsələlər öz əksini tapırdı.

Qədim Misir ədəbiyyatı nümunələri vahid qədim Misir dilində yazıya alınmışdır ki, bu da heroqliflərdən ibarət idi. Misirdə ən qədim ədəbiyyat nümunələri "İki qardaş haqqında nağıl", "Məhkum haqqında nağıl", "Cadulanmış şahzadə", "Düz və əyri haqqında nağıl", "Gəmi qəzasına uğrayan adamın nağılı", "Bəlağətli kəndli haqqında nağıl", "Firon Xufu və cadugərlər", "Bir çobanın tarixçəsi" nağıllarıdır. "Sinuhe və Un-Amon hekayələri"ndə real hadisələr təsvir edilmişdir. "Arfa çalanın nəğməsi", "Ümidsizliyə qapılmış adamın öz ruhu ilə söhbəti" əsərləri fəlsəfi mövzuları əks etdirirdi. "Ölülər kitabı"nda ölmüş insanın sonrakı aqibəti haqqında məlumat verilir. "İsida və Osiris haqqında əsatir", "Nəfəs kitabı", "Axirət dünyasında olanlar haqqında kitab", "Qayğı saatları kitabı" adlı əsatirlərdə allahlar haqqında, onların mənşəyi haqqında, insan-allah münasibəti haqqında, axirət dünyası haqqında fikirlər yer almışdır.

Qədim Misir xalqı nağıllarda xeyirxahlığı, müdrikliyi, cəsarəti, ədaləti tərənnüm etməyə çalışırdılar. Nağıllarda, əsasən fironlarla allahların gücünün sarsılmaz olduğu öz ifadəsini tapmışdır. Təbiətdə və insanın həyatında baş verən hadisələr dini fikirlər əsasında nümayiş etdirilirdi. Məsələn, "İsida və Osiris haqqında əsatir"də allahlar haqqında fikirlər geniş yer almışdır. Burada ölən və dirilən allah Osiris haqqında söhbət gedir.

Misir allahlar panteonunda mühüm yer tutan Amon bütün tanrıların başçısı, Ra isə günəş tanrısı hesab edilirdi. Sonrakı mərhələlərdə tanrılar ailəsi: Şu, Tefnutu, Heb, Nut, Osiris, İsida və Setin timsalında tanrı-ata, tanrı-ana, tanrı-oğul ideyası yaranmışdır. Bu dini ehkam sonralar xristian-

lıqda özünü biruzə vermişdir.

Misir mifologiyasında dünyanı yaradan günəş tanrısı Ra sudan yeri, bitkiləri, canlıları əmələ gətirmişdir. Misir mədəniyyətinin, misir ideologiyasının əsas tərkib hissəsini dini təsəvvürlər təşkil edir. Nil çayına sitayiş qədim Misir mədəniyyətində mühüm yerlərdən birini tuturdu. Əşyalara, heyvanlara və əcdadların ruhuna etiqad Misirdə animizm, totemizm, fetişizm kimi ibtidai din formalarının meydana gəlməsinə səbəb olmuşdur.

Axirət dünyasına inam, əbədi dünyanın qəbul edilməsi ideyası Misir miflərində özünəməxsus yer tutur. Qədim misir əhalisinə görə insan cismən ölür, o öz varlığını əbədi dünyada davam etdirir. Ona görə ölmüş insanı hər hansı bir parçaya və yaxud da həsirə büküb əşyaları ilə birlikdə basdırırdılar.

E.ə. üçüncü minilliyin sonu, ikinci minilliyin ortalarında - orta səltənətlik dövründə əkinçilik, maldarlıq, sənətkarlıq inkişaf edir və yeni varlı təbəqələr yaranırdı. Bu özünü əhalinin həm yuxarı, həm də orta təbəqəsinin həyat tərzində, dəfn mərasimlərində də göstərirdi. Artıq orta təbəqənin daş tabutu üzərində dini-cadu məzmun daşıyan yazılar həkk olunurdu. Belə yazıların əsasında meydana gəlmiş "Ölülər kitabı" və "Dirilmə kitabı"nda dualar, dini himnlər, tanrılar haqqında şeirlər özünə yer alır. Bu kitablarda dünyasını dəyişmiş adamın sonrakı həyatı haqqında, günahları qarşısında verəcəyi imtahan haqqında fikirlər öz əksini tapmışdır. Həmin əsərlərdə gösərilirdi ki, günah işləməyən adam axirətdə əbədi həyata qovuşa bilər.

Ümumiyyətlə, Misir mifologiyası bütün miflərin

əsasıdır. Qeyd etdiyimiz kimi, fəlsəfi ideyalar dünyagörüş formaları olan ibtidai şüur formaları (animizm, totemizm, fetişizm), magiya, mifologiya, din əsasında meydana gəlmişdir.

Bəşər tarixində fəlsəfə ilk dəfə Qədim Şərq ölkələrində - məhz Misirdə, Babilistanda, Hindistanda, Çində, İranda və Azərbaycanda meydana gəlmişdir. Misirdə və Babilistanda fəlsəfi məktəblər təşəkkül tapmasa da, ilk fəlsəfi fikirlər – teoqonik və kosmoqonik baxışlar burda yaranmışdır. Hələ qədim dövrlərdə insanların baxışları idealist yönümlü olmuşdur. Bu da insanların kortəbii şəkildə dini təsəvvürlərə, miflərə olan inamından doğmuşdur. Müəyyən zamanlardan sonra kortəbii-sadəlövh materialist baxışlar yaranmağa başlamışdır. Quldarlıq quruluşunun inkişafı nəticəsində cəmiyyətdə baş verən ziddiyyətlər qədim Şərq ölkələrində elmi biliklərin rüşeym halında olsa da, bir sıra fəlsəfi ənənələrin, fəlsəfi baxışların və istiqamətlərin formalaşmasına zəmin yaratmışdır. Bu dövrdə Şərqdə, əsasən teoloji, mistik və digər idealist baxışlar geniş yayılmışdır.

Ən qədim elm və mədəniyyət ocaqlarından biri də İkiçayarasıdır (Mesopotamiya). Eyni ənənələr İkiçayarası mədəniyyətdə də özünü göstərir.

E.ə. V minilliyin sonu - IV minillikdə İkiçayarasında Übeyd mədəniyyəti təşəkkül tapmışdır. Bu mədəniyyətdən əvvəl Cənubi İkiçayarasında – Larsda (indiki Senkere), İsində (indiki Bəhriyat), Laqaşda (indiki Tello), Derdə (indiki Bedre), Kişdə (indikiTell-Omeymir), Nippurda (indiki Nuffar) və digər şəhərlərdə oturaq həyat mədəniyyəti mövcud olmuşdur [13, s.50]. İkiçayarasında ilk sivilizasiya

yaradanlar ən qədim Şumerin əkinçiləri və Übeyd sakinləri olmuşlar.

E.ə. IV minilliyin II yarısı Uruk mədəniyyəti ilə səciyyələnir. E.ə. III - II minillikdə İkiçayarasında sinifli cəmiyyət yaranmağa başlamış, ibtidai-icma quruluşundan quldarlıq quruluşuna keçilmişdir. Bununla da ictimai - iqtisadi formasiyanın əmələ gəlməsinə şərait yaranmışdır.

Qədim İkiçayarası mədəniyyəti Cənubi İkiçayarasının erkən əkinçi tayfalarının və şumerlərin nailiyyətləri əsasında yaranmışdır. Şumerlərin ilk mədəniyyət mərkəzi Uruk şəhəri olmuşdur. Uruk mədəniyyəti müstəqil inkişaf yolu keçmiş, Yaxın Şərqin bir çox xalqlarının mədəniyyətinə müəyyən təsir göstərmişdir. İkiçayarası xalqlarının (şumer, akkad, babil xalqlarının) memarlıq, incəsənət, ədəbiyyat, yazı, elmi biliklər sahəsində əldə etdikləri nailiyyətlər Qədim Şərqin bir sıra ölkələrinin mədəni həyatında öz əksini tapmışdır. İlk piktoqrafik (şəkli yazı) yazı Uruk əhalisi tərəfindən hələ e.ə.V minillikdə yaranmışdır.

Arxeoloji qazıntılar zamanı tapılmış gil kitabələrdə İkiçayarası mədəniyyəti əks etdirən siyasi, diplomatik problemlər, insanların əxlaqi-etik keyfiyyətləri, dini təsəvvürləri haqqında mühüm məlumatlar əldə edilmişdir.

Qədim İkiçayarası quldarlıq cəmiyyətinin ideologiyasının əsasını dini təsəvvürlər təşkil edirdi. Dini təsəvvürlər-ibtidai din formaları olan totemizm, animizm və fetişizm ta qədim zamanlardan meydana gəlmiş və əsasən əkinçi tayfalarının həyatında mühüm yer tutmuşdur. Qədim insanın düşüncəsinə görə yerdə və göydə baş verən təbii hadisələr, insanın taleyi və yaşam tərzi, əxlaqi keyfiyyətləri

fövqəltəbii qüvvələrin iradəsi ilə bağlıdır. Zaman heçdikcə həmin qüvvələrə adlar verilmiş, bu və ya digər təbii hadisəni onların adı ilə bağlamışlar. İkiçayarası ərazilərində məskunlaşmış əkinçi icmaları bu və ya digər allahlara sitayiş edirdilər. İlkin dövrlərdə allahlar heyvan şəklində, daha sonralar yariminsan və yarımheyvan şəklində təsəvvür edilirdi. Qorxudan yaranan inam nəticəsində təbiət qüvvələri müqəddəsləşdirilir və onlara tapınırdılar. Hər bir icmanın, qəbilənin özünün ayrı-ayrılıqda himayədarı-tanrısı var idi ki, onlar həmin tanrıya sitayiş edirdilər.

Həmin dövrdə Misirdə olduğu kimi, İkiçayarası dini təsəvvürlərində politeizm, yəni çoxallahlılıq hökm sürürdü. Bu xüsusiyyət ilkin sinifli cəmiyyətdə - quldarlıq quruluşunda da öz nüfuzunu saxlayırdı. İkiçayarası ərazisində vahid dövlət meydana gəldikdən sonra bütün allahları və ibadətləri birləşdirən ümumşumer panteonu yaradıldı.

Şumer əsatirlərində İkiçayarasına xas dinlər və allahlar barədə məlumat öz ifadəsini tapmışdır. Hələ e.ə. III minillikdə yüzlərlə allah qəbul edilirdi. Şumerlərin ilkin təsəvvülərinə görə dünya necə yaranmışdir? Bu sualın cavabına görə, ilk öncə bütün dünya başdan - başa sudan ibarət olmuşdur. Okean suyunun dərinliyində gerçəkliyin “böyük anası” hesab edilən ilahə Nammu, dağın başında “böyük ata” allah An yaşayırmış. Bu iki allahın – Nammu və Anın nigahından allah Enlil (Ellil) dünyaya gəlmiş və onlar bütün dünyanı idarə etmişlər.

Şumerlər axirət dünyasını qəbul edir və o haqda təsəvvürlər yaratmışdılar. Axirət dünyası “geniş ölkə”, yaxud da “geriyə yol olmayan ölkə” adlanırdı. Şumer inancına görə

axirət dünyası zülmət və qaranlıqdan ibarət idi. İnsan öldükdən sonra orada bədəni torpağa dönür, onun başını qurdlar yeyir, susuz və yeməksiz qalır. Bunların baş verməməsi üçün qurbanlar kəsilirdi.

Qədim İkiçayarası əhalisi qədim totem təsəvvürlərini saxlamış, heyvan kultuna sitayiş etmişlər. Ona görə də allahlar müxtəlif heyvanlar şəklində təsvir edilirdilər. Misirdə olduğu kimi, şumer allahları da heyvanların üstündə təsvir edilirdi.

Qədim İkiçayarası xalqları, eyni zamanda qədim ovsun, yuxuyozma, falabaxma formalarını saxlamışdılar. Ovsun vasitəsilə xəstəlikləri, təbiətdə baş verən qeyri-adi hadisələri, bədbəxtlikləri dəf etməyə çalışırdılar.

Misirdə olduğu kimi, qədim İkiçayarasında da ibadət mərkəzləri- məbədlər mövcud idi.

İkiçayarası mədəniyyətində şifahi xalq yaradıcılığı nümunələri olan nağıllar, əfsanələr, əsatirlər, miflər, dastanlar mühüm yer tutur. Bu əbəbiyyat nümunələri şumerlər və akkadlar tərəfindən yazıya alınmışdır. Şumer-akkad əsatirlərində dünyanın meydana gəlməsi, insanın yaranma səbəbləri haqqında fikirlər, allahların mənşəyi, əsas mahiyyəti, əməlləri haqqında ideyalar əks olunmuşdur.

Dünya, insan, allahlar haqqında dini təsəvvürlər sonralar Tövratda, İncildə və Qurani-Kərimdə öz əksini tapmışdır. Şumer əsatirlərində kainatın quruluşu və meydana gəlməsi haqqında kosmoqonik baxışlar, yerin, göyün və insanın yaranması, əkinçilik,bağçılıq haqqında fikirlər yer almışdır.

"Enki və Ninmah" əsatirində insanın tanrılara qulluq etməsi üçün yaradılması, "Dünyanın yaranması haqqında

əsatir"də səmanın mənşəyi, dünyanın quruluşu fikri irəli sürülür.

Qədim şumer ədəbiyyatının əsas nümunəsi olan "Gilqameş haqqında dastan" ("Hər şeyi bilən adamın dastanı") akkad, hurrit və het dillərinə tərcümə edilmiş, hələ qədim zamanlarda geniş oxucu kütləsi qazanmışdır. Bilqameş real tarixi şəxsiyyət olmuş , e.ə. 27-26-cı illərdə uruk dövlətinə başçılıq etmişdir. Burada Bilqameşın qəhrənamlığından, axirət dünyasından, allahların mənşəyindən söhbət gedir. Dastanda insanların ölümə məhkumluğu, allahların isə əbədi həyata malik olması fikri irəli sürülmüşdür. Əsərdə insan taleyi barədə fikirlərə geniş yer verilmiş, bədii və fəlsəfi baxımdan şərh olunmuşdur.

"İnanda və Dumuzi" adlı əfsanədə ölən və dirilən təbiətə ibadət mühüm yer tutur. Əfsanədə insan və cəmiyyətdə baş verən hadisələr, insanların qarlışıqlı münasibətlərində mövcud olan naqis cəhətlər dini obrazda şərh edilmişdir.

Şumer və Akkad əsatirlərinin nadir incilərindən sayılan "Ümumdünya daşqını" əfsanəsində təbiətdə baş vermiş hadisə təsvir edilmişdir. Bu əfsanə allahların insaneların kökünü kəsmək üçün törətdikləri daşqına həsr edilmişdir. Bu, guya Dəclə və Fərat çaylarının daşması nəticəsində böyük faciənin baş verdiyi hadisənin ifadəsidir.

Adını çəkdiyimiz əsatirlərdə, əsasən allahların hakimiyyət uğrunda mübarizəsi, məhsul bolluğu yaratmaq, insanları pis əməllərinə görə cəzalandırmaq və ya xeyirxah işlərinə görə mükafatlandırmaq kimi ideyalar irəli sürülmüşdür.

"Babil qülləsi" əfsanəsində insanların tanrı iddiasında olmasına görə allahların onları cəzalandırması mövzusu önə

çəkilir.

E.ə. 1792-1750-ci illərdə qədim Babilistan dövlətinə hökmranlıq etmiş Hammurapinin siyasi fikirləri "Hammurapi qanunları"nda öz əksini tapmışdır. Hammurapinin siyasəti nəticəsində böyük bir dövlət yaranmışdır. Daxili siyasəti nəticəsində kanal və yollar çəkilmiş, əkinçilik, bağçılıq inkişaf etdirilmiş, sənətkarlığa və ticarətə önəm verilmişdir. Hammurapi vahid qanunlar külliyyatını yaratmışdır. Həmin qanunlarda iqtisadi-siyasi, ictimai-sosial fikirlər öz əksini tapmışdır. Qanunlar toplusunda göstərilir ki, güclü gücsüzə zülm etməməli, yetimə ədalətlə davranmalıdır. Həmin qanunlarda əmək haqqının miqdarı, cinayət, azad insanlar və qullar, hərbçilər, tacirlərlə əlaqədar maddələr müəyyənləşdirilmişdir [13, s.110].

Öncə qeyd etdiyimiz kimi, şumerlər əsatir və əfsanələrdə dünya haqqında, insan haqqında, tanrılar haqqında mövzulara geniş yer versələr də, fəlsəfi təlim yaratmamışlar. Eyni zamanda, etika haqqında fikirlərə ayrı - ayrı əsərlərdə rast gəlsək də, etik təlimləri olmamışdır. Şumer dünyagörüşünə görə allahlar insanları öz istəklərinə əsasən yaratmışlar. İnsanlar ölümə məhkumdurlar. Allahlar isə əbədidirlər. Şumer əsatirlərində iradə azadlığı probleminə toxunulmamış, hər şeyin allahlardan asılı olduğu fikri irəli sürülmüşdür. Buna baxmayaraq, həqiqət və xeyirxahlıq, qanun və qayda, ədalət və azadlıq, mərhəmət və s. bu kimi yüksək keyfiyyətlər şumer mifologiyasının əsasını təşkil edir. Eyni zamanda pis əməllər, yalan, oğurluq, əxlaqsızlıq, riyakarlıq kimi mənfi keyfiyyətlər rədd edilir.

Bir sözlə, bəşəriyyətin ümumi mədəni inkişafında

qədim Şumer xalqının xidmətləri əvəzsizdir. Şumer mədəniyyətinin bu və ya digər ünsürlərinin Azərbaycanın şifahi xalq yaradıcılıq nümunələrinə təsiri özünü göstərməkdədir. Ona görə də şumer mədəniyyətinin öyrənilməsi, tədqiq edilməsi və mənimsənilməsi vacib məsələlərdən biridir.

Ümumiyyətlə, həm Şərq, həm də Qərb fəlsəfə tarixinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Təqdim etdiyimiz dərs vəsaitində tələbələrə kömək məqsədi ilə Uzaq Şərqdə fəlsəfə tarixinə dair problemləri əhatə etməyə çalışmışıq, eyni zamanda Misirdə və Babilistanda təşəkkül tapmış fəlsəfi fikirlər, Hindistanda və Çində meydana gəlmiş fəlsəfi məktəblər haqqında mövzuları işıqlandırmağa səy göstərmişik.

Şərq fəlsəfəsi tarixi xüsusi predmetə malik fənn kimi öyrənilir. Qədim dövrdən başlayaraq yeni və ən yeni dövrə qədər bu fənn geniş şəkildə tədris olunur. “Şərq fəlsəfəsi tarixi” kursunda Misir, Babilistan, İran, Azərbaycan, Hindistan, Çin fəlsəfəsindən başlayaraq, orta əsrlərin və yeni dövrün şərq fəlsəfi məktəbləri, cərəyanları, xüsusilə ayrı - ayrı mütəfəkkir və filosofların fəlsəfi görüşləri təhlillər əsasında öyrənilməli və tələbələrin diqqətinə çatdırılmalıdır.

Fəlsəfə tarixi bəşəriyyətin mənəvi həyatı, mədəni inkişafının mühüm tərkib hissəsi kimi dəyərləndirilməli və tədqiq edilməlidir. Ümumbəşəri xarakter daşıyan sivilizasiyaların əsasını din və ənənələr təşkil edir ki, bu da cəmiyyətin həyatında, xalqların tarixi və mədəniyyətində böyük rol oynamışdır. Dinlərin beşiyi Şərq dünyası olduğu üçün fəlsəfə tarixinə Şərq dinləri və mədəniyyətləri kontekstindən yanaşmaq lazımdır.

Əsas xüsusiyyətlərindən biri kimi Şərq, tarixən Qərbə nisbətən daha çox dinə və ənənəyə bağlı olmuşdur. Qədim Şərq fəlsəfəsi ümumbəşəri fəlsəfənin mühüm və əsas sahəsini təşkil edir.

Qədim Şərq tarixi eradan əvvəl IV - III minilliklərdən eramızın IV - V əsrinə qədərki dövrü əhatə edir. Bəşər tarixində ilk dövlətlər həmin dövrlərdə burada meydana gəlmişdir. Qədim sivilizasiyalar yerini digər sivilizasiyalarla əvəz etdikcə, yeni dövlətlər, mədəniyyətlər yaranmış, fəlsəfi - dini cərəyanlar, təlimlər və məktəblər fəaliyyət göstərmişdir.

Şərq fəlsəfəsi öz ecazkarlığı ilə seçilir. Fəlsəfi fikrin formalaşması yüzilliklərə dayanan bir prosesdir. Ayrı-ayrı filosofların, mütəfəkkirlərin fəlsəfi irsini izləməklə fəlsəfə tarixinin mürəkkəb bir elm olduğu qənaətinə gəlirik. Yetmiş illik bir dövrə dayanan sovetlər birliyində fəlsəfə, əsasən marksizm-leninizm mövqeyindən öyrənilirdi. Bu gün müasir Azərbaycan öz müstəqillik yoluna qədəm qoymuşdur. Ona görə də nəinki Şərq xalqlarının fəlsəfəsini, həmçinin Azərbaycan fəlsəfəsi tarixini dərindən tədqiq etmək və gələcək nəslə çatdırmaq ən ümdə vəzifələrdən biridir.

## Müstəqil iş üçün suallar

1. Fəlsəfə tarixinin predmeti
2. Fəlsəfəyəqədər mövcud olmuş dünyagörüş formaları
3. Fəlsəfi ideyaların meydana gəlməsi
4. İlk fəlsəfi baxışların beşiyi
5. Qədim Misirdə və Babilistanda fəlsəfi ideyaların meydana gəlməsi

6. Ümumdünya fəlsəfəsi tarixində Şərq fəlsəfəsinin yeri və onu öyrənməyin əhəmiyyəti

**Tapşırıq**

a) Şərq fəlsəfəsinin səciyyəvi xüsusiyyətləri nədən ibarədir:

- ənənəviliyin qorunub saxlanması;
- aforizmlərə üstünlük verilməsi;
- eyniliyə meyl;
- fərdiliyin ümumi ənənədə əridilməsi cəhdləri;
- insan probleminin cəmiyyətlə vəhdətdə tədqiq edilməsi.

Fəsil 2

# Qədim hind fəlsəfəsi

## 1. Hindistanda fəlsəfi fikrin təşəkkülü və inkişafı

Hindistan dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biridir. Dünyanın gənc dövlətlərindən olmasına baxmayaraq, Hindistanın qədim və müasir mədəniyyətləri arasında bir əlaqə və vəhdət vardır. Bu ondan irəli gəlir ki, hind xalqı öz tarixinə, mədəniyyətinə, maddi və mənəvi dəyərlərinə, adət və ənənələrinə
olduqca sadiqdir.

Dörd minilliyə dayanan hind sivilizasiyası ideyalar imperiyası şəklində təzahür etmişdir.

Hindistanın özünəməxsus, ecazkar təbiəti, əlverişli ərazidə yerləşməsi, bu mədəniyyətin inkişafına zəmin yaratmışdır. Zəngin təbiətə malik olan Hindistan yaşıl meşələri, müxtəlif növ heyvan və bitkiləri ilə seçilirdi.

E.ə. V əsrdə yaşamış qədim yunan tarixçisi Herodot "Tarix" kitabında yazır: "Şərqdə ən uzaq ölkə Hindistandır. Digər ölkələrə nisbətən orada çoxsaylı dördayaqlı heyvanlar və quşlar, həm də kəmiyyətcə cox qızıl yataqları vardır. Yabanı bitkilərin barı yun verir ki, bu da gözəlliyinə və keyfiyyətinə görə qoyun yunundan daha üstündür. Hindlilər geyimlərini bu "ağac yunu"ndan hazırlayırlar" [58, s.39].

Hind və Qanq çayları vadisində məskunlaşmış icma və tayfalar hələ e.ə. V-IV minilliklərdə əkinçilik və maldarlıqla məşğul olmuş, oturaq həyat tərzinə keçmişlər. Artıq

eradan əvvəl üçüncü minillikdə şəhərlər təşəkkül tapır, siyasi-mədəni mərkəzlər yaranır.

Eradan əvvəl 2300-1700-cü illərdə Mohenco-Daro və Harappa mərkəz-şəhərlər inkişaf edir. Arxeoloji qazıntılar zamanı Mohenco-Daro və Harappada dörd yüzdən çox piktoqrafik (şəkli yazı) yazı nümunələri aşkarlanmışdır. Burada, həmçinin allahların, ov səhnələrinin təsvirləri də tapılmışdır. Eradan əvvəl ikinci minilliyin ortalarından etibarən Harappa mədəniyyəti zəifləyir və öz yerini arilərin gətirdiyi mədəniyyətlə əvəz edir. E.ə. ikinci minilliyin ikinci yarısından etibarən Hindistanda hind-ari tayfaları məskunlaşmış və öz mədəniyyətlərini bu ərazilərdə yaymışlar.

Artıq e.ə. birinci minilliyin birinci yarısında Hindistanda dövlət yaranır və hind-ari birliyi meydana çıxır. Hind cəmiyyətində dörd sosial təbəqə - kastalar formalaşır: brahmanlar, kşatrilər, vayşılər, şudralar.

Ən ali təbəqə hesab olunan brahmanlar - kahinlər təbəqəsi din xadimləri idi. Kşatrilər- zadəgan hərbçilər təbəqəsini təşkil edirdilər. Vayşilər isə mülkədarlardan, sənətkarlardan, tacirlərdən və əkinçilərdən ibarət hind cəmiyyətinin tam hüquqlu azad və imkanlı təbəqəsi sayılırdı. Sonuncu təbəqə isə şudralar hesab edilirdi ki, onlar özündən əvvəlki üç təbəqəyə tabe idilər. Brahmanlar və kşatrilər tədricən hakim mövqe tutmuş və cəmiyyətin nüfuzlu, aparıcı qüvvəsinə çevrilmişlər.

Qədim hind tarixi arxeoloji qazıntılar zamanı tapılmış maddi mədəniyyət və xalq yaradıcılığı nümunələri əsasında öyrənilir.

Hindistan elə bir ərazidə yerləşirdi ki, zəngin və

rəngarəng təbiəti mədəni inkişaf üçün bir imkan rolunu oynayırdı. Oturaq həyat tərzinə keçmiş hindlini artıq şeylərin mahiyyəti haqqında fikirlər düşündürürdü.

Hindistanda maddi məndəniyyət nümunələri ilə yanaşı zəngin mənəvi mədəniyyət nümunələri də aşkarlanmışdır. Dünya haqqında, insan haqqında, aləm haqqında fikirlər öz əksini əsatirlərdə, miflərdə, dastanlarda tapmışdır. Qədim hind yazılı abidələrinin əksəriyyəti sanskrit (Sanskrit-“cilalanmış, qaydaya salınmış, qüsuru olmayan” deməkdir) dilində yazıya alınmış və günümüzə qədər gəlib çatmışdır.

Hind mifologiyasının əsasını “Riqveda”, “Mahabharata”, “Ramayana”, “Vişnu-purana”, “Yaranış haqqında əsatir” və s. təşkil edir.

Hindistanda ən mühüm ədəbi əsərlər “Mahabharata” və “Ramayana” eposlarıdır. Bu əsərlər, təqribən e.ə. birinci minilliyn ikinci yarısından etibarən yaranmağa başlamışdır. Həmin əsərlərdə allahların adları haqqında, şəhərlər və xalqlar haqqında fikirlər öz əksini tapmışdır. Həmin əsərlərdə əfsanələr və miflər də geniş yer almışdır.

“Mahabharata” qəhrəmanlıq dastanı olub, burada xeyirxahlıq və bədxahlıq, məhəbbət, xəyanət, riyakarlıq, ikiüzlülük, inam, cəsurluq, igidlik kimi insana xas ziddiyyətli keyfiyyətlər əks olunmuşdur. “Ramayana” erosu “Mahabharata”ya nisbətən kiçik həcmli dastandır. Burada tarixilik baxımından daha qədim dövrləri əks etdirən hadisələr təsvir edilmişdir. Bu dastanlarda mənəvi meyllərlə yanaşı, fəlsəfi fikirlər də ifadə olunmuşdur [10, s.298].

Hindistanda böyük əhəmiyyət kəsb edən yazılı mənbələrdən biri də “Manu-

smriti”dir. “Manu-smriti”, eyni zamanda “Manu-samhit” və “Manu qanunları” kimi də məşhurdur. “Manu qanunları” eradan əvvəl ikinci əsr, eramızın ikinci əsrini əhatə edən dörd yüz illik dövr ərzində yaranmışdır. Manu qanunları bəşəriyyətin əfsanəvi ənənələrini əks etdirərək öz ictimai, dini və mənəvi borcunu yerinə yetirən Manu tərəfindən yazılmışdır. Manu qanunları sosial-siyasi və tarixi əhəmiyyət kəsb edir. Lakin vayşnavizm və şivanizm kimi ənənəvi dinlərin yayıldığı bir zamanda Manu qanunları geniş yayılmasa da, sonrakı dövrlərdə nəzər-diqqəti cəlb etmişdir.

“Manu qanunları”nda cəmiyyətin sosial təbəqələrə bölünməsi məsələsi, hökmdarın siyasi, iqtisadi, hərbi sahədəki apardığı işlər barədə, ailədə ailə hər kəsin vəzifəsi, dövlət idarəçiliyi və s. haqda məlumat verilirdi. Eyni zamanda, qanunlarda “Ümumdünya daşqını” və dünyanın yaranması barədə də fikirlər öz əksini tapmışdır.

Manu qanunlarında qadına münasibət mühüm yer tutur. Ümumiyyətlə, qədim hind qanunlarında qadına uşaq kimi baxılırdı. Qadın əvvəl atasının, sonra ərinin, daha sonra oğlunun himayəsində olmalıdır. O, heç vaxt tək yaşaya bilməz və təkbaşına öz qayğısına qala bilməzdi [58, s.176].

Eradan əvvəl 80-cı ildə yazılmış “Tipitak” (“Üç səbət”) adlı əsərdə buddizmin tarixi, Budda kahinlərinin davranış qaydaları, Budda tərəfindən qəbul olunmuş dini ayinlər, mərasimlər haqqında, Buddanın həyatı və onun şagirdləri barədə geniş məlumat verilir.

Tədricən, zaman keçdikcə mifik-dini təsəvvürlər, ilkin kosmoqonik, teoqonik baxışlar yeni dünyagörüş forması ilə - fəlsəfi baxışlarla əvəz olunur. Qədim Hindistanda

fəlsəfə miflərin, əsatirlərin, epik poemaların, ədəbi-dini külliyyat olan Vedaların əsasında meydana gəlmişdir. Fəlsəfə hər hansı bir elmə və ya incəsənətə əlavə kimi deyil, müstəqil dünyagörüş forması kimi yaranıb inkişaf etmişdir. Qərbdə, antik dövrdə yunan filosofları Platonun və Aristotelin dövründə fəlsəfə siyasət və etika elmlərinin tərkib hissəsi kimi çıxış edirdisə, Hindistanda, əksinə olaraq, müstəqil inkişaf yolu keçmiş, digər elmlər ona müraciət etmişdir.

Mənəviyyat hindli həyatının əsasını təşkil edir. Hind fəlsəfəsini insanın həyat tərzi maraqlandırmışdır ki, bu da bünövrəsini real həyatdan götürmüşdür. Çox zaman hind sivilizasiyasını brahmanizm sivilizasiyası adlandırırlar. Bu sivilizasiya mütəfəkkir-filosoflar və din xadimləri sayəsində formalaşmışdır. Hind təfəkkür tərzi dini ehkamları ilə deyil, rasional sintezi ilə fərqlənir. Hindistanda bütün dini hərəkatlar fəlsəfi məzmun daşıyır. Bu baxımdan qədim hind fəlsəfəsi öz orijinallığı ilə seçilir.

Qədim Hind fəlsəfi fikri üç əsas inkişaf mərhələsi keçmişdir:

I dövr – veda dövrü e.ə. XV-VI əsrləri əhatə edir;

II dövr – epik dövr e.ə. VI-II əsrləri əhatə edir;

III dövr – sutralar dövrü e.ə. II və eramızın VII əsrlərini əhatə edir.

Birinci dövrə nəzər salsaq görərik ki, Hindistanın e.ə. ikinci minilliyin sonu, birinci minilliyin ortalarını əhatə edən tarixi, mədəni-siyasi həyatı Vedalar adlanan ədəbi-dini yazılar əsasında tədqiq edilmişdir. Vedalar qədim hind əsatirlərinin, dinlərinin, mədəniyyətinin əsas mənbəyi hesab edilir.

Veda sanskritcə “Bilik, biliklər toplusu” deməkdir. Vedalar İrandan, Orta Asiya və Volqaboyundan Hindistana köç etmiş hind-avropa mənşəli ari tayfaları tərəfindən yaradılmış ədəbi - dini külliyyatlar toplusudur. Dini nəğmələr, dini ayinlər, mərasimlər haqqında qaydalar, qurbanvermə duaları, dini himnlər və ovsunlar burda öz əksini tapmışdır. Veda ədəbiyyatında aləmin yaranışı və dünyanın təbiəti haqqında fəlsəfi problemlər də yer almışdır. Qədim yunan dünyagörüşündə olduğu kimi, veda mütəfəkkirləri kimi ilkin elementləri – suyu, havanı, alovu və sairəni şeylərin əsası hesab edirdilər. Onlar hesab edirdilər ki, zamanın gücü sayəsində dünya sudan yaranmışdır.

Veda dininin tənqidçiləri göstərirdilər ki, vedalarda şər haqqında fikirlərə dərin yer verilmir. Axi insan səhv edir və günah işlər görür. Bu isə tanri qanunlarına qarşı gəlmək deməkdir. Tanrılar yer üzərində əxlaq qaydalarının qoruyucusudurlar. Əgər insanlar tanrıları qəbul etməzlərsə, onda nələr baş verər? Göylər xeyir əməllərin təcəssümü olduğu üçün, onda bəd əməl sahibləri, şəri törədənlər Səmaya ucala bilməzlər. Ona görə də mütləq şəkildə cəhənnəm mövcud olmalıdır ki, bədxahlar cəzalandırıla bilsinlər. Buradan belə nəticə çıxır ki, Veda ardıcılları axirət dünyasına inanır və onu qəbul edirdilər.

Vedalar dörd külliyyatdan - samhitlərdən, brahmanlardan, aranyaklardan, upanişadlardan ibarətdir. Vedalar külliyyatının əsas hissəsi olan samhitlər müqəddəs yazılar, dini himnlər toplusudur. Samhitlər, öz növbəsində dörd məcmuədən ibarətdir: Riqveda, Samaveda, Yacurveda, Atharvaveda. Vedaların ən qədimi “Riqveda”dır ki, təqribən e.ə.

1200-ci illərdə yaranmışdır. “Riqveda” himnlər kitabıdır. Burada ari tayfalarının ilkin dünyagörüşü, dini təsəvvürləri və hind-avropa birliyini ifadə edən əsas cəhətləri öz əksini tapmışdır. “Riqveda”da dünyanı idarə edən tanrıların – Ata-Dyaus və ana-Prithivinin şəninə dualar və dini nəğmələr cəmlənmişdir [10, s.300].

“Riqveda” brahmanizmin müqəddəs kitabı hesab edilir. Burada dini himnlərin yaranması tarixi, sonrakı mərhələdə yeni variantların meydana çıxması məsələlərinə diqqət yetirilmişdir. “Riqveda” ilə zərdüştliyin müqəddəs kitabı olan “Avesta” arasında ortaq cəhət ondan ibarət olmuşdur ki,hər iki kitabda Soma kultu əsas yer tutur. Hər iki kitabda Soma uca dağ başında bitən, qartalların gətirdiyi bitkilərin hökmdarıdır.

Veda ədəbiyyatının ən qədim, əsas hissəsi və ilk nümunəsi hesab edilən “Riqveda”da, həmçinin insanların animist baxışları da təsvir olunmuşdur.

“Samaveda”da (saman-“nəğmə” deməkdir), əsasən Riqveda mətnləri toplanmış, onların tələffüz qaydaları izah edilmişdir. “Samaveda”da atəşə qurbanvermə ayinləri və qaydaları yerinə yetirilərkən oxunan nəğmələr öz yerini tapmışdır.

Digər veda hesab edilən “Yacurveda”da da qurban-vermə duaları öz əksini tapmışdır. Yacurvedanın sonrakı dövrlərdə “Qara Yacurveda” və “Ağ Yacurveda” kimi variantları da meydana gəlmişdir.

Hər iki vedada, yəni həm Samavedada, həm də Yacurvedada qurbanvermə mərasimləri haqqında məlumat verildiyi üçün, çox zaman “Qurbanvermə

vedaları” da adlandırılır [5, s.44].

Sonuncu veda Atharvavedadır (Atharvan-ilk mifik od kahinin adıdır). Atharvaveda ovsunlar toplusu olub, vedalarda mühüm yer tutur. Atharvavedada ovsunlar, şər qüvvələr əsas yer tutduğu üçün hindlilər tərəfindən rəğbətlə qarşılanmırdı. Hindlilər onları vedalara daxil etməkdən imtina edirdilər.

“Atharvaveda”da zahidlik məqamına önəm verilir və qeyd edilir ki, zahidlik həyat tərzi dünyanı xilas edəcək, onu dəyişdirəcək və dağılmaqdan qoruyacaq. Ən ali zahidlik məqamına çatmış insan tanrılardan da güclü hesab edilirdi. Bu kitabda təsvir edilən Vena tanrısı ən güclü tanrıdır və hər şey ondan əmələ gəlir. Kitabda zaman tanrısı kimi Kala, məhəbbət tanrısı kimi Kama, həyat tanrısı kimi Skambha təsvir edilir. Bu tanrılar arasında Brahman fərqlənir və birinci yerdə dayanır. Sonralar vedaların dinini brahmanizm əvəz edir [6, s.20].

Eradan əvvəl 800-600-cü illərə aid edilən brahmanlar Vedaların tərkib hissəsi olub, kahinlər tərəfindən yazılmışdır. Brahmanlarda dini mərasimlər və onlar haqqında izahat verilir. Hind ədəbiyyatının ən qiymətli nümunələrindən olan brahmanlar nəsr şəklində yazılmış dini kitablara aid edilir. Brahmanlar hind cəmiyyətində meydana gələn silki fərqlərin yaranması ilə səciyyələnir. Həmin dövrdə kahin-brahmanların nüfuzu artır və cəmiyyətin əsas qüvvəsinə çevrilir. Zaman keçdikcə dini ayinlərin, dini mərasimlərin icraçı forması mürəkkəb şəkil aldığından belə əsərlərin yaranmasına ehtiyac duyulurdu. Qurbanvermə ayininin sonrakı mənası dəyişmiş və verilən qurbanların

əvəzi olaraq insanların allahlar tərəfindən ehtiyaclarının ödənilməsi tələbi kimi yeni forması yaranmışdır. Samhitlərdən sonra yaranmış brahmanlar məzmununa görə rəngarəng olub, burada həm dini, həm astronomik, həm də, rüşeym halında olsa da, fəlsəfi fikirlər öz əksini tapmışdır. Əsərdə dünyanın yaranması haqqında fikirlərə də rast gəlinir.

Brahmanlar sonralar Brahmanizm adı ilə yayılan yeni din yaratmışdılar ki, onların da əsas baş allahları Brahman idi. Bu din vedalarda da əks olunmuşdur. Bu dinə görə allah-Brahman öz-özünə mövcud olan, yaradıcı allahdır. Brahmanizmdə həyatın dörd mərhələdən ibarət olması fikri irəli sürülmüşdür. Bu mərhələlər şagird, ailə başçısı, zahid və dərviş (sərgərdan) timsalında nəzərdən keçirilir. İlk iki mərhələni keçmiş insan evini tərk edir və meşəyə üz tutur, orada zahidlik həyatı keçirir [10, s.326].

Özünü cəmiyyətdən təcrid edərək tərkidünya həyat tərzi keçirən insan zahidlik həyatında "Aranyaklar"ı ("Meşə kitabları") oxuyaraq qurbanvermə haqqında qaydaları, tərkidünyalığın əsas mahiyyətinin nədən ibarət olduğunu öyrənir. Ümumiyyətlə, Vedaların üçüncü hissəsi olan "Aranyaklar" mistik xarakter daşıyır [5, s.45].

Vedaların sonuncu hissəsi olan upanişadlar dini-mifoloji baxışlardan fəlsəfəyə keçiddir. Bəzən upanişadları veda-anta və ya vedaların sonu da adlandırırldr. Upanişadlarda veda təliminin əsas mahiyyəti ifadə olunmuşdur.

Upanişad – "upa ni şad" sözündəndir, mənası yanında oturmaq mənasını verir. Şagird müəlliminin yanında oturaraq ondan Həqiqi Reallıq haqqında bilikləri mənimsəyir,

müqəddəs yazıların mənasını öyrənir [56, s.113].

Təxminən iki yüzə qədər upanişad mətnləri məlumdur ki, bunlardan "Aytareya-upanişada", "Kauşitaki-upanişada", "Tayttiriya-upanişada", "Çxandoqya-upanişada", "Kena-upanişada", "Katxa-upanişada", "İşa-upanişada", "Mundaka-upanişada" və s. misal göstərmək olar [10, s.327].

Upanişadlar dini-fəlsəfi məzmun daşıyır. Burada insanın həqiqi təbiətinin dərk edilməsi məsələsi mühüm yer tutur. Eyni zamanda, Vedaların əvvəlki hissələrində olduğu kimi, upanişadlarda da qurbanvermə ayinlərinə diqqət yetirilir və göstərilir ki, qurbanvermə mərasimləri insanın özü-özünü dərk etməsi məqsədilə həyata keçirilir. İnsan həyatının özü qurban verməden ibarətdir. Həqiqi qurban, elə insanın özüdür. Əvvəllər brahmanlar tərəfindən təqdim olunan veda himnlərinin sadə dinləri dövründə həyat tərzi qurban verməlerlə təcəssüm olunurdu. Bu dini qaydalar, dini ayinlər insanlarla allahlar arasındakı əlaqəni formallaşdırırdı. İnsanın bir məqsədi var idi: nəyisə vermək, əvəzində nəyisə almaq. Bu, bir növ insanlarla allahlar arasında ticarət rolunu oynayırdı. Upanişadlarda isə vəziyyət tam başqa şəkil alır, mənəvi həyatın yeni forması ortaya çıxır. Burda göstərilir ki, insan qurbanverməlerlə deyil, gerçəkliyin dərk olunmasına yönələn həqiqi dini biliklər vasitəsilə ruhunu azad edə bilər. İnsan xarici aləmi ilə deyil, mənəvi dünyası ilə kamilləşə bilər [56, s.121].

Ümumiyyətlə, upanişadlarda müxtəlif problemlərə toxunulmuş, dini, hüquqi, etik, estetik, fəlsəfi fikirlər geniş yer almışdır. Bu mətnlərdə həm materialist, həm də idealist yönümlü fəlsəfi ideyalara rast gəlmək olur. Upanişadlar uzun

bir dövr ərzində yaranmışdır. Qədim upanişad mətnlərində ilk sadə dini-əxlaqi məsələlər yer alsa da, sonrakı upanişadlarda artıq fəlsəfi problemlər – dünya haqqında, allahlar haqqında, insan və onun dünyanı dərk etməsi haqqında, insan-kosmos, insan-tanrı arasındakı əlaqə haqqında fikirlər önə çəkilir. Dünyanın ilkin əsası, müqəddəs başlanğıcı, qurbanvermələr haqqında fikirlər Vedaların əsas hissələri olan Samhitlərdə, Brahmanlarda, Aranyaklarda öz ifadəsini tapsa da, upanişad mətnlərində daha geniş yer almış və fəlsəfi mövqedən araşdırılmışdır.

Müqəddəs Veda mətnlərində sadəlövh fikirlər daha mürəkkəb fikirlərlə əvəzlənmiş, yeni kateqoriyalar yaranmışdır. Artıq sadə dini-mifik görüşlər fəlsəfi ideyalar əsasında inkişaf etdirilmiş, gerçəkliyin əsasında duran ilkin başlanğıc haqqında fikirlər ciddi şəkildə şərh edilmişdir.

Sonrakı mərhələdə Upanişad mətnlərində fəlsəfəyə geniş yer verilir. Upanişad fəlsəfəsində iki mühüm məsələ - metafizik və etik problemlər diqqət mərkəzində dayanır. Metafizika sahəsində ilkin reallıq, dünyanın təbiəti və gerçəkliyin yaranması, inkişafı məsələləri nəzərdən keçirilir. Fərdin taleyi, həyatı, idealları, karmasından azad olması səyi barədə problemlər isə etika bölməsində öyrənilir.

Upanişad fəlsəfəsində “Brahman” və “Atman” kateqoriyaları mühüm yer tutur. Qədim hind fəlsəfəsində “brahman” anlayışı, əsasən üç mənada işlənir: birincisi; brahman-kahin, din adamı mənasında, ikincisi; brahman-veda ədəbiyyatı nümunələrindən biri kimi; Brahman-tanrı adlarından biri kimi.

Hind panteonunda minlərlə tanrı və tanrıca adları

qəbul edilsə də, üç əsas tanrı – Brahman, Şiva və Vişnu qəbul edilir. Brahman-yaradıcı, Şiva-dağıdıcı, Vişnu-qoruyucu tanrılar hesab edilir.

Brahman Veda tanrılarından biri kimi bu cür xarakterizə olunur: Brahman yekcinsdir, cismani və qeyri-cismanidir, hərəkətdədir və həm də hərəkətsizdir, müvəqqəti və ya əbədidir, sonlu və ya sonsuzdur.

Atman anlayış kimi bir neçə mənada izah edilir: atman bədəndir və ya ümumi ruhdur, insan nəfəsidir və ya mənəvi vəziyyətdir. Upanişadlarda isə atman "mən" anlayışı ilə təsdiqlənir. Bu mətnlərdə Atman və ya "mən" problemi mühüm yer tutur. İnsan "mən"inin təbiəti nədən ibarətdir? Upanişadlarda deyilir ki, insanın "mən"i günahlardan, ölüm və kədərdən, aclıq və susuzluqdan azaddır. "Mən" upanişadlarda nəzərdən keçirilən əsas məsələlərdən biridir.

Upanişad dünyagörüşünə görə Brahman-Atman obyektiv və subyektiv, kosmik və psixik başlanğıclardır. Brahman özü Atmandır. Ali mən səbəbiyyət hüdudlarını aşanda Brahmana, özü-özünü dərk edəndə İşvaraya çevrilir. Brahman-Atman anlayışları belə xarakterizə olunur:

*Subyekt (Atman):*

- bədən örtüyü olan "mən"dir (vişva);
- cana, nəfəsə malik olan "mən"dir (taycasa);
- intellektə malik olan "mən"di (pracna);
- intuisiyaya malik olan "mən"dir (turiya).

*Obyekt (Brahman):*

- Kocmos (Vayşvanara);
- Dünya ruhu (Xiranyaqarbxa);
- Özünüdərk (İşvara);

- Ananda (Brahman).

Brahman metafizik mücərrədlik, qeyri-müəyyənlik, sükunətlilik deyil, əksinə bütöv və real bir varlıqdır [56, s.142].

İlk başlanğıc olan Brahman-Atman substansiyasından insanlar və predmetlər meydana gəlir. Brahman özündə kainatı yaradır. İnsan öləndə yenidən Brahman-Atmana qovuşur. İnsan həyatının əsas mənası onun karmasından asılıdır. İnsan öz yaxşı və ya pis əməllərinə görə karmasını yaradır. Lakin insanın Alidən müəyyən edilmiş həyatı isə dharma adlanır [5, s.48].

Upanişad mətnlərində ruhların köçməsi ideyası da mühüm yer tutur. İnsan öldükdən sonra ruh yeni bədənə köçür. İnsan əməllərinə görə yaxşı və ya pis karmasını yaradır. O, karmasına əsasən yeni həyatda və yeni bədəndə həyatına davam edir. Pis karması olan insan daim əzaba düçar olur. Ona görə də insan elə bir karma yaratmalıdır ki, gələcək həyatında yaxsı əməllərinə görə mükafatlandırılsın.

Vedalar dövründə yaranmış upanişadlar hinduizmin şərhi olan nəzəriyyələrdən ibarətdir. Burda, eyni zamanda Brahman-Atman eyniyyəti, sansara və mokşa anlayışları haqqında məsələlər öz əksini tapmışdır.

Hind fəlsəfəsinin əsas anlayışları bunlardır: karma, sansara, mokşa, duqha, dharma, nirvana.

Karma - sanskrit dilində *pali kamma* – hərəkətdə olmaq deməkdir. Karma insanın şüurlu şəkildə və öz iradəsi ilə (yaxşı və ya pis əməllərinə görə) həyat yolunu seçməsi qanunudur.

Sansara - sanskritcə dolaşmaq, gəzmək deməkdir,

karma ilə məhdudlaşmış ruhun daim dövr etməsi, bir bədəndən digər bədənə köçməsidir.

Mokşa isə qurtuluş yoludur, ruhun sansaradan azad olması yoludur.

Duqha iztirab, narazılıq deməkdir. Duqha insanın biliksizliyindən doğur. Duqhadan yalnız ağlı hisslərdən azad etdikdə qurtulmaq olar.

Dharma isə düzgün davranış qaydasıdır. Dharma hər bir insanın Alidən (yuxarıdan) müəyyənləşdirilmiş həyat tərzidir.

Nirvana - sanskrit dilindən tərcümədə “odun sönməsi” deməkdir. Buddizmdə nirvana sansaraya əks haldır. İnsan sansaradan azad olur və bir daha geri qayıtmır. Bu, əslində nicat yoludur, ilahiyə yetişməkdir.

Qədim hind fəlsəfənin inkişafının ikinci dövrü, əvvəl də qeyd etdiyimiz kimi, epik dövr adlanır. Bu dövr e.ə. VI-II əsrləri əhatə edir. Həmin dövrdə iki poema - “Mahabharata” və “Ramayana” yaranır. Həmin poemalarda dövrün fəlsəfi problemləri öz əksini tapmışdır. Bu dövrdə, eyni zamanda vedaların nüfuzunu qəbul edən altı fəlsəfi məktəb və vedalara əks olan üç fəlsəfi təlim yaranmışdır.

“Mahabharata” və “Ramayana” eposlarında yer alan hadisələr hələ veda dövründə, arilərin Qanq vadisində, Dehlidən Benaresə qədər yerləşdikləri zamanda, təqribən e.ə. VI əsrdə cərəyan etmişdir. Vedalar həmin dövrdə qaydaya salınmış və sistemləşdirilmişdir. Epik əsər olan “Mahabharata”nın yaranması tayfalararası müharibələrin baş verdiyi vaxta təsadüf edir.

“Ramayana”da isə təqribən e.ə. II əsrdə arilərlə

hindlilər arasında gedən müharibələr əks olunmuşdur. Bu əsr ağlın əhəmiyyətinin aydın başa düşülməsi, məşhur filosofların fəaliyyəti dövrü kimi dəyərləndirilir. Bu əsr, eyni zamanda insanların daxili və xarici aləminin dərk edilməsində ziddiyyətli fikirlərin yaranması dövrüdür. Bu, həmçinin çarvakların və buddistlərin, elm və sehirbazlığın, inam və skeptisizmin, asketizmin geniş yayıldığı dövrdür. Bu dövrdə intuisiya yerini təcrübəyə, din isə fəlsəfəyə verir. Dövlətin tənəzzülü və ictimai həyatın zəifləməsi, bu dünyaya olan ümidin itməsi, insanın öz gücünə belə inanmaması fərdin diqqətini öz ruhunu və emosiyalarını öyrənməyə yönəldir.

İlkin epik dövrdə yeni ideya istiqamətləri meydana çıxır, məntiqi və dini sistemlər geniş yayılır [56, s.228].

Həm "Mahabharata"da, həm də "Ramayana"da Mütləq Varlıq kimi Vişnu qəbul edilir. Vaxtaşırı kosmik dövrlərin böhranı zamanı Vişnu yer üzərinə zühur edir və onu bəlalardan xilas edir. "Mahabharata"da Vişnu Vyasa, "Ramayana"da isə Rama simasında zahir olur.

"Mahabharata" dastanında qəhrəmanlıq, xeyirxahlıq, məhəbbət, inam kimi müsbət keyfiyyətlərlə yanaşı, qorxaqlıq, nifrət, bədxahlıq, paxıllıq kimi insan əxlaqına zidd ünsürlər də ifadə olunmuşdur. Müqəddəs kitab olan "Bhaqavad-gita" "Mahabharata"nın bir hissəsidir. "Bhaqavad-gita" dialoq şəklində yazılmış, Krişna və onun dostu Arcunadan bəhs edir. Kitabda Krişna dostu Arcunaya əbədiliyi dərk etmək bacarığını aşılayır. Arcuna tanrıya təmənnasız xidmət etməli, pis əməllərdən uzaq olmalıdır. Krişna Tanrı-Ali Şəxs, Bhaqavandır. Krişna "Bhaqavad-gita"nı Arcunaya danışır. Arcuna bundan sonra Krişnanı Ali Brahman kimi qəbul edir.

“Bhaqavad-gita”nın əsas məqsədi insanları dünyanın şərindən qurtarmaqdır.

İnsan pisliklərdən yaxa qurtarmaq üçün maddi dünyanın əzablarından xilas olmalı, Mütləq Həqiqəti dərk etməlidir [6, s.23].

Bu dövrdə epik əsərlərlə yanaşı, puranalar – dini-ədəbi abidələr də meydana gəlir. Hər bir purana ayrı-ayrı tanrılara – Brahmana, Şivaya, Vişnuya həsr edilmişdir.

Hind fəlsəfəsinin üçüncü dövrü e.ə. II əsrdən başlayaraq eramızın VII əsrinə qədər davam etmişdir. Bu dövrdə sutralar (sutra – qədim hind ədəbiyyatında lakonik və parçalardan ibarət mülahizə, qısa dini-fəlsəfi traktat) meydana gəlmişdir.

Qeyd etdiyimiz kimi, hind fəlsəfəsi eradan əvvəl XV əsrdən başlayaraq, eramızın VII əsrinə qədər üç böyük inkişaf yolu keçsədə, e.ə. VI əsr özünün iqtisadi-siyasi, ictimai-mənəvi sahələrdə baş verən dəyişiklikləri ilə seçilir. Bu, qədim Çin və antik yunan mədəniyyəti üçün də səciyyəvidir. E.ə. VI əsrdə istər Hindistanda və Çində, istərsə də Yunanıstanda fəlsəfi ideyalar, fəlsəfi biliklər, fəlsəfi məktəblər yaranıb inkişaf etmişdir. Hindistanda fəlsəfə Vedaların əsasında meydana gəlmiş və inkişaf etmişdir.

Hind fəlsəfəsi məzmun və formasına görə çoxçalarlı olub, digər xalqların fəlsəfəsinə bənzəmir. Qədim hind fəlsəfəsi bir sistem şəklində formalaşmamışdır. Bunun əsas səbəbi müxtəlif xalqların mədəniyyətlərinin, əsasən də arilərin və aborigenlərin hind ərazilərinə yayılması olmuşdur. Təxminən eradan əvvəl VI-V əsrlərdə farsların Hindistanı işğal etməsi nəticəsində Zərdüştlik dini də öz təsirini

göstərmişdir. Bir qədər sonra, e.ə. III əsrdə Makidoniyalı İsgəndərin bu ölkəyə hücumu nəticəsində yunan mədəniyyəti də tanınmışdır. Bunun nəticəsi olaraq hind mədəniyyəti müxtəlif xalqların mədəniyyətləri ilə müəyyən dərəcədə qarışmışdır.

Hindistanda yaranan ədəbi əsərlər bu ölkənin tarixini, mədəniyyətini öyrənmək üçün tam bilik vermir. Bu mədəniyyəti daha geniş şəkildə öyrənmək üçün digər xalqların nümayəndələri köməkçi rolunu oynamışlar. Hələ eradan əvvəl III əsrdə buddizmin Çinə yayılması hind mədəniyyətinə diqqəti artırmış və çinlilər Budda mətnlərini öyrənmək məqsədilə Hindistana üz tutmuşlar. Burada Budda dininin ehkamlarını, qaydalarını və qadağalarını öyrənməklə yanaşı, hindlilərin adət-ənənələrini, mədəniyyətini, təsərrüfat sistemini, dövlət idarəçiliyi qanunlarını mənimsəyirlər. Artıq orta əsrlərdə hind mədəniyyətinə dərindən bələd olan Fa-Syan, Syuan Szan, İ Szin kimi mütəfəkkirlər bu haqda əsərlər yazırlar. XI əsrin ən böyük mütəfəkkiri, ensiklopediyaçı alimi Əbu Reyhan əl-Biruni sanskrit dilini öyrənmiş, hind ədəbi abidələrini oxumuş və Hindistana dair əsər yazmışdır [13, s.472].

**Müstəqil iş üçün suallar**

1. Qədim Hindistanda fəlsəfi fikrin təşəkkülü
2. Qədim hind fəlsəfi fikrinin inkişaf mərhələləri
3. Veda ədəbiyyatı və onun strukturu
4. Upanişadlarda dini-mifoloji baxışlardan fəlsəfəyə keçid

5. Qədim hind fəlsəfi sisteminin formalaşmasında Upanişadların rolu

**Tapşırıqlar**

a)Upanişad dünyagörüşünün tələbləri:
- Brahman bütün varlığın başlanğıcıdır;
- aləm bütün kainatın əsasıdır;
- Atman mütləq başlanğıcdır;
- Brahman, ruh, aləm eyni funksiyaları yerinə yetirir;
- Atman və ruh eyni kateqoriyalardır.

b) "Upanişadlarda" hansı kateqoriyalar vahid tam kimi götürülür:
- Brahman və Atman;
- aləm və ruh;
- Brahman və dünya ruhu;
- Atman və dünya;
- ruh və ağıl.

c) Hansı Veda nümunəsi ilə Avestanın ümumi cəhətləri mövcuddur:
- Riqveda;
- Atharvaveda;
- Aranyaklar;
- Samaveda;
- Yacurveda.

d) Hind yazılı abidəsi sutra nədir:
- fəlsəfi sistemin mahiyyətini əks etdirən kəlamlar məc-

musudur;
- mifoloji rəvayətlər məcmusudur;
- Riqvedanın hissələridir;
- dini ehkamları əks etdirən mətndir;
- astroloji biliklər məcmusudur.

## 2. Hind fəlsəfi sistemlərinin yaranması

Təqribən beş min il əvvəl şimal-qərbi Avropadan İrana gəlmiş ağ dərili tayfalar burda məskunlaşmışlar. Onların bir hissəsi özlərini arilər adlandıraraq Hind çayı vadisində yerli əhalini sıxışdırmış və orada yerləşmişlər. Arilərin Hindistana köç etməsindən əvvəl burada iki xalq – ruhlara, bəd qüvvələrə, ilanlara sitayiş edən, sehirbazlıqla məşğul olan neqroidlər və kənd təsərrüfatından yaxşı anlayan dravidlər yaşayırdılar. Dravidlər bir çox biliklərə malik olmuş, inşaat işlərindən anlamış, evlər tikmiş, metaldan istifadə etməyi bacarmışlar. Arilər bu xalqları anarya (qeyri-arilər) adlandırırdılar. Arilərlə həmin xalqlar arasında uzun müddət mübaizələr getmişdir. "Ramayana" dövründə neqroidlərin aldığı zərbədən sonra arilər bütün Hindistana hökmranlıq edirlər. Bu prosesdə dravidlər arilərlə birləşərək neqroidləri məhv edirlər.

Bu dövrdə Hindistan ərazilərində çoxsaylı şəhərlər və böyük dövlətlər yaranır. Hind sivilizasiyası Yunanıstandan fərqli olaraq, şəhərləri ilə deyil, böyük zəngin bitkilərlə örtülmüş təbiəti və meşələri ilə seçilirdi. Hind vadisində sivilizasiyanın əsasını arilər quymuşlar [57, s.133]. Arilər yerli sakinləri ağır işlərdə qul kimi işlədirdilər. Bu dövrdə

cəmiyyət quldarlıq sisteminə əsaslanırdı. İlkin ari tayfaları Qanq vadisində Anqa, Mahadxa, Videxa, Kaşi və s. bu kimi dövlətlərin əsasını qoydular. Bir qədər sonra qərbdən başqa qrup arilər Hindistana daxil olurlar. Məhz vedaların yaranmasında ikinci qrup arilərin mühüm rolu olmuşdur. "İkinci" arilər Hind çayı sahillərində və Pəncabda məskunlaşmış və bu ərazilərdə öz dövlətlərini yaratmışdılar. Riqveda dövründə həmin yerlər Brahmavarta adlandırılırdı.

İkinci qrup arilər ilkin-ibtidai arilərdən bilik və bacarıqlarına görə daha üstün idilər. Şimali Hindistan zəngin təbiətə malik idi. Qısa zamanda arilər bu ərazilərdə təbiətin onlara bəxş etdiyi bol məhsulun sayəsində var-dövlətə sahib olurlar. Ona görə də onlar təbiətin şəninə himnlər bəstələyirlər ki, bunlara mantra deyilirdi.

Mantralar, brahmanlar, upanişadlar iki min ilə yaxın dövr ərzində şairlər, qabaqcıl fikirli insanlar tərəfindən yaradılmışdır ki, bunlar vedalar adlanırdı. Vedalar üç hissədən – mantralardan, brahmanlardan, upanişadlardan ibarət idi.

Mantralar toplusu isə samhitlər adlandırılmışdır. [57, s.135].

Əvvəlki mövzuda Veda ədəbiyyatının strukturu və əsas mahiyyəti haqqında məlumat verildiyi üçün, geniş izaha ehtiyac duymuruq. Vedalarda qurbanvermə ayinləri əsas yer tutrdu. Bu ayinləri icra edərkən insanlar ocaq qurur və alova Od tanrısı Aqni üçün hədiyyələr atırdılar. Bu hədiyyələr taxıl, düyü, məstedici içkilərdən və s. ibarət olan qida məhsulları idi. Qurbanvermə mərasimləri zamanı oxunan nəğmələrdə işıq tərənnüm edilir, qaranlıq isə lənətlənirdi. Bu

zaman insanın ruhu saflaşır, təmizlənir və iradəsi möhkəmlənirdi. Həmin ayinləri icra etməklə onlar düşünürdülər ki, bədxah işlərdən özlərini qoruya bilərlər [6, s.21].

Sonralar qurbanvermə ayinləri daha geniş yayılır. Arilər tədricən idealistlərə və mistiklərə çevrilirlər. Zaman keçdikcə Riqveda mətnlərində yeni fikirlər, fəlsəfi görüşlər rüşeym halında, sadə şəkildə meydana gəlir. Metafiziklər və idealist filosoflar, ümumiyyətlə, Vedaları ilahi əsərlər hesab edir və göstərirdilər ki, hər bir himndə dərin fəlsəfi məna gizlənir.

Upanişadlarda da insanı düşündürən suallara cavab axtarılırdı. Məsələn, sual olunurdu ki, "Kim ilk canlı varlığı görüb? Ruh nədir? Dünya necə yaranıb, dünyanın sonu necə olacaq?" və sairə bu kimi problemlər insanı düşündürməyə vadar edirdi.

Himnlərin birində həmin suallara cavab olaraq göstərilirdi ki, "Vedalar-dünyanın sonudur; Brahman-sözün ali formasıdır..." Riqveda himnlərinin birində təbiət qüvvələrinin əsasında dayanan ilkin varlığın meydana gəlməsi barədə fikirlər öz əksini tapmışdır. Digər himnlərdə isə təbiətin gözəlliyi və böyüklüyü təsvir olunur. Qədim dövrün himnləri təbiəti mədh edən ibtidai insanın mənəvi ruhunu ifadə edirdi.

Veda samhitləri və brahmanları ibtidai-icma quruluşunu və quldarlıq cəmiyyətini əks etdirən dəyərli tarixi əsərlərdir. Həmin mətnlərdə, eyni zamanda sadə sosial həyat və məişət problemləri haqqında mövzulara da rast gəlmək mümkündür.

Upanişadları tərtib etmiş o dövrün mütəfəkkirləri yeni

fikirlərlə çıxış edirdilər. Upanişad fəlsəfəsi Qanq vadisinin qərb hissəsində öz inkişaf mərhələsinə qədəm qoymuşdur. Şərqdə isə upanişad mətnləri yayılsa da, insanlar tərəfindən yaxşı başa düşülmürdü.

On bir upanişaddan biri olan, sanskrit dilində yazılmış "Çxandoqya- Upanişad" təqribən e.ə. VIII-VI əsrlərdə yaranmışdır. Bu dövrdə hind cəmiyyətində silki fərqlər meydana gəlir və dövlətlər yaranırdı. Ölkənin ideoloji həyatında müəyyən rol oynayan kşatri varnası brahmanlardan fərqli olaraq get-getə möhkəmlənirdi.

"Çxandoqya" ilkin upanişadlara daxildir və "Vedaların ilk fəlsəfi hissəsi" hesab olunur. Həmin əsər sonrakı hind fəlsəfi istiqamətlərinin, əsasən də vedanta sisteminin yaranmasında böyük rol oynamışdır. Bu əsərdə fəlsəfəyə qədər hind müdriklərinin əsas fikirləri əks olunmuşdur. Əsərdə varnaların yuxarıdan başlayaraq aşağı təbəqələrinə qədər hamısı sıralama ilə göstərilmiş, dövlətin yaranması haqqında baxışlar təsvir olunmuş, dünya, onun meydana gəlməsi barədə fikirlər önə çəkilmişdir. "Çxandoqya"da göstərilir ki, dünya iki təbəqədən – yuxarı səmavi aləmdən və bu dünyadan, yəni bizim yaşadığımız aşağı aləmdən ibarətdir. Yer və Səma arasında başqa bir aləm – böyük boşluq mövcuddur.

Mənəvi-maddi makrokosmos və mikrokosmos eyniyyəti və dialektik vəhdəti haqqında ideyalar himnlər şəklində "Çxandoqya"da əks olunmuşdur. Makrokosmosun obyektiv və mikrokosmosun subyektiv mahiyyəti təbiət və insan varlığının mərkəzində dayanır. Hind müdriklərinin təbiətin və insan varlığının mövcudluğu və inkişafı haqqında

fikirləri fəlsəfəyə qədər yaranmış şüurun məhsulu olan miflərdə, əsatirlərdə, ayinlərdə, adətlərdə öz ifadəsini tapmışdır [41, s.142].

Bir qədər sonra dövlətin zəifləməsi, ictimai həyatdakı durğunluq insanların çaşqınlığına səbəb olmuşdur. Artıq insan ümidini itirərək nəzər-diqqətini öz ruhu və hissləri haqqında bilik əldə etməyə yönəldir. Bəziləri real həyatdan əl çəkib, günahlardan sağınmaq üçün özünütəcrid yolunu tutur, müqəddəsliyə can atır. Demək olar ki, əhalinin əksəriyyəti həyatdan əlini üzmüş, pissimizmə qapılmış və ümidlizlik içində qalmışdı. Onlar asan və qısa qurtuluş yolu axtarırdılar. Yer üzündə həyata şübhə ilə yanaşan insanların artıq tanrıya da inamı zəifləyirdi. "Həyat əzabdır, həyat əzablardan ibarətdir" ideyası ilə çıxış edənlər köhnə inanclara qarşı çıxırdılar. Onlar hesab edirdilər ki, əsrlər boyu mövcud olmuş inanclarımız, ənənələrimiz artıq zəifləmişdir. Bu dövrün adamları mənəvi cəhətdən zəifləmiş və sarsılmışdılar. Ona görə də çıxış yolunu yeni mənəvi dayaqlar tapmaqda görürdülər. Vedalara sadiq qalanlarla yanaşı, yeni "islahatçılar" təzədən həyata başlamaq və yalnız xeyirxah işlər görmək arzusunda idilər. Ölkənin müxtəlif hissələrində saysız-hesabsız müəllimlər meydana gəlmiş və əsas missiyaları azad olmanın sirlərini öyrətməkdən ibarət idi.

Erkən epik dövrdə yeni-yeni fikir istiqamətləri yaranmışdır. Bu da, öz növbəsində, sonrakı dövrə müsbət təsirini göstərmişdir. Veda "peyğəmbərləri"nin fikirləri və upanişad təlimlərinin əsas mahiyyəti xülasə şəklində sutralarda cəmlənmişdir. Bu dövrdə artıq təfəkkürün məntiqi və dini sistemləri yaranırdı. İlk öncə çarvakların, buddist-

lərin və caynistlərin təlimi yaranır. Bu təlimlərin ardınca onlara reaksiya kimi upanişad təliminin teist tərəfi yaranır.

Upanişad mətnlərinin mücərrədliyi kütləni daha qane etmirdi. Vedaların parlaq panteonu onların mənəvi tələbatını ödəyə bilmirdi. Ona görə də yeni ideya çalarlarının yaranması üçün əlverişli şərait mövcud idi. Dini ideya istiqamətində dəyişikliklər baş verir. Məsələn, "Bhaqavad-gita"da Krişna Vişnunun təcəssümü kimi, upanişadlarda Əbədi Brahmana bərabər varlıq kimi, mahayanaya mənsub buddistlərə görə Budda əbədi tanrı kimi ifadə edilmişdir.

Təfəkkür sahibləri fəlsəfə sahəsində yeni ideyalar, yeni fikirlər axtarışında idilər. Tədricən sistematik fəlsəfənin rüşeymləri özünü göstərməyə başlayır.Sankhya-yoqa, nyaya-vayşeşika kimi müstəqil və eyni zamanda, vedaların nüfuzunu qəbul etmiş sistemlər yaranır. Mimansa və vedanta sistemləri isə sırf Veda dininə əsaslanırdı. Bu sistemlər arasında ziddiyyətli fikirlər yaranmışdır. Həmin fəlsəfi sistemlər məntiqi əsaslarına görə üç qrupa ayrılır:

1. Vedaların nüfuzunu qəbul etməyən çarvakların, buddistlərin, caynistlərin sistemi (e.ə. VI əsri əhatə edir);
2. "Bhaqavad-gita"nın teist formasının yaranması və upanişadların inkişafı (e.ə. V əsri əhatə edir);
3. Altı sistemin inkişafı.

Veda mətnlərində mistik, idealist fikirlərlə yanaşı sadəlövh, rüşeym şəklində

olsa da, materialist ünsürlərə də rast gəlmək olar. Materialist fikirlər hələ buddizmə qədər olan dövrdə, Riqveda mətnlərində mövcud olmuşdur. Qədim buddist əlyazmalarında

belə fikirlərə rast gəlmək mümkündür. Məsələn, həmin yazılarda "insanın dörd ünsürdən əmələ gəlməsi ideyası, insan öldükdən sonra həmin ünsürlərin hər birinin öz yerinə - torpağın elementlərinin torpağa, suyun elementlərinin suya, odun elementlərinin oda, havanın elementlərinin havaya qayıdaraq ona qarışması fikri əks olunmuşdur. Hisslər isə kainatda həll olur". Materialist ənənənin ən böyük klassik nümayəndəsi Brihaspati hesab edilir [56, s.233].

Hind mədəniyyətinin inkişafı eradan əvvəl birinci minilliyin ortalarına, daha dəqiq desək e.ə. VI əsrə təsadüf edir. Bu dövrdə Hindistan güclü imperiyaya çevrilmişdir. Eradan əvvəl IV-II əsrlərdə əsası Mauriya sülaləsindən olan Çandraqupta tərəfindən qoyulan və yüz əlli ilə yaxın mövcud olmuş Mauriya imperiyası öz nüfuzunu qoruyub saxlaya bilmişdir. Bu dövr Hindistanın "qızıl əsri" adlandırılır. Həmin dövrdə mədəni və siyasi əlaqələr güclənmiş, memarlıq, sənətkarlıq, ticarət, əkinçilik inkişaf etmişdir.

Eradan əvvəl VI əsrdə istər Hindistanda və Çində, istər İranda, istərsə də Yunanıstanda dini və fəlsəfi təlimlər yaranmağa başlamışdır. Bu dövrdə Hindistanda buddizmin və caynizmin əsası qoyulmuş, Çində konfusiçilik dini yaranmışdır.

Ümumiyyətlə, qədim hind fəlsəfəsi, əsasən iki istiqamətdə - ortodoksal və qeyri- ortodoksal istiqamətdə inkişaf etmişdir. Birinci qrupa vedaların nüfuzunu qəbul edən altı fəlsəfi məktəb (vedanta, mimansa, sankhya, yoqa, nyaya, vayşeşika), ikinci qrupa isə vedaların nüfuzunu qəbul etməyən üç fəlsəfi sistem (caynizm, buddizm və çarvaka - lokayata) daxildir.

Veda mətnlərində həm materialist, həm də idealist meyllərin mövcud olması sonrakı dövrlərdə hind fəlsəfəsində bu iki istiqamətin inkişafına zəmin yaratmışdır.

Vedanta və Mimansa fəlsəfi sistemləri Veda mətnləri əsasında yaranıb inkişaf etmişdir. Sankhya-yoqa, nyaya-vayşeşika fəlsəfi məktəbləri isə sərbəst inkişaf yolu keçsə də, vedaların nüfuzunu qəbul etmişlər. Buddizm və caynizm isə vedaların nüfuzunu qəbul etməmiş, müstəqil şəkildə yaranıb formalaşmışdır. Qeyd etdiyimiz fəlsəfi məktəblər sırasında yeganə çarvaka - lokayata məktəbidir ki, sırf materialist xarakter daşıyır.

Bu məktəblər haqqında sonrakı mövzularda geniş məlumat veriləcəkdir.

## Fəsil 3

# Qeyri-ortodoksal fəlsəfi məktəblər

### 1. Lokayata-çarvaka fəlsəfi sistemi

Hind fəlsəfəsi özünün rəngarəngliyi və çoxçalarlığı ilə seçilir. Çünki bufəlsəfə özündə materialist, idealist və dualist fikirlərlə yanaşı, hinduslarын və qeyri-hindusların da fəlsəfi ideyalarını ehtiva etmişdir. Hind fəlsəfi sistemləri arasında fərqli cəhətlərin olmasına baxmayaraq, həmin mövcud məktəblərin qəbul etdikləri ideyaların bəziləri bir-birinə oxşar və yaxındır. Ona görə də həmin fəlsəfi məktəblər qruplaşma şəklində təqdim edilir və onları bir-birindən təcrid olunmuş şəkildə təhlil etmək doğru deyildir. Çünki hər bir sistem öz inkişafında digər fəlsəfi sistemlə həm qarşılıqlı əlaqədə olmuş, həm də ziddiyyət təşkil etmişdir. Hind dünyagörüşündə fəlsəfə anlayışı "darşana" termini ilə ifadə olunur.

Hind mütəfəkkiri Dasqupta qeyd edir ki, "darşana" termini ilk dəfə Kanadaya məxsus "Vayşeşika-sutra" əsərində işlənmişdir. Digər tədqiqatçıların fikrincə isə, "darşana" (sanskritcədən tərcümədə fikir, dünyagörüş mənalarını verir) sözündən orta əsr hind filosofları Şankara və Udayana istifadə etmişlər [70, s.70].

Lokayata məktəbi haqqında ən geniş məlumat verən mənbə kimi Mathavaçaranın (XIV əsr) "Sarva - darşana – Sanqraha" əsəri hesab olunur. Baxmayaraq ki, lokayatçılar altı klassik darşanalar sırasına daxil deyillər, lakin yuxarıda

göstərilən əsərin müəllifi adı çəkilən əsərdə çarvakların dünyagörüşünə ayrıca bölmə həsr etmişdir.

"Sarva - darşana – Sanqraha" əsərinin "Çarvak fəlsə-fəsi" bölməsində göstərilir ki, bir çox insanlar çarvak təliminə uyğun olaraq o biri dünyanın mövcudluğunu inkar edərək həyatın məqsədini var - dövlət qazanmaqda və həzz almaqda görürlər. Ona görə də bu məktəb hərfi mənasına görə yuxarıdakı fikrə uyğun olaraq lokayata da adlanır.

Ortodoksal hind mütəfəkkirləri tərəfindən tərtib edilmiş "Sarva-darşana-sanqraha"da cəmi on altı fəlsəfi sistem təhlil edilsə də, günümüzə qədər gəlib çatmış və geniş yayılmış doqquz mühüm fəlsəfi məktəb öyrənilir.

"Sarva-darşana-sanqraha" ("Bütün fəlsəfi sistemlərin cəmi") XIV əsrdə "Dvayta-vedanta" təliminin yaradıcısı Madhavaçarya tərəfindən yazılmışdır [4, s.13].

Bu ənənəvi fəlsəfi məktəblər iki – ortodoksal (astika) və qeyri- ortodoksal (nastika) istiqamətdə inkişaf etmişdir. Astikaya Vedaların nüfuzunu qəbul edən, nastikaya isə əksinə olaraq, öz təlimlərini sərbəst şəkildə yaratmış və vedalara söykənməyən fəlsəfi təlimlər aid edilir. Birinci qrupa (astika) daxil olan altı fəlsəfi məktəb purva-mimansa, vedanta, sankhya, yoqa, nyaya, vayşeşikadır. İkinci qrupa (nastika) aid olanlar isə çarvaka-lokayata, buddizm, caynizm fəlsəfi məktəbləridir.

Yuxarıda adları çəkilən doqquz məktəbdən yalnız çarvaka-lokayata məktəbi sırf materialist xarakter daşıyır. Ümumiyyətlə, materialist ənənələr hind fəlsəfəsi kimi çox qədim zamanlardan mövcud olmuş və Upanişad mətnlərində öz əksini tapmışdır. Orta əsrlərin ən böyük vedantist filosofu

Şankara qeyd edirdi ki, "Lokayatlar dörd maddi ünsürdən başqa heç bir varlığın mövcudluğunu qəbul etmirlər"

Materialistlər hesab edirdilər ki, hər şeyin əsasında dörd ünsür durur. Maddi dünyadan kənarda heç bir dünyanın mövcudluğunu qəbul etməyənlər lokayatlar adlandırılırdı. Lokayata fəlsəfəsinə qarşı çıxanlar hesab edirdilər ki, lokayatlar gözəl nitqləri ("çaru vakya") ilə insanları valeh edirlər. Ona görə də lokayatların fəlsəfəsini çarvaka fəlsəfəsi adlandırırlar. Lokayata fəlsəfəsinin əsası Dhişan tərəfindən qoyulmuşdur. Çarvaka isə həmin fəlsəfənin adıdır. İdealist filosoflar Dhişanın sutralarını məhv etmiş və onun fəlsəfəsini insanların gözündən salmağa çalışmışlar. Dhişan Kapilanın və Buddanın sələfi olmuşdur.

Lokayata fəlsəfəsi heyvanların qurban verilməsinə reaksiya kimi meydana gəlmişdir. Dhişan vedaların qəddar qanunlarına qarşı çıxmaqla yanaşı, fanatizmi də rədd edirdi. O, tanrıların mövcudluğunu qəbul etmir və göstərirdi ki, yalnız maddi dünya mövcuddur. Dünyanın müxtəlifliyi onun təbiətidir. Dörd ünsür - su, torpaq, od, hava hər şeyin əsasında durur. Efir isə müstəqil ünsür deyildir. Bu dörd ünsürün birləşməsindən ruha və şüura malik bədən yaranır. Ruh bədəndən ayrı mövcud deyildir. Dörd ünsür ayrı-ayrılıqda şüura malik olmasa da, onların birləşməsi nəticəsində bədən və şüur əmələ gəlir. Hər şeyin sonu isə ölümdür. Əgər hər şey ölümlə nəticələnirsə, deməli qurbanvermə, cənnət-cəhənnəm, azad olma, qurtulma – bütün bunların hamısı yalandır. İnsan öldükdən sonra onun bədənini təşkil edən ünsürlərin hərəsi öz yerinə qayıdır – su suya, torpaq torpağa, işıq alova, hava da havaya qarışır. İnsanın hissləri isə efirdə

həll olur [57, s.167].

Bəzi tədqiqatçılar göstərir ki, “çarvaka” sözünün mənası “materialist” deməkdir. Çox zaman materialistləri çarvaklar adlandırırdılar. İlkin versiyaya görə Çarvaka hansısa müdrikin adı olub. Digər mütəfəkkirlərin fikrincə isə “çarvaka” – “ye, iç, əylən” mənasını verir.

Bəzi hind müəllifləri, əsasən də Haribhadra hesab edir ki, hind materialist fikrinin əsası e.ə. I minillikdə Brihaspati tərəfindən qoyulmuşdur. Onlar bəzi veda himnlərində, “Mahabharata”da mövcud olan materialist fikirləri Brihaspatinin adı ilə bağlayırlar [68, s.55].

“Lokayata” sözü, eyni zamanda materializm mənası kimi də işlənmişdir. Sanskrit dilində “loka” – “torpaq, həyat”, cəm halda isə “xalq, bəşəriyyət” deməkdir.

Çarvaka fəlsəfəsində dörd ünsür hər şeyin əsası hesab olunur. Dörd ünsür bölünməz xırda zərrəciklərdən – atomlardan əmələ gəlmişdır. Atomlar əbədidir, daimi hərəkətdə və inkişafdadır. Həmin dörd ünsürün birləşməsindən gerçəklikdə mövcud olan bütün canlı və cansızlar, ruh və intellekt meydana gəlmişdir. Ruh bədənlə vəhdət təşkil edir. Bədən məhv olanda, ruh da yoxa çıxır.

İntellekt də bu dörd ünsürün birləşməsidir. Ünsürlər parçalananda intellekt də parçalanıb yox olur. Ruh da bu ünsürlərin birləşməsidir. Ruh bədəni idarə edir və onlar vəhdətdədir, ayrı - ayrılıqda bunlar həyatı təşkil etmirlər. Materialist məktəb olan lokayata-çarvaka axirət dünyasının mövcudluğunu qəbul emirdi. Lokayata - çarvaklara görə bu dünya mövcuddur, nə cənnət, nə də cəhənnəm yoxdur. Din ağılsızların uydurmasıdır. Dünyanı izah etmək üçün allahlara

ehtiyac yoxdur. Allah - insanların zəifliyi və acizliyi üzündən müqəddəslərə inam hissi yaradır. Mövcudatdakı bütün predmetləri təbiət özü yaradır, bu işdə ona heç bir kənar qüvvə kömək etmir. Cəmiyyətdə baş verən bütün hadisələr və gerçəklikdə əmələ gələn bütün şeylər öz təbii qanunları əsasında inkişaf edir [56, s.243].

Lokayatlar axirət dünyasını – nə cənnəti, nə də cəhənnəmi qəbul etmirdilər. Onlar göstərirdilər ki, din bir uydurmadır, ağılsızların və qorxaqların işidir. Allah insanların zəifliyi üzündən qəbul etdikləri sitayiş forması və fövqəltəbii qüvvədir. Dünya haqqında bilik qazanmaq üçün allahlara müraciət etmək ağılsızlıqdır. Gerçəklikdə mövcud olan bütün predmetlər təbiət sayəsində yaranmışdır. Təbiətdə baş verən hadisələr öz təbii qanunları əsasında meydana gəlir, inkişaf edir və məhv olur.

Lokayata məktəbi şüura ünsürlərin qarşılıqlı nəticəsi kimi baxır. Şüur, zəka, hiss üzvləri dörd ünsürün birləşməsi nəticəsində yaranır, canlı vücud öldükdən sonra bu birləşmə parçalanır, onun ünsürləri cansız təbiətin müvafiq növünün ünsürləri ilə birləşir.

Materialist yönümlü olan lokayata məktəbi hisslərdən kənar substansiyaların və fenomenal dünyadan başqa digər dünyanın mövcudluğunu inkar edirdi. Bu cür fikirlərin qəbulunu fantaziyanın məhsulu hesab edirdi. Bu o deməkdir ki, təzahür etməyən obyektlərin məntiqi dərki mümkün deyil, əqli nəticələr isə həqiqi bilik mənbəyi hesab edilə bilməz. Mənəvi kateqoriyaların mövcudluğunun sübut etdirilməsini həyata keçirmək mümkün olmur. Əqli nəticələr o zaman əsaslı sübut kimi çıxış edə bilər ki, obyekt hiss

üzvləri vasitəsi ilə dərk edilə bilsin. Lokayata məktəbi idrakı insanı təşkil edən elementlərin qarşılıqlı əlaqəsinin nəticəsi kimi nəzərdən keçirir. Göstərilən bu müddəa məntiqi pozitiv hisslərin "verifikasiya" (latınca – *verus* "həqiqi", *facere* "etmək") prinsipinə uyğundur. Bu prinsipin əsasında "dünya haqqında söylənilən hər bir müddəa empirik (dünyanın təcrübi yolla dərk edilməsi) faktlara uyğun gəldikdə həqiqidir" tezisi durur [49, s.66].

Lokayata sistemində bir neçə istiqamət mövcud olmuşdur. Bu istiqamətlərdən
biri Eqoya maddi komponentlərin məcmusu kimi baxır. Eqoya görə, insan necə gidalanırsa, o gidaya uyğun həyat tərzi, əxlaqı, dünyagörüşü formalaşır. Digər istiqamətin nümayəndələri insanda idrakın başlanğıc anının mövcud olduğunu qeyd edirdilər. Bunlara baxmayaraq, fiziki bədən öləndə şüur, ağıl da məhv olur.

Qərb terminologiyasına əsasən desək, lokayatçılar idrakı epifenomen (yəni dünyanın maddi əsasının passiv təzahürü) kimi nəzərdən keçirirlər [49, s.67].

Çarvaka fəlsəfəsi idrak təlimi, metafizika və etika bölməsindən ibarətdir. Çarvakların idrak təlimi sensualist xarakter daşıyır. Duyğular idrakın yeganə mənbəyi hesab edilir. Çünki predmetlər yalnız hisslər vasitəsilə dərk edilir. Lokayatlar allahı, axirət dünyasını qəbul etmir və göstərirdilər ki, biz yalnız hisslərə inanır, hisslər vasitəsilə qavranılanı qəbul edirik. Hisslərlə qavranılmayan mövcud deyildir. Hisslərdən kənarda heç bir dünya mövcud deyildir. Təzahür etməyən obyektlərin dərki qeyri-mümkündür. Əqli nəticə isə həqiqi bilik mənbəyi ola bilməz. Əqli nəticə o

zaman sübut kimi qəbul edilə bilər ki, predmet hiss üzvləri vasitəsilə dərk edilən olsun.

Metafizika reallıq haqqında nəzəriyyədir. Çarvaklara görə maddi obyektlər yeganə obyektlərdir ki, onların real mövcudluğu duygular vasitəsilə sübuta yetirilmişdir. Çarvakların materializminə görə materiya yeganə reallıqdır. Çünki o, hiss üzvləri vasitəsilə dərk olunur.

Çarvakların etik təliminin əsasında gedonizm (gedonizm - həyatda hər şeydən son dərəcə zövq almaq) prinsipi dayanır. Onların təliminə görə, insan həyatdan son dərəcə gözəl zövq almalıdır, eyş - işrətdə yaşamalıdır. Çünki həyatın sonu ölümdür. Qurban vermələr və "Veda" dinində sitayiş səfehlərin boş yerə vaxtlarını sərf etmələridir. Lakin başqa tərəfdən, lokayata məktəbinin davamçıları göstərirdilər ki, şəxsi həzz və kef çəkmə başqalarına zərər gətirməməlidir. Ona görə də qurban verməni qəbul etmirdilər. Çünki bu adət heyvanlara zərər gətirir. Bu məktəbin etik təlimindəki normalar bu dünyanın sonluluğu prinsipinə əsaslanır. Belə ki, bu etik təlimdə göstərilir ki, insan bu həyatdan maksimum dərəcədə həzz almalıdır, bu həzzin ən yüksək göstəricisi isə gözəl qadına sahib olmaqdır. Çarvaklar qurban vermə mərasimini pisləyir, Vedalarin öyrənilməsini artıq bir iş sayır və göstərirlər ki, bu, mənasız vaxt keçirməkdir. Digər tərəfdən bu məktəbin sonrakı ardıcılları göstərirlər ki, şəxsi həzz digər canlılara mane olmamalıdır. Bununla bağlı olaraq, heyvanların qurban verilməsini və aqressiv davranışı məqsədə uyğun hesab etmirlər.

Öz-özlüyündə həzz almağı həyatın mənası hesab edən lokayatçıların mövqeyi epikürçilərə uyğundur. Eyni

zamanda, bəzi istisnaları nəzərə almaqla (məsələn, ətrafdakılara ziyan gətirməmək) lokayatçıların əxlaq təlimi utilitarizmin (davranışın faydalılığını onun əxlaqiliyinin meyarı kimi qəbul edən estetik nəzəriyyə) etik nəzəriyyəsini xatırladır [68, s.66].

Ruh və bədənin təntənəsi təliminə uyğun olaraq "Mən" və onun bütün xüsusiyyətləri eyni subyektə aiddir. Bütün bu deyilənləri ümumiləşdirərək bu müddəaları irəli sürmək olar: insanın yeganə xoşbəxtliyi hiss üzvləri vasitəsilə əldə edilən həzzlərdir; cəhənnəm insanların qorxuları ucbatından məhkum olduqları əzabları hesab olunur; azadolma müqəddəs biliyə çatmaqla deyil, bədənin parçalanması nəticəsində baş verir; bu məktəbin təlimində dörd element əsas götürülür: torpaq, od, su, hava; məhz bu dörd elementdən idrak əmələ gəlir; "Mən" və onun xüsusiyyətləri eyni subyektə aiddir.

Lokayata qədim Hind elminə müəyyən təsir göstərmişdir. Lokayata ardıcıllarına məxsus heç bir mətn dövrümüzə gəlib çatmamışdır. Lokayata daha tam şəkildə özünün idealist əleyhidarı olan vedanta nümayəndələri tərəfindən IX-XVI əsrlərdə yazılmış fəlsəfi traktatlarda və xülasələrdə (darşanalarda) şərh edilmişdir.

### Müstəqil iş üçün suallar

1. Hind fəlsəfi məktəblərinin yaranması
2. Ortodoksal və qeyri-ortodoksal fəlsəfi sistemlər
3. Brihaspatinin materialist baxışları
4. Lokayata-çarvakların dörd maddi element haqqında təlimi

5. Çarvakların etik təlimi
6. Lokayatların qnoseologiyası
7. Çarvakların gedonist təlimi haqqında

**Tapşırıq**

a) Çarvakların etik təliminə görə insan:
- həyatdan zövq almalıdır;
- qurban verməlidir;
- Veda dininə sitayiş etməlidir;
- özünü ibadətə həsr etməlidir;
- dini mərasimlərdə iştirak etməlidir.

b) Lokayatların qnoseologiyası:
- sensualist xarakter daşıyır;
- əqli idrak əsas götürülür;
- qavrayış idrakın əsas mənbəyi hesab edilir;
- mayya-illüziya idrak forması kimi qəbul edilir;
- təxəyyül idrakın yeganə mənbəyi hesab edilir.

c) Lokayatlara görə həqiqətin dərk edilməsinin yeganə mənbəyi:
- duyğu və qavrayış;
- müqəddəs yazılar;
- intuisiya;
- ağıl və təfəkkür;
- vəhylər.

d) Çarvaklara görə həyatın yeganə mənası:
- hiss üzvləri vasitəsilə əldə edilən həzzlərdir;
- nirvanaya çatmaqdır;
- müqəddəs yazıları dərk etməkdir;
- tanrıya sitayişdir;
- insanın öz karmasını yaratmasıdır.

## 2. Caynizm fəlsəfəsi

Caynizm bizim eradan əvvəl VI əsrdə Hindistanda meydana gəlmiş və bu günə qədər nüfuzu qoruyub saxlamış dindir. Bu dinin təsiskarı Vayşalitdə dünyaya gəlmiş Vardhamana (e.ə. 599-527) olmuşdur. Çox zaman onu Mahavira ("böyük qəhrəman") adlandırırdılar. O, Maqadha tayfasının başçısının ikinci oğlu idi. Vardhamana otuz yaşlarından tərkidünya olmuş, on iki il sərgərdan həyat sürmüş, hər şeydən, hətta paltar geyinməkdən imtina etmiş və özünə əzab verərək bütün hisslərinə qalib gəlmişdir. O, 42 yaşlarında kamil biliyə çatmışdır. Bundan sonra özünü caynizm dininin peyğəmbəri – tirthankar ("yolun əsasını qoyan") elan etmiş və Cina (sansk. - mənən qalib gələn) ləqəbini qazanmışdır. Rəvayətə görə, guya caynizmin inkişafında iyirmi dörd peyğəmbər iştirak etmiş və Vardhamana bu peyğəmbərlərin sonuncusu olmuşdur. O özündən əvvəlki iyirmi üç peyğəmbərin ehkamlarını qəbul etmişdir.

Vardhamananın ardıcılları kübar kşatrilər təbəqəsinə mənsub olmuş, cəmiyyətin yuxarı təbəqəsinin mənafeyini ifadə etmişlər. Vardhamana Buddanın müasiri olmuşdur.

Caynizmlə buddizm, deməmk olar ki, eyni vaxtda meydana gəlmişdir. Caynizm kasta quruluşunu müdafiə edən Brahmanizm dininə müxalif olaraq meydana gəlmişdir. Caynizm və eləcə də buddizm Brahmanizmin kasta quruluşunu və ayinlərini, iztirablardan fərdi şəkildə xilas olma haqqında təlimi, Vedanın müqəddəsliyini inkar edirdi. Caynizm Brahmanizmin bir sıra ünsürlərini- ruhların şəkildən şəklə düşməsinə etiqadını, karma haqqında, peyğəmbərlərin vaxtaşırı zühur etmələri haqqında təlimi saxlamışdır.

Caynistlər allaha inanmır, mütləq azad olmuş, ruhunu təmizləmiş, müstəqillik əldə etmiş, böyük nüfuza sahib olmuş və caynizm dininin əsasını qoyan tirthankara-Cinaya sitayiş etmişlər.

Zaman keçdikcə, caynizm ardıcılları iki sektaya – şvetambarlara və diqambarlara ayrılırlar. Bu sektalar arasındakı fərq fəlsəfi problemlərlə deyil, dini və təcrübi məsələlərlə bağlı olmuşdur. Diqambarlar (lüt gəzənlər, səma ilə bürünmüşlər) asketizmə ciddi şəkildə riayət edir və göstərirdilər ki, asket hər şeydən, eləcə də geyimdən imtina etməlidir. Diqambarlara görə mütləq kamilliyə çatmış müqəddəslərin qidaya da ehtiyacı yoxdur. Onlar zahidlərin sərt davranış tərzini saxlayanlar idilər. Ona görə də caynizmdə acından ölmək şərəf sayılırdı. Şvetambarlar (ağ geyimlilər) hesab edirdilər ki, asket ağ rəngli paltar geyinməli və ruhunu təmizləməlidir. Şvetambarlar caynizm dininin ehkamlarını, onlara yazılmış şərhləri mötəbər mətnlər kimi qəbul edənlərdir.

Caynizm dininin ehkamları şifahi şəkildə zehinlərdə saxlanırdı. Təqribən iki əsr sonra həmin ehkamlar zəiflə-

məyə başlayır. Ona görə də eradan əvvəl IV əsrdə dini icmada toplaşaraq canylar bu deyimlərin yazıya alınması barədə fikir irəli sürürlər. Bu missiya yalnız 800 il sonra, eramızın 454-cü ilində Devarddxinin başçılığı ilə həyata keçirilir. Yaddaşlarda saxlanmış dini ehkamlar sistemli şəkildə formalaşdırılmış və kanon ədəbiyyatına 84 əsər daxil edilmişdir [56, s.242].

Həm diqambarların, həm də şvetambarların qəbul etdiyi Umasvati tərəfindən tərtib edilmiş "Tattvartxadhi-qama-sutra"da caynların fəlsəfəsi sistemli şəkildə əks olunmuşdur [68, s.186].

V əsrdən etibarən caynizm böyük təlimə çevrilir. Caynizm fəlsəfəsini, adətən realizm və plüralizm (plüralizm-bir-birindən asılı olmayan müxtəlif varlıqların mahiyyələrinin çoxluğundan ibarət mövqelərin bir araya gəlməsi) adlandırırlar. Caynist filosoflara görə maddi obyektlər realdır və çoxsaylıdır. Caynistlərə görə hər şeyin başlanğıcında təbii maddi varlıqlar durur. Materiya əbədidir və dünya fasiləsiz inkişaf prosesindədir. Kainatın nə əvvəli və nə də sonu vardır. Dünya iki növ materiyadan – canlı (civa) və cansızlardan (aciva) ibarətdir. Cansızlara (acivaya) zaman (kala), boşluq (akaşa), hiss edilməyən substansiya – hərəkət (dharma), hiss edilməyən substansiya – sükunət (adharma), materiya (pudqala) aiddir. Zamanı çıxmaq şərti ilə qalan dörd növ cansız substansiya "astikaya" adlanır. Bu növ substansiyalar eyni vaxtda müxtəlif yerləri doldurur. Boşluq, hərəkət, sükunət ruh və materiyanın mövcudluğu üçün əsas şərtdir. Boşluq ruh və materiyanın mövcud olması üçün məkandır. Dharma onları hərəkətə gətirir, adharma isə

sükunətdə olması üçün imkan yaradır [70, s.190].

Caynistlərə görə atomlardan ibarət olan dörd ünsür birləşərək materiyanı yaradır. Həm ünsürlər, həm də cansız varlıqlar ruha malikdir. Caynistlər tərəfindən qəbul edilmiş bu ideya digər dini-fəlsəfi sistemlərdə mövcud olan qurban-vermə ayinlərinə zərbə vurdu. Caynizmdə ruhun (canın) qurban verilməsi qəbahət hesab olunurdu. Caynistlər hesab edirdilər ki, qurban verməklə allahdan nəsə istəmək olmaz. Allah insanların günahlarına görə cavab verə bilməz. Əzab-əziyyətdən, iztirabdan qurtulmanın yeganə yolu tərkidün-yalıq və asketizmdir. Caynizm vedaların nüfuzunu inkar edir və brahman mərasimlərini pisləyir.

Caynistlərin hamısı dörd əsas konsepsiyanı qəbul edirlər. Bunlar:

1. *aximsa* - bütün canlılara qarşı zorakılıqdan imtina. Bütün canlıların yaşama haqqı var;
2. *asteyya* - oğurluqdan imtina;
3. *brahmaçarya* - müdrikliyin pozulmasından imtina;
4. *apariqraha* - həyati nemətlərin əldə edilməsindən imtina.;

Caynizmin əsas konsepsiyalarından danışmazdan əvvəl caynizmin “Mən” konsepsiyasını və etik təlimini nəzərdən keçirək. Qeyd etmək lazımdır ki, caynizmin etik təlimi absolyutdan imtina, atomizm və caynizmin animist kosmologiyası, kosmik proseslərin ateist interpretasiyası ilə səciyyələnir.

*Anekantavada* (absolyut həqiqətlərin qəbul edilməsi). Öz əsasına görə bu təlim radikal mövqeyi ilə fərqlənir.

Absolyut həqiqətlərin qəbul edilmədiyini göstərərək caynalar belə hesab edirdilər ki, şeylərin mahiyyətini onları hansı aspektdən nəzərdən keçirməkdən asılı olaraq qəbul etmək lazımdır. Buradan belə bir nəticə çıxır ki, hər bir bilik şərti xarakter daşıyır. Beləliklə, "Mən" konsepsiyasını nəzərdən keçirsək, aşağıdakı nəticələrə gəlmək olar:

1. "Mən" - daimi kateqoriyadır.
2. "Mən" - mütəmadi olmayan kateqoriyadır.
3. "Mən" - həm daimi, həm də daimi olmayan kateqoriya ola bilər.
4. Materiyanın mahiyyəti təsvir edilməz ola bilər.

Bu mülahizələri kombinə etmək olar. Məsələn: ruhu əbədi hesab etmək olar, lakin bunun maddi sübutunu əldə etmək olmaz.

Həqiqət analitik təfəkkürlə deyil, konkret həyati mövqeyi formalaşdıran etik və mənəvi dəyərlərlə müəyyənləşdirilir. Məsələn: Ağacı görərkən mən nə düşünürəm?

- ona çıxa bilsəydim yaxşı olardı;
- yaxşı istehsal materialıdır;
- palıddır;
- onu axırıncı dəfə gördüyümdən uzundur;
- onu kəsmək lazımdır.

Bu müddəaların hər birində müəyyən həqiqət var. Həmin müddəaların perspektivliyi hansı zaman kəsiyinə (indiki zamana, keçmiş zamana) aid olmasından asılıdır. Caynizmə görə mütləq biliyin məhdudluğu konseptual dərketmənin nisbiliyindən asılıdır [49, s.137].

Caynizmin varlıq təlimi plüralitik realizm kimi səciy-

yələnir. Caynistlər şeylərin insan idrakından asılı olmayaraq mövcudluğunu qəbul edirdilər. Bu təlimə görə mövcudat beş və ya altı substansiyanın tərkibinə daxildir. Qeyd etmək lazımdır ki, caynizmin diqambara qoluna görə bu substansiyaların sayı altı, şvetambarlara görə isə beşdir. Bu substansiyalar aşağıdakılardır:

civa - mənəvi substansiyaların sonsuz sayı;

pudqala - cisimlər;

akaşa – mühit;

dharma - hərəkət şəraiti;

adharma - sükünət şəraiti;

kala - zaman (bunu yalnız qidambarlar qəbul edir).

Caynizm materiyanın diskret, fasiləli quruluşu haqqında təlimə əsaslanır və mikrohissəciklər olan atomların 4 növünü işıqlandırır: hava, od, su və torpaq. Bu ilk elementlər birləşərək öz növbəsində fenomenal obyektləri yaradır. Lakin dünya yalnız maddi predmetlərdən ibarət deyil. Buna sevinc, kədər və həyat da daxildir. Qeyd edək ki, sonuncusu, yəni həyat ruh və ya civa mənasını verir.

Caynistlər dörd ünsürü canlılarla eyniləşdiridilər. Onların fikrincə torpaq da canlıdır. Lakin dörd ünsür yalnız lamisə hissinə, quşlar, heyvanlar və insanlar isə bütün beş hissə malikdirlər. Ruh əbədi və dəyişməzdir. Ruh birinin ölümündən sonra başqasına köçür.

Caynizmin kosmoqonik təliminə görə dünya beş təbəqədən ibarətdir. Ən aşağı qatdakı dünyada günahkarları cəzalandıran cinlər yaşayır, ortadakı dünya bizim yaşadığımız dünyadır, bizim dünyadan yuxarıdakı dünyada allahlar yaşayır, ən yüksək təbəqəni təşkil edən dünya caynizmin

müdriklərinin məskənidir. Bu, əməli bölgüdür, nəzəri baxımdan caynistlər allahları fəal qüvvə saymırlar. Onların fikrincə, yaradıcı qüvvə müdriklərin məsləhətləri və əyani nümayiş etdirdikləri tərkidünya həyat tərzidir.

Caynizm təliminə görə tarix üç mərhələyə bölünür; keçmiş, indi və gələcək. Bunların hər birində 24 tirthankara (müdriklər) fəaliyyət göstərir. Hər bir dövrdə insanlar səadətdən bədbəxtliyə doğru uzun yol keçirlər və sonra yenidən səadətə yol tuturlar. Bu hal bizim dövrümüzdə də davam edir. Əvvəlcə, hamı bərabər və tox həyat sürürdü, gida mənbələri zəngin idi, bar verən ağaclar adamları təmin edirdi. Bu ağacların barı azaldıqca insanları bədbəxtlik bürüyürdü. Lakin caynizmin ilk müdriklərindən biri Rişabxa çox qədim dövrlərdə insanları qanunlarla silahlandırdı, onlara əkinçiliyi, heyvandarlığı, ticarəti öyrətdi, qılınc, mürəkkəb və qələmlə silahlandırdı, nəticədə insanlar səadətə doğru üz tutdular [5, s.53].

Mahavira öyrədirdi ki, bütün mövcud olanlar ruha malikdirlər. Bununla yanaşı yalnız insanlar, heyvanlar və bitkilər deyil, eyni zamanda, torpaq və külək də mənəvi başlanğıca malikdir. Bununla yanaşı ənənələrə görə hər bir hadisə aid olduğu, baş verdiyi zamanda canlıdır. Bu fikirlərə əsasən caynizm fəlsəfəsi maddi və mənəvi substansiyaların qarşılıqlı təsirini qəbul edir.

Caynizm atomlar haqqında nəzəriyyəni irəli sürmüşlər. Eyni zamanda həmin təlimə görə kainatda ölməz substansiyalar da mövcuddur. Bu səviyyənin ən yüksək təzahürü mükəmməl və ölümsüz substansiya olan civa hesab edilir.

Əsas xüsusiyyətinə görə caynizm atomizm xarakter-

lidir. Hinduizmdən fərqli olaraq caynizm təlimi həm Atman və Brahmanın vəhdətini, həm də mütləq həqiqətləri qəbul etmir. Caynistlər ruhun reallığı prinsipini qəbul edirdilər (bu Kavala adlanır). Caynlara görə dünya yaranmamışdır. Lakin o, arasıkəsilməz inkişaf və təkamül prosesindədir. Bunun üçün zahiri sübutlar tələb olunmur. Bu dəyişikliklər və təkamül prosesi Karma qanunlarına müvafiq olaraq baş verir. Burdan da belə bir nəticə çıxır ki, dünyanı Allah deyil, Karma idarə edir.

Şeylərin təbiəti məsələsində caynizmin ziddiyyətli mövqedə durur. Belə ki, caynlar bir tərəfdən onların sabit olduğu fikrini irəli sürürlər, digər tərəfdən də dəyişkən olduğunu qeyd edirlər. Onlar göstərirdilər ki, şeylər zamanda mövcuddur. Baxmayaraq ki, bu müddət ərzində obyekt bir sıra dəyişikliklərə məruz qalır. Caynizmin həqiqətin dərki haqqında prinsipə yanaşması nisbi xarakter daşıyır. Məsələn, caynislərə görə şeylər eyni zamanda ya mövcuddurlar, ya da mövcud deyildilər - hər şey müşahidəçinin mövqeyindən asılıdır [49, s.139].

Daha əvvəl də qeyd olunduğu kimi, caynizm də digər şərq fəlsəfi sistemləri kimi şeylərin təbiətinin dərki məsələsi ilə məhdudlaşmır, eyni zamanda mənəvi inkişafın və insanların maddi nemətlərdən asılılığının azad olmasının praktik metodologiyasını da irəli sürürdü. Buna görə də bu təlimin əsas konsepsiyalarını başa düşmək üçün caynistlərin Eqo anlayışını necə interpretasiya etdiklərini bilmək lazımdır. Bununla yanaşı yadda saxlamaq lazımdır ki, yuxarıda göstərilən konsepsiyaya uyğun olaraq hər bir hadisə müxtəlif aspektlərdən nəzərdən keçirilə bilər. Buna müvafiq olaraq

insan ruhu ya dəyişməz və ölməzdir, ya qeyri sabitdir. Bütün deyilənləri anlamaq üçün bu kateqoriyaların hansı aspektdən nəzərdən keçirilməsi vacib şərtdir.

Hər bir insan fiziki hüceyrədə yaranmışdı və onun “xilas olması” dedikdə, ruhunun bədəndən azad olması fikri nəzərdə tutulur. Bunun üçün ruh inkişaf etməli, bədən isə idarə olunmalıdır. Caynistlər ruhun mövcudluğunun sübut olunmasına ehtiyac duymurlar. Belə ki, onlar hesab edirlər ki, onun mahiyyəti insanın dərketmə bacarığında üzə çıxır.

Əslində isə caynistlərin ruh haqqında konsepsiyaları haqda dəqiq fikir söyləmək çətindir. Onlara görə ruh bir tərəfdən hiss üzvləri vasitəsilə qəbul olunur, bu da o deməkdir ki, o, maddidir. Ümumilikdə götürüldükdə ruh bədəni canlandıran canlanmış fiziki substansiyadır.

*Karma - Vada* (hərəkət və nəticə). Karma cəzalarını iradi hərəkətlərin nəticəsi hesab edən buddizmdən fərqli olaraq caynizm karma qanunlarını daha geniş mənada, daha dəqiq desək, bütün həyati şəraitlər çərçivəsində nəzərdən keçirir. İnsan, öz üzərində bu qanunun təsirini hətta azad seçim etmədikdə belə hiss edir. Bütün bunlarla yanaşı caynistlər belə hesab edirlər ki, ruh dərk edilə biləcək hər şeyi dərk etmə qabiliyyətinə malikdir, lakin bu dünyada onun imkanları karma şərtləri ilə məhdudlaşır [49, s.145].

Caynizm fəlsəfəsi üç bölmədən – idrak təlimindən, metafizikadan və etikadan ibarətdir.

Caynizmin özünə məxsus idrak nəzəriyyəsi vardır, onlar idrakın beş növünü göstərirlər: mati, şruti, avadxi, manaxparyaya və kevala.

1) Mati hissi qavrayış vasitəsilə əldə edilən adi

idrakdır; bura yaddaş (smriti) və ya da düşünmə (sandjnya), habelə müşahidəyə əsaslanan induktiv (çurita) və deduktiv mülahizə (anomana) daxildir. Mati hissi idrakın ağıllı nəticələnməsini nəzərdə tutur. Əvvəlcə, hissi təsəvvür (darşan) əldə edilir, sonra zəka işə düşür.

2) Şruti (şəhadət) sözlər, simvollar və işarələr vasitəsilə əldə edilən idrakdır. Əgər mati yolu ilə əldə edilən idrak müşahidə və bilavasitə tanışlıq yolu ilə əldə edilirdisə, şruti bizə biliyi təsvir yolu ilə verir. Şrutiya diqqət (bxavana), anlamaq (una yoqa), şeylərin əhəmiyyətini bilmək (nayya) və assosiasiya (labdxi) daxildir.

3) Avadxi - uzaqda və yaxında, keçmişdə və yaxud indiki şeylərin bilavasitə dərk olunmasıdır, yəni vəhy yolu ilə bilik əldə edilməsidir, intuisiya yolu ilə biliyə nail olmaqdır.

4) Manax-paryaya, - başqa insanların fikrini başa düşmək, telepatiya yolu ilə başqalarının fikrini bilməkdir.

5) Kevala - bitkin bilikdir, hər tərəfli bilikdir, substansiyalar və onların bütün modifikasiyalarını əhatə edir, bütün varlıqlar haqqında ətraflı məlumatlar toplusudur. Kevala üçün bütün gerçəklik aydındır, o hisslərdən asılı deyildir, təmiz ruha xas olan idrakdır.

Yuxarıda göstərilən idrak ilk üç üsullu qeyri-dəqiqliyə yol verə bilər, yalnış ola bilər. Amma son iki üsul, Manax-paryaya və Kevala idrak üsulları səhv ola bilməz, onlar həmişə doğru bilik verir, xeyir gətirir, şəri inkar edir. Həqiqi bilik obyekt haqqında doğru bilikdir, deməli, əməli fayda verir.

Caynizmə görə idrak iki cür olur: 1) bilavasitə, təxirəsalınmaz idrak - pratyakşa və 2) bilavasitə, başqa idrak növü vasitəsilə əldə edilən idrak - parokşa.

Beş idrak növündən ikisi - mati və şruti parokşadır, yerdə qalanları isə pratyakşadır.

Adi şüur - Mati hisslərdən asılı olduğuna görə və hiss üzvləri və zəka vasitəsilə əldə edildiyi üçün parokşadır [57, s.239].

Caynistlər şüurdan kənarda yerləşən, qavrayışlar və ağıl vasitəsilə başa düşülən obyektiv gerçəkliyi qəbul edirlər. Şeylərin atributları və əlaqələri təcrübə vasitəsilə əldə edilmişdir. O, təfəkkür və təxəyyülün məhsulu deyildir. İdrak prosesində idrakın obyekti dəyişmir. İdrak obyektlə xarici əlaqədə yaranır. İdrak öz təbiətinə görə fəaldır. İdrakın obyekti (cneya) mən və qeyri-məni əhatə edir. İşıq özünü və başqa obyektləri işıqlandırdığı kimi, idrak da həm özünü, həm də başqalarını nurlandırır və bariz edir. Özünüdərk caynizmin idrak nəzəriyyəsinin əsas xüsusiyyətidir. Darşana (hissi qavrayış) əqli idrakdan əvvəldir.

Caynizmə görə idrakın iki forması mövcuddur. 1) şeyləri olduğu kimi dərk etmək - pramana; 2) Şeyləri əlaqələr prosesində dərk etmək - naya. Naya doktrinası caynizm məntiqinin xüsusiyyətidir. Naya, elə bir nöqteyi nəzərdir ki, onun əsasında biz şeylər haqqında mühakimə yürüdürük. Öz fikrimizi abstraksiyalar vasitəsilə müəyyən edirik və aydınlaşdırırıq. İdrak nisbidir. Bir fikri əsas götürmək, başqa fikirləri inkar etmək deyildir. Upanişadlarda belə bir fikir vardır ki, gerçəklik idrakın müxtəlif mərhələlərində müxtəlif üsullarla açıqlanır [68, s.74].

Caynizmin etik təlimi də maraqlı olmuşdur. Bu təlimin əsasını aximsa prinsipi təşkil edir. Bu prinsipə görə heç bir canlıya zərər vermək olmaz. Şudralara bu dinə etiqad etməyə icazə verilmir. Çünki kəndli yer şumlayarkən torpaqdakı canlıya ziyan verə bilər. Bu isə aximsa prinsipinə ziddir.Vardhamana Mahavira özü 5 həqiqəti təbliğ etmişdir: adam öldürmə, yalan danışma, oğurluq etmə, dünyəvi şeylərə bağlanma, təmizliyini saxla.

Caynizm insan həyatının mənəvi və maddi aspektlərə ayrılmasının mümkünsüz olduğunu göstərir. Onlara görə mənəvi başlanğıcın inkar edilməsi insanın eqosentik olmasına gətirə bilər. Bununla da caynizm fiziki və mənəvi başlanğıcların sıx qarşılıqlı əlaqəsini göstərir, bu da onların fikrincə etik davranış normalarının əsasını təşkil edir.

Caynistlərin etik təliminə görə əsl caynist aşağıdakılara əməl etməlidir: digərlərinə zərər yetirməmək (aximsa), düzgünlük, sadiqlik, gözü toxluq. Onların əsas etik konsepsiyası aximsa hesab olunur.

Buddistlər və hinduizmlə müqayisədə caynistlər digər canlı varlıqlara zərər yetirməməyə çox önəm verirlər, bəzən hətta ifrata varırdılar. Bu ifratçılığa aşağıdakıları misal gətirə bilərik:

1. Onlar bilmədən hər hansı bir həşəratı udmamaq üçün ağızlarını bağlayırlar.

2. Onlar vegeteryan idilər, yəni ət yeməkdən imtina edirdilər. Qeyd etmək lazımdır ki, onlar qida qəbulunu minimum səviyyəyə endirmişdilər, yalnız orqanizmin həyati funksiyasını saxlamaq üçün qida qəbul edirdilər.

Caynistlərin əsas etik keyfiyyətlərini ürəyiyumşaqlıq

və həyati nemətlərə qarşı etinadsızlıq təşkil edir. Caynistlərin etik təlimi üçün ifrat asketizm səciyyəvidir [49, 152].

Həqiqi iman və kamil bilik prinsiplərinə əməl edən caynistlər saleh həyat sürməlidirlər. Saleh həyat sürmək üçün beş əhd edilməli və bu əhdlərə riayət olunmalıdır: zor işlətməmək, canlı məxluqa zərər yetirməmək (aximsa); oğurluq etməmək (astya); zina etməmək (brahmaqarya); tamahkarlıq etməmək (apariqraha); sözlərində səmimi olmaq (satya). Bu əhdlərə əməl edən caynist saleh həyat sürməyə alışır: yaralı və xəstə heyvanlara qayğı göstərir, bitkilərə ziyan vurmamağa çalışır, təknigahlılığa ciddi riayət edir, şərab içmir, ət yemir.

Caynizmin əsas prinsiplərindən biri də mokşadır. Caynizmə görə, qurtuluş üçün mokşa halına nail olmaq üçün karmadan azad olmaq, ruhu materiyadan azad etmək lazımdır. Bunun üçün üç şeyə əməl olunmalıdır:

1. Həqiqi iman (caynizmin düzgün yol göstərdiyinə etiqad).
2. Kamil bilik (caynizmin hökm və prinsiplərini bilmək).
3. Saleh həyat [6, s.28].

Müasir dünyada caynizm öz nüfuzunu qoruyub saxlamışdır. 1970-ci ildən etibarən caynizm Hindistan hüdudlarından kənara çıxmağa başlamış, ABŞ-da, Braziliyada, Kanadada, Keniyada və İngiltərədə geniş yayılmışdır.

## Müstəqil iş üçün suallar

1.Caynizm təliminin meydana gəlməsi

2. Caynizmin inkişafında Mahavira Vardhamananın əsas xidmətləri

3. Caynizmdə civa və aciva substansiyaları
4. Caynizmin idrak təlimi
5. Caynizm brahmanizmdən fərqli cəhətləri
6. Caynizmin əsas cərəyanları
7. Caynistlərin "üç inci" təlimi

**Tapşırıq**

a) Caynizm hansı dinə müxalif olaraq yaranmışdır:
- Brahmanizmə;
- Buddizmə;
- Vişnuizmə;
- Hinduizmə;
- Vedaya.

b) Caynizmin əsas fərqləndirici xüsusiyyəti:
- kasta brahmanlarına qarşı çıxırdı;
- silki fərqləri qəbul edirdi;
- Vedalara əsaslanırdı;
- dualist prinsipli idi;
- yoqaların ruhun “azadolmasının” səkkiz pilləli yolunu qəbul edirdi.

c) Caynizmə görə Kainat:
- əbədi mövcuddur;
- ilkin maddi hissəciklərdən yaranıb;
- maddi və ruhi başlanğıclardan törəmişdir;
- məhv ediləndir;
- materiya ilə formanın vəhdətindən yaranmışdır.

d) Caynizmə görə mokşa halına nail olmağın yolları:
- həqiqi iman, kamil bilik, saleh həyat;
- müqəddəs yazılara istinad;
- Veda dininə etiqad;
- eyş-işrətdə yaşamaq;
- buddizm ehkamlarını mənimsəmək.

e) Caynizmdə beş əhdin səbəbi:
- saleh həyat sürməkdir;
- həzz almaqdır;
- ibadət etməkdir;
- bilik qazanmaqdır;
- dünyanı dərk etməkdir.

ə) Caynistlərə görə materiya:
- əbədidir;
- məhv ediləndir;
- məkan və zamanın zahiri cəhətidir;
- hissi qavranılan maddi varlıqdır;
- maddi hissəciklərin məcmusudur.

### 3. Buddizm fəlsəfəsi

Şimali Hindistanın əhalisinin, demək olar ki, əksəriyyəti eradan əvvəl I minilliyin ortalarında müxtəlif fəlsəfi nəzəriyyələrin bilicisinə çevrilmişdi. Hindistanın bu hissəsində ortodoksal hinduizm təlimi ilə yanaşı, asketik istiqamət kimi lokayatların müxalif təlimi meydana gəlmiş, gedonist materialist mövqedən çıxış etmişlər. Əhalinin bəziləri veda

biliklərinə əsaslanan ortodoksal hinduizm mövqeyindən çıxış edir, digərləri Veda nüfuzunu qəbul etməyən asketik təcrübəyə əsaslanan təlimlərə üstünlük verirdilər. Bu dövrdə yeni dövlətlərin meydana gəlməsi, iqtisadiyyatın, ticarətin inkişafı köhnə ənənələrin zəifləməsinə səbəb oldu. Bu ənənəvi təlimlərdən yorulmuş əhali yeni dini ideyaların yaranmasının labüd olduğunu dərk edirdilər. Çünki hinduizm, brahmanizm, şivanizm, vişnuizm kimi əvvəlki dinlər dövrün tələblərinə cavab verən deyildi. Belə bir şəraitdə yeni dinlərin yaranması üçün mövcud şərait yaranmışdır. Artıq eradan əvvəl VI əsrdə caynizmlə yanaşı, dünyəvi dinlərin ən qədimi olan (xristianlıq və islamdan öncə) buddizm meydana gəlir. Bu, yeni din olsa da, özündən əvvəlki təsəvvürlərdən bəhrələnmiş, qayda-qanunları əxz etmiş, bəzi ehkamları isə qəbul etməmişdir.

Hinduizmlə buddizm arasında fərq nədən ibarətdir?

1) Hinduizm yeganə ilahi reallıq kimi Brahman ideyasını və ruhun ölməzliyi prinsipini qəbul edir. Buddizm isə Brahman reallığını və ali "Mən"i rədd edir. Buddizmə görə mütləq heç nə yoxdur, bütün mövcud şeylər qarşılıqlı əlaqədədir və daim dəyişikliyə məruz qalır;

2) Hinduizm Veda nüfuzunu qəbul edir, buddizm isə hər hansı bir müqəddəs bilikləri inkar edir [49, s.80].

Buddizm kainatın meydana gəlməsinin üç yolunu qəbul edir: aniqqa, anatta, duqha.

Aniqqa – dünyada hər şey dəyişir;

Anatta – bütün varlıqlar yalnız dəyişikliyə məruz qalmır, həm də öz-özünə mövcud olmur. Hər bir predmetin mövcudluğu ətraf aləmdən asılıdır. Buddizm, eyni zamanda

“Eqo”nu – Atmanın mövcudluğunu inkar edir. “Mən” anlayışı reallıqla bağlı deyil, illüziyadır. Buddistlər şəxsiyyətə beş keyfiyyət aid edirlər – fiziki bədən, hisslər, adətlər, istək və şüur. Bu atributlar insana doğulanda verilir ki, bu keyfiyyətlər insanın şəxsiyyətini müəyyən edir.

Duqha – həyat əzablarla doludur və ölümlə nəticələnir. Buddizmin əsas məqsədi duqhanı dəf etməkdən ibarətdir [49, s.85].

Buddizm caynizmlə, demək olar ki, eyni vaxtda meydana gəlmişdir. Bu dinin yaradıcısı Siddhartha Qautama (e.ə. 566-486-cı illər) hesab edilir. O, öz təlimini Şimali Hindistanda təbliğ etməyə başlamışdı. Mənşə etibarilə o, kşatri silkinə mənsub olmuş, şakya tayfasının başçısı Şuddhodhananın oğlu idi. Bu tayfa Qanq çayı vadisinin yuxarı hissəsində-Kapilavastada məskunlaşmışdır. Siddhartha özü əsər yazmayıb, onun fikirləri sonralar şagirdləri tərəfindən qələmə alınmış “Üç pitaka”da (“pitaka”-səbət mənasını verir) əks olunmuşdur. Bu üç kanon “Vinaya-pitaka”, “Sutta-pitaka”, “Abhidhamma-pitaka” adlanır. “Vinaya-pitaka”da əxlaq qaydaları, “Sutta-pitaka”da nəzm və nəsr şəklində yazılmış Budda dini haqqında, “Abhidhamma-pitaka”da isə buddizm fəlsəfəsi haqqında fikirlər yer almışdır. [70, s.176].

Siddhartha insan həyatında baş verən xəstəlik, qocalıq, ölüm haqqında bilik əldə etmək və onların səbəbini axtarmaq, insan həyatını dərk etmək istəyir. O, 29 yaşlarında evi tərk edir. İlk dəfə xəstə adamla, həyatını başa vurmuş qoca ilə, ölü bədənlə və zahidlə qarşılaşır.

Qocalıq - Budda ilk addımında qocalıqla qarşılaşır. Bunun hər kəsin taleyi olduğunu eşidir. Kim olursa olsun,

həyatın bu səhnəsindən keçəcəkdir.

Xəstəlik - Budda ikinci addımda xəstəliyi tanıyır. Hər sağlam adam nə vaxtsa xəstəliyə yaxalanacaq. Kim olur olsun, bu qədərdən qaça bilməz.

Ölüm - üçüncü addımda qədərin son kəlməsi ilə qarşılaşır. Bu elə bir haldır ki, hər həyatın sona çatdığı durumdur.

Sonda Qautama anlayır ki, bütün gördükləri ona da aiddir və o, bu durumlardan yaxa qurtara bilməz.

Həyatın bu dörd halı ilə qarşılaşan Siddhartha insanları əzab-əziyyətdən xilas etmə yollarını axtarır. Altı il zahidlik həyatı sürür, ağır günlər keçirir. Ona əzab verən həyat məsələlərinə cavab tapa bilmir. Sonra tədricən onu düşündürən məsələlər ona aydın olur , həqiqəti dərk etmək yollarını tapır. Ardıcılları ona Budda (Budda "həqiqətlə işıqlanmış", "bilici" mənasını verir) adını verirlər. Budda 40 il təlimini yaymaqla məşğul olur. Onun beş şagirdi ilk buddaçılar olmuşdu. Onları bauddha (Buddanın ardıcılları) adlandırırdılar. İlk budda ardıcılları Budda icmasının əsasını qoyur və Buddanın təlimini yaymağa başlayırlar. Budda 80 yaşında vəfat edir.

Buddizm əvvəlki dini təsəvvürlərdən və təlimlərdən qidalanmışdı. Bir çox məsələlər Veda və brahman dinindən mənimsənilmişdi. Lakin bəzi cəhətlərinə görə bu təlim onlardan fərqlənir. Buddizm ruhun əbədiliyini inkar edirdi. Həyatı əzab-əziyyət sanırdı, dünyanın daima dəyişməsi müddəasına tərəf çıxırdı. Buddizm təliminə görə, əgər dünya daim dəyişir və hərəkət edirsə, deməli ruh (can) da parçalanmaya məruz qalır. Lakin ruh başqa şəxsiyyətə keçmək üçün yenidən yaranır.

Budda filosof deyil, etika müəllimi və islahatçı olmuşdur. O öz təlimində insanların əzab-əziyyətdən xilas olması haqqında fikirlərə geniç yer vermişdir. Buddanın metafizik məsələlərinin əsasında ruhun bədəndən fərqliliyi, ruhun əbədiliyi, məhv olması, sonsuz olması məsələləri dayanır. Budda göstərirdi ki, doqquz məsələ haqqında düşünmək faydasiz bir işdir. Məsələn, "dünya əbədidir və ya əbədi deyil, dünya sonsuzdir və ya sonludur, ruh bədənlə eyniyyət təşkil edir və ya fərqlidir, dərk olunan həqiqət əbədidir və ya məhv olandır, dərk olunan həqiqət eyni zamanda həm əbədi, həm də məhv olandırmı?"

Siddhartha Qautama nəzər-diqqətini insanların əzaba düçar olmaları və bu əzablardan xilas olmanın yolları haqqında problemlərə yönəltmişdir. O, bu məsələlərin həllini "Dörd nəcib həqiqət" adlı təlimində irəli sürmüşdür.

Birinci həqiqətə görə xəstəlik, qocalıq, ölüm, kədər, qəm, istək – bütün bunlar əzabdır, həyat özü şərdir, çünki əzab-əziyyətlə doludur.

İkinci həqiqətə görə, əzab-əziyyət səbəbsiz deyil, bu yaşamaq, kef çəkmək, hakimiyyətə, ağalığa və var-dövlətə sahib olmaq arzusundan doğur.

Üçüncü həqiqətə görə, bu əzab-əziyyətə son qoymaq mümkündür. Bunun üçün arzu və pis ehtiraslardan imtina etmək lazımdır.

Dördüncü həqiqətə görə, əzab-əziyyətə son qoymaq üçüq çıxış yolu vardır. Bunun üçün insan özünü mənəvi cəhətdən təkmilləşdirməli, pis hərəkətlərdən saxlamalı, arzularını boğmaq üçün daxili müvazinətini itirməməli, düz danışmalı, yalan və böhtandan imtina etməli, düzgün əməl

sahibi olmalıdır.

Budda ruhun azadolmasının “səkkiz pilləli yol”unu göstərmişdir: düzgün dərketmə, düzgün qətiyyət,düzgün söz, düzgün əməl, düzgün həyat tərzi, düzgün səy, düzgün niyyət, fikrin müşahidəsi.

Buddizmdə “səkkiz pilləli salehli yol”la bərabər, “10 qayda” qəbul edilirdi: 1)öldürməmək; 2) oğurluq etməmək; 3) əxlaqsızlıq etməmək; 4) yalan danışmamaq; 5) məstedici içkilər içməmək; 6) uyğun olmayan vaxt yemək yeməmək; 7) rəqslərdə və başqa şənliklərdə iştirak etməmək; 8) çələnglərlə, bər-bəzəklərlə və ətirlərlə bəzənməmək; 9) uca və enli yataqda yatmamaq; 10) qızıl və gümüş almamaq. Bu qaydalara əməl edən insan müqəddəsliyin ali təbəqəsinə yaxınlaşır, bodhisatva adını qazanır və o, gələcəkdə budda olmaq iddiasında ola bilər. Hər bir budda bodhisatva olmaq arzusu ilə yaşayır.

Düzgün dərketmə nədir? İnsan Buddanın dünyanın əzablardan ibarət olduğu haqqında söylədiyi fikirlərin düzgün olduğunu dərk etməlidir.

İnsan iztirabın hardan qaynaqlandığını dərk etdikdən sonra qəti qərar qəbul edərək tutduğu yolu müəyyənləşdirməlidir. Ümumiyyətlə, tərkidünyalıq buddizm əxlaqında dərin kök salmışdır. Bu, istək və arzulardan əl çəkmək vasitəsi, zahidlik həyatıdır.

İnsan yalandan, qiybətdən uzaq olmalı, xeyirxah işlər görməli, pis əməllərdən qorunmalıdır. İnsan seçdiyi peşəsi ilə hamıya xeyir gətirməli, mənəvi kamilliyə çatmaq üçün ziyanlı şeylərdən qorunmalı, niyyətini təmiz saxlayaraq, şərdən sağınmalıdır. Düzgün müşahidə apararaq insan, rahatlıq

tapır və şeylərin təbiətini düzgün əks etdirir [54, s.121].

Budda təliminə görə, hər bir dindar yüksək məqsədə çatmalı, əzab-əziyyətdən xilasolma yoluna qədəm qoymalıdır. O, ancaq şəxsi səyi nəticəsində xilasolma məqamına çata bilərdi. Buna görə o, nirvanaya nail olmalıydı. Nirvana həyatın əzab-əziyyətindən azad olmuş insan ruhunun vəziyyəti deməkdir. Nirvanaya çatmış adam bir daha geri qayıtmır, ancaq onun ruhu başqa insana keçə bilər. Nirvana heç də insanı bu dünyada xoşbəxt etmirdi, əksinə o bu dünyada insanı hər bir arzudan, istəkdən, həvəs və ehtirasdan "xilas" edirdi. Nirvanaya çatmaq üçün hər bir kəs ailədən, mülkiyyətdən, var-dövlətdən əl çəkməli və dindarlar icmasına daxil olmalıydı [56, s.355].

Buddizm brahmanizmdən fərqli olaraq cəmiyyətdəki silki fərqləri rədd edir və bütün insanları bərabər hüquqlu hesab edirdi. Çünki mənsubiyyətindən asılı olmayaraq, istər hökmdar olsun və ya rəiyyət, hamısı arzu və istəklərdən doğan əzab-əziyyət içərisində yaşayır.O, göstərir ki, sosial toplumdakı mövqeyindən asılı olmayaraq hamı nirvanaya yüksələ bilər.

Buddizmdə dini mərasimlər keçirmək, qurban kəsmək, dua oxumaq rədd edilirdi. Buddizm allahların mövcudluğunu qəbul edir göstərirdi ki, allahlar da dəyişməyə məruz qalırlar. Budda hamıdan öncə nirvanaya çatdığı üçün allahlardan üstün sayılırdı. Buna baxmayaraq Budda ardıcılları arzu və istəklərinin həyata keçməsi üçün qədim allahlara müraciət edirdilər. Buddizm təliminə görə, qədim allahların özləri də, guya Buddaya sitayiş edirlərmiş [57, s.291].

Bu təlimdə insanların eyni hüquqlu olması barədə

irəli sürülən ideyalar buddizmə marağı artırırdı. Bu baxımdam buddizm get-gedə nüfuz qazanır və geniş ərazilərdə yayılmağa başlayır.

Buddizm ateist dindir, allaha etiqadı və ruhun ölməzliyi ideyasını inkar edir. Buddaya görə, allahlar ali varlıqlar olsa da, mütləq deyildir. İnsan nirvanaya yüksəldikdən sonra allahlardan üstün məqama çatır.

Bu din ehkamlardan azaddır və yalnız şəxsi təcrübəyə üstünlük verir. Buddizm fəlsəfəsi dünyanın intuitiv yolla dərkinin mümkünlüyü fikrini irəli sürür. Bu təlimin əxlaqi-etik qaydaları bütün mövcudatın qarşılıqlı əlaqəsi prinsipinə əsaslanır.

Buddizmdə etik fikirlər davranış qaydaları, iradənin tərbiyəsi və s. müəyyən nəzəri məsələlərlə bağlıdır. Bu təlimdə insan şəxsiyyətinin mənəviyyatı analiz edilir. Etikanın əsasını karma haqqında təlim təşkil edir. Karma qanunu hamıya aiddir. İnsanlar da, heyvanlar da, tanrılar da bu qanuna tabedirlər. Ona görə də insan həyatını elə qurmalıdır ki, "yaxşı karma"sını yaratsın, çünki bu qanuna görə insanlar öz əməllərinə görə həyat nemətlərinə yiyələnə bilərlər.

Karma həm intellektual, həm də iradi xarakterə malikdir. Düzgün fəaliyyət düzgün həyata yol açır, yalan və hiylədən çəkindirir. Budda qeyd edirdi ki, dünyada yeganə dəyərə malik olan insanın xeyirxah iradəsidir. İradə və fəaliyyət zəifləyəndə şəxsiyyət öz fəaliyyətini dayandırır. Ona görə də biz "Mən"i məhv etməliyik ki, o, yenidən başqa formada təzahür etməsin. Budda pis düşüncələrdən sağınmaq üçün beş metod qəbul edir: 1) yalnız yaxşı düşünmək; 2) pis düşüncənin fəaliyyətə keçəcəyindən ehtiyat etmək; 3)

pis düşüncədən yayınmaq; 4) pis düşüncənin yaranma səbəbini axtarmaq; 5) ağılı qorumaq.

Bu beş əlamət insanın təbiətinin ifadəsidir. Buddaya görə mənəvi mədəniyyət həqiqətin dərk edilməsidir [56, s.360].

Buddizmin əsas anlayışları karma, sansara, dharma, duqha, nirvanadır.

Karma insanın şüurlu əməlləridir. İnsanın yaxşı və pis əməlləri hər an şəxsiyyətin formalaşmasına təsir göstərir. Doğum və ölüm - bu bir - birinə əks olan proseslər daim biri - birini əvəz edir. İnsan dünyaya gəlir, böyüyür, qocalır və sonda dünyasını dəyişir. Şüuru, dərrakəsi ilə insan öz karmasını yaradır.

Sansara müxtəlif hallardan keçmək deməkdir. İnsan öləndən sonra həyatı boyu etdiyi əməllərə müvafiq olaraq ya əvvəlki mühitində, ya da daha xoş və ya daha pis bir mühitdə yenidən doğulur. Bu, ruhun bir bədəndən digərinə keçməsidir. İnsan əvvəl hansı həyatı yaşamışsa, öldükdən sonra ruhu başqa bədənə keçir və yenidən həmin həyatı yaşayır.

Dharma düzgün davranışdır. Buddizmdə dharma insanın keçdiyi hər bir inkişaf mərhələsi üçün düzgün davranış mənasını daşıyır. Dharma hər bir insanın alidən (yuxarıdan) müəyyənləşdirilmiş həyat tərzidir. Dharma, həm də buddizm təlimi deməkdir.

Duqha isə narazılıq, iztirab deməktir. Duqha insanın cahilliyindən, biliksizliyindən doğur. İnsan bilmir ki, can atdığı hər şey müvəqqətidir, fanidir. İnsanın həyatda öz “mən”ini təsdiq etmək cəhdi də boş şeydir. Duqhadan yalnız o halda yaxa qurtarmaq olar ki, ağıl fərdiliyin tərkib hissələri

olan bədən, hisslər, hərəkətlər, şüur fonundan azad olmuş olsun.

Nirvananın sanskrit dilindən hərfi tərcüməsi odun sönməsi mənasını verir. Buddizmdə nirvana sansaraya əks haldır - nirvanaya nail olanlar yenidən doğulma və bir mövcudluq formasından başqasına keçmə silsiləsindən yaxa qurtarırlar. Yalnız insan nirvanaya yetişib budda ola bilər. Nirvana ruhani axtarışların son qayəsidir, azadlıq, arxayınlıq halıdır. Nirvana nicat yoludur. Nirvana halına keçənlər sansaraya qayıda bilmirlər.

Buddizmə görə insan həyatının əsas məqsədi nirvanaya yetişmək, kamilləşməkdir. Nirvana elə bir haldır ki, insan o halda istək və şəhvətlərdən azad olur. Bu hala yetişmək üçün bir insan ömrü bəs etmir, odur ki, insanlar öləndən sonra yenidən doğulur, başqa bədənə köçürlər. Bir insanın çoxlu sayda keçmiş həyatı olur. Əməllər sonrakı yenidən doğulanlara təsir edir: rəzil həyat keçmişdəki pis əməllərin nəticəsidir, xoş həyat keçmişdəki yaxşı əməllərin sayəsində mümkün olmuşdur.

Buddizm təlqin edir ki, bütün predmet və hadisələrin maddi və mənəvi olan nə varsa hamısının əsasında xırda hissəciklər (dharmalar) durur. Hərəkətdə olan dharmalar 5 mövcudluq forması əmələ gətirirlər ki, bunların vasitəsi ilə gerçək dünya ilə əlaqə yaranır: Bədən, hisslər, davranışlar və duyğular, şüurun impulsları və əməlləri. Bu beş mövcudluq formasından insan yaranır. Psixi və fiziki amillərin toplusu sayəsində insan 6 hiss üzvü vasitəsilə dünyanı dərk etmək qabiliyyəti əldə edir: görmə, eşitmə, qoxu, dad, lamisə, şüur.

Bunların köməyi ilə insanın hiss orqanları obyektlərlə

əlaqə yaradır. Bu əlaqələr
yeni hisslər doğurur, insanın ömrü doğulmaq və ölmək arasında dövran edir, iztirab keçirir, yenidən doğulur və ölür.

Budda göstərirdi ki, yer üzündə şəxsiyyəti təsdiqləyən bir neçə əlamət bunlardır:

1. Maddənin məcmusu: Bu qrupa dörd ünsür (qatılıq, rütubətlilik, isti və hərəkət) aiddir ki, onlar bir qrup halında analiz edilərək bədəndə cəmləşir. Bunların hər biri də beş duyğu orqanı ilə əldə edilir: gözlər, qulaqlar, dil, burun və dəri.

2. Duyğunun məcmusu: bu ikinci qruplaşmaya xoş və xoş olmayan kateqoriyalar aiddir. Bunlar fiziki və ya zehni orqanların dünyadakı şeylərlə təmas etməsi sonunda ortaya çıxır. Bu kateqoriyalar dadların, qoxuların, lamisənin və bunlara şərik olaraq zehni düşüncələrin, idrakın, şüurun və təsəvvürlərin qarşılıqlı əlaqəsindən doğur.

3. Zehni formaların məcmusu: Bu qrupa idrakda saf - çürük edilən idrak formaları aid edilir: iradə, niyyət, qərarlılıq, diqqətsizlik, sezmə və mənlik duyğusu. Bu formalar, eyni zamanda daha öncə diqqətimizi çəkmiş olan üç zərərli idrak formalarını da özündə birləşdirir: tutqu, cəhalət və nifrət hissləri.

Bu sadaladıqlarımızın üçü də karmanın xəmmaddələridir, çünki bunlar davranışımıza təsir edən mühüm amillərdir.

Buddizmdə nurlanmanın 4 mərhələsi göstərilir: 1) nirvanaya gedən axına qoşulmaq; 2) nirvanaya sahib olmazdan əvvəl axırıncı dəfə bu dünyaya qayıtmaq; 3) bu dünyaya heç qayıtmamaq; 4) ölümdən sonra nirvanaya nail olmaq.

Rahiblərin fikrincə, insanın ən əsas vəzifəsi Buddaya və ya allahlara səcdə etməkdənsə, gündəlik həyatda 5 əxlaqi

qaydaya riayət etməkdən ibarətdir: 1) canlı varlıqları öldürməmək; 2) yalan danışmamaq; 3) oğurluq etməmək; 4) əxlaqsızlıq etməmək; 5) spirtli içki içməmək.

Buddizm fərdi mənəvi təkamül və həyatın mahiyyətini dərindən qavramaq üsuludur. Bu təlimə görə, həyatda hər şey bir-birinə bağlıdır. Buna görə də mərhəmət hissi həm təbiidir, həm də zəruridir. Buddistlərə görə həyatda sükunət yoxdur, hər şey aramsız olaraq dəyişir. Mənəvi təkamülə gedən yol daxili və praktiki əxlaqdan, meditasiyadan və ehtirasların cilovlanmasından keçir.

## Müstəqil iş üçün suallar

1. Buddizmin meydana gəlməsi
2. Buddizmin əvvəlki dini təsəvvürlərdən və təlimlərdən bəhrələnməsi
3. Siddihartha Qautamanın dörd "nəcib həqiqət" haqqında təlimi
4. Buddizm fəlsəfəsində dünya və insane problem
5. Buddizm fəlsəfi məktəblərinin yaranması
6. Buddizmin əsas ehkamları
7. Buddizmin Brahmanizmdən fərqli cəhəti
8. Buddizm fəlsəfəsinə görə nirvanaya qovuşmanın yolları

## Tapşırıq

a)Buddizm təliminin əsasını hansı nəcib həqiqətlər təşkil edir:
- həyat əzabdır, əzabların səbəbi var, ona son qoymaq olar;
- həyat əzablardan ibarət deyil, əzaba son qoymaq olar;
- əzabların səbəbi yoxdur, həyat əzabdır;
- həyat əzabdır, əzabın qarşısını almaq olmaz;

- həyat əzablardan ibarət deyil, əzabın qarşısını almaq olmaz.

b)Buddizm fəlsəfəsində nirvana anlayışının fəlsəfi mənası:
- ruhun mütləq xilası;
- məhəbbət və müdriklik;
- meditasiya;
- doğru niyyət və doğru əməl;
- yenidən doğulma.

c)Buddizmə görə bodhisatva nədir:
- müqəddəsliyin ali təbəqəsinə yaxınlaşmaqdır;
- Atmanın dərkidir;
- ruhun dövr etməsidir;
- ruhun azad olmasıdır;
- ruhun məhv olmasıdır.

d) Buddizmə görə insan həyatının məqsədi nədən ibarətdir:
- nirvanaya yetişmək;
- kamil bilik qazanmaq;
- dünya nemətlərindən həzz almaq;
- karmasını yaratmaq;
- Veda dininə sitayiş etmək.

e)Buddizmə görə predmet və hadisələrin əsasını nə təşkil edir:
- atomlar;
- dörd ünsür;
- ilkin həyatverici hissəciklər;
- mütləq ideya;
- Atman və Brahman vəhdəti.

## Fəsil 4

# Hindistanda ortodoksal məktəblər

### 1. Mimansa-vedanta fəlsəfi məktəbləri

Ədəbi - bədii və fəlsəfi mənbə olan qədim Vedaların nüfuzunu ciddi şəkildə qəbul etmiş və həmin mətnlərin əsasında öz fəlsəfi sistemlərini işləyib hazırlamış qədim hind ortodoksal sistemlərindən olan mimansa və vedanta veda ideyalarını mənimsəyərək onları inkişaf etdirmiş və Vedaların təfsiri ilə məşğul olmuşdur. Bir-birini tamamlayan bu iki məktəb eyni məqsədə-Vedaların nüfuzunu qorumağa xidmət etmişdir.

Bəzən mimansanı purva-mimansa, vedantanı isə uttara-mimansa adlandırmışlar.

1)Purva - mimansa (erkən mimansa) - əsas diqqəti veda təlimləri əsasında ictimai və dini borcun (dharmanm) yerinə yetirilməsinə yönəldir. Bəzən bu istiqaməti dharma - mimansa da adlandırırlar.

2)Uttara - mimansa (sonradan yaranmış təlim) - bu təlimin əsasını gerçəkliyin İlkin Səbəbi - Brahman haqqında nəzəriyyə təşkil edir. Burada əsas diqqət hər hansı bir prinsipin idarə etməsinə deyil, reallığın təbiətinin tədqiqinə yönəldilir. Bəzən bu məktəbi brahma - mimansa da adlandırırlar. Uttara-mimansanı həmçinin altı fəlsəfi sistemdən sonuncusu olan vedanta adlandırırlar.

Purva-mimansa ("erkən-mimansa") termini xronoloji mənada başa düşülmür, vedantaya nisbətdə ilkin variant

hesab edilir. Çünki mimansadan bir qədər sonra vedanta sistemi veda ədəbiyyatında bəzi prinsipləri mənalandırmışdır.

Hər iki məktəbə aid olan mənbələr dəqiq məlum deyildir. İlk dəfə mimansa sisteminin ideyalarının Caymininin «Mimansa-sutra» əsərində verildiyi ehtimal olunur. Bu əsərin qələmə alınmasına qədər həmin ideyalar ağızdan-ağıza şifahi şəkildə ötürülmüşdür.

Lakin həm mimansa, həm də vedanta ardıcılları Vedaları həqiqi biliyin əsası kimi qəbul edirdilər.

Mimansa ardıcılları hesab edirdilər ki, şəxsi həyatda baş verən hadisələr və faktlar şəraitdən asılı olaraq həqiqi və yalandan ibarət ola bilər. Vedalarda toplanmış biliklər isə dünya çərçivəsindən kənardadır.

Mimansa ardıcılları göstərirdilər ki, əbədi təsəvvür qaydalarda, qanunlarda və yazılarda (veda mətnlərində) öz ifadəsini tapmalıdır.

Mimansa veda biliklərinə qarşı dayanmır, əksinə Vedalarda toplanmış məntiqi fikirlərin şərhini verməyə səy göstərir. Vedalar ötəri biliklər sistemi deyildir. Vedalar müəyyən səbəblərin fəaliyyəti mövqeyindən nəzərdən keçirilir.

Mimansa, bu baxımdan Vedalara qarşı durmur, əksinə onun məzmununu məntiqi çəhətdən mənalandırmağa çalışır [49, s.50].

Mimansa sanskritcədən tərcümədə mülahizə, tətqiqat deməkdir. Bu məktəbin yaranma tarixi dəqiq bəlli deyil. Məktəbin banisi təqribən II-III əsrlərdə yaşamış Caymini hesab edilir. Bu məktəbin nümayəndələri əsasən Vedaların təfsiri ilə məşğul olmuşlar.

Mimansa Brahmanizmin böhranına və Vedaların nüfuzdan düşməsinə reaksiya kimi meydana gəlmişdir. Mimansa Vedaların başa düşülməsinə kömək üçün qaydalar sistemi olduğuna görə, onun çox qədimdən təşəkkül tapdığı ehtimal edilir.

Mimansa ardıcılları hesab edirdilər ki, Vedalar sözün tam mənasında, vəhy deyildir və bunlardakı dini və fəlsəfi müddəalar məntiqi əsaslandırma tələb edir. Bu sistemdə "Brahmanlar"ın və "Upanişadlar"ın bir sıra mətnlərinə xüsusilə böyük əhəmiyyət verilir.

Mimansa qədim Vedalara qayıtmağı tövsiyə edir. Bu təlimə görə gerçəkliyin iztirablarından yalnız Vedalardakı tövsiyələrə əməl etməklə xilas olmaq mümkündür.

Mimansa ortodoksal sistem olmasına baxmayaraq, tanrının varlığını qəbul etmir. Bəzi alimlər real olmayan faktları sübut etməyə çalışırlar ki, mimansa veda nüfuzunu qəbul edirsə, ateist sistem ola blməz. Digər alimlər isə mimansistlər tərəfindən tanrının inkar edilməsini böyük qəbahət kimi qarşılamış və bunu onların məhdud cəhəti kimi qiymətləndirmişlər. Sonra dövrün müəllifləri olan Vedanta Deşika və Apadeva tanrı anlayışını mimansaya "gətirmək" istəmişlər. Vedanta Deşika "Mimansa tanrı ilə" adlı əsərində göstərir ki, "tanrı nəzəriyyəsi" ilkin mimansaya yad idi [70, s.97].

İlkin mimansistlərin əsas məqsədi veda ayinlərini qorumaq və ona bəraət qazandırmaqdan ibarət idi. Mimansa məktəbi belə bir nəzəriyyə irəli sürürdü ki, vedalar hər hansı bir şəxs tərəfindən yaradılmayıb. Ona görə də vedalar hər cür səhvdən uzaqdır. Vedalar əbədidir, müstəqildir. Veda-

ların əsaslı mənbə olduğunu sübut etmək üçün mimansistlər ciddi şəkildə işlədikləri idrak təlimini irəli sürmüşlər. Onlar qeyd edirdilər ki, "kifayət qədər şərait olanda bilik; hisslər saglam olanda obyekt və bütün köməkçi şərtlər mövcud olanda qavrayış; kifayət qədər məlumat olanda nəticə meydana çıxır". Ona görə də Vedalar mühüm bilik mənbəyi hesab edilməlidir [68, s.47].

Mimansa da sankhya kimi kainatda mənəvi və maddi başlanğıcların mövcudluğunu qəbul etmişdir. Sonrakı şərh-çilər bu təlimin teoloji tərəfini qüvvətləndirmiş və şəxsi allah ideyasını inkişaf etdirmişlər. Mimansa sankhyaya nisbətən dinlə daha çox bağlı olmuşdur. Mimansa sankhyadan fərqli olaraq iki başlanğıcı-prakriti və puruşanı qəbul etsə də, gerçəkliyin əsasında Allah- Brahmanın durduğunu göstərirdi. Ona görə də dünyanın yaranması, orada baş verən hadisələrin səbəbini hinduizmə əsaslanaraq izah edirdi.

Mimansa mətnlərində Vedalarda göstərilən ayrı-ayrı mərasimlərin şərh edilməsi və bunların çoxlu misallarda göstərilməsi adət halını almışdı. Sonralar mimansa təliminə bir sıra yeni kateqoriyalar da əlavə olunur. Əvvəllər bu kateqoriyalar sistemli şəkildə işlənməmişdir. Sözlər vasitəsilə biliyin izhar edilməsi, dilin, nitqin idrakda mühüm rol oynadığı haqqında fikirlər mimansa təliminin əsasını təşkil edir.

Mimansistlər hesab edirdilər ki, vedalarda irəli sürülən ayinlər təmənnasız, qarşılıq gözlənilmədən yerinə yetirilməlidir. Mimansaya görə dharmaya əməl etmək, fərdin səylərindən azad olması deməkdir.

Mimansa üçün Vedalar idrakın yeganə mənbəyidir. İnsan idrakının əsas vəzifəsi həqiqi biliyin mənbəyindən

faydalanmaqdır.

Bu məktəbin nümayəndələri əsəs fikri Veda ayinlərinin öyrənilməsinə yönəltsələr də, bu sistemdə əsas məqsəd idrak və məntiq məsələlərinin şərhi və təhlilini verməkdən ibarətdir. Mimansaya görə idrakın birinci forması hissi idrakdır ki, bu idrak forması ilə predmetin özü dərk olunur. Sonra əqli idrak vasitəsilə və məntiqi mühakimə yürütməklə predmetin mahiyyəti dərk edilir. Hissi qavrayışın mənbəyi real obyektlərin əlamətləridir.

Ayinləri şüurlu şəkildə yerinə yetirdikdə, tədricən karma məhv olur və ölümdən sonra qurtuluş üçün şərait yaranır. Mimansa ardıcılları göstərirdilər ki, əgər biz, bədən öləndən sonra ruhun da məhv olduğu fikrini qəbul etsək, onda vedaların irəli sürdüyü fikrə qarşı çıxmış olarıq. Vedalarda deyilir ki, ruh əbədidir, ölməzdir və insan öləndən sonra göylərə ucalır. Ruh bədəndə yerləşir və müxtəlif növ idraka malikdir. Sonralar mimansa məktəblərinin birinin yaradıcısı Prabhakara idrakın beş növünü qəbul etmişdir: qavrayış, nəticə, müqayisə, şahidlik, mühakimə [68, s.48].

Mimansa qnoseologiyasının əsasını şeylərin mahiyyətinin düzgün başa düşülməsi, dünyanın əsas mahiyyətinin dərk edilməsi məsələsi təşkil edir. Mimansa ardıcılları göstərirdilər ki, məntiq vasitəsilə həqiqəti üzə çıxartmaq mümkündür, buraya hissi qavrayış (pratyakşa), məntiqi nəticə (anumana), yaxud müqayisə (upamana) daxildir.

Mimansa fəlsəfəsinə görə fiziki dünya real surətdə mövcuddur. Onun reallığı qavrayış əsasında qəbul edilir. Ona görə də bu məktəb realist məktəb hesab olunur. Bu məktəbin ardıcılları, eyni zamanda ruhun real mövcud

olması fikrini də irəli sürmüşlər. Lakin onlar ali ruhun, tanrının dünyanı yaratması fikrini inkar edirdilər. Dünyadakı obyektlər ruhun karmasına uyğun materiyadan təşəkkül tapmışdır [68, s.49]. Ruhun əsas rol oynamasına baxmayaraq, o, formadan məhrumdur. Ruh əvvəlki karmaya uyğun olaraq bədəndə yerləşir və onu idarə edir. Sonradan karmadan azad olmuş ruh reallıq kimi fəaliyyət göstərir. Bu zaman ruh sevincdən və kədərdən məhrum, əbədi mövcud olur. Heç bir şey ruhun yenidən doğulmasına səbəb ola bilməz.

Ruh, eyni zamanda, biliyin dərk olunan obyektidir. Ruh biliyin predmetini və ideyalarını özündə birləşdirir.

Prabhakara mimansa fəlsəfəsində səkkiz element qəbul edirdi: substansiya, quna (keyfiyyət), kəmiyyət, karma, ümumilik, asılılıq, uyğunluq, imkan.

Mimansa təkcə Vedaların mətnlərini mühüm mənbə hesab etmir, habelə bu mətnlərdə fövqəltəbii universal bir substansiya olduğunu, onun mütləq və əbədi olduğunu qəbul edirdi.

Mimansanın ardıcılları Vedaları məntiqi əsas kimi qəbul edir, onlardakı "Brahman" və "Upanişad" mətnlərinə və veda himnlərinə böyük əhəmiyyət verirdilər.

Mimansa metodologiyasının son dərəcə realist və rasionallığı onu qədim hind materializmi ilə yaxınlaşdırmaq üçün əsas verir.

*Vedanta fəlsəfi məktəbi* altı ortodoksal məktəblərin biri olmuş, II əsrdə Badarayana tərəfindən təsis edilmişdir. Vedanta - sanskritcə "vedaların sonu" deməkdir. Vedanta idealist məktəbdir. Bu, Upanişadların əsasında meydana gəlmiş dini-fəlsəfi təlimdir. Vedanta hinduizm fəlsəfəsində

mühüm yer tutur. Vedantanın əsas müddəalarını birinci dəfə Badarayana özünün "Vedanta-sutra"larında şərh etmişdir. Sonralar Vedanta təlimi həmin əsərə və Upanişadlara təfsirlər, izahlar yazılması sayəsində inkişaf etdirilmişdir. Bu təlim Upanişad fəlsəfəsini mənalandırmışdır. Vedanta fəlsəfəsi dörd hissədən ibarətdir. Birinci hissədə (birinci hissə "Sanvaya"adlanır) Brahman haqqında söhbət açılır. İkinci hissədə ("Avirodha"da) müxtəlif fəlsəfi görüşlər təkzib edilir. Üçüncü hissə ("Sadhana"da) canlı varlıqlar, onların müxtəlif vəziyyətləri haqqında, idrakın mənbələri haqqında, ilahi vəhdət haqqında məsələlərə həsr edilmişdir. Dördüncü hissə ("Phaladxyaya") isə Brahmanın dərki məsələlərinə həsr olunmuşdur.

Bu təlimin əsas məqsədi Veda mətnlərinin izahını vermək, ondakı qaydaları mənalandırmaq və şərh etməkdən ibarət olmuşdur. Vedanta, əsasən Badarayananın traktatı əsasında öyrənilir. Badarayana bir neçə vedanta məktəbinin təlimini şərh etmişdir. Orta əsrlərdə Qaudapada, Şankara və Ramanuca (VIII-XII əsrlər) tərəfindən Vedanta fəlsəfəsi inkişaf etdirilmişdir.

Daha sonrakı dövrlərdə Madhva, Vallabha, Nimbarka kimi vedantistlərin yazıları da Vedanta məktəbinin inkişafına böyük fayda vermişdir [57, s.447].

Vedanta monist təlimdir və sankhya fəlsəfəsinə qarşı yönəlmişdir. Badarayananın "Vedanta-sutra" əsərinin bir çox müddəaları sankhya və lokayata əleyhinə çevrilmişdir. Bu təlim dünyanın maddi qüvvələrin təsiri nəticəsində meydana gəldiyini inkar edir, mənəvi substansiya olan Brahmanı əsas götürür, onu mütləq mənəvi substansiya və hər şeyin

başlanğıcı sayır. Vedanta fəlsəfi məktəbi “Upanişadlar”da qəbul olunmuş Brahman - Mütləq Reallıq konsepsiyasına əsaslanır. Vedanta fəlsəfəsində Brahman əbədi həqiqət, dərk olunmayan varlıqdır. Lakin ciddi meditasiya və dualar əsasında ona nail olmaq mümkündür.

Vedantistlərə görə dünya hiss üzvləri vasitəsilə qavranılır. Dünya hadisələri illüziyaların ( mayya - yəni “olmayan şey”; canlı varlığa öz həqiqi təbiətini və allahı unutduran maddi enerji) təsiri ilə, quna adlanan üç keyfiyyətin ( sattva, tamas, racas) köməyi ilə yaranmışdır.

Vedantaya görə hər cür fəaliyyətin (insanın həyatdakı fəaliyyəti üç qunadan asılıdır) həyata keçməsi üçün beş amil vardır: fəliyyət yeri ( bədən), icraçı, müxtəlif hisslər, müxtəlif cür səylər, son nəticə.

Bu beş amil insanın bədəni, ağlı və nitq üzvləri vasitəsilə gördüyü hər cür işin - həm düzgün, həm də səhv işlərinin səbəbidir. Burada “düzgün” və “səhv” anlayışları böyük əhəmiyyət kəsb edir. Düzgün iş müqəddəs kitabların göstərişlərinə müvafiq olaraq yerinə yetirilir, səhv iş isə müqəddəs kitablardakı prinsipləri qəbul etmədikdə baş verir. Lakin hər bir işi tam yerinə yetirmək üçün bu beş amil zəruridir.

Bu beş amili nəzərə almayan insan şeyləri həqiqətdə olduğu kimi görə bilmir. Lakin tanrını ali hökmdar kimi tanıyan insan hər bir işi mükəmməl surətdə
yerinə yetirir. Bu cür insan heç vaxt illüziyanın təsiri altına düşmür.

İnsanı fəaliyyətə sövq edən üç əsas amil bilik, bilik obyekti və bilicidən ibarətdir; hisslər, iş və icraçı isə

fəaliyyətin üç tərkib hissəsidir.

Maddi təbiətin üç qunasına müvafiq olaraq üç cür bilik mövcuddur. Xeyirxahlıq qunası nurlandırır, ehtiras qunası materializmə, cəhalət qunası isə tənbəlliyə və süstliyə aparır.

Aləmdə baş verən hadisələr dünyası xülyadır, bunun səbəbini biliksizlik (avidya) təşkil edir. Biliksizlik nəticəsində dünya gerçəklik kimi görünür. Brahman isə ali mövcudat hesab edilir, İşvara sayılır. Belə dolaşıqlıqlardan, qarmaqarışıqlıqdan çıxış yolu biliklərə yiyələnməkdir, həqiqətə qovuşmaqdır.

Dəyişməyən həqiqi dünya Brahmandır, onun fərdiləşdirilmiş forması insanın ruhudur (atman)dır.

Dünyanı dərk etmək üçün Upanişadların mahiyyətini anlamaq lazımdır.

Badarayana “Vedanta-sutra”da göstərirdi ki, dünya qətiyyən maddi qüvvədən törəməyib, yeganə reallıq Brahmandır.

Vedanta ardıcılları allah və ruh arasındakı əlaqəni fərqli şəkildə izah edirdilər. Bir tərəfdən onlar belə hesab edirdilər ki, ruh və allah tamamilə fərqli anlayışlardır, digər tərəfdən belə bir fikir irəli sürürdülər ki, onlar vəhdətdədirlər [39, s.90].

Vedanta təliminin bilik açarı - Brahmandır, əbədi və mütləq həqiqət, ağıla, zəkaya sığmayan reallıqdır. Brahman fiziki formada ifadə edilir, amma bununla belə dəyişməz qalır. Brahman gerçəkliyin ilk səbəbidir, əbədi və bölünməzdir, ona səbəb-nəticə əlaqəsi kimi baxmaq olmaz.

Elə bir şey yoxdur ki, Brahman olmasın, eyni zaman-

da elə bir predmet yoxdur ki, Brahman hesab edilsin.

Vedantaya görə allah həm təbiətin içindədir, həm də ondan ayrıdır. Bəzən təbiətlə və ya insanla Brahmanın eyniləşdirilməsi panteizmə gətirib çıxarır.

Brahman mütləq həqiqətdir. Hər şeyin ruhudur, dünyanın ruhu, mövcudatın əbədi və əzəli ruhudur. Bu ideya qərb panteistlərinin fikirlərini təkzib etmir.

Bütün deyilənlərdən belə nəticə çıxır ki, Vedanta təlimi hinduizmin sonuncu sistemidir və bu təlim monist xarakter daşıyır.

**Müstəqil iş üçün suallar**

1.Vedanta fəlsəfəsinin ontologiyası
2. Vedanta fəlsəfi sistemində brahmanın dərki və azadolmanın vasitələri haqqında
3. Vedanta ardıcılları dünya haqqında
4. Mimansa təlimində vedalara qayıdış və azadolmanın (mokşa) yolları
5. Mimansanın idrak təlimi

**Tapşırıq**

a) Vedantistlərə görə dünya necə yaranmışdır:
- üç qunanın köməyi ilə;
- puruşanın təsiri ilə;
- dörd ünsürün birləşməsi nəticəsində;
- təbii qanunlar əsasında;
- atomların ayrılması nəticəsində.

b) Vedantaya görə Brahman:
- yeganə reallıqdır;
- səma iradəsidir;
- dünya ruhudur;
- İşvaranın təzahürüdür;
- mütləq ideyadır.

c) Mimansaya görə idrakın vasitələri:
- hissi qavrayış, məntiqi nəticə, müqayisə;
- əqli və hissi idrak;
- duyğular və hisslər;
- analogiya və müşahidə;
- əqli nəticə və duyğu.

d) Mimansa üçün idrakın yeganə mənbəyi nədir:
- Vedalar;
- hisslər;
- predmetlər;
- intuisiya;
- duyğular.

e) Mimansaya görə iztirablardan necə xilas olmaq olar:
- Vedalardakı tövsiyələrə əməl etməklə;
- fəlsəfi əsərlər oxumaqla;
- askerik həyat tərzi sürməklə;
- eyş-işrətdə yaşamaqla;
- ibadət etməməklə.

ə) Mimansanın varlıq təliminə görə:
- gerşəkliyin əsasında Allah-Brahman durur;
- prakriti kainatın ilkin başlanğıcıdır;
- prakriti və puruşa vəhdətdədir;
- Brahman-Atman-aləm dünyanın əsasını təşkil edir;
- Atman-aləm mövcudatın əsasıdır.

## 2. Sankhya-yoqa fəlsəfi məktəbləri

Əvvəlki mövzularda qeyd etdiyimiz kimi, hind fəlsəfi məktəbləri iki istiqamətdə inkişaf etmişdir. Hinduizmə əsaslanan fəlsəfi təlimlər ortodoksal astika (veda biliklərinə əsaslananlar) və müxalif olanlar – qeyri-ortodoksal məktəblər isə nastika adlanır. Birinci qrupa aid olanlar qruplaşma şəklində bu cür göstərilir: sankhya - yoqa, nyaya - vayşeşika, mimansa - vedanta.

Sankhya ən qədim fəlsəfi məktəblərdən biridir. Onun kim tərəfindən yaradıldığı dəqiq məlum deyil. Bəzi mənbələrə görə həmin məktəbin təsiskarı əfsanəvi Kapila hesab olunur. Digər mənbələrdə isə bu məktəbin ardıcılları kimi Asuri, Pançaşikha, Vodxu, Sanaka, Sananda və başqalarının adları çəkilir. Kapila eradan əvvəl Vl əsrdə, Buddadan öncə yaşamışdır. Kapilanın materialist fəlsəfəsi Asuri tərəfindən populyarlaşmış, Pançaşikha tərəfindən geniş yayılmışdır.

“Mahabharata” eposunda, “Çaraka-sanhita” adlı tibbə dair traktatda, “Manu-smriti” qanunlarında, mifoloji Puranalarda sankhyaya aid ehkamlara rast gəlmək olur. Bəzi fərziyələrə görə, qədim “Şaştitantra” traktatında sankhya sistemi haqqında məlumat verilmişdir. Həmin traktat günümüzə

gəlib çatmamışdır. Bu məktəbin şərhi və izahı, əsasən “Şve-taşvatara – upanişad”larda və “Bhaqavad – qita”da verilmişdir. Orta əsrə aid şərhlərdə göstərilir ki, sankhyaya dair ən qədim yazı İşvara Krişnanın “Sankhya-karika” əsəridir. Bu məktəbin fəlsəfi baxışları “Sankhya-sutra”larda öz əksini tapmışdır. Qarbe və Şastri kimi mütəfəkkirlər iddia edirlər ki, bu fəlsəfi məktəb buddizmdən əvvəl meydana gəlmişdir. Sankhya fəlsəfəsinə dair fikirlərə Upanişad məntlərində də rast gəlinir [70, s.158].

“Sankhya” sözünün mənası dəqiq məlum deyildir. Bəzi müddəalara görə sankhya - sanskrit dilindən tərcümədə “say”, “hesablama” deməkdir. Qədim mənbələrdə bu termin bilik, müdriklik mənalarında işlənmişdir.

Bu məktəbin fəlsəfəsi İşvara Krişnanın yazmış olduğu “Sankhya-karika” əsərində daha aydın şəkildə şərh olunmuşdur.

Kapila materialist filosof olmuşdur. Ona görə də onun dünyagörüşü təqib edilirdi. Sankhya Vedanta təliminin əsas rəqibi sayılırdı. Çünki Vedanta sırf monist təlim olduğu halda, sankhya dualist xarakter daşıyır. VIII əsrdə yaşamış və vedanta - advayta təlimini yaratmış Şankara hesab edirdi ki, sankhayanı məhv etməklə bütün düşmənlərə qalib gəlmək olar.

Sankhya fəlsəfəsinin əsas məzmununu iztirab təşkil edir. “Sankhya-karika”da deyilir: “İztirab üç növdür-maddi, əqli, mənəvi”. Bu iztirablar özlüyündə iki yerə ayrılır - fiziki və psixi. Xəstəliklər fiziki iztirablara, istək və arzular psixi iztirablara aiddir. Bu iztirablardan puruşa və prakritinin birləşməsi nəticəsində yaxa qurtarmaq olar [57, s.198].

Sankhyanın fəlsəfəsi bütövlükdə dualist xarakter

daşıyır. Maddi başlanğıc olan prakriti (materiya, təbiət) və mənəvi başlanğıc olan puruşa (ruh - şüur) kainatda iki əsas reallıq, iki başlanğıc kimi qəbul edilir. Sankhyanın ilkin variantı materialist yönümlü olmuşdur. Ona görə burada əsas diqqət prakritiyə yönəlmişdir.

Kapilaya görə dünya heç kim tərəfindən yaradılmamış, tədricən özü-özünə inkişaf etmişdir. Prakriti ilkin səbəbdir, ondan bütün varlıqlar törəyir. Prakriti hər yerdə mövcud olandır, əbədidir, təkdir. İntellekt, ağıl, digər orqanlar prakritinin ilkin nəticəsidir. Puruşa isə hərəkətsizdir, xilas olmağa can atmır. Puruşanın həqiqi qurtuluşu prakriti sayəsində baş verir.

Prakriti şeylərin ilkin maddi səbəbidir, təbiətdir, özünəməxsus materiyadır, əbədidir, müstəqildir, fəaldır, lakin şüurdan məhrumdur.

Prakriti üç qunanın - sattva (aydınlıq, təmizlik), racas (fəallıq, cəhd, ehtiras), tamas (ətalətlilik, zülmət) qunalarının harmoniyasıdır. Bütün şeylər bu qunalardan ibarətdir. Deməli, maddi təbiət, yəni prakriti xeyirxahlıq, ehtiras və cəhalət qunalarından ibarətdir. Sattva - yaxşı, racas isə pis xüsusiyyətli şeyləri yaradır.

Canlı varlıqlar təbiətin müxtəlif qunalarına müvafiq olaraq fəaliyyət göstərir.

Bu səbəbdən də hər cür xoşbəxtlik və bədbəxtliklər meydana çıxır. Məsələn, hər şeydən saf olan təmizlik, aydınlıq, xeyirxahlıq qunası - sattva insanı nurlandırır və günah əməllərdən sağındırır. Bu qunaya sahib olanlar xoşbəxtlik və bilik əldə edir.

Maddi təbiətlə məhdudlaşdırılmış müxtəlif növ canlı

varlıqların bəziləri xoşbəxt, bəziləri fəal, digərləri isə acizdir. Bütün bu psixoloji hallar canlı varlıqların təbiət tərəfindən məhdudlaşdırılması üzündən baş verir.

1. Xeyirxahlıq qunasının təsiri artdıqca, insan başqalarından daha müdrik olur. Xeyirxahlıq qunasında olan insanlar iztirablara bir o qədər də məruz qalmırlar. Veda ədəbiyyatında deyilir ki, xeyirxahlıq qunası insana böyük bilik və böyük xoşbəxtlik gətirir.

2. Fəallıq, ehtiras - racas qunasından saysız - hesabsız arzular və istəklər doğur. Bu qunada olan insan cəmiyyətdə nüfuz qazanmaq, xöşbəxt ailə, yaxşı ev-eşik və var dövlət sahibi olmaq istəyir. Nə qədər ki, insan bu şeylərə can atır, o, ağır zəhmətə qatlaşmalıdır. Ona görə burada aydın şəkildə deyilir ki, insan öz fəaliyyətinin nəticələrinə bağlandıqda, o, bu fəaliyyətin əsarəti altına düşür.

3. Biliksizlik zülmətindən doğan cəhalət qunası - tamas təcəssüm etmiş bütün canlı varlıqları çaşdırır. Bu qunadan ağılsızlıq, tənbəllik və yuxu törəyir ki, onlar insanın fəaliyyətini məhdudlaşdırır.

Cəhalət qunası xeyirxanlıq qunasına tamamilə ziddir. Xeyirxahlıq qunasında olan insan biliyə yiyələnərək, hər şeyi dərk edə bilər, cəhalət qunasında isə əksinə. Cəhalət qunasının təsiri altında insan ağlını itirir, ağılsız insan isə heç nəyi dərk edə bilməz. Bu qunada olan insan öz mənəvi inkişafından geri qalır. Veda ədəbiyyatında göstərilir ki, insan cəhalət qunasının təsiri altında şeyləri həqiqətdə olduğu kimi dərk edə bilmir.

Buradan son nəticə çıxır ki, xeyirxahlıq qunasında olan insan xoşbəxtdir; fəallıq qunası insanı həzz güdən

fəaliyyətə sövq edir; cəhalət, ətalətlilik isə insanın biliyini örtərək onu ağılsızlığa düçar edir.

Bəzən xeyirxahlıq qunası ehtiras və cəhalət qunalarına üstün gəlir. Bəzən ehtiras qunası xeyirxahlıq və cəhalətə üstün gəlir və əksinə. Beləliklə, üstünlük uğrunda daim mübarizə gedir [57, s.202,203].

Beləliklə, sankhya sisteminə görə gerçəklik aydın olmayan maddi substansiyadan yaranmışdır. Bu reallıq quna keyfiyyətlərinin təzahürüdür, lakin bunlar öz - özlüyündə eyniləşdirilə bilməz.

Prakriti kateqoriyasının əksinə olaraq mənəvi başlanğıc - puruşa seyredici xarakter daşıyır. Puruşa öz - özünü seyr edən şüurdur. Puruşa prakritinin iştirakı ilə fəaliyyət göstərə bilər. Puruşa prakritiyə nisbətdə passivdir, lakin şüura malikdir. Puruşa nə yaradıcı olan yüksək allahdır, nə də dünya ruhudur. Bu, əbədi, dəyişməyən fərdilik prinsipidir; istər içərisində mövcud olduğu canlı varlığın həyatının gedişi və istərsə də tam halında götürülmüş kainatın təkamül prosesini seyr edən şüurdur.

Puruşanın mövcudluğu və onun ilkin başlanğıc olması haqqında müxtəlif sübutlar göstərilir.

Qeyd etmək lazımdır ki, puruşa əsas kateqoriya kimi və müstəqil ilahi varlıq kimi (amma faktiki olaraq sankhya fəlsəfəsi ateizmi qabadlamışdır) nəzərdən keçirilmir. Əksinə, puruşa universal və əbədidir, pak şəxsi şüuru (ruhu) əks etdirir.

Puruşanın təsiri nəticəsində prakriti meydana gəlir, bütün baş verən proses əbədi olan puruşanın təsirinin nəticəsidir.

Sankhya kşatrilərin fəlsəfəsi olmuşdur və eramızın XVI əsrində yaşamış Vidcnabxikşunun yaradıcılığı ilə sona yetmişdir [5, s.72].

Prakriti cisimlərin ilkin maddi səbəbidir - təbiətdir, özünəməxsus materiyadır.

Puruşa dünya ruhudur. Bu terminin adi lüğəti mənası insan, kişi, qəhrəman, insan övladı deməkdir. Sankhyada puruşa təkcə ruhdur, özü də dəyişməyən və passiv ruhdur. O, özü - özünü seyr edən şüurdur. Seyredici xarakter daşıyan puruşa prakritinin iştirakı ilə fəaliyyət göstərə bilər. Prakriti puruşa ilə birlikdə olanda fəal qüvvəyə çevrilirlər.

Prakriti özü - özünə mövcuddur, amma hələ təzahür etməmiş bir imkandır. Dünya puruşanın prakritiyə təsiri nəticəsində meydana gəlir. Lakin bu təsir mənəvi təsirdir. Sankhya dünyanın allah tərəfindən yaradılmasını inkar edir. Bu mənada ateist xarakterli Sankhyada göstərilir ki, allahın varlığının sübutu yoxdur.

Dünya yaradılmamışdır, deməli, onun yaradıcısı yox-dur. O, tədricən yaranmışdır. Bu yaranma prosesi təkamül deyildir, yalnız prakritinin (təbiətin) təzahür etməsinin nəticəsidir. Bu təzahür isə fiziki və psixik istiqamətdə baş verir. Fiziki istiqamətdə maddi aləm (maxos), psixik istiqa-mətdə isə ağıl, zəka (budxi), yəni dünya zəkası meydana gəlir. Zəka da öz növbəsində xeyirxahlıq, kamillik təcəssü-mü olan insan ağlı şəklində təsəvvür edilir. Lakin həyatın təzadları nəticəsində budxi (zəka) pozularaq ehtiraslarla culğalaşıb mənfi kefıyyətlərə düçar olur [70, s.162].

Maxos (maddi) və budxi (psixik) arasında cövlan edən Sankhya dualizmi ardıcıl dualizm deyildir, o psixik

tərəfə meyl edir. Hər şey maddiləşmiş dünya zəkasından yaranır. Bu yaranan – “axankara” (yəni maddi aləmi təmsil edən bir varlıq) adlanır. Axankarada sattva, yaxud tamas qunaları üstünlük təşkil edə bilər. Tamas (zülmət) qunası çox olan axankarada hiss üzvlərinin dərk edə bilmədiyi hissəciklərdən beş ilkin ünsür - torpaq, su, hava, od və efir əmələ gəlmişdir. Sattva (aydınlıq) qunasının çox olduğu axankaradan beş qavrayış orqanları və hərəkət orqanları, habelə ağıl – “manas” yaranmışdır.

Beş qavrayış orqanları (görmə, eşitmə, iy bilmə, dad bilmə, lamisə) və beş hərəkət orqanları (ağız, əllər, ayaqlar, ifrazat orqanları, nəsil artırma orqanları) birlikdə on xarici orqanları təşkil edirlər. Budxi (zəka), axankara (özü - özünü dərk edən maddi aləm) və manas (ağıl) daxili orqanlardır. Bunlara beş “tanmatr” və bunlardan törəyən beş “bhutları” əlavə etsək, cəmisi 23 başlanğıc, prakriti və puruşanı da əlavə etsək 25 ünsür alınır. Beləliklə, sankhyada 25 kateqoriya vardır. Bu kateqoriyalar arasında puruşanın xüsusi yeri vardır. Puruşa başlıca kateqoriyadır. O, həqiqi “mən”dir. “Mən” bədənlə eyniləşdirilə bilməz, hisslər, hətta ağıl da “Mən” ola bilməz, bunlar “qeyri - Mən”in formalarıdr [57, s.210].

“Mən” məkan və zaman xaricindədir, bədən və hətta ağıldan da kənardadır. Bizdə əbədi, ölməz və azad puruşa hökm sürür, bu hörmətli hakim fəaliyyətsizdir və heç bir təsirə məruz qalmır. O, iztirab çəkmir. Deməli, insan iztirabdan xilas ola bilər. Sankhya iztirabdan xilas olmanın yollarını öyrədir. Burada sankhyanın qədim hind fəlsəfəsinə xas olan etik yönümü özünü göstərir. Klassik sankhyanın

dualizmi şərtidir, çünki ruh (puruşa) kənarda qalır, sonra isə prakritini təzahür etdirir, maddi aləmin səbəbi kimi çıxış edir. Məşhur "Bhaqavad-gita"da deyilir ki, "Prakriti və Puruşanın... hər ikisinin başlanğıcı yoxdur". Prakriti "tarla" adlandırılır, Puruşa isə "dərk olunmuş tarladır". Belə "tarla" təzahür etməmiş prakritidir, burada qunalar - sattva və tamas bərabər şəkildədir, prakritinin təzahürü bu bərabərliyin pozulması nəticəsində baş verir [68, s.44].

Sankhyanın materialist variantı ilə bərabər sonralar teist forması yaranmışdır. İdealistlər Kapila fəlsəfəsinin zəif cəhətlərini nəzərə alaraq göstərirdilər ki, prakritinin inkişafı nüfuzedici qüvvənin sayəsində baş verir. Sankhya fəlsəfəsi allahın dərkolunmazlığını inkar etmirdi. Teist sankhyaya görə puruşa (ruh) bütün maddi cisimlərdə iştirak edir, hər şeyi görür, eşidir və hiss edir. Prakriti puruşasız təzahür etmir. Sankhyanın teizmi prakriti və puruşanın vəhdətinə əsaslanır. Puruşa və prakritinin vəhdəti Brahman və Atmanın vəhdətinə gətirib çıxarır.

Sankhyanın idrak təlimində xarici aləmin dərkinini üç mərhələsi qəbul olunurdu. Sankhya ardıcılları hissi idraka üstünlük verir və göstərirdilər ki, xarici aləm axıra qədər dərk edilə bilməz. Çünki insanın hiss üzvləri sona qədər gerçəklikdə mövcud olanlar haqqında hər an düzgün informasiya ala bilmir.

İdrakın ikinci mənbəyi əqli nəticə, üçüncüsü isə şrutidir (yəni müqəddəs yazılara istinad).

Sankhya məktəbinin nümayəndələri dünyanı hissi qavrayışın obyekti sayır, digər tərəfdən isə göstərirdilər ki, dünya sona qədər dərk olunmazdır. Bu sübutların əksəriyyəti

səbəb və nəticə əlaqəsinə əsaslanır.

Qədim Upanişad mətnlərində həm sankhya, həm də yoqa fəlsəfəsinin ilkin rüşeymlərini görmək mümkündür. Yoqa fəlsəfi sistemi, demək olar ki, sankhyanın oxşarıdır. Yoqa fəlsəfəsi sankhyanın teist formasına daha yaxındır.

Sankhya "cnyana – yoqa" ("bilik metodu"), yoqa isə "karma – yoqa" ("fəaliyyət metodu") kimi nəzərdən keçirilir.

Sankhya - yoqa, prinsip etibarı ilə klassik sankhyanın metodologiyasından fərqlənir. Sankhya - yoqanın əsas mənbələri Patancalinin "Yoqa-sutra" əsəri və Vyasinin ona yazdığı şərhlər hesab olunur. "Yoqa-sutra" təqribən eradan əvvəl II əsrdən eramızın IV əsrlərinə aid edilir. Bu, idrakın psixofizioloji cəhətdən idarə olunmasına dair ən qədim mənbədir.

Klassik sankhya "cnyana – yoqa"dakı sxemlərə əsaslanır. Təsadüfi deyildir ki, sankhya sözünün etimoloji mənası "say, hesablama" deməkdir. Sankhyada mikro və makrokosmosun quruluşuna uyğun ilkin başlanğıc kimi Prakriti və Puruşa qəbul edilir. Sankhya fəlsəfəsi ilə yoqa fəlsəfəsi arasında böyük fərq yoxdur. Yoqa sankhyanın irəli sürdüyü bir çox fikirləri qəbul etmişdir. Məsələn, dünya heç kim tərəfindən və heç bir zaman kəsiyində yaranmamışdır. Dünya öz inkişafı nəticəsində meydana gəlmiş, daim hərəkətdədir və daim dəyişir. Sankhya sisteminin nümayəndələri kimi, yoqa ardıcılları da qeyd edirdilər ki, intellektdən (buddhi) "mən" yaranmış, "mən"dən ağıl, beş hiss orqanı, beş hərəkət orqanı meydana gəlmişdir [57, s.345].

Yoqa sistemi sankhyanın özünə oxşar və davamı kimi qəbul edilir. Krişna öyrədir ki, mütləq həqiqətin dərk

edilməsinə aparan ən mükəmməl, ən üstün yol "Bhaqti-yoqadır", yəni Uca Tanrıya sədaqətli xidmətdir. Bu yol Tanrı ilə bilavasitə ünsiyyət saxlamaq üçün ən asan yoldur [6, s.24].

Yoqa möminləri Krişnanın şəxsiyyət formasına bağlanmağa çağırır. "Bhaqavad – gita"da Krişna əmin edir ki, Krişnanın şəxsiyyət formasına bağlı olmaq insan üçün daha yaxşıdır, çünki bu halda insan eyni zamanda bütün başqa formaları da dərk edə bilir və heç nə onun Krişnaya olan məhəbbətinə maneçilik törətmir. Ağlını Krişnanın şəxsiyyət formasında cəmləşdirən, Ona inam və sədaqətlə sitayiş edən insan yoqada hamıdan kamil sayılır [2, s.388].

Yoqa sistemi (yoqa sanskritcə - qovuşma, birləşmə deməkdir) təqribən e.ə. II əsrdə Patancali tərəfindən yaradılıb. Hinduizmin əsas müddəalarını qəbul edən yoqa fərdi ruhun ilahi ilə qovuşması prinsipindən çıxır edir. Bu yolda başlıca cəhət insanı əhatə edən real aləmdən uzaqlaşaraq qeybə çəkilmək, mistik vəcd (əldə etmə) və tamamilə huşsuzluq halına gətirib çıxaran təmrinlər sistemindən ibarətdir. Bu təmrinlər çox qədimlərə gedib çıxır. Yoqalar hesab edirlər ki, o vaxtlar belə üsullar fövqəltəbii qüvvələrə sahib olmaq və ya onları özünə tabe etməyə kömək etmişdir.

Yoqa sistemi insanlardan əqli və mənəvi tərbiyəni tələb edir. Bu sistem, əsasən azadlığa aparan dini-fəlsəfi intizam metodundan ibarətdir. Patancali "Yoqa-sutra" əsərində göstərir ki, bu təlim nəzəri əsaslardan daha çox təcrübəyə əsaslanır. Fiziki fəndlər sayəsində insan real gerçəklikdən tamamilə uzaqlaşır, psixoloji təmrinlər vasitəsilə ağlını tərbiyə edir. Patancali göstərirdi ki, yoqa fəlsəfəsi

“Ağlın fəaliyyətinin məhdudlaşdırılması”ndan ibarətdir. Yoqanın əsas vəzifəsi fikri cəmləşdirmək və bu yolda dözümlü olmağı nümayiş etdirməkdən ibarətdir. Burda birinci yerdə dözümlülük, ikinci yerdə isə fikrin cəmləşdirilməsi məsələsi durur. Ağlın həyəcanlı, passiv və dağınıq halları yox olduqda, dözümlülük və fikrin cəmləşdirilməsi halları meydana gəlir.

Yoqanın köməyi ilə min kilometrlərlə məsafədən predmetləri görmək, başqalarının fikirlərini oxumaq, keçmişi və gələcəyi bilmək, ölmüş adamlarla söhbət etmək, uzun müddət suda qalmaq, torpağın altında yatmaq və s. mümkündür.

Yoqa orqanizmi bütün xəstəliklərdən müalicə etməyin və qeyri adi şəkildə sağlamlaşdırmağın metodlarını işləyib hazırlamışdır.

Yoqa fəlsəfəsi psixoloji kateqoriyaları və təcrübəyə əsaslanan davranış qaydalarını öyrənməyi tələb edir. Yoqa sankhya fəlsəfəsinin dualizmindən və əsas kateqoriyalarından istifadə etmişdir. Bədən və ruh (prakriti, puruşa) arasındakı əlaqə, “sağlam bədəndə sağlam ruh” ideyası ilə səciyyələndirilir. Lakin yoqa fəlsəfəsi nəzəri məsələlərdən daha çox konkret psixoloji problemlərlə məşğul olur.

Yoqanın əsas kateqoriyası psixoloji vəziyyətləri nəzərdə tutan “çitta” (“ağıl”) kateqoriyasıdır. Yoqa ardıcılları hesab edirlər ki, hər hansı bir obyekt iztirabın səbəbidir. İnsan tanrının köməyi ilə iztirabdan qurtula bilər. Yoqa çittanın materiyanın təsirindən qurtuluş yollarını öyrədir. Yoqanın əsas məqsədi qunaları-sattva, racas, tamas qunalarını məhv etməkdən ibarətdir. Çitta saf və təmiz halda olanda

puruşa azad olur və puruşa çitta sayəsində xarici aləmlə əlaqəyə girir. Şüur çittada təzahür edəndə çitta bütün obyektlərə nüfuz edir.

Yoqa fəlsəfəsi İşvara adlandırdığı mükəmməl varlığın mövcudluğunu qəbul edir. Öz mahiyyətinə görə İşvara kamildir və yoqa ardıcıllarına sağlam bədənə və sağlam ruha sahib olmaqda kömək edir. Yoqa ardıcılları göstərirlər ki, sağlam ruh maddi bədənin hüdudlarından azad olub asudəlik qazana bilər. Bunun üçün bədəni tərbiyə etmək lazımdır. Patancali "Yoqa-sutra"da ruhun azadolmasının 8 pilləli yolunu göstərir:

1) Çəkinmə (yama) - yoq özünü yemək-içməkdən, istək və şəhvətlərdən şəkindirməyi bacarmalıdır;

2) Əmr və qadağalara əməl etmək (niyama) - yoq özünü zor işlətməməyə, heç bir canlını öldürməməyə, canlıya zərər yetirməməyə, heç kəsi sözlə belə incitməməyə, davranış, fikir və danışığında tam harmoniyaya nail olmağa alışdırmalıdır;

3) Bədənin vəziyyəti (asana) - yoq fikirlərini cəmləşdirmək, bədənini möhkəmlətmək, onu xəstələndirməmək və tez qocaltmamaq, istədiyi kimi idarə etmək üçün zəruri olan təmrinləri yerinə yetirməlidir;

4) Nəfəsalma intizamı (pranayama) - yoq təbii nəfəsalma ritmini məhdudlaşdırmağı bacarmalı, istədiyi kimi idarə etməyi öyrənməlidir;

5) Hisslərin dəf edilməsi (pratyahara) - yoq hisslərini xarici obyeklərin təsirindən arındırmalı;

6) Diqqət (dharana) - yoq həm daxili, həm də xarici

orqanlarına diqqətini yönəltməli;

7) Meditasiya və ya fikri cəmləşdirmək (dhyana) - yoq özündə güclü müşahidə qabiliyyəti tərbiyə etməli, hiss orqanları vasitəsilə diqqətini cəmləşdirməlidir. Fikir toplandıqda daha dərindən dərk etmənin təməli yaranır;

8) Şüurun tutulması və ekstaz, fikrin tamamilə cəmlənməsi (samadhi). Bu sonuncu mərhələdə yoqun ruhani "mən"i - puruşası azad olur, mokşa halı gəlir [57, s.351].

Yoqa sistemini Kapilanın sankhyasından fərqli olaraq, çox zaman teist sankhya adlandırırlar. Tanrı-İşvara əbədi, hər yerdə mövcud olan, hər şeyə nüfuz edən, hər cür naqislikdən azad varlıqdır. Prakriti və puruşa arasında əlaqəni qorumaq üçün mütləq şəkildə mənəvi mahiyyət - ali varlıq mövcud olmalıdır ki, o, da tanrıdır.

Yoqa təliminə görə insan özünü tanrıya həsr etmək üçün təkəbbürdən uzaq olmalıdır. İnsan nəyin ona, nəyin isə tanrıya aid olduğunu dərk etmək üçün biliyini inkişaf etdirməlidir. Bunun üçün Patancalinin irəli sürdüyü "səkkiz pilləli salehli yolu" keçməli və tam bilik qazanmalıdır. O, hər şeyi həqiqətdə olduğu kimi dərk etdikdə xoşbəxtlik və bədbəxtlikdən, həzz və iztirabdan azad olur və tam bilik əldə edir, özünü Uca Tanrıya həsr edir. Veda biliklərini dərk edən insan Tanrını dərk etmiş olur. Bununla yanaşı, yoqa sistemində əsas üstünlük təcrübəyə, metod və təmrinlərə verilir.

Patancalinin qnoseologiyasında idrakın 5 növü qeyd edilir: 1) səhih idrak; 2) yalnış idrak; 3) təxəyyül; 4) yuxu; 5) yaddaş.

Səhih idrakın 3 növü qəbul edilir: hissi idrak, qavrayış və hisslərin məlumatlarını ümumiləşdirən məntiqi nəticə

və şəxsiyyətin şahidliyi.

Yoqanın daha çox yayılmış formaları karma - yoqa, bhakti - yoqa və dhyana - yoqadır.

Yoqaya görə öz “mən”ini dərk etməyə cəhd edən adamlar iki cürdür: bəziləri bunu empirik fəlsəfi mühakimələrin, digərləri isə sədaqətli xidmətin köməyi ilə etmək istəyirlər.

Karma - yoqaya (sədaqətlilik deməkdir) görə özünü dərk etmiş insan təyin olunmuş vəzifələrini yerinə yetirərkən bir məqsəd güdmür və bu işi yerinə yetirməmək üçün də səbəb görmür. O, həm də digər canlılardan asılı deyil.

Buna görə insan gördüyü işin bəhrəsini əldə etmək məqsədi güdməməli, onu bir borc kimi yerinə yetirməlidir. Belə etdikdə o, Uca Tanrıya nail olur.

Mütləq həqiqəti dərk edən insan sədaqətli xidmətlə həzz güdən fəaliyyət arasındakı fərqi anladığı üçün hisslərini razı salmağa çalışır.

İnsan bütün həyatı boyu fəaliyyətini Uca Tanrıya həsr etməli, mənfəət güdməməli, tanrını dərk etməli və sahiblik iddiasına düşməməlidir.

Karma - yoqaya görə bu maddi dünyada hamı müəyyən fəaliyyətlə məşğul olmalıdır. Lakin fəaliyyət insanı ya bu dünyaya bağlayır, ya da ondan azad edir. İnsan Tanrıya həzz vermək üçün xudbin niyyətləri olmadan hərəkət edərək karma qanunundan azad olub, özü və tanrı barədə transsendental bilik əldə edə bilər [2, s.156].

Dhyana - yoqaya (meditasiya, diqqətin cəmləşdirilməsi) görə insan mexaniki meditasiyanın köməyi ilə ağlına və hisslərinə nəzarət edərək bütün diqqətini tanrıya yönəldir

və onu bütünlüklə dərk edir.

Tərkidünyalıq və yoqa, yaxud Uca Tanrı ilə birləşmə eyni şeydir, çünki hissi həzz arzusundan əl çəkmədən heç kəs yoqa ola bilməz. Uca Tanrı ilə əlaqə yaratmaq prosesi *yoqa* adlanır.

Yoqa sistemində ağıl və məhdudlaşdırılmış can xüsusi yer tutur. Yoqa sisteminin məqsədi ağıla nəzarət etmək və onu hiss obyektlərindən uzaqlaşdırmaqdır. Maddi həyatda insan ağlın və hisslərin təsirinə məruz qalır. Ağıla elə təlim keçirilməlidir ki, o, maddi təbiətin parıltısına aludə olmasın, belə olduqda, məhdudlandırılmış can xilas ola bilər.

Yoqa ilə məşğul olmaq üçün insan tənhalığa çəkilməli, yerdəki otun üstünə maral dərisi sərməli, sonra isə yumşaq parça ilə örtməlidir. Oturacaq nə hündür, nə də alçaq olmalıdır. Sonra yoqa düz əyləşməli, ağlına və hisslərinə nəzarət edərək ürəyini təmizləməli, diqqətini bir nöqtəyə yönəldib, yoqa ilə məşğul olmalıdır.

İnsan ağlı və ürəyi ilə tanrıya meditasiya etməli və onu həyatın son məqsədi bilməlidir.

Yoqa məşğələlərinin köməyi ilə əqli fəaliyyətini nizama salıb transsendental səviyyəyə yüksələn, maddi istəkləri olmayan insan yoqa kamilliyinə nail olmuş hesab edilir.

İnsan ağıl vasitəsilə trans halına gəlməli və başqa heç bir şey haqqında fikirləşməməlidir [2, s.274].

Bhakti - yoqa - Tanrıya sədaqətli xidmət, ona saf məhəbbətə nail olmaq üçün ən mükəmməl və əlverişli yoldur. Belə saf məhəbbət həyatın ən yüksək məqsədidir. Bu yüksək yolla gedənlər, özlərində ilahi keyfiyyətlər inkişaf etdirirlər.

Canını bədəndə saxlaması üçün insanın maddi şeylər barədə düşünməsinə ehtiyac yoxdur. Çünki tanrının mərhəməti ilə o, hər şeylə təchiz edilir.

## Müstəqil iş üçün suallar

1. Kapilanın materialist təlimi
2. Sankhya fəlsəfəsinin dualist xatakteri
3. Klassik sankhya
4. Materialist sankhyanı
5. Yoqa sisteminin dini-fəlsəfi təlimi
6. Patancalinin ruhun "azadolmasının" səkkiz pilləli yolu haqqında təlimi
7. Yoqa fəlsəfəsində idrak problemi

## Tapşırıq

a) Sankhya fəlsəfəsinin əsas anlayışları:
- prakriti və puruşa;
- işıq və qaranlıq;
- od və su;
- tanrı və ruh;
- varlıq və yoxluq.

b)Sankhya fəlsəfəsinə görə dünya:
- Allah tərəfindən yaradılmamışdır;
- ilahi hökm ilə xəlq edilmişdir;
- ilk səbəbdən törəmişdir;
- dörd ünsürün birləşməsindən yaranmışdır;
- bölünməz hissəciklərdən törəmişdir.

c)Sankhya fəlsəfəsində idrakın mərhələləri:
- hissi idrak, əqli nəticə, müqəddəs yazılara istina;
- məntiq və hissi idrak;
- hissi qavrayış və təfəkkür;
- duyğu və əqli nəticə;
- müqəddəs yazılara istinad.

d)Yoqa sisteminin əsasını nə təşkil edir:
- praktika, metod və təmrinlər;
- müqəddəs yazılara istinad;
- Veda mətnlərini öyrənmək;
- bitkin biliyə çatmaq;
- kamil iman.

e)Yoqa sistemində səhih idrakın növləri:
- hissi idrak, məntiqi nəticə, şəxsiyyətin şahidliyi;
- duyğu və təfəkkür;
- qavrayış və məntiq;
- müqəddəs yazılara istinad;
- əqli nəticə və duyğu.

ə) "Çitta" kateqoriyasının əsas mahiyyəti:
- potensial psixoloji vəziyyətləri nəzərdə tutur;
- ətalətlilik;
- kədər, sevinc;
- fəallıq;
- təmizlik.

f) Yoqa sistemində ruhun azadolması yolu:
- səkkiz pilləli yol;
- ekstaz halı;
- meditasiya;
- bədən hərəkətləri;
- psixik hazırlıq.

## 3.Vayşeşika-nyaya fəlsəfi sistemləri

Qədim Hind ortodoksal sistemləri olan Nyaya və Vayşeşika təqribən e.ə. IV əsrin sonu - III əsrin əvvəllərində yaranmışdır. Bu məktəblər bir-biri ilə sıx əlaqədə olmuş və zaman keçdikcə vahid sistemə çevrilmişdir. Ona görə də onları ümumi adla - nyaya-vayşeşika adlandırırlar.

Vayşeşika "vişeşa" sözündən əmələ gəlib, sanskritcədən tərcümədə "xüsusiyyət, fərq" deməkdir. Onun təsiskarı müdrik Kanada olmuşdur. Əsl adı Ulukadır. Bəzən onu Kakapusta da adlandırırlar. Onun "Vayşeşika-sutra" əsəri vayşeşika nəzəriyyəsinin ilk sistemləşdirilmiş şərhidir.

Bu sistem Praşastapadanın "Padartha-dharmasaqraha" əsərində xeyli inkişaf etdirilmişdir.

Vayşeşika Vedaların nüfuzunu qəbul etmişdir. Kanada ontoloji təlimində göstərirdi ki, Allah mütləq həqiqətdir, əbədi və sonsuzdur. Allah hər şeyin səbəbi və obyektiv aləmin yaradıcısıdır. O, bunu heçdən, yoxluqdan deyil, əbədi mövcud olan anudan ( məkan, zaman, efir, ağıl, ruh) yaratmışdır.

İlkin vayşeşika sistemində materialist meyl güclü

olmuşdur. Bu məktəbin qəbul etdiyi tezisə görə hər şey daim dəyişir. Bu prosesdə daimi bir ünsür mövcuddur, bu, atomdur ("anu"). Bütün predmetlərin əsasını atomlar təşkil edir. Vayşeşiklərin fikrincə, atomlar əbədidir, məhv edilməzdir və heç kəs tərəfindən yaradılmamışdır. Atomlar müxtəlif keyfiyyətlərə malikdir. Atomların bir qayda olaraq müvəqqəti birləşməsindən canlı və cansız cisimlər əmələ gəlir, bu cisimlər hiss üzvlərində əks olunur. Cisimlərin dəyişib yenidən yaranması atomların mütəmadi olaraq birləşməsi və parçalanması nəticəsində baş verir. Atomlar boşluqda birləşən zaman predmet yaranır, dağıldıqda isə predmetin məhvinə gətirib çıxarır. Atomlar əbədi, bölünməz, gözə görünməzdir, onların hüdudu yoxdur, onlar şar şəklindədir. Lakin həmin atomların kombinasiyaları bütün hüdudu olan cisimləri əmələ gətirir. Atomların birləşməsi özbaşına baş vermir. Onu dünya ruhu idarə edir. Atomların daimi hərəkəti nəticəsində zamanda, məkanda və efirdə mövcud olan dünya vaxtaşırı yaradılır və məhv edilir.

Atomlar keyfiyyətinə görə bir növ duyğu yaradır: lamisə, dadbilmə, görmə, iybilmə, eşitmə.

Kanadaya görə dünya atomların qarşılıqlı təsiri nəticəsində yaranıb. Vayşeşiklərin fikrincə, atomlar əbədidir, məhv edilməzdir və heç kəs tərəfindən yaradılmamışdır. Lakin onların daimi hərəkəti Allahın nəzarəti altındadır.

Atomlar dörd qrupa bölünür:

1) Onlar canlı predmetin və cansız mövcudatın təməlini yaradır;

2) Atomlar mənəvi kosmoqoniya prinsipindən yaranıb;

3) Atomlar dünya fəlakəti axınında yox olur;

4) Kainatın bərpası atomların təkrar bağlanması nəticəsində baş verir, bu işdə ilahi qüvvənin müdaxiləsi olmur [68, s.40].

Vayşeşika bütün mövcudat üçün yeddi kateqoriya müəyyən edir: substansiya, keyfiyyət, hərəkət, ümumilik, məxsusluq, yoxluq, xüsusiyyət. Birinci üç kateqoriya real mövcuddur. Sonrakı dörd məntiqi kateqoriya isə ağlın fəaliyyətinin məhsuludur. İdrak üçün "xüsusiyyət" kateqoriyası (təlimin adı Vayşeşika da buradan götürülüb) mühüm rol oynayır. Çünki bu kateqoriyada substansiyaların real rəngarəngliyi əks olunur. Kateqoriyalar ümumi (samanya) və xüsusi (vişeşa) olmaqla iki yerə ayrılır. Hər bir predmetin tərkibində xüsusi kateqoriyalar mövcuddur və bunlar şeyləri bir-birindən seçməyə imkan verir. Bütün kəmiyyət və keyfiyyət fərqlərinə baxmayaraq bütün cisimlər ümumi mahiyyətə malik olur. Çünki onlar ümumi substansiyadan ibarətdir və bu substansiyaların sayı doqquzdur: torpaq, su, işıq, hava, efir, zaman, məkan, ruh, ağıl. Bu substansiyaların əsasını beş ünsür (su, torpaq, od, hava və efir) təşkil edir. Dörd ünsür atomların birləşməsi nəticəsində yaranır. İlk dörd substansiyanın atomları bütün maddi obyektləri yaradır.

Müxtəlif keyfiyyətlərə malik olan hər bir predmetin, xüsusiyyətin, hətta mürəkkəb quruluşa malik olanın səbəbinin maddi daşıyıcısı substansiyadır ki, bu da su, torpaq, hava, od, zaman və məkandan ibarətdir. Bütün fiziki aləm bu ünsürlərdən yaranır. Bütün kiçik hissəciklər (anular) əbədidir, deməli onlar yaranmayan və bölünməyəndir, onlardan əmələ gələn obyektlər isə keçici, dəyişkən və müvəqqətidir

[49, s.33].

Eradan əvvəl V-IV əsrlərdə yaşamış qədim yunan atomisti Demokrit hələ o dövrdə materiyanın atom quruluşu nəzəriyyəsini yaratmağa cəhd göstərmişdir. Demokritin atomların forması, kəmiyyəti və keyfiyyəti haqqındakı fikirləri vayşeşiklərin fikirləri ilə üst-üstə düşür. Demokrit hələ o zaman göstərirdi ki, atomlar dəyişməzdir, əbədidir, onlar yeni mahiyyət əldə etmir. Dünya sonsuzdur, onun hadisələri, predmetləri, şeyləri meydana gəlir və məhv olur. Dörd ünsür də atomların birləşməsi nəticəsində meydana gəlir.

Lakin vayşeşiklərdən fərqli olaraq, Demokrit göstərirdi ki, kainat heç kim tərəfindən yaradılmayıb və aləmi təşkil edən atomların başlanğıcı yoxdur. Kainatın başlanğıcı atomlar və boşluqdur. Qalan nə varsa fikirdə mövcuddur. Buradan belə nəticəyə gəlmək olar ki, Demokrit sırf materializmin nümayəndəsi olmuşdur. O, göstərmişdir ki, Allahın varlığını haqqında fikirlər insan əqlinin uydurmasıdır.

Vayşeşika məktəbinin nümayəndələri isə ilk səbəb, ilk başlanğıc kimi İlahinin mövcudluğunu qəbul etmiş və göstərmişlər ki, gerçəklikdə bütün canlı və cansızlar atomların birləşməsi nəticəsində meydana gəlsə də, onların yaranma səbəbi Allahdır. Allah gerçəkliyin yaradıcısıdır və o, bunu atomlardan yaratmışdır.

Vayşeşiklər qeyri-maddi substansiyanın mövcud olduğunu qəbul edərək göstərirdilər ki, bu, psixik keyfiyyətlərdən ibarət olan ruhdur (atmandır). Ruh qeyri-maddidir, əbədidir, sonsuzdur. Ruh iki formada mövcuddur:

1) İşvara ( mütləq, yaxud ali ruh), ən kamil, hər şeyə

nüfuz edən ruh;

2) Fərdi ruhlar (atman), bunlar ayrı-ayrı insanların ruhudur.

Vayşeşikanın qnoseologiyası nyaya fəlsəfi sisteminin idrak təliminə çox yaxındır. Vayşeşiklər dörd növ həqiqi idrakın olduğunu göstərir. Həqiqi biliyi qavrayış, nəticə, hafizə və intuisiya verir. Predmetin özu isə hissi idrak vasitəsilə dərk edilir.

Vayşeşiklər idrak təlimində hisslərə üstünlük verərək göstərirdilər ki, hiss orqanları bir-biri ilə əlaqədədir və vayşeşiklər bunu "akaşa" adlandırırdılar.

Ümumiyyətlə, hind fəlsəfəsində ünsürlərin hiss üzvləri ilə bir-birindən asılılığı ideyası sankhyanın epik variantında mövcud olmuşdur. Hələ Budda zamanında belə əlaqə və asılılıq yox idi. Hiss üzvlərinin obyektlərlə belə səciyyələndirilirdi: göz forma ilə, qulaq səslə, dil dadla, dəri toxunma ilə şərtləndirilir. Filosof Praşastapada hər hansı orqana aid olan ünsürlərin mütləq təmizliyini qeyd edir və göstərirdi ki, hər bir orqan müəyyən bir ünsürün atomlarından ibarətdir. Həmin orqan başqa ünsürün atomları ilə qarışa bilməz. Məsələn, vayşeşiklər səsin daşıdığı funksiyadan danışaraq göstərirdilər ki, səs bədənə, obyektə malik deyil, yalnız akaşanın bir hissəsidir ki, bu da qulaqda yaranır. Səsin təbiəti haqqında problemi vayşeşiklər mimansistlərə istinad edərək işləmişlər. Bu iki məktəb arasındakı fərq ondan ibarədir ki, vayşeşiklər səsi keyfiyyət, mimansistlər isə substansiya hesab edirdilər. Mimansistlərə görə səsin əbədi substansionallığı Veda mətnlərinin obyektiv əsası idi. Vedalardakı sözlər sərbəst və insan varlığından asılı olmayan ontoloji təzahür

forması kimi çıxış edirdi. Kanada təsdiq edirdi ki, səs nə substansiya, nə də hərəkətdir, o, keyfiyyətdir. Səsin əbədiliyi prinsipini inkar edən Kanada vedaların da idrak mənbəyi olması fikrini təkzib edirdi. Səs qulaqla qəbul edilir, anidir və öz səbəbi ilə də yox olur [44, s.76].

Praşastapada səsin iki növünü qeyd edirdi: insan nitqinin səsi və küylər. İnsan nitqinin yaranma səbəbi bunlardır:

1) yaddaşın təsiri ilə manasla birləşməsi;
2) səs çıxarmaq istəyi;
3) atmanın ağ ciyərlərin havası ilə birləşməsi;
4) cəhd;
5) ağ ciyərdən havanın çıxması;
6) havanın yuxarıya doğru hərəkəi;
7) havanın qırtlaqla birləşməsi;
8) səs [44, s.79].

Vayşeşiklər göstərirdilər ki, suyun atomları küləyin sayəsində yayılaraq böyük okean yaradır. Torpağın atomlarından böyük yer, odun atomlarından alov əmələ gəlmişdir. Havanın atomlarından isə daima hərəkət edən külək yaranır. Dörd ünsür yaranandan sonra torpağın və odun atomları bir-birinə qarışaraq böyük qızılı yumurta əmələ gəlmiş, bundan da bütün aləm və dörd simalı Brahman yaranmışdır. Brahmanın ağlından insan, bədənindən dörd varna meydana çıxmışdır.

Vayşeşika və nyaya ardıcılları atomların xüsusiyyətlərini qeyd edərək göstərirdilər: atomlar özü səbəbsiz olduğu halda, dünyanın yaranma səbəbidir; əbədidir; tamın hissələrə bölünməsinin məntiqi səbəbidir; hissələrə malik deyil; daxili

və xarici tərəfi yoxdur; ölçü vahididir; dörd ünsürün əsasını təşkil edir; passivdir; fərdilik xüsusiyyətinə malikdir; hiss orqanları vasitəsilə dərk edilmir; yoqaların ali hissləri ilə dərk edilir; özü böyük ölçüyə malik deyil, lakin makroobyektlərin ölçülərinin səbəbidir [44, s.102].

*Nyaya* (sanskrit dilindən tərcümədə nyaya qayda-qanun, ümumiyyətlə məntiq deməkdir) vayşeşika məktəbi ilə bir-birini tamamlayır. Nyayanın meydana gəlməsi əfsanəvi müdrik Akşapada Qautamanın adı ilə bağlıdır.

Nyaya Vayşeşikanın dünya haqqında təlimini qəbul edirdi. Bu təlimdə məntiq və qnoseologiya məsələləri xüsusilə böyük rol oynamışdır. Qautamanın fikirləri II əsrdə yazılmış “Nyaya – sutra”larda verilmişdir. Qautamanın traktatı çoxlu təfsirlərə məruz qalaraq nyayanın çoxsaylı variantlarının meydana gəlməsinə səbəb olmuşdur. Nyayanın məşhur təfsirçilərindən Pakşilasvamin Vatsyayana və Paşupataçarya Bharacanı misal göstərmək olar.

Nyaya təliminə görə atomlardan ibarət olan maddi kainat mövcuddur. Bütün predmetlər atomların birləşməsindən əmələ gəlir. Bu kiçik zərrəciklər dörd ünsürü yaradır və bu ünsürlərin birləşməsi nəticəsində gerçəklikdəki bütün predmetlər meydana çıxır.

Nyaya ardıcılları göstərirdilər ki, dünyanın ilk yaradıcısı mənəvi başlanğıc allah İşvaradır. Allah İşvara ruhların və atomların birləşməsinə və ya ruhların atomlarından azad olmasına səbəb olur.

Hindistanda sillogizm (əqli nəticə haqqında təlim) nəzəriyyəsi ilk dəfə nyaya sistemində işlənib hazırlanmışdır. Bu nəzəriyyə qədim yunan sillogizm nəzəriyyəsindən onunla

fərqlənir ki, burada sillogizm beş üzvdən - müqəddimədən, sübutdan, illüstrasiyadan, sübutun tətbiqindən, nəticədən ibarətdir [70, s.245].

Qnoseologiya məsələləri Nyaya məktəbinin əsas tərkib hissəsindən biridir. Bu fəlsəfi təlimdə idrakın mənbəyi və əsas metodu haqqında məsələlər araşdırılmış və idrakın dörd üsulu qəbul edilmişdir: duyğular, nəticə, analogiya, digər adamların və avtoritetlərin şahidliyi. Nyayada, həmçinin biliyin (padarth) əsas kateqoriyalarının təsnifatı və idrakın yönəldiyi obyektlərin təsnifatı müfəssəl şəkildə işlənmişdir.

Nyayaçılar göstərirdilər ki, həqiqi biliyə ya qavrayış vasitəsilə, ya da məntiqi nəticənin, ya da ki, sübut və müqayisənin köməyi ilə çatmaq olar. Qavrayış duyğu orqanlarından asılı olub, hər hansı bir əşya haqqında bilavasitə bilik əldə etməyə xidmət edir.

Məntiq və etibarlı, həqiqi bilik əldə etmək yollarını tətqiq edən nyaya tərəfdarları hiss etmək, nəticə çıxarmaq, analogiya vasitəsilə əqli nəticə çıxarmağı yüksək qiymətləndirmişlər. Bu mənbələrə sözü də əlavə etmək olar. Çünki vedaların nüfuzlu mətnlərinə istinad etmək faydalı hesab edilirdi.

Sonralar nyayanın materialist qolu yaranmışdır. Materialist nyayaçılar dünyanın dərk olunmasında hissi idraka üstünlük verirdilər. Onlar göstərirdilər ki, predmet duyğular vasitəsilə dərk edilir.

Nyaya məktəblərinin əksəriyyətində beş üzvlü sillogizmdən istifadə edilmişdir. Bunlar misallarla birlikdə aşağıdakılardır:

1) tezis (praticnya) - dağda od var;

2) səbəb (xemu) - çünki tüstü görünür;

3) misal (udaxarana) - harada tüstü varsa, orada od var;

4) applikasiya (upanayana) - lap burada olduğu kimi;

5) nəticə (niqamana) - deməli bu belədir, yəni tezisə uyğundur.

Nyaya tərəfdarları təkcə sillogizm deyil, başqa kateqoriyaları şərh edəndə də misal çəkməyi zəruri sayırdılar. Onların fikrincə misallar tezisləri aşkarlamağa kömək edir [57, s.389].

Nyaya-vayşeşika sistemlərinin ümumi şərhi aşağıdakılardan ibarətdir:

Nyaya qnoseologiya təliminə üstünlük verən məktəb hesab edilir. Bu təlimin tərəfdarları idrak məsələləri ilə məşğul olmuşlar.

Vayşeşika isə varlığın dərkinin metafizik izahını verməyə çalışan məktəb olmuşdur. Vayşeşika idrakın kosmoloji xüsusiyyətlərini təqdim etmişdir. Bu məktəbin nümayəndələrinin əsas işi ondan ibarət olmuşdur ki, onlar əsas elementlərin - od, hava, su, torpağın analoji quruluşunü izah etməyə çalışmış və onların dada, rəngə, iyə və lamisəyə görə dəyişməsinin təsvirini verməyə səy göstərmişlər. Bu təlim gözə görünməz mahiyyətin (paramana) mövcudluğunu qəbul edirdi. Bu mənəvi mahiyyət bütün gerçəkliyin əsasını təşkil edir. Bu fəlsəfi sistemin əsasında şəxsi təcrübə dayanır ki, bu da hisslərlə əldə edilir. Əldə edilən təcrübə analogiya yolu ilə, həmçinin də şifahi təsvir vasitəsilə dərk etməni-padart-

xanı təzahür etdirən kateqoriyanı müəyyən edir. Bu kateqoriyalar yuxarıda qeyd etdiyimiz kimi, yeddidir. Bu yeddi kateqoriya realdır. Başqa sözlə desək, empirik yolla əldə edilən nə varsa, hamısı realdır. Obyektlər bir- biri ilə qarşılıqlı əlaqədə olduğu üçün onların konkret xassələri haqqında məlumat əldə etmək asan olur.

Nyaya-vayşeşika fəlsəfəsinin qərb empirizmi ilə ümumilikləri və oxşarlıqları çoxdur. Real olan odur ki, onu dərk etmək və təsvir etmək mümkün olsun. Başqa hər hansı bir təzahür forması real deyil. Nyaya- vayşeşika sistemlərindəki “atomist” fikirlərin, demək olar ki, tam uyğunluğu ilə yunan filosofları Levkipp və Demokrit də işləyib hazırlamışlar. Sonralar atomlar haqqında fikirlər qərb filosoflarının fəlsəfəsində öz inkişafını tapmışdır.

Nyaya-vayşeşika sisteminin fəlsəfəsi predmetlərin keyfiyyət xassəsinə əsas diqqət yetirir və buna reallıq kimi baxır. Məsələn, hər bir ağac müəyyən zaman müddətindən sonra yaşıllaşır, yəni konkret keyfiyyətə malik olur və öz növbəsində sərbəst kateqoriyaya çevrilir.

Şərq və Qərb fəlsəfəsində ümumilik ondan ibarətdir ki, predmet ilkin və obyektiv reallığa malikdir. Burdan belə bir sual ortaya çıxır: ideyalar həqiqi və real olur, yoxsa bunlar yalnız predmetlərin adıdır?

Bəs nyaya-vayşeşikanın Atman haqqında nəzəriyyəsi nədən ibarətdir? Bədən, əql və hisslər Atmandan asılıdır, çünki Atman ruh verəndir. Bəs insan Onu necə dərk edə bilər? İnsan özünü Atmanla eyniləşdirə bilərmi? İnsan öz “mən”indən ayrılaraq Onunla birləşir və onu dərk edir. Burdan belə qənaətə gəlmək olar:

1) Hər hansı bir nəticə ona uyğun səbəbdən doğur;

2) Mövcud aləm başqa cür deyil, nəticə kimi meydana çıxır;

3) Dünya səbəbdən, Tanrıdan doğur

X əsrdə yaşamış böyük filosof Nyana Kusamancali özünün "Udayana" əsərində Uca Tanrının mövcudluğunun üç sübutunu vermişdir:

1) Əgər insanlar Tanrı sözünü işlədirlərsə, onlar böyük, mənalı məsuliyyət daşıyırlar;

2) Bu anlayış hansısa mövcudluğun ifadəsidir;

3) Beləliklə, Uca Tanrının mövcudluğu heç bir şübhə doğurmur. [49, s.39].

Digər hinduizm məktəbi kimi nyaya - vayşeşika mokşa (yəni dünya əzablarından yaxa qurtarmaq) nəzəriyyəsinə də diqqət yetirir.

Mokşa halına çatmaq üçün qeyri-adi dərrakəyə və gücə malik olmalısan. Bu sistem əqli bilik və təcrübi yolla azad olmanın qaydalarını izah edir.

Ümumiyyətlə, bu fəlsəfi sistemlər bu və digər tarixi şəxsiyyətin ideyalarının təbliği ilə deyil, qnoseoloji və məntiqi məsələlərlə məşğul olmuşlar. Ona görə də bu məktəblərin ideyaları iki min ilə yaxındır ki, inkişaf edir və yayılır.

**Müstəqil iş üçün suallar**

1. Kanadanın atomist nəzəriyyəsi
2. Vayşeşika ardıcılları substansiya haqqında
3. Nyayanın yaradıcısı Qautamanın "Nyaya-sutra" əsərinin materialist istiqaməti
4. Vayşeşika fəlsəfəsində Allah və dünya problemi

5. Vayşeşikanın idrak təlimi
6. Nyaya fəlsəfəsində məntiq məsələləri

**Tapşırıq**

a) Kanadaya görə Allah:
- Mütləq həqiqətdir;
- dərk ediləndir;
- məkanda və zamanda məhduddur;
- prakriti və puruşanın vəhdətidir;
- yoxluqdur.

b) Vayşeşika fəlsəfəsinə görə dünya necə yaranıb:
- atomların qarşılıqlı təsiri nəticəsində yaranıb;
- yaradılmamışdır, əbədidir;
- ilk səbəbdən törəmişdir;
- ilahi hökm ilə yaradılmışdır;
- materiyadan təbii qanunauyğunluqla yaranmışdır.

c) Vayşeşikaya görə real mövcud olan kateqoriyalar hansılardır:
- substansiya, keyfiyyət, hərəkət;
- kəmiyyət, substansiya, yoxluq;
- xüsusiyyət, ümumilik, hərəkət;
- yoxluq, məxsusluq, ümumilik;
- ümumilik, xüsusiyyət, yoxluq.

d) Nyaya təliminə görə idrakın üsulları:
- duyğu, nəticə, analogiya, avtoritetlərin şahidliyi;
- qavrayış, təfəkkür, hiss üzvləri;
- hafizə, duyğu, analogiy;
- yaddaş, təfəkkür, qavrayış, nəticə;
- intuisiya, müqəddəs yazılara istinad.

e) Nyaya-Vayşeşikaya görə mokşa halının qaydaları:
- əqli bilik və təcrübi yol;
- təmrinlər və intuisiya;
- duyğular və hisslər;
- təxəyyül və təfəkkür;
- hafizə və qavrayış.

## Fəsil 5

# Qədim Çin fəlsəfəsi

### 1. Çində fəlsəfi ideyaların meydana gəlməsi

Çin qədim tarixə, mədəniyyətə, fəlsəfəyə malik olan bir ölkədir. Qədim Çin mədəniyyəti eradan əvvəl üçüncü minilliyin sonu, ikinci minilliyin əvvəllərindən başlayaraq eramizin üçüncü əsrinə qədər olan dövrü əhatə edir. Bu dövr üç inkişaf mərhələsi keçmişdir. Birinci mərhələ eradan əvvəl XVIII- XII əsrləri əhatə etmişdir. Bu mərhələdə Şan- in dövləti mövcud olmuş, qəbilə ittifaqları yaranmış, təsərrü-fatda quldarlıq münasibətləri hökm sürmüşdür. Döyüşlərdə əsir tutulan qul əməyindən maldarlıqda, müəyyən qədər əkinçilikdə, həmçinin ev təsərrüfatında və tikintidə istifadə olunurdu. Həmin dövrdə əkinçilikdə qan qohumluğuna əsaslanan icmalar (patronomiya) mühüm rol oynayırdı.

İkinci mərhələ eradan əvvəl XII-III əsrləri əhatə edir. Bu, Çjou dövrü adlanır. Çjou tayfaları qərbdən köç etmiş, hələ eradan əvvəl XVI əsrdə Xuanxe çayı sahillərində məskunlaşaraq maldarlıq və əkinçiliklə məşğul olmuşlar. Bu mərhələdə leqo adlanan şəhər-dövlətlər meydana gəlmişdir. Eradan əvvəl XI əsrdə Şan-in Cjou imperiyasının tərkibinə daxil olmuşdur. Mu Vanın hakimiyyəti dövründə (e.ə. X əsr) ilk cəza qanunları yaradılmışdı. Çjou dövlətində yeni ibadət forması – “Ali allah” hesab edilən Səmaya sitayiş forması meydana gəlmişdir. Çjou hökmdarı “Səmanın oğlu” hesab edilirdi.

Üçüncü mərhələ isə eradan əvvəl III və eramızın III əsrlərini əhatə etmiş və İmperiya dövrü adlanmışdır. Həm Şan- in mərləsində, həm də Çjou sülaləsi dövründə dini-mifoloji dünyagörüşü hökm sürürdü. Qədim Çində dünya və insan haqqında təsəvvürlər özünəməxsus şəkildə inkişaf etmişdir. Misirdə, Babilistanda, Hindistanda olduğu kimi, Çində də fəlsəfi fikirlər miflərin, əsatirlərin əsasında meydana gəlmişdir. Çin miflərinin əsas fərqləndirici cəhəti ondan ibarət olmuşdur ki, oradakı allahlar və ruhlar zoomorf xarekterli idi. Ona görə də qədim Çin allahlarının əksəriyyəti yarımheyvan və yarıminsan şəklində təsvir olunurdu. Çin allahlar panteonunda əsas yeri Şan-Di tuturdu. Bütün allahlar və ruhlar ona tabe idi. Bütün təbiət hadisələri-külək, yağış, şimşək və s. ruhlar onun iradəsi qarşısında aciz hesab olunurdular [13, s.498].

Ümumiyyətlə, Çin mədəniyyəti dinlə, əsatirlərlə, miflərlə bağlı olmuşdur. Çin mədəniyyəti təcrid olunmuş şəkildə inkişaf etmişdir. Hələ qədim zamanlarda Çində yaranmış əsərlərdə müdrik hökmdarlar haqqında, dövlət idarəçiliyi haqqında, insanların qarşısında duran vəzifələri və məsuliyyətləri haqqında fikirlər öz əksini tapmışdır. Qədim çin əsatirlərində əcdadların ruhuna pərəstiş, qəhrəmanlara etiqad mühüm yer tuturdu. Miflərdə, dünyanın meydana gəlməsi, təbiətin yaranması haqqında fikirlər öz izahını tapırdı.

Çin dünyagörüşündə dünyanın yaranışı haqqında müxtəlif rəvayətlər mövcud olmuşdur. Məsələn, əsatirlərdə göstərilir ki, guya hələ ən qədim dövrlərdə nə səmanın, nə də yerin mövcud olmadığı bir vaxtda kainat formasız, qarma-qarışıq, qaranlıq şəklində olmuş, həmin formasız qaranlıqda

xırda hissəciklər xaos şəklində hərəkət etmişdir. Kobud, çirkli, ağır hissəciklərlə incə, yüngül, təmiz hissəciklər tədricən bir-birindən ayrılmışdır. Yüngül hissəciklər yuxarıya doğru, ağır hissəciklər isə aşağıya doğru hərəkət edərək iki başlanğıcın (yaxud allah) - İn və Yanın meydana gəlməsinə səbəb olmuşdur. Yan ruhu səmanı, İn ruhu isə yeri idarə etməyə başlamışdır. İn və Yan qaranlığın kobud hissəciklərindən heyvanları, quşları, balıqları və digər canlıları, yüngül hissəciklərdən isə insanları yaratmışlar.

Sonrakı dövrlərdə İn və Yan kainatın yaranması və inkişafında mühüm rol oynayan qüvvələr kimi təqdim edilmışdir.

Digər mifə görə isə ilk mifik insan olan Pan- qu balta ilə qaranlığa zərbə endirir və nəticədə bütün yüngül və təmiz olan hissəciklər yuxarı qalxaraq səmanı yaradır, ağır və çirkli hissəciklər isə aşağı enərək yeri yaradır. Kainatın mənşəyi haqqında miflərdə naturfəlsəfənin ilkin, bəsit rüşeymləri özünü göstərir.

Hələ eradan əvvəl XVIII əsrdə mancur sülaləsi dövründə böyük imperator kitabxanası mövcud olmuş və burada tarixə, fəlsəfəyə, incəsənətə dair ədəbiyyatlar toplanmışdır. Eradan əvvəl V- III əsrlərdə yaşayan filosoflar tez- tez miflərə müraciət etmiş, həqiqi idarəçilik və insanın davranış qaydaları haqqında öz konsepsiyalarını yaratmışlar. Ona görə də bir sıra mifoloji obrazların sonrakı fəlsəfi traktatlarda mühüm yer tutması heç də təsadüfi deyildir.

Eradan əvvəl VI əsrdə əfsanələr yazıya köçürülmüşdür. Şifahi şəkildə nəsildən nəslə ötürülən miflər tədricən bambuq lövhələr üzərində yazılmış və tarixin bir

hissəsinə - fəlsəfi ideyaların və təlimlərin tərkib hissəsinə çevrilmişdir.

Eradan əvvəl VI-II əsrlərdə Çin zehniyyatının klassik kitabları meydana gəlmişdir. Bu kitabların bəzisi – poeziyaya, tarixə, qanunvericiliyə və fəlsəfəyə həsr olunmuşdur. Bəzi çin filosofları bu kitabların əksəriyyətinin Konfusi tərəfindən tərtib edildiyi fikrini irəli sürürdülər. Lakin, digər mütəfəkkirlər hesab edirlər ki, Konfusi həmin kitablara sadəcə şərhlər yazmışdır.

Yazılı abidələrin ən qədim nümunələri olan "Beş kitab" ("U-szın") çin zehniyyatının əsas mənbələri hesab edilir. Bu kitablar "Dəyişikliklər kitabı" ("İ-szin"), "Nəğmələr kitabı" ("Şi-szin"), "Tarix kitabı" ("Şu-szin"), "Adətlər kitabı" ("Li-szin") və "Lun-yuy" salnaməsindən ibarətdir. Bu kitabların bir çox hissəsi qədim miflərə əsaslanır. Həmin əsərlərdə İn və Yan qüvvələri haqqında, ilkin başlanğıc haqqında, beş ünsür haqqında fikirlər öz əksini tapmışdır.

"Dəyişikliklər kitabı"nda fəlsəfəyə qədər mövcud olmuş klassik nümunələr geniş yer almışdır. Bu əsərdə təbiətin, əcdadların və insanın substansional-genetik eyniliyi prinsipi fəlsəfi cəhətdən nəzərdən keçirilir. Kitabda dünya və insan haqqında təsəvvürlər, xüsusilə əsatirlərdən fəlsəfi təfəkkürə keçid prosesi əsk olunmuşdur. Burada qədim ontoloji və qnoseoloji problemlər də öz şərhini tapır. "Dəyişikliklər kitabı"nın əsasını genetik köklər – kişi və qadın başlanğıcları - Yan və İn qüvvələri təşkil edir. Kitabda İn və Yan qüvvələri haqqında məlumat verilir. İn və Yan müsbət- mənfi, işıq-qaranlıq, qadın-kişi kimi təsəvvür edilir və göstərilir ki, bu qüvvələr qarşılıqlı əlaqədədir və kainatın

inkişafına kömək edir.

Ritorik nəsr üslubunda yazılmış “Tarix kitabı”nda tarixə, topoqrafiyaya dair fikirlər təsvir olunmuşdur. Bu kitabın “Xun fan” (“Böyük plan”) fəslində ilkin başlanğıclar - su, od, metal, torpaq, ağac kimi ünsürlər qəbul olunur və göstərilir ki, birinci başlanğıc-su, ikinci-od, üçüncü- ağac, dördüncü- metal və beşinci- torpaqdır [10, s.217].

“Nəğmələr kitabı”nda isə daha çox insan, təbiət, flora və fauna haqqında məlumatlara rast gəlinir.

“Adətlər kitab”ında isə dövlətin əxlaq qanunları çərçivəsində idarə olunması haqqında sosial-fəlsəfi nəzəriyyə irəli sürülmüşdür.

Çində fəlsəfi ideyalar hələ eradan əvvəl VIII-VII əsrlərdə yaranmağa başlamış və öz mənbəyini miflərdən, əsatirlərdən götürmüşdür. Çin fəlsəfi fikri beş kitab əsasında formalaşmışdır. Çin fəlsəfəsinin əsas mərkəzi problemi insan, təbiət, cəmiyyətin əlaqəsi məsələlərindən ibarətdir.

Qədim Çin fəlsəfəsində bütün təbiət canlı hesab edilir, hər bir predmetin, hadisənin özünün ayrıca ilahi hamisi qəbul olunurdu. Axirət dünyasına inam, əcdadların ruhuna pərəstiş qədim çin xalqının əsas xüsusiyyətlərindən biri idi. Ölmüş əcdadların ruhuna hörmət sonralar tədricən soy köklərinə pərəstiş etmək ayininin meydana gəlməsinə səbəb olmuşdur. Bu isə qədim çin təfəkkürünün mühafızəkarlaşmasına gətirib çıxarmışdır. Ruhlar insanların davranışına və fəaliyyətinə təsir göstərən bir qüvvə kimi təsvir edilir [5, s.79].

Qədim Çin fəlsəfəsində müdriklərə hörmət etmək qayda halını almışdır. Çin filosofları öz yaradıcılıqlarında

müdriklərə müraciət etmişlər. Cəmiyyətin, dövlətin idarə olunması haqqında fikirlər fəlsəfi fikrin inkişafına zəmin yaratmışdı.

Çin mədəniyyəti ümumbəşəri mədəniyyətin inkişafına böyük təsir göstərmiş, fəlsəfi, dini, etik-estetik, iqtisadi-siyasi prinsiplərin yaranmasında, formalaşmasında mühüm rol oynamışdır.

Çində fəlsəfi ideyalar eradan əvvəl VIII-VII əsrlərdə yaranmağa başlamış və öz mənbəyini miflərdən, əsatirlərdən götürmüşdür. Qədim çin fəlsəfəsinin əsas xüsusiyyətləri bunlardır: Çini dünyanın mərkəzi kimi qəbul etmək; tarixi hadisələri dövrlü proses kimi dərk etmək; Səma və Yer qarşısındakı məsuliyyəti dərk etmək; insanı, təbiəti, kosmosu vahid tam kimi qəbul etmək; fərdin kollektivlə birgə fəaliyyəti, ondan ayrılmaması; təbii fəlakətlər qarşısında insan gücünün acizliyini anlamaq; kollektiv əmək formalarından istifadə etmək; dövlətə, hökmdara hörmət və onun qarşısındakı məsuliyyəti dərk etmək; şəxsiyyətin, cəmiyyətin, dövlətin vahid bütövlüyünü qəbul etmək; hökmdara itaət, onun şəxsiyyətini ilahiləşdirmək; qarşılıqlı münasibətdə səbirli və ehtiyatlı olmaq; axirət dünyasına inam; əcdadların ruhuna etiqad etmək; valideynlərə hörmət etmək [1, s.22].

**Müstəqil iş üçün suallar**

1. Dünyanın və insanın yaranması haqqında qədim Çin mifoloji təsəvvürləri
2. Çin zehniyyatının klassik kitabları
3. Çində fəlsəfi təfəkkürün formalaşması
4. İlk fəlsəfi təsəvvürlər

**Tapşırıq**

a) Çin miflərinin fərqləndirici cəhəti nədən ibarətdir:
- allahların və ruhların zoomorf xüsusiyyəti;
- hadisələrin real əks etdirilməsi;
- allahların formasız təsviri;
- yalnız insanların iştirakı;
- nəsr şəklində yaranması.

b) Qədim dövr Çində qəbul edilmiş dünyanın beş maddi əsası hansılardır:
- su, od, ağac, metal, torpaq;
- od, hava, su, torpaq, efir;
- ağac, efir, hava, od, su;
- od, torpaq, su, metal, efir;
- hava, metal, efir, ağac, torpaq.

c) "İ-Szın"ın nəzəriyyəsinə görə dünya necə yaranıb:
- in və yan qüvvələrinin qarşılıqlı təsirindən yaranıb;
- beş ünsürün birləşməsindən meydana gəlib;
- atomlardan yaranıb;
- Tanrının hökmü ilə xəlq edilib;
- təbii qüvvələrin təsirindən yaranıb.

d) Qədim Çində fəlsəfi ideyaların tərkib hissəsi nədən ibarətdir:
- rasionallaşdırılmış miflərdən;
- nağıllardan;
- təbiət elmlərindən;
- dini kitablardan;
- fəlsəfi əsərlərdən.

## 2. Qədim Çin fəlsəfi məktəbləri

Qədim Çin mədəniyyəti zəngin bədii-estetik ənənələri özündə ehtiva edən əsatir və miflərdən bəhrələnərək inkişaf yolu keçmişdir. Çin mədəniyyəti digər mədəniyyətlərdən fərqli olaraq elmi xarakter daşımışdır. Hələ eradan əvvəl birinci minilliyin ortalarında Çində etik, estetik, fəlsəfi fikirlər təşəkkül tapmış, dövlətin idarə olunmasına dair təlimlər meydana çıxmışdır. Ən qədim dövrlərdə çin təfəkkür tərzində kainat haqqında, canlı və cansız təbiət haqqında, dünya və insan haqqında düşüncələr mifoloji tərzdə şərh edilmişdir. Zaman keçdikcə isə əfsanəvi və fantastik düşüncə elmi izahını tapmışdır. Çin əsatirləri min ilə yaxın bir dövr ərzində zaman-zaman yaranmışdır. Həmin əsatirlər müxtəlif müəlliflər tərəfindən "Dağlar və dənizlər kitabı"nda toplanmışdır. Bəzi tədqiqatçıların fikrinə görə bu kitab bir neçə hissədən ibarət olmuş və müxtəlif dövrlərdə yazılmışdır. Məsələn, "Dünyanın beş tərəfindən dağlar kitabı" adlanan birinci hissə e.ə. VIII-VII əsrlərdə, "Dəniz arxasında yerləşən şimal torpaqları kitabı" e.ə. V-III əsrlərdə, "Böyük səhralar kitabı" isə e.ə. III-II əsrlərdə yazılmışdır. Bu əsatirlər hələ Çjou dövründən yaranmağa başlamışdır [10, s.227].

Hələ qədim zamanlardan dünyanın meydana gəlməsi, insan və təbiət münasibətləri haqqında düşüncələr ön planda dayanmışdır. Bu problemlər öz əksini əsatirlərdə tapırdı. Məsələn, bir rəvayətə görə, dünya Yumurtavari xaosdan ibarət olmuş və bu qarmaqarışıq dünyada ilk insan olan Pan-Qu yaranmışdır. Pan-Qunun yaranması ilə Yumurtavari xaos məhv olaraq Səma və Yer meydana gəlmişdir. Pan-Qunun

bədənindən bütün mövcud şeylər – Günəş və Ay, külək, dağlar, dənizlər, meşələr, daha sonda insan əmələ gəlmişdir.

İnsan haqqında, dünya haqqında düşüncələr tədricən fəlsəfi ideyaların yaranmasına səbəb olmuşdur. Çində də fəlsəfi təfəkkür öz başlanğıcını Yaxın Şərqdə, Hindistanda, Yunanıstanda olduğu kimi miflərdən, əsatirlərdən götürmüşdür. Qədim çin miflərində dünyanın, təbiətin, insanın yaranması, insan və təbiət arasındakı əlaqələr haqqında düşüncələr sonralar fəlsəfi fikrin yaranmasına zəmin yaratmışdır. Əsatirlərdə Səma, yer və təbiət ilahiləşdirilir və Səma hər şeyin səbəbi hesab edilirdi. Qədim çin zehniyyatına görə kainat və bütün mövcud şeylər Səmadan asılıdır. Dünyanı idarə edən Səmanın özüdür. Səma hər şeyin yaranma mənbəyidir. Qədim çin təfəkküründə təbiət özü canlı hesab edilirdi. Mövcud varlıqların hər birinin ayrı-ayrılıqda ilahi hamisinin olduğu fikri qəbul edilirdi. Eyni zamanda, Çin təfəkküründə əcdadların ruhuna pərəstiş və etiqad mühüm yer tuturdu. Bu isə sonralar soy kökünə hörmət və ehtiram prinsipinin yaranmasına gətirib çıxardı. Ümumiyyətlə, çin təfəkkürü iki min ildən artıq tarixə söykənir.

Cəmiyyətin idarə olunması, dövlət quruluşu haqqında fikirlər fəlsəfi problemlərin tədqiqinə çevrilirdi. Çin fəlsəfəsinin əsasını insan və onun cəmiyyədəki rolu haqqında məsələlər təşkil edirdi. Çində fəlsəfi fikir təqribən e.ə. VIII-VII əsrlərdə təşəkkül tapmışdır. Qədim çin fəlsəfəsi bir-biri ilə əlaqəli şəkildə tədqiq edilmiş, dünya və insan haqqında təsəvvürlər sistemi meydana gəlmişdir. Eradan əvvəl VII-VI əsrlərdə fəlsəfi ideyaların əsasında yüzə qədər məktəb təşəkkül tapmışdır.

Çin fəlsəfi məktəblərini iki anlayışla – “harmoniya” və “ənənə” anlayışları ilə səciyyələndirmək olar. Başlıca fəlsəfi məktəblər hesab olunan konfusiçilik və daosizmdə təbiət və onun qarşılıqlı əlaqəsinin harmoniya təşkil etdiyi fikri irəli sürülür. Qərb fəlsəfəsindən fərqli olaraq, çin zehniyyatında dünya Allah vəhdət təşkil edir və onlar bir-biri ilə harmoniyadadır.

Qərb fəlsəfəsində metafizika, etika, esteka, sosiologiya, din və siyasət ayrı-ayrılıqda tədqiq edildiyi halda, çin fəlsəfəsində bu problemlər qarşılıqlı şəkildə öyrənilir. Məsələn, Konfusinin “Lun-yuy” (“Kəlam”) salnaməsində şəxsiyyət və onun ictimai əxlaqı haqqında çoxlu sayda müxtəlif fikirlərə rast gəlmək mümkündür.

Daosizm və konfusiçiliyin din kimi qəbul olunmasına baxmayaraq, “syao” (“təlim”) kimi inkişaf etmişdir. Hər iki ənənə fəlsəfi sistem kimi meydana gəlsə də, həm dini, həm də mədəni müstəvidə özünü büruzə verir. Çünki bu ənənələrin hər ikisinin özünün müstəqil məktəbi, müəllimləri və ardıcılları olmuşdur [49, s.205].

Çində yüzə yaxın fəlsəfi cərəyanlar yaransa da, onlardan altısı daha şox tanınmışdır. Həmin fəlsəfi məktəblər aşağıdakılardır:

1. Konfusiçilik (ju szya) məktəbi;
2. Daosizm (dao de szya) məktəbi;
3. Moizm (mo szya) məktəbi;
4. Legizm (hüquq məktəbi – fa szya) məktəbi;
5. Nominalizm (adlar məktəbi – min szya) məktəbi;
6. Naturfəlsəfə (in – yan szya) məktəbi.

Dövlətin meydana gəlməsi prosesində mənəvi müstə-

vidə kollektiv yaradıcılıq tədricən arxa plana keçir. İnsan həm iqtisadi, həm də ideoloji cəhətdən ata-baba, soykökü asılılığından azad olmağa can atır, şəxsiyyətin tələbatını ödəyəcək yeni dünyagörüş istiqamətləri axtarırdı. Bu tələbata cavab olaraq “müdriklik” kateqoriyası meydana çıxdı. Çinlilər onu “şen jen” (müdrik insan) adlandırırlar. Müdrik həyatını insanların mənafeyinə xidmət etməyə istiqamətləndirir. Bir tərəfdən müdrik nəsil kollektivizminin “ağırlığını” daşıyır, digər tərəfdən isə dövlətin və siyasi rəhbərin “məsuliyyətini” öz üzərinə götürür. Müdrik xalqla hökmdar arasında müdrik-filosof obrazında özünü büruzə verir. Onun qarşısında Səma altında yuxarı və aşağıların ziddiyyəti problemini həll etmək məsələsini durur [41, s.91].

Bu problemlər öz əksini fəlsəfəyəqədər mövcud olmuş ideyalar və fəlsəfi görüşlər sistemi kimi qiymətləndirilən “İ-szın”da (“Dəyişikliklər kitabı”) tapmışdır. “İ-szın” kitabının müəllifləri kamil müdrik insanlar olmuşlar. Bu kitab İn dövrünün sonunda, Cjou sülaləsi zamanında meydana gəlmişdir. “İ-szın” kitabında əks olunmuş kosmos və onun hərəkəti prinsipi sonralar “Dao-De” ümumi kateqoriyanın formalaşmasına səbəb olmuşdur.

“Dao-De” kateqoriyası Çində fəlsəfi biliklərin nəzəri əsasını təşkil edirdi. İlk öncə Səmaaltı maddi-mənəvi varlıq olan mücərrəd kateqoriya kimi təqdim edilir. Müdrik insanın (“şen jen”) qarşısında duran əsas vəzifə Səmaaltı maddi-mənəvi varlıq olan mücərrəd kateqoriya haqqında məsələləri araşdırmaq və “Dao-De”nin inkişaf etdirilməsindən ibarət idi. Qədim zamanlarda müdrik insanlar Dəyişiklikləri yaratdılar. Onlar təbiəti və insan taleyini nizamlamağa çalışaraq

in və yan adlandırdıqları Səmanın Daosunu, bərk və yumşaq adlandırdıqları Yerin Daosunu, Jen ("qarşılıqlı") və İ ("borc") adlandırdıqları İnsanın Daosunu yaratdılar. "Dao-De" kateqoriyası həm vəhdətdə götürülür, həm də ziddiyyətli kateqoriya kimi qəbul olunurdu. Dao və De kosmosun obyektiv dialektikasını – in və yan başlanğıclarına uyğun Göy və Yerin ziddiyyəti kimi səciyyələndirilirdi.

"İ-szın" kitabında "Dao-De" təliminin inkişaf etdirilməsi qədim çin fəlsəfəsində daosizm, konfusiçilik və legizm istiqamətlərinin yaranmasına səbəb olmuşdur. "Dao-De" haqqında təlim çin fəlsəfəsinin əsas istiqamətləri hesab olunan daosizm, konfusiçilik və legizmdə işlənən kateqoriyalarla uyğunlaşdırılır. "Dao-De" daosizmdə "szı-jan" ("təbiilik"), konfusuçilikdə "li" ("ayinlər") və legizmdə "fa" ("qanun") kimi mənəvi-əxlaqi normaların əsasını təşkil edirdi. Ona görə də qədim çin fəlsəfəsini bötüvlükdə daosizm adlandırmaq olar. "İ-szın" kitabında qeyd olunan "Dao-De" haqqında təlimi yaratmış müdrik insan daisizmdə müdrik, konfusiçilikdə hökmdarın oğlu, legizmdə qanunşünas kimi səciyyələndirilir [41, s.101].

## *Daosizm fəlsəfi məktəbi*

Qədim çin fəlsəfəsinin inkişafına təsir göstərmiş ənənəvi təlimlərdən biri daosizmdir. Daosizmin yaradıcısı eradan əvvəl VI-V əsrlərdə fəaliyyət göstərmiş Lao-szı hesab edilir. Lao-szının həyatı haqqında geniş məlumat olmasa da, tarixçi Sima Syanın "Çi-szı" ("Tarixi qeydlər") kitabında qısa məlumata tast gəlmək mümkündür. Kitabda

qeyd olunur ki, Lao-szının əsl adı Li Er olmuşdur. "Qoca müdrik" və ya "Qoca uşaq" mənalarını verən Lao-szı ona verilən ləqəb idi. O, Çjou dövründə tarixçi kimi məşhur olmuşdur. Lao-szı Konfusi ilə dövlət arxivində çalışdığı zaman tanış olmuşdur. Lao-szı fəlsəfəsi VII-IX əsrlərdə, yəni Tan sülaləsi dövründə rəsmi dövlət ideologiyasına çevrilmişdir. Lao-szı özü isə "müqəddəs" elan edilmişdi.

Lao-szının əsas əsəri "Dao de-szın" kitabı hesab edilir. Çox zaman bu kitab Lao-szının adı ilə bağlı "Lao-szın" da adlandırılır. Bəzi tədqiqatçılar kitabın adını "Dao (yol), de (insan təbiətinin xüsusiyyəti) kitabı" kimi tərcümə edirlər. Digər mütəfəkkirlərin fikrincə isə traktatın adı bu şəkildə müəyyənləşdirilir:

Dao –yol (şeylərin);

de – Daonun emanasiyası (təzahürü);

szın – klassik yazıların avtoritetliyi.

Daosist kanonuna uyğun olaraq həmin mənbənin adı "Yol və onun təzahürü
kitabı" mənasını verir [49, s.256]. Daosizmin ikinci kitabı Çjuan-szının adı ilə bağlı "Çjuan-szın"dır.

Daosizm ənənəvi dini mistik istiqamət kimi meydana gəlsə də, onu eradan əvvəl VI-IV əsrlərdə inkişaf etmiş həm fəlsəfi və həm də dini sistem kimi qəbul etmək olar.

Bu təlimin əsası daonun təbiəti ilə bağlıdır. Bu mistik anlayış iki müxtəlif, lakin bir-biri ilə qarşılıqlı mənada şərh edilir. Birinci mənada dao yaradıcı, hər şeyə təsir edən mənəvi qüvvədir. İkinci mənası ondan ibarətdir ki, mənəvi bilik kimi insan daonun təbiətini dərk edərək onda əriyir.

Daosizmin əsas kateqoriyası olan dao təbiətin qanun-

larının dərkinə əsaslanan Yol mənasını verir. Bu təlim insanları universal harmoniya prinsipi olan Daoya uyğun təbii qanunlarla yaşamağa çağırır. Lao-szı təbiətdən nümunə götürərək yaşamağı, təbii həyat sürməyi təklif edirdi. Daonu dərk etmək üçün, ilk öncə daosist kosmologiyaya müraciət etmək lazımdır. Dao ilk səbəb və yaradılışın mənbəyidir. Dao mücərrəd kateqoriya kimi əbədi dünya prinsipidir. "Dao de-szın"da deyilir: "Haqqında danişilan Dao həqiqi dao deyil. Dao biri, bir ikini, iki üçü, üç hər şeyi yaradır. Bütün şeylər qarşılıqlı əlaqədə olan in və yanı təşkil edir" [49, s.257]. "Dao de-szın" kitabında verilən in və yan təlimi "Dəyişkənliklər kitabı"na istinad edilərək inkişaf etdirilmişdir.

Dao, həmçinin məntiq, fikir ardıcıllığı ("dao li") deməkdir. Çində fəlsəfi fikir inkişaf etdikcə, "dao" kateqoriyasının məzmunu da dəyişmişdir. Daosizmdə iki istiqamət – materialist və idealist istiqamətlər mövcud olmuşdur. Lao-tszı, Syun-tszı, Van-Çun kimi materialist filosoflar "dao"nu cisimlərin təbii yolu, qanunauyğunluğu hesab edirdilər. İdealist filosof Van Biyə görə "dao" ideal başlanğıc, qeyri-varlıq, Dun Çjunşuya görə isə ilahi yoldur.

Daonun metafizikasına görə o, bütün varlıqları yaradır. Daosizm fəlsəfəsinə görə hərəkətin ardınca sükunət gəlir. Dao bütün proseslərin əsasıdır, özü sükunətdə olduğu halda, hər bir hərəkətin mənbəyidir. Lao-tszıya görə Dao dəyişməz, sabit və hər şeyi əhatə edən səbəbdir.

Ona görə də Dao mütləq həqiqətdir, dərk edilməzdir və hər yerdə mövcuddur. Bu, "de" adlanır. De kateqoriyası Daonun daxili yaradıcı qüvvəsidir. Bu qüvvə in və yanın

köməkliyi ilə daonu şeylərdə və proseslərdə təzahür etdirir.

De daonun fəlaiyyəti və potensial enerjisidir. Dao kontekstində son reallıq olan "tsi" kainatda hərəkət edən qüvvədir. Bütün varlıqlar dao ilə balanslaşdırılmış fasiləsiz dəyişiklik prosesindədir.

Dao anlayışının köməyi ilə dünyada mövcud olan bütün şeylərin mənşəyi haqqında bilik əldə etmək mümkündür. O, müstəqil substansiya olmasa da, şeylərin mövcudluq səbəbidir. Daonun başlanğıcı yoxdur, lakin o, hər bir şeyin əsasıdır, inkişaf yoludur. Dao formasizdir, dəyişməzdir. Lakin hər şeyin dəyişmə mənbəyidir, hər şeyə nüfuz edən səbəbdir.

Daosizm ateist xarakter daşıyır. Çünki daoya görə dünya dəyişikliklərin mövcud olduğu məkandır. Dünya vəhdət təşkil edir, onda eyniyyət və bənzərlik mövcuddur. Daonun təsiri ilə hər şey meydana gəlir, inkişaf edir və məhv olur. Kainatda hər şey hərəkətdədir, dəyişmə prosesindədir. Hərəkət və dəyişmə in və yan qüvvələri əsasında baş verir. İn və yan dialektik vəhdətdə olduğu üçün inkişaf bu qüvvələrin təsiri ilə baş verir.

Daosizm fəlsəfəsinin başlıca xüsusiyyətləri bundan ibarətdir: dünyada hər şey bir-biri ilə qarşılıqlı əlaqədədir; dünyanı təşkil edən materiya təkdir, materiya təbiətdə dövr edir; təbiətin qanunları insan iradəsindən asılı olmayaraq inkişaf edir; hökmdarlar müqəddəsdir və onlar tanrılarla mənəvi əlaqəyə malikdirlər; həqiqətin dərkinə varmaq üçün istək və arzulardan əl çəkmək lazımdır [1, s.26].

Daosizmin etik təliminə görə dünya şərdən ibarətdir və ona qələbə çalmaq mümkündür. Lao-szı hesab edirdi ki,

insan böyük yolla getsə xeyirxah işlər, dar cığırlarla getsə şər işlər görmüş olar. Filosof göstərirdi ki, dao kimi yaşayan insan Daoya bərabərdir. Fərdi mənəviyyatda bütün əməllərin mənbəyi ehtirasdır. İstək və ehtiraslardan əl çəkərək mənəvi kamilliyə çatmaq olar. İnsan təkəbbür və lovğalıqdan uzaq olmalıdır. O, bədbəxtliklərin əsasını insanların həddindən artıq ağıl nümayiş etdirmələrində, təkəbbürdə, insanpərvərliyin olmamasında, itaətsizlikdə, var-dövlətə, hakimiyyətə və şöhrətə hərisliyində görürdü. Ona görə də o, insanları ilk növbədə ağıl nümayiş etdirməməyə çağırır, var-dövlətdən, hakimiyyətdən və şan-şöhrətdən imtina etməyə səsləyirdi.

Lao-szı insanpərvərlik prinsipini irəli sürərək qeyd edirdi ki, insan yalnız özünü deyil, başqalarını düşünməlidir. O, göstərirdi ki, müqəddəs insan başqalarından sonra özünün qayğısına qalmalıdır. Eyni zamanda, Lao-szı gücsüzlərə qarşı mərhəmətli olmağı tələb etmişdir.

İnsan təbiətin bir hissəsidir. Əgər cəmiyyət təbiətə təsir göstərməyə çalışarsa, insanla təbiət arasında ziddiyyət yaranar. Təbiət insanı cəzalandırar.

Daosizm fəlsəfəsinin ardıcılı olmuş Çjuan-tszı (e.ə. 369-286-cı illər) Lao-szının “daonu dərk etməklə cəmiyyəti nizamlamaq olar” fikrini qəbul etməmiş, xarici aləmin subyektə tabe olması fikrini irəli sürmüşdür. Lao-tszı fatalizmi inkar etdiyi halda, Çjuan-tszı fatalist idi.

Çjuan-tszıya görə bütün şeylərin dəyəri eynidir, çünki onların hamısı dao ilə əlaqədədir. Çjuan-tszı, eyni zamanda skeptik olmuş, obyektiv həqiqətin mövcudluğunu inkar etmişdir.

Çjuan-tszı göstərirdi ki, həqiqətə can atan insan

təbiətlə vəhdət təşkil edir. O,təfəkkürü "səma və yerin güzgüsü" adlandırırdı. Tək və çoxun, mütləq və nisbiliyin, daimiliyin və dəyişkənliyin dialektikasını idrakın predmeti kimi qəbul edirdi.

Üçüncü əsrdə yaşamış Van Bi daosizmdə idealist mövqedə dayanaraq, "Lao-szıya xülasə" adlı əsər yazmışdır. Həmin əsərdə qeyd olunur ki, dao ilahi mənşəyə malikdir.

Daosizm iki istiqamətdə - fəlsəfi və dini istiqamətlərdə inkişaf etmişdir. Daosizm eramızın I-III əsrlərində din kimi formalaşmışdır. Bu dinin təsiskarı II əsrin ortalarında yaşamış Çjan Dao-lin olmuşdur. Bu dində IV-VI əsrlərdə islahatlar aparılmış, VII-X əsrlərdə, Tan nəsli dövründə yenidən təşəkkül tapmışdır. Daosizm dininın tərəfdarları həyatın əbədiliyinə inanır, əbədi səadətə nail olmağı mümkün sayırdılar. Onlar əl-kimya, cadugərlik, tibb, astronomiya məsələlərinə dini don geyindirməyə çalışırdılar.

Daosizm fəlsəfi cərəyanda üç istiqamət mövcud olmuşdur:

1. fəlsəfi daosizm ("dao szya");
2. dini daosizm ("dao szyao");
3. əbədi yaşayanların daosizmi ("syan") [5, s.96].

Lao-szını daha çox varlığın mahiyyəti və daxili qanunları məsələsi, həmçinin ətrafda baş verən mənəvi-əxlaqi və təbiət hadisələri düşündürmüşdür. O, deyirdi: "Gözəllik ancaq eybəcərlikdir, xeyirxahlıq - ancaq bədxahlıqdır". Beləliklə, gözlə görünən gözəllik həqiqi gözəllik deyil, adi mənada başa düşülən xeyirxahlıq da əsl xeyirxahlıq deyil. Həqiqi gözəlliyi ancaq idrakın gözləri ilə görmək olar, eləcə də həqiqi xeyirxahlıq bizim ruhumuz tərəfindən qavranıla

bilər [10, s.234].

Daosizmi konfusiçilikdən fərqləndirən əsas xüsusiyyət ondan ibarət olmuşdur ki, bu təlim sosial əsasa söykənməyib müstəqil inkişaf yolu keçmişdir. Çinlilər şəxsi həyatda daosizmə etiqad edir, ictimai əxlaqi normalarda konfusiçiliyə istinad edir, pisliklərlə üzləşəndə isə mahayana buddizminə müraciət edirlər. Hər üç təlim çinin gündəlik həyatına nüfuz etmişdir.

## Müstəqil iş üçün suallar

1. Daosizm fəlsəfəsi
2. Daosizm din kimi
3. Lao-szının Daqo haqqında təlimi
4. De kateqoriyası haqqında
5. Lao-szı fəlsəfəsinin davamçıları

## Tapşırıq

a) Daosizmin ontologiyası:
- ateist mahiyyətlidir;
- dualist prinsiplidir;
- monist xarakter daşıyır;
- deist mahiyyətlidir;
- teist xarakter daşıyır.

b) Daonun daxili yaradıcı qüvvəsi:
- “de”;
- “ki”;
- “li”;
- “in”;

- “yan”.

c) Lao-szıya görə Dao:
- dəyişməz, sabit, hər şeyi əhatə edəndir;
- məhv olandır;
- zamanda və məkanda məhduddur;
- dəyişən, törəyəndir;
- maddi hissəciklərin məcmusudur.

d) Lao-szının etik təliminin əsas anlayışı nədir:
-fədakar insanpərvərlik;
- təkəbbür;
- şücaət;
- qəhrəmanlıq;
- eqoizm.

e) Lao-szıya görə maddi dünya:
- dərk ediləndir;
- sonsuzdur;
- əbədidir;
- Allah tərəfindən yaradılmışdır;
- məhv ediləndir.

ə) Lao-szıya görə bədbəxtliklərin kökü nədədir:
- insanpərvərliyin olmamasında;
- itaətkarlıqda;
- var-dövlətdən imtina etməkdə;
- hakimiyyətdən uzaqlaşmaqda;
- ağılsızlıq nümayiş etdirməkdə.

## *Konfusiçilik fəlsəfi məktəbi*

Konfusiçilik təliminə nəzər salaq. Konfusiçilik qədim dövr çin fəlsəfəsinin inkişafına böyük təsir göstərərək iki min ildən artıqdır ki, öz nüfuzunu qoruyub saxlamış etik-sosial təlimdir. Bu təlimin yaradıcısı çin mütəfəkkiri Kun Fu-szının (Konfusi) adı ilə bağlıdır. Konfusi (e.ə. 551-479) "rü" (szyu) fəlsəfi məktəbinin banisi hesab olunur. Təlimin adı çox zaman "moralistlər" kimi tərcümə olunur.

Görkəmli mütəfəkkir və siyasi xadim olan Kun Fu-szı (müəllim - Kun) ilk çin filosofu hesab edilir. Onun etik-sosial və fəlsəfi görüşləri "Lun-yuy" ("Söhbətlər və mühakimələr") kitabında toplanmışdır. Konfusi, əsasən "Dəyişikliklər kitabı"na şərhlər yazmışdır. O, Lu dövlətinin müşaviri olmuşdur. Bu baxımdan onun təliminin əsasını hakim dairəyə hörmət, cəmiyyətdə əxlaq normalarına ciddi şəkildə riayət etmək, aşağıların yuxarılara müti surətdə tabeçiliyi haqqında ideyalar təşkil edir. Ona görə də onun təlimi etik-sosial xarakter daşıyır.

Konfusinin fikrincə, qayda-qanunların hökm sürəcəyi kamil cəmiyyət qurmaq üçün əcdadların ruhuna pərəstiş olunmalıdır. Eyni zamanda, ailə-məişət münasibətlərində də qədim ənənələrə əhəmiyyət verilməlidir.

Konfusiçilik təliminin əsasını "Jen" və ya "Ren" ("humanizm") konsepsiyası təşkil edir. Sonralar "Li" (adət-ənənələrə riayət etmək), "Tsi" (həyatda əxlaq qaydalarına praktik əməl olunması) konsepsiyaları yaranmışdır. İnsanın yüksək əxlaqi davranışı cəmiyyət üçün ən ali keyfiyyət hesab edilməli idi. Konfusi fəlsəfəsinin mərkəzi xəttini

insanın cəmiyyətə və ətrafdakılara hörmət ideyası təşkil edir. Filosofa görə insan yalnız cəmiyyət üçün şəxsiyyət kimi formalaşmalıdır.

"Jen" konsepsiyası konfusiçilik təliminin əsas xeyir göstəricisi hesab edilir ki, bu konsepsiyaya görə aşağılar yuxarılara, oğul ataya, kiçiklər böyüklərə hörmət etməlidir. "Xeyirxahlığın" dörd əsas göstəricisini qəbul edirdi:

1) şəxsi davranışda nəzakətli olmaq;

2) qulluqda dəqiq olmaq;

3) insansevərlik;

4) ədalətli olmaq.

"Jen" konsepsiyasının əsasını "syao" ("valideynlərə hörmət"), "di" ("böyük qardaşa hörmət"), "çjun" ("hökmdara sədaqət"), "mərhəmətlilik" ("kuan"), "vəzifəyə əməl etmək" ("i"), "qızıl mərkəz" ("ehtiyatla səbirsizlik arasında orta mövqe tutmaq") kimi mühüm kateqoriyalar təşkil edir. Konfusi göstərirdi ki, ictimai vəziyyətindən, tutduğu mövqedən asılı olaraq aşağılar yuxarılara hörmət etməlidirlər. İnsan kindən, ədavətdən, tamahkarlıqdan, təkəbbürdən və sair mənfi keyfiyyətlər uzaq olsa, humanistliyə nail ola bilər. Bu təlimdə "li" (ədəb qaydaları) mühüm yer tutur. Bu qaydalara görə insan cəmiyyətdə öz yerini tənzimləyir. "Jen" ("humanizm", "insansevərlik") və li ("qayda") konsepsiyalarında dövlət quruluşu və cəmiyyətin sosial təşkili haqqında Konfusinin dünyagörüşü əks olunmuşdur. "Li" ("qayda") konsepsiyanın əsas məğzi sədaqətli şagird olmaq, hökmdara hörmət etməkdən ibarətdir. Bu konsepsiyada idarəetmə sistemi ilə bağlı və məmurlarla hökmdarın qarşılıqlı münasibətləri haqqında fikirlər irəli sürülür. "Çjun yun" ("orta

yolu tutmaq") konsepsiyasında Konfusi insanları son həddən çəkindirir. Konfusi hesab edirdi ki, dövlət işləri ədalət prinsipi əsasında həll olunmalıdır. Beləliklə də, o, biri- birindən uzaq olan "hakimiyyət" və "ədalət" anlayışlarını birləşdirməyə çalışırdı.

Konfusiçilik təliminin əsasını etik konsepsiya təşkil edir. Bu konsepsiyanın diqqət mərkəzində insan, onun ailədə və cəmiyyətdəki mövqeyi, yaxşı oğul - pis oğul, yaxşı ata - pis ata, yaxşı hökmdar - pis hökmdar və sair məsələlər dayanır. Konfusi təliminin mühüm cəhəti "müsbət" keyfiyyətləri qəbul etməkdən ibarət olmuşdur. Konfusinin etik təliminin əsas normaları sədaqət, hörmət, təvazökarlıq, səmimilik kateqoriyalarından ibarətdir.

Konfusi hər bir kəsdən insanpərvərlik kimi ali keyfiyyət tələb edirdi. O, göstərirdi ki, "özünün nail olmaq istədiyin şeyə başqalarının da nail olması üçün onlara kömək et; özünə rəva görmədiyini başqalarına da rəva görmə" [5, s.87].

Konfusi şagirdlərinə dörd keyfiyyəti təbliğ edirdi: mədəniyyət, davranış, ədalət və sədaqət [36, s.58].

Konfusi fəlsəfəsi hakim dairələrin mənafeyinə xidmət edirdi. Onun fikrincə, "harda ki, hökmdar hökmdardır, deməli orada qayda - qanun, əmin- amanlıq var". Bu keyfiyyətlərinə görə Kofusi fəlsəfəsi Xan sülaləsi dövründə (e.ə. 202 - eramızın 220) rəsmi dövlət ideologiyasına çevrilmiş, bütün ictimai və ailə - məişət münasibətləri onun tövsiyələrinə uyğun qurulmuşdur.

Konfusi göstərirdi ki, onun ideyaları yeni deyil. Onun təliminin əsas mahiyyəti qədim ənənələrə söykənir. "Lun-

yuy” salnaməsində Konfusi göstərir ki, “Mən yaratmıram, sadəcə öyrədirəm. Mən qədim ənənələrdən bəhrələnirəm...” [36, s.54].

Konfusi öz idealını Çjou sülaləsi dövründə yaranmış əlyazmalarda – “tarix kitabı”nda, “Nəğmələr kitabı”nda axtarırdı. Konfusiçiliyin əsas mənbəyi hesab edilən “Böyuk təlim” (“Da syue”) kitabında həmin təlim sistemli şəkildə şərh edilmişdir.

Konfusiçiliyin əsas müddəaları bunlardan ibarətdir: Konfusi fəlsəfəsinin əsasında Səma və Səma iradəsi haqqında ənənəvi dini təsəvvürlər dururdu. Ali başlanğıc – Səma baş hakim və ümumi əcdaddır. Konfusinin fikrincə insanın taleyi Səma tərəfindən müəyyən edilir. İnsanların xeyirxah və ya bədxahlara bölünməsi, yuxarı və ya aşağı təbəqəyə ayrılması Səmanın iradəsindən asılıdır. Kiçiklər böyüklərə, oğul ataya, nökər hökmdara müti surətdə tabe olmalıdır.

Konfusi fatalist idi. O, tale-alın yazısını kor-koranə qəbul edərək göstərirdi ki, hələ insan dünyaya gəlməmişdən öncə Səma onun taleyini həll etmişdir. İnsan dünyaya gələndən sonra alın yazısına uyğun olaraq həyatını yaşayır: ya hökmdar olur, ya da nökər.

Səma kultu Konfusinin sosial təlimi ilə əlaqədar idi. Daosizmdən fərqli olaraq konfusiçilikdə dini ayinlərə, etik qaydalara üstünlük verilir. Buna uyğun olaraq “Li” konsepsiyasına riayət edən “xeyirxah insan” qanunları pozmamaq və dini ayinlərə riayət etmək haqqında düşünür. Konfusi təlimində qədim çin ənənələrinin öyrənilməsinə diqqət yetirilmişdir. Konfusiçilik özünün “ortalıq” nəzəriyyəsi ilə

məşhurdur. Bu nəzəriyyəyə görə həyatın məqsədi-şeylərin mahiyyətini dərk etməkdən ibarətdir. Şeylərin mahiyyətini yalnız biliyin köməyi ilə anlamaq mümkündür.

Konfusi eradan əvvəl 551-ci ildə Lu çarlığının Şandun əyalətində dünyaya gəlmişdir. Konfusinin əcdadları hunlar və çjuxoular olmuşdur.

Lu hökmranlığında yaşayan Kunlar nəslinin dördüncü nümayəndəsi, Konfusinin atası Şulyan Xe cəsarətli döyüşçü olmuşdur. Konfusi erkən yaşlarında atasını itirmişdi. Maddi sıxıntı çəkən Konfusi özü müstəqil şəkildə oxuyub-yazmağı öyrənmişdir. İlk öncə o, adət-ənənələrə və ictimai ədəb qaydalarına yiyələnir. Çin cəmiyyətində şəraitə uyğun olaraq etik qaydalara riayət etmək yüksək dəyərləndirilirdi. Konfusi öz şagirdlərinə, başlıca olaraq əxlaq normalarını öyrədirdi. Yüksək səviyyədə özünü aparmaq bacarığı yalnız cəmiyyətin yuxarı təbəqəsi tərəfindən ötürülə bilərdi. Konfusi öz təlimini cəmiyyətin bütün təbəqələri arasında yaymağa çalışırdı. Konfusi fəlsəfəsini sadə xalqın anlayacağı dildə təbliğ edirdi. Onun təlimi dindən daha çox insanların davranış qaydalarını əks etdirirdi. O, insanların xeyirxah olmaları, bir-birlərinə qarşı səmimi olmaları arzusunda idi.

Konfusi Lu hökmdarına əxlaq normalarının mühüm əhəmiyyətə malik olduğunun sübutuna çalışırdı və göstərirdi ki, dövlətin idarə olunmasında həmin normalardan istifadə etmək vacibdir. Filosof əxlaq qaydalarını siyasi quruluşun fundamenti hesab edirdi. Konfusinin başlıca məqsədi aşağı təbəqənin həyat şəraitini yaxşılaşdırmaqdan ibarət olmuşdur. O, bunun siyasi qaydaların dəyişilməsi nəticəsində mümkün

olacağını söyləyirdi.

Konfusi 19 yaşında olarkən Sun hökmranlığında yaşayan Tsi ailəsindən olan bir qızla evlənmişdir. Bir ildən sonra onların oğlu olmuşdur. Bu əlamətdar hadisə münasibətilə hökmdar Konfusini təbrik edir və ona diri bir nərə balığı göndərir. Konfusi də öz növbəsində hökmdara minnətdarlıq əlaməti olaraq uşağın adını Li (nərə balığı) qoyur. Sonra isə bu uşağa Bo Yuy (yuy - balıq, bo - qardaşların böyüyü) adı verilir. Ancaq atanın ümidləri özünü doğrultmur, bundan sonra onun uşağı olmamışdır.

Konfusi otuz yaşlarında qədim Çin mədəniyyətini mənimsəmiş, etik-fəlsəfı dünyagörüşü formalaşmağa başlamış və o, beş kitabı – "Dəyişikliklər kitabı" ("İ-szın"), "Tarixi sənədlər kitabı" ("Şu-szın"), "Şerlər kitabı" ("Şi-szın"), "Mərasimlər haqqında kitab" ("Li-szın"), "Yazlar və Payızlar" ("Çun-szın") kitablarını tərtib etmək qərarına gəlmişdir. Konfusinin dünyagörüşü əsrlərdən bəri qədim Çində formalaşmaqda olan "Jen" ("humanistlik", "insansevərlik") və "Li" ("qayda, etika") konsepsiyaları üzərində qurulmuşdur. "Li" "Jen"nin ali formasıdır.

Kofusinin təlimində insan problemi mühüm yer tutur. "Lun yuy" salnaməsinin IV fəslində insanın əsas təbiəti haqqında fikirlərə rast gəlmək mümkündür: "Ustad dedi: var-dövlət və şöhrət - bütün insanlar buna can atırlar... Yoxsulluq və ikrah - bütün insanlar buna nifrət edirlər". İnsan təbiətinin əsas xüsusiyyətini müəyyən etmək üçün Konfusi daha qədim dövrlərə müraciət edir və qədim insanların daha kamil olduğunu söyləyir. "Lun yuy"da o, deyir: "Qədim dövlərdə insanların üç yaxşı keyfıyyəti olmuşdur. İndi isə

həmin keyfiyyətlər artıq yox olub. Qədim zamanlarda insanlar öz iradələrinə uyğun olaraq özlərini təmkinli aparırdılar, indi isə onlar idarə olunmazdırlar. Qədimlərdə özünə hörmət edən adamlar özlərini ələ ala bilirdilər; indi isə belə adamlar öz abırlarını qəzəblə gizlədirlər" [36, s.34].

Konfusinin cəmiyyət haqqında fikirləri maraqlı olmuşdur. O, cəmiyyət və təbiətin qarşılıqlı münasibətini qeyd edir və dörd başlıca prinsipi irəli sürürdü:

1.Cəmiyyətin layiqli üzvü olmaq üçün insan təbiət haqqında biliklərə yiyələnməli, yalnız heyvanların və quşların xasiyyətlərini öyrənməklə kifayətlənməyib, otların və ağacların inkişaf qanunauyğunluqlarını da bilməlidir. Bunları bilmək üçün Konfusi gənclərə ilk növbədə poeziyanı öyrənməyi məsləhət görür. Konfusi deyir: "İnsanpərvərlik xalqa sudan və oddan çox lazımdır. Mən sudan və oddan insanların öldüyünü çox görmüşəm, ancaq insanpərvərlikdən ölən görməmişəm".

2.Ancaq təbiət insana və cəmiyyətə həyat gücü və nəfəs vermək qüdrətinə malikdir. Konfusi deyir ki, insanlar təbiətlə davranmağı bacarmalıdırlar, çünki ancaq o, insanlara güc verə bilər ki, bu da son nəticədə idarəetmənin qaydaya salınmasına yardım edər.

3.Təbii ehtiyatlar kimi heyvanat aləmini də qorumaq lazımdır. Təbii sərvətləri qorumaq, Konfusinin fikrincə, dövlət siyasəti dərəcəsinə qalxmalıdır. Tsi hökmdarı ilə müsahibəsində o, deyirdi: "İdarəetmə ondan ibarətdir ki, sərvətlərdən (ehtiyatlardan) qənaətlə istifadə edəsən" [36, s.16].

4.Müntəzəm olaraq təbiətə dua etmək [54, s.42].

Konfusi dövlət və dövlətçilik (idarəetmə) haqqında

fikirlər irəli sürmüşdür. O, qeyd edirdi ki, dövlətin idarə olunması jen -insanpərvərlik, ilk növbədə isə qohumlara və yaxın adamlara məhəbbət, syao - valideynlərə və əcdadlara oğul ehtiramı; böyüklərə hörmət və onlara tabe olmaq, vicdan və səmimilik, daxili kamilliyə daim can atmaq və s. kimi anlayışlardan ibarət olan qaydalara əsaslanmalıdır.

Konfusinin dövründə yeni qanunlar həyata keçirilməyə başlamışdı ki, bu da Konfusinin kəskin etirazına səbəb olmuşdur. Məsələn, leqistlər məktəbinin tərəfdarları qanun qarşısında ümumi bərabərlik konsepsiyasını irəli sürürdülər. Bu da, şəxsiyyətə zor tədbiq etməyə əsaslanırdı və dövlət idarəçiliyinin əsaslarını pozurdu. Leqistlər qanundan istifadə edərək zor yolu ilə alicənab adamlarla sadə adamlar arasında fərqi götürməyə çalışırdılar. Konfusi isə deyirdi ki, hər bir kəs öz işi ilə məşğul olmalıdır: idarəçilik qabiliyyəti olanlar - dövlət işləri ilə, icmaçılar - torpağa qulluq etməklə ölkəni ərzaqla təmin etməlidir [10, s.252].

Konfusi hesab edirdi ki, dövlət əxlaq qaydaları ilə idarə olunmalıdır, hüquqi qanunlarla deyil. Hüquqi qanunlar şəxsin cəzalandırılması ilə nəticələnir ki, bu da cəmiyyətdə zorakılığa səbəb olur.

Sonda belə qənaətə gəlmək olar ki, “Lun yuy” salnaməsində yalnız fəlsəfi, ictimai-siyasi problemlər deyil, həmçinin dövlət idarəçiliyi, etika, estetika, məntiq məsələləri də öz ifadəsini tapmışdır.

Konfusiçilik təliminin əsas xüsusiyyətləri bundan ibarətdir:

1.İnsanların necə idarə olunması və cəmiyyətdə özünü necə aparması məsələsi;

2. Cəmiyyətin yumşaq şəkildə idarə olunması, atanın oğula hökm etməsi, oğulun ataya münasibəti;

3. "Özünə rəva bilmədiyini, başqalarına da rəva bilmə" prinsipi;

4. Cəmiyyət üçün yaşamaq, qarşılıqlı güzəşt, yaşına və vəzifəsinə görə böyüklərin sözünü eşitmək, hökmdara tabe olmaq, hər şeydə həddini bilmək, insanpərvərlik.

5. Konfusiçilik prinsiplərinə əməl etmək, lazımi biliklərə yiyələnmək, ölkəyə sədaqətlə xidmət etmək, alicənab olmaq, yalnız yaxşılıq etmək, dövlətin və tabeliyində olanların qayğısına qalmaq;

6. İşində səy göstərmək, daim öyrənmək və inkişaf etmək [1, s.27].

Konfusinin ölümündən sonra onun fəlsəfəsi ardıcılları tərəfindən inkişaf etdirilmişdir. Szen-szı ( e.ə.V), Szı Sı (e.ə.V), Men-szı ( e.ə.IV-III), Syun-szı ( e.ə. III) Konfusinin davamçıları olmuşlar.

Eradan əvvəl V əsrdə fəaliyyət göstərmiş Szı Sı məktəbinin yaratdığı "Həqiqət mərkəzi və onun varlığı" ("Çjun Yun") traktatında konfutsiçiliyin metafizikası inkişaf etdirilir. Szı Sı səma qüvvəsini qəbul edirdi.

Men-szı "Men-szın" əsərində idarəetmə təlimini inkişaf etdirmişdir. Əsərdə göstərilir ki, əgər əhali hökmdarı qəbul edirsə, hökmdar səma qüvvələrinin köməyi ilə ölkəni düzgün idarə edir.

Syun-szı məktəbinin nümayəndələri isə səmanı ilahi qüvvə saymır, onu təbiətin bir hissəsi hesab edirdilər. Belə materialist fikirlər Syun-szı və Men-szı məktəbləri arasında ziddiyyətin yaranmasına gətirib çıxarmışdır.

Men-szı və Çjuan-szı e.ə. IV əsrin sonu - III əsrin əvvəllərində fəaliyyət göstərmişlər.

Men-Szı (e.ə.370-289) yaxşı cəmiyyət qurmaq arzusunda olmuş və öz təlimini yaratmışdır. Onun fəlsəfi görüşləri "Men-szı" əsərində öz əksini tapmışdır. Men-szı Konfusinin ardıcılı kimi "jen" konsepsiyasını qəbul etmiş və özünün "borc" konsepsiyasını da irəli sürmüşdür. Bu konsepsiyaya əsasən o, insanın təbiətini izah etməyə çalışmışdır. Konfusidən fərqli olaraq Men-szı göstərirdi ki, insanlara dərəcələr həm Səma tərəfindən, həm də insanların özləri tərəfindən verilir.

Men-szı konfusiçilik təlimini inkişaf etdirmiş, insanın təbiəti, onun əxlaqi dəyərlərə münasibəti problemlərini təhlil etmiş və həyata keçirməyə çalışmışdır. O, göstərirdi ki, insanın taleyi "jen" konsepsiyasını necə həyata keçirməsindən asılıdır. Onun qəbul etdiyi əsas prinsiplər insanpərvərlik, intizamlı icraçılıq, nəzakətlilik və bilikdir. Bu prinsiplər hökmdar üçün də keçərlidir. Hökmdar bilikli, müdrik, insansevər, ədalətli olmasa dövləti layiqincə idarə edə bilməz. Əgər hökmdar bu keyfiyyətlərə malik deyilsə, xalq onu devirə bilər.

Men-szı da Konfusi kimi nökərin ağaya, kiçiyin böyüyə, oğulun ataya tabe olması ideyasını qəbul etmişdir. O, qeyd edirdi ki, hər bir kəs tutduğu vəzifəsindən və mövqeyindən asılı olmayaraq etdiyi hərəkətlərinə görə Səma qarşısında cavab verəcək. Men-szıya görə Səma ideal qüvvədir.

Səma iradəsi insanın taleyindən tutmuş, cəmiyyətdə və təbiətdə baş verən bütün hadisələri tənzimləyir və ona

nəzarət edir. Səma qüvvələri insanları yaxşı və pis əməllərinə görə bir-birindən ayırır. Səma onları ali və aşağı təbəqələrə bölür və bu bölgü dəyişə bilməz. Men-szı da Konfusi kimi tale-alın yazısını qəbul edirdi. O, insanın anadangəlmə xeyirxahlığının dörd keyfiyyətini irəli sürürdü: mərhəmət hissi, abır-həya hissi, təvazökarlıq və düzü yalandan fərqləndirmək bacarığı.

İnsana etik -əxlaqi tərbiyə ali qüvvə olan “Səma” tərəfindən verilir.

Men Ke idrak təlimində insanda “anadangəlmə biliyin” mövcudluğu fikrini irəli sürmüşdür. Onun fikrincə bilik insana ilahi qüvvə tərəfindən verilir. O, idrak prosesində hissi qavrayış və duyğuları deyil, zəkaya və ağıla üstünlük verirdi.

O, göstərirdi ki, görmə və eşitmə orqanları düşünməkdən məhrumdur. Onlar yalnız predmetlərdən asılıdır və onlarla əlaqədədir.

Ürək fikrin, düşüncənin əsas orqanıdır. O, hadisə və şeylər haqqında düşünür. Hiss orqanları isə düşünmə qabiliyyəindən məhrum olduğu üçün heç nəyi dərk edə bilmir.

Ağıllı və insanpərvər insanlara inam olmadıqda dövlət tənəzzülə uğrayar. Əgər yuxarılar və aşağılar arasında ədalətlilik prinsipi pozulsa və bəzi qanun - qaydalara tabe olunmasa xaos və özbaşınalıq yaranar.

Çjuan-szı (e.ə. 360-280) konfusiçilik təliminin davamçılarından olmuşdur. Əsl adı Syun Kuandır. O, Menszının əksinə olaraq göstərirdi ki, xeyirxahlıq sonradan insanın özü tərəfindən qazanılır.

Konfusinin digər davamçılarından biri də Çjuan-szı

(Syun Kuan) olmuşdur. O, bir sıra fəlsəfi məktəblərin qəbul etdiyi ideyalara tənqidi yanaşmış, onları mənimsəmiş və təbiət haqqında bitkin təlim yaratmışdır. O, "səma"nı əbədi saymış və göstərmişdir ki, "səma" öz yolu ilə hərəkət edir. Səma yerlə birlikdə dünyanı vahid tam halında bilrəşdirir. Men-szıdan fərqli olaraq Syun-szı bildirmişdir ki, insanın təbiəti mənfi cəhətlərlə doludur. O, "müsbət" keyfiyyətləri yalnız tərbiyənin sayəsində qazanır.

Syun-szı təbiətin özünəməxsus bölgüsünü vermişdir:

1) maddədən ibarət olan təbiət, cansız aləm;

2) həyat qabiliyyəti olan maddədən ibarət təbiət, canlı aləm;

3) şüura malik olan maddi varlıq;

4) insan - maddi varlıqdır, həyata, şüura malikdir.

Syun-szı dilin ontologiyası problem ilə də məşğul olmuşdur. Onun fikrincə, predmetin dərk edilməsi üçün hissi idrak birinci, əqli idrak isə ikinci mərhələni təşkil edir. Hissi idrak vasitəsi ilə duyğu əldə edilir. Beş duyğu hissi isə (görmə, eşitmə, dad bilmə, iy bilmə və lamisə) predmetin quruluşunu, iyini, rəngini, ölçüsünü dərk etməyə imkan verir. Əqli idrak vasitəsilə isə sonradan predmetin mahiyyəti dərk edilir.

Syun-szı əxlaq məsələlərində konfusiçilik təlimindən kənara çıxaraq göstərir ki, insanın keyfiyyətləri anadangəlmə olmayıb, ətraf mühitdən və tərbiyədən asılıdır.

O, "səma" haqqındakı təlimində də konfusiçilikdən fərqli fikirlər irəli sürürdü. Filosof hesab edirdi ki, aləmdə hər şey təbiətin öz qanunları əsasında baş verir. Hər şey

dövri inkişaf prosesindədir [5, s.89].

Dünyanın yaranmasının əsasını təşkil edən bir - birinə əks qüvvələr - İn və Yan böyük dəyişikliklər törədir. Hər şey təbiətin öz qanunları əsasında meydana gəlir, inkişaf edir, intişar tapır.

Onun baxışlarında taleyə, səmanın gücünə inam rədd edilir. O, göstərir ki, səmanı tərənnüm etmək, ilahiləşdirmək əvəzinə, fəaliyyət göstərmək, predmetləri artırmaq və səmanı özünə tabe etmək lazımdır.

Konfusiçilik qədim çin fəlsəfəsinin ən uzun ömürlü cərəyanıdır. Bu məktəbin nümayəndələri Qədim və Orta əsr Çin cəmiyyətinin təkamülünü əks etdirmiş, onları uzaq keçmişlə əlaqələndirib əxlaqi - etik norma çərçivəsinə salmışlar.

**Müstəqil iş üçün suallar**

1. Konfusiçilik təlimində Səma iradəsi problemi
2. Konfusinin etik təlimində "jen" konsepsiyası
3. Konfusi cəmiyyət və dövlət haqqında
4. Men-Szı təlimində "borc" konsepsiyası
5. Syun-Szının əxlaq təlimi

**Tapşırıq**

a) Konfusi nəzəriyyəsinin əsas prinsipi:
- insanpərvər olmaq, böyüklərin sözünü eşitmək;
- asketik həyat tərzi keçirmək;
- alın yazısını qəbul etməmək;
- "dao" nu həqiqətin dərk olunmasına aparan yol hesab etmək;
- Allaha sevgi göstərmək.

b) Konfusiçiliyin başlıca xeyir göstəricisi:
- humanizm;
- cəsarət;
- qəhrəmanlıq;
- qorxaqlıq;
- səhlənkarlıq.

c) Konfusinin idrak nəzəriyyəsinə görə biliyin növləri:
- fitri və qazanılan;
- hissi və əqli;
- rasional və məntiqi;
- hissi, əqli, intuitiv;
- fitri və məntiqi.

d) Men-szıya görə insana "anadangəlmə" dörd keyfiyyət xasdır:
- mərhəmət, həya, təvazökarlıq, düzü yalandan fərqləndirmək bacarığı;
- qəddarlıq, təkəbbür, lovğalıq, yalan;
- təkəbbür, azadlıq, qorxu, təvazökarlıq;
- abır, xəcalət, qəhrəmanlıq, düzlük;
- şücaət, azadlıq, mərhəmət, həya.

e) Syun-szının fəlsəfəsində idrakın pillələri:
- hissi və rasional;
- hissi və məntiqi;
- əqli və intuitiv;
- fitri və rasional;
- əqli və məntiqi.

## *Moizm fəlsəfi məktəbi*

Moizm insan varlığının sosial və dini sferasını tədqiq etməyə çalışan qədim Çinin fəlsəfi-dini konsepsiyasıdır. Bu təlim iki inkişaf mərhələsi keçmişdir: erkən və ya original moizm və sonrakı moizm. Konfusiçilik fəlsəfəsinin əleyhinə çevrilmiş bu məktəb eradan əvvəl V əsrdə Mo Di (e.ə. 479-400) tərəfindən yaradılmışdır. Mo Di (Mo-szı) əvvəllər konfusiçiliyin tərəfdarı olmuş, sonralar onun ciddi tənqidçisinə çevrilmişdir.

Mo Di ənənəvi olaraq Mo-szı adlandırılmışdır. Bu məktəb iki əsrə qədər fəaliyyət göstərmişdir. Moizm fəlsəfəsinin əsas müddəaları kollektiv şəkildə yazılmış "Mo-szın" kitabında toplanmışdır. Bu əsərdə müxtəlif səpkili mövzular öz əksini tapmışdır. Əsərdə dövlət idarəçiliyi haqqında məsələlərdən, insanın cəmiyyət qarşısındakı borcundan bəhs olunur, "Səma" haqqında, "Səma iradəsi" haqqında problemlərə toxunulur.

Moizm fəlsəfəsinin əsasını "ümumi məhəbbət" prinsipi təşkil edir. Bu təlimə görə insanın qarşısında duran əsas tələblər "mənfəəti bölüşdürmək" (szyao li) və "sevgini birləşdirmək"dən (szyan ay) ibarətdir. "Mənfəəti bölüşdürmək" prinsipinin əsasında "özün üçün faydalı olan başqaları üçün də faydalı olmalıdır" prinsipi dayanır. "Sevgini birləşdirmək" prinsipinə görə isə insan yalnız öz yaxınlarını, qohum-əqrabasını deyil, başqalarını da sevməlidir.

Konfusi ənənələrinə zidd olaraq Mo Di hesab edirdi ki, ağıla istinad etmək üçün qan qohumluğu tendensiyasından əl çəkmək lazımdır.

Mo-szı “Mo-szın” traktatında bəzi müddəaları irəli sürmüşdür:

1.İnsanların bir-birlərinə ümumi sevgisi;

2.Müdriklərə ehtiram;

3.Vəhdət prinsipi;

4.Ümumi ehtiyatlılıq, hedonizmin azaldılması;

5.Səma iradəsinə inam və tale-alın yazısının inkar edilməsi.

Mo-szı Konfusinin qəbul etdiyi öncədən müəyyən edilmiş alın yazısı ideyasını təkzib edir və göstərirdi ki, insan Səmaya necə xidmət etməsindən asılı olaraq öz yolunu seçir. O, eyni zamanda ruhlara inanır və onları xeyirxah və bədxah olmaqla iki qrupa bölürdü. Filosof hesab edirdi ki, Səma iradəsi insanların bir-birinə olan sevgisinin təzahürüdür. Səma bütün insanları bərabər yaratmışdır [25, s.40].

Moistlərə görə cəmiyyətdəki adamlar insanpərvər olmalı, hamı qarşılıqlı fayda naminə çalışmalı, fiziki əməklə məşğul olmalıdırlar. Mo Di səma qüvvələrinin iradəsinə inanır və güman edirdi ki, səma iradəsi moist prinsiplərinin bərqərar olmasına kömək edəcəkdir.

Mo Dinin ölümündən sonra ardıcılları onun fəlsəfəsini inkişaf etdirmişlər. Onlar, əsasən idrak problemi ilə məşğul olmuş, idrak prosesində biliyə önəm vermişlər.

Moistlərə görə idrak hisslərin ətraf aləmlə təması zamanı yaranır. Onlar cisim və hadisələrin adlarının onların mahiyyətinə uygun adlandırılmasını tələb edirdilər. Moistlər predmetlərin yaranma səbəbini araşdırır, mühakimələrin təcrübəyə əsaslanaraq yoxalınmasını zəruri hesab edirdilər. Moistlər göstərirdilər ki, bilik təcrübə vasitəsilə yaranır.

Moizm ardıcılları idrak nəzəriyyəsinin həllində materialist mövqedə dayanır və idrakın üç şərtini qəbul edirdilər:

1) insanın hiss üzvləri;
2) hiss üzvləri üçün obyekt olan xarici əşyalar;
3) hiss üzvləri ilə xarici əşyaların kontaktı.

Hiss üzvləri xarici əşyalarla kontaktda olduqda duyğu meydana gəlir. Lakin duyğu idrakın başlanğıcıdır və o, yalnız düşüncə ilə dərk edilə bilər. Yalnız bu yolla əşyanın nə olduğunu dərindən dərk etmək mümkündür.

Moistlər biliyə üstünlük verir və onun üç əsas mənbəyini göstərirdilər:

1) Ven-çji - başqalarından əxz edilən bilik;
2) Şo-çji - şəxsin öz təfəkkürünün fəaliyyəti nəticəsində əldə etdiyi bilik;
3) Çin-çji - şəxsin müşahidələr nəticəsində əldə etdiyi bilik.

Moistlərə görə bilik həqiqi və yalan ola bilər. Həqiqi bilik o vaxt əldə edilir ki, "adlar" (məfhum) gerçəkliyə tam uyğun gəlsin. Faktlara uyğun olmayan məfhumlar yalan biliklərdir. Onlar həmçinin bilik əldə etməkdə praktikaya da geniş yer verirdilər [25, s.62].

Moizm təlimində məntiq məsələlərinə də xüsusi diqqət yetirilmişdir. Moizm ardıcılları məntiqin "kateqoriya" və "səbəb" anlayışlarını analiz edərək onları üç qrupa bölmüşlər: ümumi adlar, xüsusi adlar və fərdi adlar.

Mo Di konfusiçiliyin əleyhidarı olmuş və güman etmişdir ki, əvvəlcədən müəyyənləşdirilmiş tale yoxdur. Tale insanın "ən ümumi məhəbbət" (tsan - ay) prinsipini necə

həyata keçirməsindən asılıdır. O, adamları bir - birinə kömək etməyə, faydalı əməklə məşğul olmağa, zorakılıq və müharibələrdən imtina etməyə, cəmiyyətdə tutduqları mövqedən asılı olmayaraq ölkəni idarə etməkdə müdrik və ləyaqətli adamları irəli çəkməyə çağırmışdır. Moistlər mistisizmə meyl etmiş, lakin təlimlərində bəzi materialist ünsürlər də olmuşdur [10, s.262].

Konfusi ardıcılları kainatın əsası kimi Səma iradəsini qəbul edirdilərsə, moistlər Səmanı dünyanın əsası hesab edirdilər.

Onlar tale, alın yazısını rədd edərək göstərirdilər ki, insanın taleyi yalnız onun ilahi iradədə təzahür edən "ümumi məhəbbət" prinsipini necə həyata keçirməsindən asılıdır.

Bu prinsipə riayət etməsindən asılı olaraq ilahi iradə onu ya cəzalandıracaq, ya da mükafatlandıracaq. "Səma istəmir ki, böyük dövlətlər kiçik dövlətlərə basqın eləsin, güclü ailə kiçik ailəni sıxışdırsın, güclü zəifi soysun, hiyləgər sadəlövhü aldatsın, nüfuzlu adam sadə adam qarşısında lovğalansın. Əksinə, Səma arzu edir ki, insanlar bir - birinə kömək etsinlər, güclü zəifə əl uzatsın, onlar bir - birini öyrətsinlər, əşyaları öz aralarında ədalətlə bölsünlər. Səma həmçinin arzu edir ki, yuxarılar ölkəni idarə etsinlər, aşağılar isə işlərində səy göstərsinlər".

Beləliklə, Mo-szının fikrincə Səma heç kim arasında fərq qoymur, heç kimi ayırmır. Onun üçün hamı bərabərdir. Bütün insanlar, ona qulluq edənlər Onun (Səmanın) nökəridirlər [25, s.65].

Səma fasiləsiz olaraq insanların bir - birini sevməsini, bir - birinə qarşılıqlı fayda gətirməsini arzulayır, lakin

insanların bir - birinə pislik etməsini, bir - birini aldatması kimi mənfi xüsusiyyətləri Səma bəyənmir və qəbul etmir. Bəs Səmanın arzu və istəkləri bizə haradan aydın olur? Belə aydın olur ki, Səma hamıya ümumi məhəbbət bəsləyir və xeyir gətirir.

Bəs Səmanın hamıya ümumi məhəbbət bəsləməsini və xeyir gətirməsini haradan bilmək olar? Bu ondan görünür ki, Səma hamıya ruzi - bərəkət bəxş edir, hamını yedizdirir. Səma böyük və kiçikləri, məşhur və məşhur olmayanları ayırmır; çünki bunlar hamısı Səmanın xidmətçiləridir. Səma onların hamısını, mənsəbindən asılı olmayaraq bütün insanların ruzisini özünə verir. Bütün bunlar Səmadan gələn ümumilik deyilmi? Səma məgər hamını yedizdirmirmi? Buradan görünür ki, Səma hamıya eyni gözlə baxır.

Ona görə də Mo-tszı təsdiq edirdi ki, kim ki, hamıya ümumi məhəbbət göstərir və hamıya xeyirxahlıq edir, Səma onu mütləq xoşbəxt edir. Kim ki, hamıya bədxahlıq edir, insanları aldadır, öz mənafeyinə görə qarşısındakına pislik edir, Səma onu mütləq cəzalandırır.

Mo-szı özünün etik görüşlərində "ümumi məhəbbət (tszan - ay) və hörmət" prinsipini həyata keçirməyə çalışmışdır.

Konfusi ictimai davranış normalarını - "etiket"i ("li") sinfi təbəqələrə uyğun həyata keçirmək uğrunda mübarizə aparmış, Mo-szı isə sadəcə olaraq insanları cəmiyyətə ziyan gətirəcək pis əməllərdən çəkindirməyə çalışmışdır [59, s.134].

Müəyyən mənada Mo-szı "qızıl qanun"un (yəni insan "özünə yaxın olanı özü qədər sevməlidir" tezisi) tərəfdarı

idi. Ən başlıcası, o, insanlardan sinfi fərq qoymamağı tələb edirdi və deyirdi ki, hər kəs sosial mənşəyindən asılı olmayaraq öz yaxınlarına kömək etməlidir. Mo-szı inanırdı ki, sadə insanların ehtiyacını başa düşən adam yaxşı hökmdar, idarəçi ola bilər. Təcrübə sahəsində filosof ehtiyatlı, mötədil (aza qane olan) və qənaətçil olmağı tələb edirdi. Əsasən də təmtəraqlı mərasimlərdə və ya dəfn mərasimində israfçılığa yol verməməyə çağırırdı. Belə ittihama cavab olaraq Konfusi deyirdi ki, əgər pul yoxdursa, ondan istifadə etmək bacarığı olmayacaq, bu da ibtidai vəziyyətə gətirib çıxaracaq. Ailədəki bağlılığı insanlara olan sevgi ilə əlaqələndirirdi və göstərirdi ki, bu bağlılıq yaxın qohumlara olan sevginin nəticəsidir. Mo-szı "İlahi qarşısında hər şey bərabərdir, insan hamını və hər kəsi sevməlidir" tezisini qəbul edirdi.

Konfusidən fərqli olaraq Mo-szı sinifli cəmiyyət quruluşuna qarşı çıxır və göstərirdi ki, sinfi fərq yalnız və yalnız cəmiyyətin inkişafına mane olur, quruluşun inkişafına sağlam ağıl, zəka kömək edə bilər.

Filosof belə hesab edirdi ki, insanlar özləri nəyin yaxşı, nəyin pis olduğunu yaxşı bilirlər. İnsanın ictimai vəziyyəti sosial mənşəyindən asılı olmayaraq onun şəxsi kefiyyətlərini müəyyən etməlidir.

Mənəvi və siyasi cəhətdən epistemoloji (epistemologiya - yunanca episteme - bilik, loqos - təlim - idrak nəzəriyyəsi, qnoseologiya) məsələlərdə Mo-szı çox irəli getmişdir.

Onun fikrincə, predmetin düzgün dərk edilməsi üçün üç qanuna riayət etmək lazımdır:

1) məlumatın mənbəyi ilə maraqlanmaq;

2) bu məlumatları əldə etmək üçün mənbəyi öyrənmək;

3) təcrübədə əldə edilmiş həqiqiliyi yoxlamaq [25, s.56].

Mo - tszının "düzgün biliklə predmetin dərkinə yanaşma" prinsipi Qərb filosofu Devid Yumun mövqeyini xatırladır.

Mo-szının fəlsəfi yanaşmaları qnoseoloji, metafiziki və mənəvi fikirlər arasında zərrə qədər də dəyişiklik etmədiyinə görə şərq təfəkkürünün klassik nümunəsi hesab edilir.

Əvvəl deyildiyi kimi, Konfusi əvvəlcədən təyin olunmuş alın yazısına inanırdı. İnsan iradəsindən asılı olmayaraq öncədən Səma iradəsi tərəfindən təyin olunmuş həyatını yaşamağa məcburdur.

Mo-szı isə əvvəlcədən yazılmış alın yazısını qəbul etmirdi. O göstərirdi ki, hər hansı bir inanc insanı tənbəl edir və öz iradəsi ilə hərəkət etməyə mane olur. Eyni zamanda Mo-szı hesab edirdi ki, insan hərəkətlərinə görə ya cəzalana, ya da mükafatlana bilər. Buna görə də hamı öz qanunlarını, vəzifəsini və işini bilməlidir.

Mo Dinin yazmış olduğu "Mo-szı" əsərində onun yaradıcılığı, dünya görüşü öz əksini tapmışdır. İki mərhələdən ibarət olan (erkən və sonrakı) moistlərin məktəbi eradan əvvəl III əsrin sonuna qədər fəaliyyət göstərmişdir. Əsərdə göstərilir ki, Mo-szı və onun davamçıları xidmətçi təbəqəyə (şi), yəni çin cəmiyyətinin azad əməkçi təbəqəsinə yaxın olan ticarət, əkinçilik və sənətkarlıqla məşğul olmuşlar.

Konfusiçilik rəsmi dövlət ideologiyasına çevrildikdən sonra moizm məktəbi təqib edilməyə başlandı. "Mo-szı"

kitabının üzü o zamanlar nadir hallarda köçürülürdü. Sonrakı dövrlərdə yazıya alınma zamanı nəticədə kitabın 18 fəsli it - bat olmuşdur. Bəzi mövzularda xətalara yol verilmiş, bəzi mövzular isə yarımçıq qalmışdır. Ona görə də əsəri oxu-yarkən fikir ayrılıqlarına tez - tez rast gəlmək olur.

XVIII-XIX əsrlərdən başlayaraq XX əsrə qədər Çin alimləri böyük zəhmət bahasına bəzi mövzuların üzərində işləmiş və onları oxunması asan olan vəziyyətə salmışlar. Əsasən də Bi Yuan, Yu Yuy, Sun İ - jan, Lyan Tsi - çaonun xidmətləri böyük olmuşdur [25, s.175].

"Mo-szı" əsərində qeyd edilir ki, əgər hökmdar səltənəti idarə edərkən xidmətçilər barədə düşünmürsə, onda ölkə dağılar. Əgər hökmdar müdrik adamla rastlaşırsa və ondan ağıllı məsləhətlər almağa tələsmirsə, onda hökmdar laqeyiddir. Əgər hökmdar müdriklərdən uzaq qaçsa, xid-mətçilərinin məsləhətlərinə qulaq asmasa dövləti necə idarə edə bilər? Belə olan halda heç bir hökmdar hakimiyyətdə qala bilməz. Əgər hökmdar ölkənin çətin işlərini həll etməyi bacarırsa, o özü - özünə inana bilər və istədiyi məqsədə çatar.

Alicənab hökmdarın səmimi xidmətçiləri olmalıdır. Onun ətrafında işləyənlər ona sədaqətlə xidmət etməli, tamahkar olmamalı, xalqın mənafeyini fikirləşməlidirlər.

Əgər aşağı xidmətçilər qorxularından və ya hökm-dara olan hörmətdən asılı olaraq hökmdara olanları düzgün məlumat verməsələr, onda səltənəti yalan, riya, ikiüzlülük bürüyər və ölkə təhlükəli vəziyyətə düşər.

Əgər hökmdar ağıllı və mehribandırsa, səmimidirsə, rəhimlidirsə onda o, biliksizləri sevməyəcək. Necə ki, ata

övlad sevgisi ilə yansa da, tənbəl oğlunu o, sevməyəcək.

Öz qabiliyyətinə, bacarığına uyğun olmayan adam yaxşı və yuxarı vəzifə tutmamalıdır. Çünki həmin vəzifənin bacarıqlı sahibi vardır.

Saraydan kənarda baş verənlərdən xəbəri olmayan hökmdar nailiyyətlər əldə edə bilməz. Çünki hökmdarın başı saray işlərinə qarışar və kənardakı təhlükələrdən xəbərdar olmaz və bu da ölkənin təhlükəli vəziyyətə gəlməsinə səbəb olar [25, s.176].

Mo-szı göstərirdi ki, ölkədə nizam yaratmaq üçün nizamsızlığın səbəbini bilmək lazımdır. Nizamsızlıq insanların bir-birini sevməməsindən, bir-birinə hörmət etməməsindən, öz xeyirlərinə görə başqalarına pislik etməsindən irəli gəlir.

Səma ədalətliliyi sevir, ədalətsizliyi isə qəbul etmir. Əgər xalqı Səma altında düzlüyə aparsanız, deməli, Səmanın istədiyini etmiş olarsınız. Əgər mən Səmanın istədiyini edirəmsə, deməli Səma da mənim istədiyimi yerinə yetirəcək [25, s.192].

Konfusiçilərin dünyagörüşünə görə: "hər şeyin başlanğıcı tale - alın yazısı ilə bağlıdır. Tale ilə müəyyənləşdirilmiş şeyi dəyişdirmək olmaz; ondan nəyisə götürüb yerinə başqa şey qoymaq olmaz".

Kasıblıq və var dövlətin, mükafat və cəzanın, xoşbəxtlik və bədbəxtliyin öz mənbəyi var. Bunları insan nə qədər müdrik olsa da, yarada bilməz. Bütün bunlar Səmanın işidir.

Konfusiçilər müdrik insana ona layiq olmayan fikir söyləməyi məsləhət görmürdülər [59, s.100].

Mo-szı da hər bir insana sosial mənşəyindən asılı olmayaraq onun öhdəsinə düşən işi layiqincə yerinə yetirməyi tövsiyə edirdi.

Həyatı boyu səylə çalışmaq, zəhmət çəkmək, ağır işlər görmək, öldükdən sonra yas mərasimini təmtəraqlı keçirmək məqsədə uyğun deyil. Boş yerə musiqi ifa etmək, gülmək, ağlamaq lazım deyil. Mo-szı musiqi ifa etməyin heç də tərəfdarı olmamışdır və onu artıq bir məşğuliyyət hesab etmişdir.

Ona görə də Mo-szının təlimi o zaman Çin cəmiyyətində özünü doğrulda bilmədi.

Moizm məktəbi iki yüz ilə qədər, yəni eradan əvvəl IV-III əsrlərə qədər fəaliyyət göstərmişdir. Bu dövrdən həmin məktəb cənub və şimal istiqamtəlrinə bölünmüşlər. Sonrakı moistlər öz müəllimləri Mo Dinin ideyalarını sistemləşdirməklə bərabər, öz məntiq və qnoseoloji baxışlarını da inkişaf etdirmişlər. Onlar bir çox kateqoriyaların izahını verməyə çalışmışlar:

1) səbəb - bu, müəyyən nəticəyə gətirən mövcudluq formasıdır;
2) hissə - bu, bütöv bədəndən nəyinsə ayrılmasıdır, bu birin ikiyə bölünməsidir;
3) bilik - bacarıq tələb edəndir;
4) düşünmə - bu, biliyin axtarışıdır;
5) idrak - xarici aləmlə təmasda olmaqdır;
6) ağıl, dərrakə - predmetin mahiyyətini anlamaqdır;
7) insanpərvərlik - insanlara sonsuz məhəbbətdir;
8) ədalət - insanlara xeyirli olandır;
9) əməl - düşünülmüş hərəkətdir;

10) hörmət - valideynlərin qayğısına qalmaqdır;

11) həyat - bədən və ağılın vəhdətdə olmasıdır;

12) yuxu - insanın elə bir halıdır ki, idrakı var, lakin dərk edə bilmir;

13) söz - anlayışın ifadə edilməsidir;

14) başlanğıc - yaxın indiki zaman;

15) çevrilmə - dəyişmə;

16) son - zamanın inkişafının bitməsidir [59, s.149].

Moistlər yuxarıda sadaladığımız kateqoriyaların izahını verməyə çalışmışlar, çünki bu kateqoriyalar insanın etik - xəlaqi keyfiyyətlərinə aiddir.

**Müstəqil iş üçün suallar**

1. Moizm ardıcılları tərəfindən konfusiçiliyin tənqidi
2. Mo-szının "ümumi məhəbbət" ideyası
3. Moistlərin idrak təlimi
4. Moizmdə məntiq problemi
5. Moizmdə primitiv dialektik fikirlər

**Tapşırıq**

a) Moistlərin idrak nəzəriyyəsinə görə:
- duyğu vasitəsilə predmetin nə olduğunu dərindən dərk etmək mümkündür;
- qavrayış idrakın yeganə mənbəyidir;
- əqli və hissi idrak vəhdətdədir;
- təfəkkür əsas idrak formasıdır;
- məntiqi nəticə yolu ilə predmetin mahiyyəti dərk edilir.

b) Moistlər biliyin növləri haqqında:
- fərdi, eşidilən, mühakimə nəticəsində alınan,

mülahizələrdən alınan;
- hissi, fərdi, eşidilən;
- mülahizələrdən alınan, intuitiv;
- Müqəddəs yazılardan alınan, fərdi, hissi;
- intuitiv, hissi, eşidilən.

c) Moistlərin məntiq məsələlərində qəbul etdikləri əsas anlayışlar:
- kateqoriyalar və səbəb;
- kəmiyyət və keyfiyyət;
- nəticə və analogiya;
- materiya və forma;
- forma və məzmun.

d) Moistlərə görə kainatın əsası nədir:
- səmadır;
- atomlardır;
- təbiətdir;
- Ali prinsipdir;
- mütlər ruhdur.

## *Legizm fəlsəfi məktəbi*

Çin eradan əvvəl IV-III əsrlərdə iqtisadi cəhətdən inkişaf edir. Əmtəə - pul münasibətləri Çinin ayrı-ayrı dövlətləri arasında iqtisadi əlaqələrin güclənməsində səbəb oldu. Eradan əvvəl üçüncü əsrdə Sin padşahlığının hökmdarı olmuş İn Çjen tərəfindən Çjao, Vey, Çu, Yan padşahlıqları məhv edilərək onların torpaqları hesabına böyük Sin dövləti

inkişaf edir. Bu dövrdə Çində həm maddi, həm də mənəvi mədəniyyətin bu və ya digər sahələri, elm, fəlsəfə, incəsənət yenidən dirçəlir böyük Çin səddi çəkilir.

Ölkədə vahid qanunvericilik qəbul edilmiş, məhkəmə və xüsusi bölmələr yaradılmışdı. Cinayət işində ağır cəzalar tətbiq edilirdi. Cinayət törətmiş adamın bütün ailə üzvləri məsuliyyətə cəlb olunurdu. Ölüm cəzası baş vurma, diri-diri torpağa basdırma, qaynay suda boğma və s. bu kimi qeyri-insani hökmlərlə səciyyələnirdi.

İn Çjen sonralar Sin Şi Xuandi (Sinin birinci imperatoru) adı ilə məşhurlaşdı. O, dövlət məktəbləri yaradır və Konfusi təlimindən geniş istifadə etməyi tələb edirdi. Sin Şi Xuandinin hakimiyyəti dövründə Çin qüdrətli dövlətə çevrildi. Sin Şi Xuandi e.ə. 210-cu ildə vəfat etdikdən sonra Sin hakimiyyəti devrilir. Lyu Ban hakimiyyəti ələ alaraq e.ə. 202-ci ildə, Xan sülaləsinin əsasını qoyur. Xan sülaləsi dövründə elmin bir çox sahələri, eləcə də fəlsəfə inkişaf etməyə başlayır. Konfusiçilik fəlsəfəsinə maraq artır, yenidən inkişaf edərək dövlət idarəçiliyində ondan istifadə edilir. Konfusiçiliklə yanaşı, daosizm də öz fəaliyyətini genişləndirir. Bu zaman kəsiyində dövrün tələblərindən irəli gələn legizm məktəbi meydana çıxır.

Legizm ("fa-szya") çin dilində hüquq, qanun deməkdir. Legizmin əsas işi dövlət qanunvericiliyi və hüquq problemlərini işləyib hazırlamaqdan ibarət olmuşdur. Bu məktəbin ardıcılları hakim konfusiçilik ideologiyasına qarşı çıxırdılar. Legistlər konfusiçilik ideologiyasının əsas prinsipləri olan və dövlət idarə ediciliyinə tətbiq olunan humanizm, borc, əcdadların ruhuna pərəstiş, dini ayinlər, musiqi və s. bu

kimi ideyalara qarşı çıxırdılar. Onlar hesab edirdilər ki, humanizm və borc kateqoriyaları dövlət üçün öldürücü amildir. Dövlət qanunlar əsasında idarə olunmalıdır. Əxlaq normaları ilə idarə olunan dövlət özbaşınalığa, xaosa gətirib çıxarar. Legistləri, çox zaman qanunpərəst də adlandırırdılar.

Quan Çjun (e.ə. VII əsr) və Szı Çan (e.ə. VI əsr) legizm məktəbinin ilk nümayəndələri hesab olunurlar. Onlar ilk dəfə olaraq legizm məktəbinin siyasi ideyalarının bəzi elementlərini işləmişlər. Legizmin digər nümayəndəsi eradan əvvəl IV əsrdə yaşamış Li Kuy (Li Ke) dövlət xadimi olmuş, nazir vəzifəsinə qədər yüksəlmişdir. Li Kuy konfusiçilik ideologiyasını, qədim çin adətlərini təkzib etməyən ilkin legistlərdən idi. Lakin o, hesab edirdi ki, Səma altında bəzi islahatların aparılmasının vaxtı çatmışdır. O, tərtib etdiyi "Qanunlar kitabı"nda müxtəlif padşahlıqların kodekslərini işləmişdir. Həmin kitabda cəza növləri, həbsxana qaydaları haqqında fikirlər irəli sürülmüşdür. Li Kuy qiymətlərin rəsmi şəkildə tənzimləndirilməsi sistemini işləyib hazırlamışdır.

Erkən legistlərdən olan Şen Buxay (e.ə. 385-337) dövlətin idarə olunması nəzəriyyəsini irəli sürmüşdür. Bu nəzəriyyə Xan sülaləsi dövründə (e.ə. 202 - y.e. 220-ci illəri) dövlət idarə etməsinin nəzəri əsasını təşkil etmişdir.

Şen Buxay Çjen sülaləsi dövründə nazir olmuşdur. O, təbiət qanunları və əxlaqi - ictimai normalardan fərqli olaraq, ilk dəfə dövlət qanunu anlayışını işlətmişdir. Şen Buxaya görə dövlət yüksək rəhbərlikdən gələn sərəncamlar əsasında idarə olunmalıdır. Siyasi hakimiyyət dövlətin və ictimai həyatın hüquq normalarını tənzimləməlidir. Bununla yanaşı, Şen Buxay idarəetmənin ikinci prinsipini də müəyyən etmiş-

dir. O, qeyd edirdi ki, dövlət başçısının əxlaqi keyfiyyətləri, davranışı onun statusuna uyğun olmalıdır [5, s.98].

Legizmin ən məşhur nümayəndəsi Şan Yan (e.ə. 390-338-ci illər) konfusiçilərin əcdadların həyat tərzini ilahiləşdirmək cəhdlərini ciddi tənqid etmişdir. Şan Yan Şen Buxayın ideyalarını inkişaf etdirmiş, qanunvericilikdə Li Kuyun ənənələrini davam etdirmişdir. Qədim ənənələrə əsaslanan idarəetmə formasını tənqid edərək islahatlar keçirilməsini məsləhət görmüşdür. O, yüngül cinayət üçün ağır cəzaların verilməsi fikrini irəli sürərək göstərirdi ki, belə şəraitdə ağır cinayətlərin qarşısını almaq mümkün olar. Şan Yan "Şanlı ağanın kitabı"nda qeyd edirdi ki, "ağıllılar" qanunları yaradır, "ağılsızlar" isə qanun qarşısında cavab verirlər. Bacarıqlı olanlar qaydanı dəyişdirirlər, bacarıqsızlar qaydaya tabe olurlar.

Şan Yan Sin hökmranlığının görkəmli dövlət xadimlərindən biri olmuşdur. Qədim Çində torpaq islahatları, ilk növbədə onun adı ilə bağlıdır. O, ilk dəfə olaraq torpaq sahəsində islahatlar aparmış, icma istifadə üsulunu ləğv etmiş və torpaqları sahibkarlara paylamışdır. Eyni zamanda o, "beş həyət" sistemini təsis edərək, bura beş qonşunun torpaq sahələrini daxil etmişdir. O, eyni zamanda "əkinçilik - bütün əsasların əsasıdır" prinsipini özündə ehtiva edən təliminin yaradıcısı olmuşdur [10, s.278].

Şan Yanın əsl adı Qunsun Yan olmuşdur. Qanun – ("fa-szya") məktəbinin fəlsəfi - siyasi traktatı "Şan szyun şu" ("Şan vilayətinin hökmdarının kitabı") Şan Yan tərəfindən yazılmışdır. Traktat 26 fəsildən ibarətdir. "Boş torpaqların becərilməsi haqqında əmr" adlı ikinci fəsil və "Sərhədlərdən

kənarda” adlanan on doqquzuncu fəsil Şan Yan tərəfindən qələmə alınmışdır, qalan fəsillərdə isə onun nitqləri və fikirləri toplanmışdır. Traktat bir neçə dəfə köçürüldüyü üçün səhvlərə yol verilmiş, ona görə də mövzularda dəyişikliklər edilmişdir.

“Şan vilayətinin hökmdarlarının kitabı” əsəri legistlər məktəbinin əsas qanun kitabı hesab edilirdi. Bu əsər imperator-bürokratik sisteminin idarə olunmasının təşkilində və Çin idarəçilik sinfində konfusiçilik ideologiyasının dəyişdirilməsində mühüm rol oynamışdır. Bu traktatda ilk dəfə olaraq Çin tarixində imperator-bürokratik sisteminə daxil olan nəzəriyyələr silsiləsi və institutların yaranması barədə fikirlər öz əksini tapmışdır. Onların sırasına bir çox institutları daxil etmək olar: ölkədə iqtisadi proseslərin dövlət tərəfindən idarə edilməsi; bürokratik institutun yaradılması; dövrü zəmanət sistemi; əsilzadəlik rütbəsi institutu; qanun sistemi; məmurun şəxsi cavabdehliyi; nəzarət senzurası institutu [64].

Qunsun Yan göstərirdi ki, kim ki, böyük nailiyyət əldə etmək istəyir, mütləq kütlə ilə məsləhətləşməlidir. Qanun xalqın sevgi hissidir; ayinlər isə işdə əlverişli şərait yaratmaqdır. Buna görə də əgər kamil insan qanunun köməyi ilə ölkəni möhkəmləndirə bilirsə, xalqa xeyir gətirirsə, onda ona ayinlərə müraciət etmək lazım deyil.

Sadə insanlar qədim adət - ənənələrə alışıblar, təhsillilər isə qədim dövr haqqında biliyə malikdirlər. Bu iki kateqoriyanın adamları köhnə qanunlardan kənara çıxa bilmirlər. Ağıllı adam qanun yaradır, ağılsız isə qanunla sərhədlənir; aliliyə çatmış adam ayinləri dəyişir, heç nəyə nail olmayan

isə ayinlərdən kənara çıxa bilmir. Ayinlərə bağlanan adamla iş barəsində danışmağa dəyməz, qanun çərçivəsindən kənara çıxa bilməyən insanla dəyişikliklər barədə danışmağa dəyməz.

Qunsun Yan göstərir ki, keçmiş hökmdarların hər biri xalqı öz qanunları əsasında nizamlayırdılar. İmperatorlar bir - birinin ideyalarını təkrar etmirdi. Onlar hansı köhnə ayinləri saxlayırdılar? Hər bir hökmdar öz hakimiyyəti dövründə özünün qanunlarını yaradır, bu və ya digər yeni dövrə uyğun ayinlərdən istifadə edir.

Ona görə də ölkənin inkişafı və rifahi üçün keçmiş ənənələrdən istifadə etmək əvəzinə, yeni qayda - qanunlar yaratmaq lazımdır.

Cəzalar güc, qüvvə yaradır, qüvvə əzəmət yaradır, əzəmət cahı - cəlal yaradır, cahı - cəlal isə əzim yaradır.

Elə şey var ki, insan ona can atır, elə şey də var ki, görmək istəmir. Can atdığı altı növ nizamsızlıqdır:

1) qocalana qədər yaşamağa can atmaq;
2) taxılın ağılasığmaz dərəcədə itkisinə yol vermək;
3) gözəl geyim və ləzzətli qidaya meyl etmək;
4) dəbdəbəylə yaşamağa can atmaq;
5) üzərinə düşən vəzifəyə etinasızlıq göstərmək;
6) tamahkarlıq.

insanın görmək istəmədiyi dörd çətinlik:

1) şiddətli cəza;
2) amansız, dözülməz qanunlar;
3) əkinçilikdə səylə çalışmaq;
4) müharibədə aktiv iştirak etmək.

Sadaladığımız bu altı növ nizamsızlıq ölkəni zəif-

lədər. Ölkəni bu dörd çətinlik bürüsə, ordu güclənər.

Əgər on hadisədən doqquzu cəzalandırılırsa, altı növ nizamsızlığın qarşısı alınar, amma on yaxşı hadisədən biri mükafatlandırılarsa, dörd çətinlik ölkəni bürüyər. Bütün bunlardan sonra ölkənin ordusuna heç tay ola bilməz.

Hökmdar qərarlar çıxarsa, insanlar onları necə həyata keçirməyi biləcəklər. Ölkəni idarə edən öz işçilərinin fikirləri ilə razılaşarsa hakimiyyət qazanar, ölkədə qayda-qanun bərqərar olar.

Sonuncu "qanunçu" və eyni zamanda erkən legistlərin baxışlarını inkişaf etdirən və bu təlimi yekunlaşdıran Xan Fey olmuşdur. O, legistlərin baxışlarını toplayıb vahid sistem halına salmışdır. Təqribən e.ə. 280-233-cü illərdə yaşamış, zadəgan sinfinə mənsub olmuşdur. O, Sin hökmranlığında nüfuzlu vəzifə tutmuş və dövlətdə bir sıra islahatlar aparmaq üçün hökmdara təsir etməyə çalışmışdır.

Xan Fey-szının əsas əsəri "Xan Fey-szın" adlanır. Xan Fey-szının fəlsəfi mövqeyi daosistlərin təsiri altında formalaşmışdır. O, insan yaratdığı qanunları təbii qanunların surəti saymış, təbii yol adlandırmışdır. Xan Fey-szı üç kateqoriyanı - qanunlar, idarəetmə sənəti və avtoriteti (nüfuz) vəhdət halında götürmüş və bununla da Lao-szının daosizminə meyl etmişdir. Xan Fey-szı daosistlərin mövqeyindən çıxış edərək göstərirdi ki, Dao şeyləri olduğu kimi yaradan qüvvədir, o, qayda yaradır, qayda şeylərin əksini yaradır, bunlar "in" və "yan" təzahürüdür.

Cəmiyyətdə qayda zahiri xarakter daşıyır, o, daxili ziddiyyətləri gizlədir. Hökmdar cəmiyyətin daxili ehtiyaclarını nəzərə almadan qanun və fərman verməklə kifayətlənir.

Xan Fey-szı ontoloji baxışlarında göstərir ki, “dao” əzəmətli və formasızdır, “de” (insan təbiətinin xüsusiyyətləri) li (Xan Fey-szıya görə şəxsi qanunlardır, konkret əşyaya aiddir) ilə təsir edir və hər yerdə təzahür edir. Dao aşağıda səma qanunlarına əsasən vaxtaşırı yaranma və məhv olmaya məruz qalan hər şeyi əhatə edir. Adlar biri - birindən fərqlənir, predmetlər bir - birindən ayrılır, lakin onların arasında ümumi cəhətlər vardır.

Əgər hökmdar səmimidirsə, onda rəiyyət ona baş əyəcək, yox, əgər hökmdarın işləri lazımi qaydada getmirsə, onda rəiyyət onun qanunnaməsini dəyişdirəcək. Hökmdar göy və yer kimi ədalətli olmalıdır. Hökmdara dövlət işlərini idarə etmək lazımdırsa, o, hər bir məsul vəzifəyə özbaşınalıq etməmək şərti ilə məmur təyin etməlidir. Əgər ölkədə qayda - qanun və cəzalar bərqərar olarsa, onda kiçikdən böyüyə, aşağı mənsəb sahiblərindən yuxarı təbəqəyə qədər hamısı öz yerini bilər və həddini aşmaz.

İnsan idarəetmədə ağıllı, bilikli, bacarıqlı olmalıdır. Əgər o, işdən baş çıxarmırsa, o zaman o, başqalarının tamahkarlığını anlamayacaq. İnsan bacarıqlı və gözü açıq olmasa başqalarının hiyləsini başa düşməyəcək. Rəiyyət hökmdarın əmrini yerinə yetirir, qanunu bilərək işində ona əməl edir və rəiyyət özbaşınalıq etmir. Özbaşınalıq odur ki, hökmdarın əmrini yerinə yetirmir və öz xeyrinə görə qanun pozuntusuna yol verir, öz evinin xeyrinə dövlətə ziyan vurur, öz hökmdarına güc vasitəsilə təsir etmək iqtidarında olur. Ona görə də idarəetmə işinə ağıllı , bacarıqlı, özbaşınalıqdan uzaq olan adamları cəlb eləmək lazımdır.

Ağıllı, uzaqgörən insan özbaşınalıq etməz, çünki o,

özündən qorxur; müdrik insan hökmdarını aldatmağa utanar, ona görə də özbaşınalıq etməz. Özbaşınalıq dalınca gedənlər təhlükəni başa düşməyən səfehlər deyil, onlar "dəyişilməyən" insanlardır, çünki belə insanlar pislik içində tərbiyə almışlar. Ən ali rütbəli məmurlar belələrinin ətrafında cəmlənərək hökmdarı aldadır və öz şəxsi xeyirləri naminə dövlətə və xalqa ziyan vururlar. Məmurun belə hərəkətini hökmdar anlayıb onu cəzalandırmırsa, böyük səhvə yol vermiş olur. Əgər yuxarıda hökmdar böyük səhvə yol vermişsə, aşağıda isə məmurlar saysız - hesabsız cinayətlər törətmişlərsə, belə şəraitdə dövlət məhv olar [25, s.43].

Şöhrətə, şana, var - dövlətə can atan adama sübut etsək ki, o, mənfəət dalınca qaçır, həmin adamın nifrətini və məzəmmətini qazanarıq və o, bizi özündən uzaqlaşdırmağa çalışar. Əgər xeyir, mənfəət dalınca qaçan adama desək ki, sən şöhrətə can atırsan, o, bizə ağılsız və həyatdan uzaq olan adam kimi baxacaq, heç zaman da bizim məsləhətlərimizi qəbul etməyəcək. Əgər kiməsə mənfəət dalınca getməyini sövq etsək, o, gizlicə bizim məsləhətimizə qulaq asacaq və bizi özündən uzaqlaşdıracaq ki, sirrini bilməyək. Hər bir işdə sirri saxlamaqla müvəffəqiyyət qazanmaq olar [64].

Eradan əvvəl üçüncü əsrdə Sin Şi Xuandinin hakimiyyəti dövründə legizm rəsmi ideologiyaya çevrilmişdir. Legizm məktəbinin qarşısında duran əsas vəzifə cəmiyyətin necə idarə olunması məsələsi idi. Konfusi təlimindən fərqli olaraq bu məktəbin nümayəndələri cəmiyyətin qanunlara əsaslanan dövlət zorakılığı ilə idarə olunmasının tərəfdarları idilər. Legizm dövrünün qüdrətli dövlət hakimiyyətinin əsas fəlsəfəsi hesab olunurdu.

Legizm insan təbiətinin bəzi xüsusiyyətlərini göstərirdi:

1) insan əvvəldən tünd xasiyyətə malik olur;

2) insanı fəaliyyətə gətirən onun şəxsi maraqlarıdır;

3) ayrı-ayrı fərdlərin maraqları bir-birinə əksdir (ziddir);

4) özbaşınalıqdan uzaq olmaq üçün dövlətin ictimai işlərinə qoşulmaq lazımdır;

5) dövlətin qanunlarından kənara çıxmayanları həvəsləndirmək, təqsirkarları isə cəzalandırmaq lazımdır;

6) insanların əksəriyyəti cəzadan qorxduqları üçün qanuna riayət edir;

7) qanunlar əsasında cəzalar tətbiq edilməlidir;

8) qanunlar hamı üçün eyni olmalıdır, cəza həm sadə insanlar üçün, həm də məmurlar üçün eyni şəkildə tətbiq edilməlidir;

9) dövlət aparatı yalnış peşəkarlardan ibarət olmalıdır;

10) cəmiyyətin əsas tənzimləyici mexanizmi dövlətdir, onun ictimai əlaqələrə, iqtisadiyyata, vətəndaşların şəxsi həyatlarına qarışmaq hüququ vardır [1, s.28].

**Müstəqil iş üçün suallar**

1. Erkən legistlərdə üç istiqamət: Li Kuy, Şen Buxay, Şan yanın təlimləri
2. Xan Feyin təbiətə materialist baxışları və sadəlöhv dialektikası

**Tapşırıq**

a) Legistlər hansı kateqoriyaları dövlət üçün öldürücü amil hesab edirdilər:
- humanizm və borc;
- ləyaqət və vicdan;
- xeyirxahlıq və bədxahlıq;
- təkəbbür və təvazökarlıq;
- ədalət və düzlük.

b) Qunsun Yana görə insanın görmək istəmədiyi çətinliklər:
- cəza, sərt qanunlar, əkinçilikdə çalışmaq, müharibədə iştirak etmək;
- bilik qazanmaq, dövlət qulluğunda çalışmaq;
- ibadət etmək, müqəddəs yazıları öyrənmək;
- rahiblik etmək, asket olmaq;
- elm öyrənmək, bilik əldə etmək.

c)Xan Feyin fəlsəfi mövqeyi:
- daosistlərdən təsirlənmişdir;
- yunan fəlsəfəsindən bəhrələnmişdir;
- buddizm ehkamlarını qəbul etmişdir;
- hind fəlsəfəsinə istinad etmişdir;
- panteizmə qarşı yönəlmişdir.

d) Xan Feyin vəhdət halında götürdüyü üç kateqoriya:
- qanunlar, idarəetmə sənəti, avtoritet;
- səbəb, nəticə, keyfiyyət;
- zaman, məkan, səma;
- materiya, forma, məzmun;
- ağıl, ruh, materiya.

### *Nominalizm fəlsəfi məktəbi*

Nominalizm (çin dilində "min-szya" - adlar məktəbi) qədim çin fəlsəfi məktəblərindən biridir. Təqribən eradan əvvəl V-III əsrlərdə fəaliyyət göstərmişdir. Əsas nümayəndələri Den Si, Xuey Şi, Qunsun Lun, İn Ven olmuşlar. Bu məktəbin digər nümayəndələri isə eradan əvvəl üçüncü əsrdə yaşamış Çenqun Şen, Xuanqun Sı, Mao-qun hesab olunurlar.

Bu məktəbin əsas qayəsi adların real mövcud olan şeylərlə uyğun gəlməsi məsələsini izah etməkdən ibarət idi. Fəlsəfi ədəbiyyatda bu məktəbi çox zaman sofistlər məktəbi, nominalizm məktəbi adlandırırlar. Nominalistlər də moistlər kimi məntiq məsələlərinin həlli ilə məşğul olurdular. Antik yunan müdriki və filosofu Sokrat əşyaların onların mahiyyətinə uyğun adlandırılmasının daha doğru olduğu fikrini irəli sürdüyü kimi, nominalistlər də cisim və hadisələrin adlarını, gerçəklikdəki predmetlərin mahiyyətini düzgün əks etdirməsi ideyası ilə çıxış edirdilər. Bu məktəb predmetlərin qarşılıqlı əlaqəsi və bunların ifadə olunmasını, habelə mühakimə və mülahizələrin uyğunluğu məsələsini izah etməyə səy göstərirdi.

Adlar məktəbi dialektika, sofistika ilə sıx əlaqəlidir. Moistlər göstərirdilər ki, predmetin mahiyyəti onun özündədir, ona görə də biz bunu dərk edə bilmirik, həm dərk etdiyimiz, həm də dərk edə bilmədiyimiz bir yerdə cəmləşib. Bu məsələdə nominalistlər moistlərin fikirlərinə qarşı çıxaraq göstərirdilər ki, predmet və onun mahiyyətini vəhdətdə götürmək olmaz, onları ayırmaq lazımdır.

Nominalistlər anlayışı, yəni sözü yeganə bilik

mənbəyi hesab etmişlər. Real mövcud olan yalnız bizim anlayışlarımızın inikasıdır. Nominalistlər anlayış haqqında müxtəlif fikirlərə qarşı bır sıra məsələlər irəli sürmüşlər. Onlar idrakın subyektiv dialektik izahının müəyyən şərhini vermişdilər. Bəzən də sofıstlərin fikirləri onları çaş-baş salırdı. Sofıstlərin "ağ at at deyil", "quşun üç ayağı var" fikirlərini inkar edərək göstərirdilər ki, bu ifadələr obyektiv məna daşımır və bu düzgün bilik vermir.

Nominalistlər hesab edirdilər ki, mahiyyət sərbəst şəkildə mövcuddur, onun maddi pərdəsi yoxdur. Onlar mahiyyətin bir və ya bir neçə predmetə aid olması fikrinə qarşı çıxır və göstərirdilər ki, bu mahiyyət eyni vaxtda eyni bir hiss üzvü ilə dərk edilə bilməz. Məsələn, aclıq və bərklik kimi keyfiyyətlər gözlə dərk edilə bilməz. Göz yalnız daşın rəngini, yəni ağ olduğunu görür və daşın bərkliyini hiss etmir. Ona görə də ağ bərkliyi kənarlaşdırır. Əllə isə toxunaraq daşın bərkliyini hiss edirik, ağlığını isə dərk etmirik. Ona görə də bu zaman ağlıq yox olur. Nominalistlərə görə mahiyyət obyektiv şəkildə predmetin özündə mövcüd olmadığı üçün insan tərəfindən ifadə edilir.

Nominalistlərin səhvi ondan ibarət olmuşdur ki, onlar anlayışı real əsasından ayırırdılar, predmetlərin mahiyyətinin dərk olunmasını ilkin anlayış kimi qəbul edirdilər.

Nominalistlər görürdülər ki, anlayış predmetin əsasını təşkil edir. Nominalistlərin "öncə at mövcuddur, sonra isə onun müxtəlif rəngləri" fikri fəlsəfəni ikiqat zənginləşdirirdi. Qunsun Lun və onun tərəfdarları Zenon və digər qədim yunan sofıstləri kimi anlayış və onun inkişafı haqqında fikirləri ilə bağlı böyük xəzinə qoyub getmişlər. Onlar

təklik və ümumilik, sonlu və sonsuz, həqiqi və nizbi aşlayışları arasındakı ziddiyətlərin dərk olunması haqqında böyük məsələlər qaldırmış və müzakirə etmişlər. Onların ən böyük xidmətləri bu ideyaları irəli sürməkdən ibarət olmuşdur. Lakin təəssüf hissi ilə demək lazımdır ki, onların həlli yollarını tapa bilməmişdilər [26, s.60].

Xuey Şi (e.ə. 350-260-cı illər) bu məktəbin ilk nümayəndələrindən olmuşdur. O, bildirirdi ki, predmetlərin xarici keyfiyyəti bir-birinə uyğun olmur, çünki bu keyfiyyətlər başqa cisimlərlə müqayisədə yaranır. İnsanın mühakiməsi zaman və məkan nisbiliyi ilə müəyyən olunur. Müxtəlif predmetlərin münasibətlərinin başa düşülməsi onların ontoloji vəhdəti ilə əlaqədardır. Bir-birindən fərqli olan şeylər də mahiyyətcə bir-biri ilə nisbi şəkildə eyniyyət təşkil edir. Buna görə də bir qrupa daxil olan predmetlər eyni bir adla ifadə olunur.

Qunsun Lun təqribən e.ə. 325-250-ci illərdə yaşamışdır. O, Çjanqo dövrünün sonlarında fəaliyyət göstərən qədim çin filosofu, nominalizm məktəbinin böyük nümayəndələrindən biridir. Bu məktəbin nümayəndələri də sonrakı moistlər kimi məntiq məsələlərinin inkişafına böyük diqqət yetirmişlər.

Qunsun Lun qədim Çinin ideoloji tarixinə müflisləşmiş kubar təbəqənin görüşlərinin ifadəçisi kimi daxil olmuşdur. O, forma və məzmununa görə yunan mütəfəkkiri Eley məktəbinin nümayəndəsi Zenonun (e.ə. 490-430-cu illər) aporiyalarını xatırladan hakimanə sözlər silsiləsinin müəllifidir. Əksər hallarda sofizmin “qulun üç qulağı var”, “ağ it – qaradır”, “uçan quşun kölgəsi tərpənmir” kimi

kəlamları Qunsun Lunun adı ilə bağlıdır. Materializm və idealizm arasında tərəddüd edən gələcək "mübahisəçi" Qunsun Lun tarixdə məntiqin bir elm kimi qədim Çində formalaşmasının izini qoymuşdur.

Qunsun Lunun həyatı haqqında elə də çox məlumat yoxdur. Bioqrafik əsər olan "Szi-fu"da (bu əsər sonrakı Xan dövründə "Qunsun Lun-szı" traktatı ilə tamamlanmış və Tan dövrünə qədər gəlib çatmışdır) deyilir ki, Qunsun Lun Çjao dövlətində doğulmuşdur. O, Konfusinin kötükcəsi Kun Çuanın və naturfilosof Szou Yanın müasiri olmuşdur. Başqa sözlə, Qunsun Lun konfusiçi Men-szı və nominalizmin ilk nümayəndələrindən olan Xuey Şidən sonra, Syun-szıdan əvvəl yaşamışdır.

Qədim dövrdə məşhur çin tarixçisi Sima Szyanın "Tarixi qeydlər" ("Şi-szi") kitabında, bundan başqa "Çjan-qo-se" əsərində Qunsun Lunun yaradıcılığı haqqında çox qısa məlumatlar vardır. Bu əsərlər vasitəsilə bilmək olur ki, o Pinyuan vilayətində hökmdarın yanında bir tikə çörəyə yaşamışdır. O, Yan hökmdarı Çjao - vana müharibəyə son qoymaq üçün təsir etmişdir.

Özündə anlayışların analogiyasını, aporiyaların müzakirələrini birləşdirən "adlar və reallıqlar" haqqında Qunsun Lunun təlimi Eley məktəbinin digər nümayəndəsi qədim yunan mütəfəkkiri Parmenidin dünyagörüşünə yaxın olmuşdur.

"Qunsun Lun-szı" traktatı beş fəsildən ibarətdir və günümüzə bu formada gəlib çatmışdır. İlk əvvəllər traktat 14 fəsildən ibarət olmuşdur. Bizə gəlib çatan fəsillərdən biri "Szi-fu"dur ki, bu da ümumi qəbul olunmuş əsərdir. Bu

fəsillərdə dünyagörüşünə görə Qunsun Lunun sadəlövh dialektik mövqelərdən çıxış etdiyi aydın şəkildə görünür.

Zenon kimi Qunsun Lunun da xidməti ondan ibarət olmuşdur ki, o fəlsəfi dünyagörüşünü inkişaf etdirərək, hərəkətin, gerçəkliyin və s. real surətdə ziddiyyətlərini açıq göstərmək istəmişdir.

Eley məktəbinin nümayəndələri kimi qədim çin filosofu da anlayışların məntiqi cəhətdən ziddiyyətlərini aça bilməmişdir. Xüsusini ümumidən ayıraraq, predmet və digər cisimlərin əlamətlərinin və ya keyfiyyətlərinin rolunu mütləqləşdirərək Qunsun Lun "mübahisə etməkdə püxtələşmişdir [25, s.72].

"Ağ at haqqında" fəsildə deyilir: "Ağ at ümumiyyətlə ağ at olmaya bilər? Qunsun Lun göstərirdi ki, olmaya bilər. At - formanı ifadə edir, "ağ" isə rəngi göstərir. Ona görə də "ağ at" – "at" sözü deyil. Çünki rəngi və formanı birlikdə ifadə edən forma deyil.

Ağ ata sahib olan deyə bilməz ki, atım yoxdur. Nə üçün ağ rəng atın mövcud olmasına mane olmalıdır? Atın hansı rəngdə olması onun mövcudluğunu inkar etmir. Atı rənginə görə yox, öz formasına görə qəbul etmək lazımdır. Ona görə də "olar" və ya "olmaz" fikri qarşılıqlı surətdə biri digərini inkar edir. Başqa rənglərdə olan atların arzusunda olmaq olar, yəni ümumiyyətlə at arzusunda olmaq olar, amma "ağ atın" arzusunda olmaq olmaz. Buradan "ağ at at deyil" tezisi ortaya çıxır. Yəni atı rənginə görə yox, mahiyyətinə görə adlandırmaq lazımdır".

Hesab edək ki, hər hansı bir rəngə malik olan at at deyil. Bəs Səma altında rəngi olmayan at yoxdur axı. Onda

belə çıxır ki, Səma altında ümumiyyətlə at mövcud deyil.

Hər bir ata mütləq rəng məxsusdur, ona görə də “ağ atlar” mövcuddur. Əgər atların rəngi olmasaydı, onda sadəcə “atlar” mövcud olardı. Onda “ağ atlar” hardan peydə oldu? Beləliklə, “ağlıq” atı inkar edir. “Ağ at” - atın “ağlıqla” birləşməsidir, yaxud da “ağlığın” atla birləşməsidir. Ona görə də “ağ at” - at deyil.

“Ağlıqla” birləşməyən at atdır. Atla birləşməyən “ağlıq” ağ rəng deyil. Ağlığı atda yerləşdirərək ona iki qat ad – “ağ at” adını vermiş oluruq. Qarşılıqlı birləşməni qarşılıqsız birləşmə adlandırmaq olmaz.

Hesab edək ki, “ağ atım var”, deməli “atım var”, ancaq desək ki, “atım var”, bu o deməkdirmi ki, “səmənd atım var?”.

Bu belə deyil. Ata malik olmaq “səmənd ata” malik olmaq deyildir. Atlar rənglərinə görə mövcud deyildir. Rəng ata görə mövcuddur. Ona görə də Səma altında sözləri qarışdırmaq və nitqi korlamaq olmaz.

Ağ ata sahib olmaq o demək deyildir ki, atım yoxdur.

Bu fikir ağ rəngdən qaçındırır. Əgər bu fikirdən yayınmasaq, onda “ağ ata” sahibiksə, deməli “atım var” deyə bilmərik. Ata sahib olarkən onun rənginin deyilməsi vacib deyil. Çünki sən rənginə görə ata sahib deyilsən, ümumiyyətlə ata sahibsən.

Ağlığı yaddan çıxarmaq lazımdır, çünki o, ağ rəng mövcud olanı müəyyən etmir. “Ağ” sözü “ağ atda” konkret olaraq “ağ” olanı müəyyən edir. Ona görə də “atla” bağlı müzakirədə atın rənginə görə mövcudluğu əsas deyil. Ümumiyyətlə, atın mövcudluğu hansı rəngə sahib olmasından

asılı deyildir [26, s.59].

"Dəyişikliklərə nüfuz etmə" aporiyasında Qunsun Lun ikini təkdə birləşdirir, yəni "ağ at – atdır" aporiyasında fikrini açmağa çalışır. Belə ki, o, fikrini mərhələ - mərhələ izah etməyə çalışırdı.

1) iki vahiddə yerləşir?
2) iki sağda yerləşir?
3) iki solda yerləşir?
4) sağa və yaxud da sola iki məfhumunu şamil etmək olar?

Bu sualların bir cavabı var: xeyr.

Əgər solu sağla birləşdirsək, onda onlara iki adını vermək olar. Onda dəyişəni dəyişməyən adlandırmaq olar? Bəli. Çünki burada dəyişən sağ və solun birləşib vəhdət təşkil etməsidir, əslində onların mahiyyəti dəyişməz qalır [26, s.61].

Beləliklə, nominalizmin nümayəndələri göstərirdilər ki, predmetin adlandırılması nisbi xarakter daşıyır. Cisimlər öz məzmununa və mahiyyətinə uyğun adlandırılmalıdır.

**Müstəqil iş üçün suallar**

1. Nominalizmin nümayəndəsi Xuey Şi "eyniliyin və fərqin birləşməsi" haqqında təlimi
2. Qunsun Lunun "mahiyyət və hadisələrin bölünməsi" təlimi

**Tapşırıq**

a)Nominalisrlər moistlərin hansı fikirlərinə qarşı çıxırdılar:

- predmet və onun mahiyyətinin vəhdətdə götürülməsi;
- alın yazısının inkar edilməsi;
- sosial-etik;

- qnoseoloji;
- “ümumi məhəbbət” prinsipi.

b)Nominalistlərə görə cismlər:
- öz məzmununa və mahiyyətinə uyğun adlandırılmalıdır;
- dəyişməzdir;
- məhv edilməzdir;
- törəmədir;
- tanrının təzahürüdür.

## *Naturfəlsəfi fəlsəfi məktəbi*

Eradan əvvəl 475-221-ci illər Çin tarixində Çjan-qo (Döyüşən padşahlıqlar) dövrü adlanır. Bu, qədim çin fəlsəfəsinin çiçəklənmə dövrü hesab edilir. Bu dövrdə mütəfəkkirlərin dünyagörüşündə fərqli ideya çalarları meydana çıxır, yaradıcılıq potensialı artır, yeni istiqamətlər formalaşır. Çjan-qo mərhələsi dahi müdrik Konfusinin, onun ardıcılı olmuş Men-szının, peyğəmbər adlandırılan Lao-szının, Mo Dinin fəaliyyəti dövrüdür.

Qədim Çində fəlsəfi məktəblər şərti olaraq “szya” adlandırılır. Bu anlayış, eyni zamanda ev, ailə, təsərrüfat və s. mənalarda da işlənir. Çin fəlsəfi məktəblərinin intibahı “bay szya çjen min” (yüz məktəbin rəqabəti) kimi ümumi ad altında tarixə daxil olmuşdur. Bu yüz məktəbdən altısı çin fəlsəfəsinin və mədəniyyətinin inkişafına əhəmiyyətli dərəcədə təsir etmişdir. Çin tarixçisi Sıma Tan altı əsas nüfuzlu məktəbin adını qeyd etmişdir. Sıma Tanın oğlu eradan əvvəl

II-I əsrlərdə fəaliyyət göstərmiş Sıma Syan atasının qeyd etdiyi altı məktəbin adını sonralar özünün “Tarixi qeydlər” kitabına daxil etmişdir. Bu məktəblərdən konfusiçilik, daosizm, moizm, legizm və nominalizm haqqında əvvəlki paraqraflarda məlumat verilmişdir. “İn və yan” naturfilosofların yaratmış olduğu altı məktəbdən sonuncusudur.

Naturfəlsəfi məktəb eradan əvvəl III əsrdə meydana gəlmişdir. Bu məktəbin ideya platformasının əsasını in (qaranlıq, qadın, fəaliyyətsiz başlanğıc) və yan (işıq, kişi, fəaliyyətli başlanğıc) qüvvələri ilə bağlı problemlər, kosmoloji və naturfəlsəfi məsələlər təşkil edir. İn və Yan qüvvələrinin universal dualizminə əsaslanan bu məktəbin mühüm konsepsiyasının mərkəzi xəttini həmin qüvvələrin təsiri nəticəsində beş elementin (od, su, torpaq, metal, ağac) meydana gəlməsi prinsipi təşkil edir.

Bu məktəbin ardıcılları təbiət qüvvələri olan in və yan haqqında, onların yaranması, inkişaf xüsusiyyətləri və s. haqqında biliklər əldə etməyə çalışmışlar. Bunun əsasında tədricən naturalist fikirlər meydana gəlmişdir. Bu məktəbin əsas ideyaları öz bünövrəsini ənənəvi çin mədəniyyətindən və elmindən götürmüşdür.

Çin fəlsəfi təfəkkürü, digər ölkələrdə olduğu kimi, mifoloji görüşlər əsasında formalaşmışdır. Birinci minilliyin əvvəllərində öz əhəmiyyətini qoruyub saxlamış naturfəlsəfi konsepsiyalar yaranmağa başlamışdır. İn və yan anlayışları mifoloji təsəvvürlərin əsasını təşkil edirdi. Həmin miflərdə in və yan həm bir-birinə qarşı qoyulur, həm də biri-birindən asılı və biri-birinə nüfuz edən qüvvələr kimi təqdim edilir. Qədim miflərdə maddi hissəciklərdən ibarət olan efir də

qəbul edilir. Bu hissəciklərin qarşılıqlı əlaqəsi nəticəsində beş ilkin maddi elementlər – su, od, torpaq, metal və ağac yaranır. Beş elementdən torpaq əsas sayılırdı. Bu elementlər bir-birinə təsir edərək növbəli şəkildə biri digərini yaradır. Məsələn, ağac odu yaradır, od torpağı yaradır, torpaq metalı əmələ gətirir, metal suyu, su yenidən ağacı yaradır. Beləlikdə bu proses davamlı inkişaf edir. Bu harmoniyadan predmetlər yaranır və inkişaf edir.

Çin fəlsəfi fikrinin inkişafının ilk mərhələlərində fəlsəfənin siyasi təcrübəyə əsaslanan istiqaməti, dövlətin idarə olunması məsələləri, cəmiyyətdə müxtəlif qrupların bir-birinə münasibəti və etik məsələlər meydana çıxır. Naturfəlsəfi görüşlərdən isə ictimai həyatın təşkili problemlərinin həlli məsələlərində istifadə olunurdu.

Fəlsəfənin əsas problemini Səma və insan münasibəti, insanın dünyadakı yeri və rolu haqqındakı fikirlər təşkil edirdi.

Səma "Yan"ın böyük qüvvəsi, yer isə "İn"in böyük qüvvəsidir. İnsan bu qüvvələrin ortasında dayanan varlıqıdır. Səma öz varlığını yerdən, yer isə səmadan alır. Hər iki başlanğıc mərkəzdə birləşir. Naturfilosoflara görə yer və göyün harmoniyası həyatın mənbəyidir. Lakin bu harmoniyada Səma mühüm rol oynayır. Qədim Çində Səmaya etiqad kultu da buradan doğmuşdur.

"Dəyişikliklər kitabı"nda yan və in qüvvələri işıq və qaranlığın, gündüz və gecənin, kişi və qadının, yaxşı və pisin təcəssümü kimi təqdim edilir. İn və yanın qarşılıqlı təsiri kosmik qüvvələrin dialektikası kimi səciyyələndirilir. İn və yanın qarşılıqlı təsiri təbiətdə daimi dəyişikliklərin səbəbidir

ki, bu da sadəlövh dialektik fikirlərin yaranmasına gətirib çıxarır. İn və yan haqqında təsəvvürlər sonrakı dövrdə Çində tibb, kimya, musiqi və digər sahələrdə nəzəri baza rolunu oynamışdır.

Qədim Çin fəlsəfəsinin əsas anlayışları olan “yan” və “in” anlayışları “Dəyişikliklər kitabı”nda (“İ – szın”) işıqlı və qaranlıq, bərk və yumşaq, kişi və qadın başlanğıclarının təcəssümüdür.

Çin fəlsəfi fikri inkişaf etdikcə, bu anlayışlar işıq və qaranlıq, gündüz və gecə, günəş və ay, göy və yer, isti və soyuq, müsbət və mənfi və digər bu kimi əksliklərin qarşılıqlı əlaqəsini və təsirini əks etdirir. İn və yan qüvvələri bir - birinə tamamilə zidd olan və əsas kosmik hərəkət qüvvələri kimi təcəssüm etdirilir. Bu qüvvələr təbiətdəki daimi dəyişikliyin ilkin səbəbidir. Qədim dövrdə sadəlövh dialektikanın əsasını məhz bu qüvvələrin qarşılıqlı təsiri haqqında konsepsiya təşkil edir. Çin fəlsəfəsində dialektikanın mühüm elementi sayılan in və yan bir-birinə əks qüvvələr kimi qəbul olunsa da, onlar daim vəhdətdə və qarşlıqlı əlaqədədir.

Çin zehniyyatında in və yan bir-birindən təcrid olunmuş şəkildə deyil, əksinə bir-birinə təsir edərək daimi dəyişikliklər prosesinin mənbəyi hesab olunan qüvvələr kimi dəyərləndirilir. Harada İn varsa, orada Yan var və yaxud əksinə, harada Yan varsa, orada İn mövcuddur. Onlar bir-birindən təcrid olunmuş şəkildə mövcud ola bilməzlər. İn və Yan gerçəklikdə baş verən bütün proseslərin və hadisələrin, eyni zamanda mövcud olan bütün obyektlərin yaranma səbəbidir.

İn və yan və beş element haqqında kosmoqonik nə-

zəriyyələr eradan əvvəl IV-III əsrlərdə inkişaf etməyə başladı.

Qədim Çin mifologiyasında və ilkin fəlsəfi düşüncələrdə beş ünsür haqqında fikirlər mühüm yer tutur. “Tarix kitabı”nda və digər qədim mətnlərdə beş ünsür haqqında çoxsaylı mühakimələrə rast gəlmək mümkündür. Qədim çin filosofu Szou Yanın (e.ə. IV əsr) fəlsəfəsinin əsasını beş ünsür (“u-sin”) - su (şuy), od (xo), ağac (mu), torpaq (tu), metal (szin) haqqında ideyalar təşkil edirdi. Szou Yan qeyd edirdi ki, maddi aləmin inkişafına beş ilkin ünsürün bir-birini əvəz etməsi prosesi öz təsirini göstərir.

Beş ünsür Yer və Səma qüvvələrinin gücü ilə bir-birini əvəz edir. Səma qüvvəsi “yan” və yer qüvvəsi “in” ünsürlərə təsir edərək onların müqavimətini qırır, onları bir-birini əvəz etməyə məcbur edir. Bu əvəzetmə aşağıdakı ardıcıllıqla baş verir: torpağa ağac qalib gəlir, yəni, torpağı ağac əvəz edir, metalı od əvəz edir, odu su məğlub edir, yəni odu su əvəz edir və suyu torpaq məğlub edir, yəni suyu torpaq əvəz edir. Bu proses sonsuzluğa qədər davam edir. Beş ünsürün bir-birini əvəz etməsi prosesi insan tərəfindən mənimsənilir: məsələn, ağacı metal kəsir, metalı od əridir, odu su söndürür, suyu torpaq udur, yaxud torpaq əhatə edir, torpaqda ağac bitir və bu hadisələr daim təkrarlanır [25, s.10].

Ünsürlərin bir-birini əvəz etməsi prosesi cəmiyyətdə baş verən hadisələrə də öz təsirini göstərir. Məsələn, hər dövrdə hökmdarların nəsilləri dəyişib bir-birini əvəz edir. Çünki hər bir nəsil bir ünsürün təsiri altında idarə olunur. Qədim Çin fəlsəfəsində ontoloji məsələlərin həllində də beş

ünsürdən istifadə edilmişdir. Məkan, zaman və digər kateqoriyalar da ünsürlərə uyğun olaraq beşlikdə qruplaşdırılır. Bunun nəticəsində bütün dünyada ahəngdarlıq hökm sürür. Qrupların birində nizam pozularsa, bütün dünya mexanizmi pozulmuş olar və xaos əmələ gələr.

“İn-yan - szya” məktəbinin məşhur nümayəndəsi Szou Yan hesab edilir. Onun təliminə görə ilkin kainat vahid tsi-dən (efirdən) ibarət olmuşdur. Tsinin qatılaşması nəticəsində yüngül, təmiz hissəciklər yuxarı qalxaraq Səmanı yaratmış, bulanıq və qaranlıq hissəciklər isə aşağı enərək Yeri yaratmışdır. İn və Yan qüvvələrinin qarşılıqlı təsiri nəticəsində yerin maddi əsasını təşkil edən beş ünsür meydana gəlmişdir.

Naturfəlsəfi məktəb, əsasən, ontoloji məsələlərlə məşğul olmuşdur. Səmanı təmsil edən “Yan” və yerin təcəssümü olan “İn” arasındakı münasibətlər əsasında dünya yaranır və inkişaf edir. Beş ilkin ünsünlərin bir-birinə çevrilməsi, yəni birinin ölümü ilə digərinin varlıq tapması (məsələn ağacdan od əmələ gəlməsi) qədim çin fəlsəfəsində dialektikanın rüşeymini təşkil edir [5, s.83].

Qeyri-varlıq hesab edilən vahid efir – “tsi” dünyanın yaranması prosesində iki hissəyə bölünmüş və Yer və Səma yaranmışdır. Bulanıq və soyuq “in- tsi” Yeri şəffav və isti “yan-tsi” isə Səmanı təşkil etmişdir. Bu, dünyanın yaranmasının birinci mərhələsi idi. İkinci mərhələdə “in-tsi” (Yer) və “yan-tsi” (Səma) bir-birinə yaxınlaşaraq toqquşub birləşir və bunun nəticəsində efir və digər predmetlər əmələ gəlmişdir [5, s.82].

Materialist yönümlü olan bu məktəbin ardıcılları

əfsunlara, tilsimə, səma iradəsinə kor- koranə inama qarşı çıxırdılar. Onlar varlıq haqqında qanunları öyrənməyə səy göstərirdilər.

İn və Yan fəlsəfi məktəbinin dini-idealist, materialist və naturfəlsəfı ideaları çin fəlsəfəsinin formalaşmasına əhəmiyyətli dərəcədə öz təsirini göstərmişdir.

### 3.Xan sülaləsi dövründə fəlsəfə (e.ə. 202-y.e. 220-ci illəri)

Çjou imperiyası (e.ə. 1100-e.ə. 221) doqquz əsrlik böyük dövrü əhatə etmişdir. Bu dövrdə bir çox fəlsəfi məktəblər, eyni zamanda konfusiçilik təlimi yaranmışdır. Cəmiyyətdə baş verən hərc-mərcliyə qarşı çevrilmiş Konfusinin etik-fəlsəfi təlimi böyük nüfuza sahib idi. Artıq eradan əvvəl IV-III əsrlərdə hakimiyyət uğrunda gedən mübarizələr Çjou sülaləsinin hakimiyyətinin zəifləməsinə səbəb olur. Eradan əvvəl 230-cu ildə Tsin hökmdarlığı Çjou imperiyasını süquta uğradaraq Çin tarixində ilk dəfə çoxmillətli Sin imperiyasını yaratmağa müvəffəq olur.

İn Çjen “xuandi” (“imperator”) rütbəsini qəbul etdikdən sonra tarixə Sin Şi Xuandi (“Sinin birinci imperatoru”) adı ilə daxil olur. On dörd illik tarixə malik olan Sin imperiyasının hökmdarı İn Çjenin hakimiyyəti illərində Çin mədəniyyəti tarixində böyük islahatlar keçirilmiş, vahid və mərkəzləşdirilmiş dövlət və idarəetmə orqanları yaradılmış, yazı nizama salınmışdır. Lakin bu dövrdə Sin despotizminə qarşı yönəlmiş konfusiçilik ideologiyası təqiblərə məruz qalmış, Konfusinin kitabları məhv edilmiş, bu təlimin yüz-

lərlə ardıcılı vəhşicəsinə qətlə yetirilmişdir. Sin Şi Xuandi müdriklərin fikirlərini, sözlərini inkar etdi, əsərlərini yandırdı, xalqı kütləşdirdi, tanınmış insanları öldürtdü [13, s.503].

Mövcud şəraitə uyğun olaraq Sin Şi Xuandi qanunlar külliyyatını - legizm fəlsəfəsinin yaradılmasına müvəffəq oldu. Legistlər konfusiçilik təlimini özlərinin başlıca rəqibi hesab edirdilər. Konfusinin irəli sürdüyü əxlaqi qaydalar və onlara hamının, eləcə də imperatorun riayət etməsi iddiası legistlər tərəfindən rəğbətlə qarşılanmırdı. Fa-szya ardıcılları hesab edirdilər ki, əxlaqla siyasəti qarışdırmaq olmaz. Qanunları hökmdar yaradır və dövlət də həmin qanunlar əsasında idarə olunmalıdır.

Sin Şi Xuandinin ölümündən sonra (e.ə. 210) ölkədə baş verən uzunmüddətli üsyanların nəticəsi olaraq Lyu Ban tərəfindən eradan əvvəl 202-ci ildə Xan sülaləsinin əsası qoyuldu. Lyu Banın ölümündən sonara U-di (e.ə.140-87) imperatorunun hakimiyyəti illərində Xan imperiyası özünün ən yüksək inkişaf mərhələsini keçirmişdir. Bu dövrdə ideoloji sistemin - konfusiçilik təliminin yenidən bərpasına və inkişafına ehtiyac duyurulurdu. Konfusiçilərin başlıca məqsədi imperator U-dini işğalçılıq siyasətindən uzaqlaşdırmaqdan ibarət olmuşdur. Konfusi ardıcılları, eyni zamanda imperatora tabe olmağı tələb edirdilər.

Xan sülaləsinin hökmranlığı yeni eranın 220-ci ilinə qədər olan dörd yüz illik dövrü əhatə etmişdir.

Xan imperiyası dövründə Çin mədəniyyətinin bu ya digər sahələri - musiqi, memarlıq, incəsənət, ədəbiyyat böyük inkişaf yolu keçmişdir. Konfusi təliminin ədəbiyyatın inkişafına mühüm təsiri olmuş, əxlaq məsələlərinə dair, ida-

rəçiliyə aid siyasi, elmi və bədii əsərlər meydana çıxmışdır. Bu dövrdə daosizm, konfusiçilik, legizm təlimləri fəlsəfənin yenidən təşəkkülündə və inkişafında mühüm rol oynamışdır. Həm daosizm, həm də konfusiçilik fəlsəfəsində yeni fikirlər yaranır. Konfusiçilik dövlət ideologiyasına çevrilir. Bu dövrdə konfusiçilik fəlsəfəsində naturalist fikirlər, ontoloji problemlər, "İn" və "Yan" qüvvələrinin qarşılıqlı nisbəti, beş ilkin ünsür, eyni zamanda, kiçiyin yaşca böyüyə tabe olması, əcdadların ruhuna pərəstiş, ədalət prinsipi, hüquq və əxlaq qaydaları və s. haqqında məsələlər önə çəkilirdi.

Xan fəlsəfəsinin əsasını Konfusinin sosial-əxlaqi konsepsiyası təşkil edir. Bu dövrdə konfusiçilik təliminin ən böyük nümayəndəsi Dun Çjunşu (e.ə. 180-120) olmuşdur. Dun Çjunşu çin filosofu və dövlət xadimi olmuş, onu "bu dövrün konfusisi" adlandırmışlar. O, konfusiçiliyi dövlət ideologiyası səviyyəsinə yüksəltmiş və "yeni mövzular məktəbi"nin lideri hesab edilmişdir. İmperator məktəbində dərs demiş, tarixçi və mütəfəkkir Sıma Syanın müəllimi olmuşdur.

O, qədim dövrlərdə mövcud olmuş cəmiyyət tipinə üstünlük vermiş, nəsillərdən ötürülən qaydalara riayət etməyi vacib saymışdır. Filosof qeyd edirdi ki, Çjou, Sin nəsillərindən qalan adət-ənənələr Xan dövründə də inkişaf etdirilməlidir. O, hesab edirdi ki, qədim adət-ənənələrə sadiq qalaraq onların formasını dəyişdirmək labüddür. Keçmişdə baş vermiş xətalar təkrarlanmasa, ideal cəmiyyət qurmaq olar. O, qeyd edirdi ki, insanlar Səmanın hökmü ilə təbəqələrə bölünürlər. Ən ali təbəqə hökmdarlar, aşağı təbəqə isə rəiyyətdir. Aşağılar yuxarılara tabe olmalıdırlar.

Dun Çjunşu daosizm və in-yan fəlsəfəsindən bəhrələnərək naturfəlsəfəni konfusiçilik çərçivəsində inkişaf etdirmişdir. Qədim Çin fəlsəfi təfəkkürünə görə dünya “in” (yer) və “yan” (səma) qüvvələrinin qarşılıqlı təsiri nəticəsində meydana gəlmişdir. Dun Çjunşu da “in” və “yan” qüvvələri və beş ilkin ünsür haqqında təlimi inkişaf etdirmişdir.

İlk öncə kainatda vahid substrat olan “tsi” mövcud olmuş, sonra o, yüngül “tsi” və ağır “tsi”yə bölünərək səmanı və yeri yaratmışdır. Yüngül tsi “yan”, ağır tsi isə “in” adlanır. “Yan” səma, kişi, işıq, günəşdir. “İn” isə yer, qadın, qaranlıq, ay hesab edilir.

Dun Çjunşuya görə kainatda hər şey daoya tabe olan “Böyük hədd”dən əmələ gəlmişdir. Daonun fəallığı in - yan qüvvələrinin qarşılıqlı təsirindən və bir-birini əvəzləyən və bir-birini yaradan beş ilkin elementdən ibarətdir.

Dun Çjunşu ilk dəfə olaraq bütün universumu əhatə edən ikilik (in-yan) və beşlik (beş ilkin element) sxemini tərtib etmişdir. Dun Çjunşu “in” və “yan” qüvvələri və beş ilkin ünsür haqqında baxışlarında idealist mövqedən çıxış etmişdir. O, göstərirdi ki, Səma və Yer ən ali varlıq mikrokosm hesab edilən insanı yaratmışdır.

Konfusiçiliyin fundamental problemi hesab edilən insanın “fərdi təbiəti” məsələsini həll edərkən üç fikir irəli sürmüşdür:

1.Universal in və yan qüvvələrinə tabe olan insan təbiəti “xeyirxah” (yan) və “bədxah” (in) hisslərə bölünür;

2.İnsan təbiətinin atributu olan “xeyirxahlıq” nisbi xarakter daşıyır. İnsan təbiəti quşlarla, heyvanlarla müqayisədə xeyirxah ola bilər, müdriklərlə müqayisədə yox.

3. “Xeyirxahlıq” insana doğulanda verilir.

Bu fikirlərinə görə Dun Çjunşu Konfusi fəlsəfəsinə yaxınlaşır.

Səmanın hökmünə görə “yan” və “in” arasındakı münasibətlər əbədidir və “in” daim “yan”a tabe olmalıdır. “Yan” və “in”in nisbəti böyük və kiçik, hökmdar və rəiyyət, ər və arvad və s. nisbəti kimidir. Səma ilə insan arasında əlaqə vardır. Məsələn, yaxşı hökmdarın dövründə səma cisimlərinin əlamətləri müsbət olur, pis hökmdarın hakimiyyəti dövründə isə günəş və ay tutulması, kometaların uçuşu və digər təbiət hadisələri baş verir. İnsanlar səmaya hörmətsizlik etdikdə ictimai və siyasi böhranlar baş verir.

Dun Çjunşuya görə Səma həm tanrı rolunu oynayır, həm də onun müəyyən etdiyi qanunların icraçısı kimi çıxış edir. O, qeyd edirdi ki, Səma insani keyfiyyətlərə və iradəyə malikdir, kainatı idarə edən ali başlanğıcdır. Təbiət və ictimai intizam Səmanın fəaliyyətinin nəticəsidir. Səma iradəsi mənəvi qanundur və insan ona hörmət etməlidir. Filosof göstərirdi ki, Səma dəyişməz olduğu kimi, dao da dəyişməzdir.

Dun Çjunşunun fikrincə, beş ünsür və onların ağac, od, torpaq, metal, su şəklində sıralanması səma tərəfindən müəyyən edilmişdir. Bu elementlərdən torpaq əsas ünsürdür. Ünsürlər bir-birinə çevrilir və bu proses sonsuza qədər davam edir. Ağac suyu çəkir, od ağacı alır, torpaq odu, metal torpağı alır. Su isə metalı alır və bu proses fasiləsiz təkrarlanır. Torpaq mərkəzdə olduğu üçün həyat mənbəyidir və bütün ünsürləri özündə birləşdirir.

Xan fəlsəfəsinin digər nümayəndəsi Lyu Anyunun (e.ə. 180-122) “Xuaynanlı filosoflar” adlı əsəri daosizm

fəlsəfəsi ruhunda yazılmışdır.

Əsərdə qeyd edilir ki, dao yaradıcı qüvvədir, hərəkətin mənbəyidir. Dao səmanı əhatə edir, dünyanın dörd tərəfini müəyyənləşdirir, bütün kainatı doldurur. Zülmət-işıqlanır, işıq qaranlıqlaşır.

Lyu Anyu göstərirdi ki, varlıq qeyri-varlıqdan əmələ gəlir, yenidən qeyri-varlığa çevrilir. Zəka birinci, forma ikincidir. Mövcud şeylər daoya uyğun yaranır, əksinə olarsa, hər şey məhv olar.

Varlığın və qeyri-varlığın öz başlanğıcları olmuşdur. Həmin ilk başlanğıc göyü və yeri əhatə etmiş, in və yanı yaratmışdır. Dao hər şeyə, Səmaya və Yerə nüfuz edir. Onun hökmü ilə təbiət hadisələri baş verir. Dao insana uşaqlıqdan başlayaraq, qocalığa qədər xeyirxahlıq bəxş edir.

Lyu Anyu ruh haqqında fikirlərində deyirdi ki, ruh göylərə, bədən yerə məxsusdur. Ruh əzəli olduğu üçün sonda göylərə ucalır, bədən isə torpağa çevrilir. Ağıl göylərə, bədən yerə məxsusdur. Hiss üzvləri predmetləri dərk etməyə kömək edir [5, s.103].

Xan dövrünün ortodoksal konfusiçilərindən olmuş Ban Qu (32-92-ci illər) idealist mövqedən çıxış edərək göstərmişdir ki, Səma iradəsi beş ünsürün qarşılıqlı təsiri ilə təbiətdə və cəmiyyətdə baş verən dəyişiklikləri və inkişafı müəyyən edir. Bu prosesdə işıq və qaranlıq də iştirak edir. Səmanın hökmü ilə beş ünsür şeyləri yaradır. Dun Çjunşu kimi, Ban Qu da göstərirdi ki, səma ilə yerin qarşılıqlı münasibəti ər və arvadın, ağa ilə nökərin münasibəti kimidir. Beş ilkin ünsür bir - birini əvəz edir, biri - birini doğurur və proses sonsuzadək davam edir.

Xan dövrünün ən görkəmli materialist filosofu Van Çun (y.e. 27 -97 -ci illəri) hesab edilir. O, sadə ailədən olmuş, Loyanda ali məktəbdə təhsil almış, klassik çin ədəbiyyatını öyrənmişdir.

Çin fəlsəfəsində materialist ənənələrin kökü qədim tarixə malikdir. Çjou dövrünün ilk yüz illiklərində beş ilkin element haqqında sadəlövh materialist fikirlər geniş yayılmışdır. Materialist fikirlər idealizm və mistikaya reaksiya olaraq yaranıb inkişaf emişdir. Eradan əvvəl III əsrdə Syun-szı (e.ə. 298-238) materialist fikirlər irəli sürərək göstərirdi ki, insanların taleyi Səma iradəsindən deyil, onların özlərinin hərəkətlərindən asılıdır. Syun-szıya görə əgər insan öz sağlamlığını qorusa, səma onu xəstələndirə bilməz; əgər insan daonun təbii qanunlarına riayət etsə və səhvlərə yol verməzsə, onda səma onları bədbəxt edə bilməz [53, s.6].

Syun-szının ardıcılı və tələbəsi olmuş Xan Fey (faszya məktəbinin böyük nümayəndəsi) sadəlövh materializm təlimini xarici aləmin təbii qanunları ilə - dao ilə zənginləşdirmişdir.

Van Çunun materialist təlimi dini mistikaya qarşı mübarizədə möhkəmlənmişdir. Van Çun dünyanın maddiliyi, vəhdəti və əbədiliyi fikrini qəbul etmiş, konfusiçilərin əcdadların ruhuna pərəstiş və daosizmin fiziki ölməzlik ehkamlarına qarşı çıxmışdır. O, “Tənqidi mülahizələr” əsərində səma iradəsinin insanları daim izləməsi və onları cəzalandırması mistik ideyasına qarşı çıxmışdır. Orta əsrlərdə bu əsər konfusiçilik ideyalarını təkzib etdiyinə görə tənqid edilirdi. Van Çunun ölümündən min il sonra həmin əsər yenidən işıq üzü görməyə başlayır. Əsərdə ontoloji və

etik fikirlər şərh edilmişdir. Van Çun ölümünə yaxın "Yan sin şu" adlı əsərini yazır. Əsər insan xarakterinin tərbiyəsinə həsr olunmuşdur.

Filosofun materialist ideyaları sonralar Çində materializmin inkişafına öz təsirini göstərmişdir.

Van Çun "təbiilik" prinsipini irəli sürərək göstərirdi ki, cisim və hadisələrin inkişafı təbii qanunlar əsasında baş verir. O, bu əsərində bəyan edirdi ki, insan həyatı müəyyən həddə malikdir. İnsan heyvanlar kimi bir dəfə dünyaya gəlir və ölür.

"Tənqidi mülahizələr" traktatında naturfəlsəfə, metafizika, idrak təlimi, etika, din və ictimai problemlər ös əksini tapmışdır. Əsərdə qeyd olunur ki, maddi dünyanın reallığı obyektiv şəkildə mövcuddur. Van Çun sübut etməyə çalışır ki, səma cansız maddi təbiətə malikdir. Səma maddi örtüyü olandır, başlanğıcı və sonu yoxdur. Səma və yer maddi örtüyə malikdir. Ona görə də onlar daim hərəkətdədirlər. Səmanın hərəkəti "tsi"ni yayır və ondan bütün şeylər özü-özünü yaradır. "Tsi" sükunət halında heç bir şeyi yarada bilməz. Səmanın hərəkəti insanın fəaliyyətindən fərqlidir. Günəşin, ayın və planetlərin hərəkəti "tsi"nin yayılmasından asılıdır. Bununla da Van Çun dünyadakı şeylərin hərəkəti ideyasını irəli sürmüşdür.

Van Çun qeyd edirdi ki, səmanın fəaliyyəti təbiət kimi şüursuzdur. Canlı orqanizmlərin malik olduğu hiss orqanları kimi atributlar səmaya aid deyildir. Bütün varlıqlar səmanın övladıdır. Hər bir valideyn öz övladlarına eyni məhəbbəti göstərir. Belə olan halda səma nə üçün müdrik insanlara sevgi göstərməli, ağılsızlara isə biganə qalmalıdır?

Filosof konfusiçilərin “xeyir işlər görən xoşbəxt olur, şər işlər görən isə bədbəxt; bütün bunlar səmadan gəlir” fikrinə qarşı çıxaraq dini ehkamları pisləyirdi [53, s.41].

Səma hərəkətin mənbəyidir. O, həyat qüvvəsi (enerjisi) yaradır ki, bunun da sayəsində bütün mövcudat meydana gəlir. Səma şeyləri hərəkətə gətirir, insan isə səmanı hərəkətə gətirmək iqtidarıda deyildir. Ona görə də səma insanla müqayisədə həddindən artıq böyükdür. Van Çun hesab edirdi ki, insanın dünyadakı yeri haqqındakı konfusiçiliyin irəli sürdüyü fikirlər yalan təsəvvürlərdən başqa bir şey deyildir. Filosof, eyni zamanda konfusiçiliyin irəli sürdüyü şəxsiyyətin bütün azadlığını məhdudlaşdıran ayinləri təkzib edirdi. O, şəxsiyyətin təbii yolla inkişafının tərəfdarı idi.

Van Çunun səma və yer haqqındakı fikirlərindən belə nəticəyə gəlmək olar:

1. Səma və yer əbədidir, onlar doğulmur və məhv olmur;

2. Səma ruha malik olmayan maddi bədəndir, biliyə və hisslərə malik deyildir;

3. Səmanın substansiyası - “tsi” hüdudsuz və formasızdır;

4. Səma mahiyyətinə görə dəyişməzdir;

5. Səma iradəyə malik deyildir. O, insanlara münasibətdə müsbət və ya mənfi təsirini göstərə bilməz [53, s.45].

Van Çun öz təlimində “tsi”ni əsas anlayış kimi qəbul edir və göstərir ki, bütün şeylər səma və yer “tsi”ni birləşdirərək şeyləri yaradır. “Tsi”, eyni zamanda insanı yaradır. Bu isə suyun buza çevrilməsinə bənzəyir. Su qatılaşaraq

buza çevrildiyi kimi, "tsi" də qatılaşır və bunun nəticəsi olaraq insan formalaşır. "Tsi" şeylərin substansiyası kimi öz-özünə mövcuddur, təbiidir, azaddır, heç bir xarici qüvvədən asılı deyildir. Van Çuna görə səma "tsi"ni şüalandırır, yer isə şeyləri yaradır. Beş ünsür həyat qüvvəsinin təsiri ilə bir - birini əvəz edir və dünyadakı şeyləri yaradırlar. İlk ünsürlər bir - birinə təsir edir və bunun nəticəsində şeylər müxtəlif formada meydana gəlir. Məsələn, dəmir ağacı doğramasa ağac heç bir şeyə lazım olmaz. Əgər od dəmiri əritməsə dəmir heç bir şeyə lazım olmaz.

"Tsi" dünyanı dolduran və özündə həyat elementlərini birləşdirən incə maddi varlıqdır, eyni zamanda ruhdur, candır, həyat qüvvəsidir. "Tsi" maddi örtüyü olan həyat ruhudur. O, insan öləndən sonra dağılır və təbiətlə qarışır. Beləliklə, ölmüş insan və onun ruhu yenidən həyata qayıda bilməz. İnsanın ölümü odun sönməsinə bənzəyir. Sönən od öz nurunu itirdiyi kimi, insan da öləndə öz həyat qüvvəsini itirir.

Antik yunan atomistləri Levkipp və Demokrit kimi Van Çun da hesab edirdi ki, ruh materiyanın incə hərəkətli hissəsidir.

Van Çunun idrak təlimi də materialist ənənələrə əsaslanır. Onun idrak təlimi sensualist xarakter daşıyır. Hiss üzvləri insan biliyinin əsas mənbəyidir. İnsan təcrübə yolu ilə, başqasından nəyisə öyrənməklə də bilik əldə edə bilər. O, göstərirdi ki, biliyin mənbəyi insan və obyektiv aləmin qarşılıqlı əlaqəsindən ibarətdir. Bilik hiss üzvləri vasitəsilə əldə edilir.

**Tapşırıq**

a)Lyu Anyuya görə Kainatın hərəkətinə kömək edən kateqoriyalar hansılardır:

- forma, zəka, efir, iradə;
-ağıl, ruh, səma;
-forma, materiya, hisslər;
- beş ünsür;
- efir və xırda zərrəciklər.

b)Van Çunun fəlsəfəsində kainatın yaranma mənbəyi:

- ilkin həyatverici hissəciklər;
- atomlar;
- hava, torpaq, od, su;
- səma iradəsi;
- metal, ağac, torpaq, su.

# NƏTİCƏ

Bəşər sivilizasiyasının beşiyi sayılan “Qoca Şərq” öz unikallığı ilə fərqlənir. Fəlsəfəyə qədər mövcud olmuş dünyagörüş formaları, ibtidai şüur formaları əsasında fəlsəfə meydana gəlmişdir. Qədim Şərq xalqlarının fəlsəfi təfəkkürü dini-mifoloji baxışlar sistemindən kənara çıxa bilmirdi. Hələ eradan əvvəl IV minillikdə Misir və Babilistanda dünya haqqında, allahların mənşəyi haqqında bəsit, sadəlövh fikirlər miflər, əsatirlərlə bağlı olmuş, bəzi hallarda astronomik, astroloji bilgilərə əsaslanmışdır. İlk fəlsəfi baxışlar – teoqonik və kosmoqonik baxışlar məhz Misirdə və Babilistanda meydana gəlmişdir. Zaman keçdikcə fəlsəfi fikir öz müstəvisini genişləndirərək, digər Şərq ölkələrində - Hindistanda, Çində də təşəkkül tapmış və ilk fəlsəfi məktəblər, cərəyanlar burda yaranmışdır.

Fəlsəfi fikrin təşəkkülü və inkişafı Hindistanda mifoloji dünyagörüşdən başlayaraq fəlsəfi dünyagörüşünə qədər bir çox məsələləri özündə ehtiva edən müqəddəs Vedalarla bağlı olmuşdur. Çində də fəlsəfi ideyalar miflər, əsatirlər əsasında yaranıb formalaşmışdır.

Şərq insanını düşündürən dünya, insan, təbiət haqqında fikirlər fəlsəfi dünyagörüşün yaranmasına və inkişafına zəmin yaratmışdır. Qədim dövr Şərq filosoflarının qarşıya qoyduğu əsas məsələ dünyanın mənşəyi haqqında, dünyanın yaranışı haqqında, insan və onu əhatə edən ətraf aləm, cəmiyyət və əxlaq haqqında problemlərdən ibarət idi.

Şərqdə meydana gəlmiş fəlsəfi fikir əsasında fəlsəfi məktəblər, fəlsəfi cərəyanlar, təlimlər təşəkkül tapıb inkişaf

etmişdir. Şərqdə fəlsəfə müstəqil inkişaf yolu keçmiş, digər elmlərə də öz təsirini göstərmişdir. Şərqdən fərqli olaraq, Qərbdə isə fəlsəfə antik yunan filosofları Platon və Aristotelin fəaliyyət göstərdikləri dövrdə siyasət və etika elmlərinin tərkib hissəsi kimi çıxış etmişdir.

Fəlsəfə zaman etibari ilə Şərqdə daha tez meydana gəlsə də, istər şərq, istərsə də qərb insanını eyni problemlər düşündürürdü. Mövcudatın ilk səbəbini, dünyada və təbiətdə baş verən hadisə və proseslərin inkişaf qanunauyğunluqlarını öyrənməyə çalışan Şərq və Qərb filosofları bu sualların cavabını müxtəlif yollarla izah etməyə çalışmışlar.

Şərq və Qərb filosoflarının fəlsəfi təfəkkürü arasında mühüm fərqlər olsa da, onlar tarix boyu bir-birindən bəhrələnmişlər. Şərq fəlsəfəsi tarixi bu günə qədər tam və əhatəli şəkildə işlənməmiş, bir çox problemlərin həlli istiqamətində tədqiqat işləri aparılmamışdır. Bu səbəbdən fəlsəfə tarixinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Şərq fəlsəfəsi tarixi xüsusi predmetə malik bir fəndir. Şərq fəlsəfəsinə dair azərbaycan dilində dərslik və ya dərs vəsaiti olmadığı üçün tələbələrə kömək məqsədi ilə təqdim etdiyimiz “Qədim dövr Uzaq Şərqdə fəlsəfənin təşəkkülü və inkişafı” adlı dərs vəsaitində bəzi məsələləri müəyyən dərəcədə əhatə etməyə çalışmışıq.

Çağdaş Azərbaycanda dünya mədəni irsini, fəlsəfə tarixini öyrənmək mühüm əhəmiyyətə malikdir. Şərq xalqlarının fəlsəfəsini öyrənməklə, biz öz mədəniyyətimizi, tariximizi daha dərindən təhlil etmək imkanı əldə edə bilərik. Bu baxımdan, Şərq fəlsəfəsinin öyrənilməsi labüd məsələlərdən biridir.

## Ədəbiyyat:


**Azərbaycan dilində:**

1. Bağırov Z. Fəlsəfə (sxemlərdə). Bakı, Elm, 2009, 208 s.
2. Bhaqavad-gita olduğu kimi. Bakı, 1991, 896 s.
3. Bilqamış dastanı. Bakı, Gənclik, 1985, 104 s.
4. Çatterci S., Datta D. Hind fəlsəfəsinə giriş. (Tərcümə: Məhəmməd Ç.) Bakı, 2016, 232 s.
5. Əhədov A. Qədim dünya fəlsəfəsi. Bakı, "Azərbaycan Ensiklopediyası", 1995, 200 s.
6. Əliyev R. Din. Əxlaqa aparan yol. Bakı, İrşad, 2005, 80 s.
7. Fəlsəfə ensiklopedik lüğəti. (Müəllif kollektivi). Bakı, "Azərbaycan Ensiklopediyası", 1997, 520 s.
8. Fəlsəfə. (Müəllif kollektivi. Elmi redaktor: F.Ramazanov). Bakı, Azərbaycan, 1997, 376 s.
9. Qunnar Skirbekk Nils Gilye. Fəlsəfə tarixi: Müasir dünyanın fəlsəfi qaynaqlarına bir baxış. (Tərcümə: A. Əsədov). Bakı, Zəkioğlu, 2008, 584 s.
10. Nağıyev C. Qədim Şərq ədəbiyyatı. Bakı, Asiya nəşriyyaı, 2004, 545 s.
11. Şükürov A. Mifologiya. I-YI kitablar. Bakı, Elm, 1995-1996, 158 s.
12. Şükürov A. Şərq fəlsəfəsi və filosofları. Bakı, Əbilov, Zeynalov və oğullar, 2005, 668 s.
13. Yusifov Y. Qədim Şərq tarixi. Bakı, Çıraq, 2007, 536 s.
14. Zeynalov M. Fəlsəfə tarixi. Bakı, Azərbaycan, 2000, 542 s.
15. Zeynalov M. Xarici ölkələrin fəlsəfə tarixi. Bakı, Şərq-Qərb, 2009, 647 s.

**Rus dilində:**

16. Аникеев Н.П. О материалистических традициях в индийской философии. Москва, Наука, 1965, 260 с.
17. Антология даосской философии. (Составители: Малявин В.В., Виногродский Б.Б.) Москва, Клышников,

Комаров и К, 1994, 448 с.
18. Бонгард-Левин Г.М. Древняя Индия. История и культура. СПб.: Алетейя, 2001, 288 с.
19. Бонгард-Левин Г.М., Герасимов А.В. Мудрецы и философы древней Индии. Москва, Наука, 1975, 367 с.
20. Борислав (Борис Мартынов). Йога. Источники и течения. Хрестоматия. Москва, Йогин, 2009, 440 с.
21. Васильев Л.С. Дао и даосизм в Китае. Москва, Наука, 1982, 286с.
22. Великие мыслители Востока: Выдающиеся мыслители, философские и религиозные произведения Китая, Индии, Японии, Кореи, исламского мира. (пер. с англ. под ред. Я. Мак-Грил). Москва, КРОН-ПРЕСС, 1999, 656 с.
23. Гусева Н. Р. Джайнизм. Москва, Наука, 1968, 126 с.
24. Джей Стивенсон. Восточная философия. Москва, Астрель, 2005, 382 с.
25. Древнекитайская философия. Собрание текстов в двух томах. (Автор: редактор Литвинова Л.В.) Т. 1. Москва, Мысль, 1972, 363 с.
26. Древнекитайская философия. Собрание текстов в двух томах. (Автор: редактор Литвинова Л.В.) Т. 2. Москва, Мысль, 1973, 384 с.
27. Древнекитайская философия. Эпоха Хань. Москва, Наука, 1990, 523 с.
28. Железнова Н.А. Дигамбарская философия от Умасвати до Немичаидры: историко-философские очерки. Москва, Восточная литература, 2012, 431 с.
29. Иванов А. И. Материалы по китайской философии. Школа Фа. Хань Фэй-цзы. СПб., 1912, 522 с.
30. История китайской философии (пер. с китайского В.С.Таскина). Москва, Прогресс, 1989, 552 с.
31. История философии в кратком изложении. (Пер. с чеш. Богута И.И.) Москва, Мысль, 1991, 590 с.

32. Канаева Н.А. Индийская философия древности и средн евековья. Учебное пособие. Москва, ИФ РАН, 2008, 255 с.
33. Китайская философия. Энциклопедический словарь. (Рос. акад. наук; гл. ред. М.Л.Титаренко). Москва, Мысль, 1994, 573 с.
34. Книга Правителя области Шан (перевод Л.С.Переломова). Москва, Ладомир, 1993, 392 с.
35. Конфуцианство в Китае. Проблемы теории и практики (ред. Л.П.Делюсин). Москва, Наука, 1982, 264 с
36. Конфуций. Луньюй: изречения (пер. с кит. И.Семененко). Москва, Эксмо, 2009, 400 с.
37. Краткий очерк истории философии. Москва, Мысль, 1981, 927 с.
38. Конзе Э. Буддизм: сущность и развитие. СПб., Наука, 2003, 288 с.
39. Костюченко В.С. Классическая веданта и неоведантизм. Москва, Мысль, 1983, 272с.
40. Лукьянов А.Е. Древнекитайская философия: Курс лекций. Часть II. Философия даосизма. Москва, ИДВ РАН, 2015, 546 с.
41. Лукьянов А.Е. Становление философии на Востоке. Древний Китай и Индия. Москва, УДН, 1989, 188 с.
42. Лучина В.П. Чарвака. Философский энциклопедический словарь. (Гл. редакция: Л.Ф.Ильичёв, П.Н. Федосеев, С.М.Ковалёв, В.Г.Панов). Москва, Советская энциклопедия, 1983, с.768-840.
43. Лысенко В.Г. Ранний буддизм: религия и философия. Учебное пособие. Москва, ИФ РАН, 2003, 246 с.
44. Лысенко В.Г. “Философия природы” в Индии: атомизм школы вайшешика. Москва, Наука, 1986, 200 с.
45. Лысенко В.Г., Терентьев Л.А., Шохин В.К. Ранняя буддийская философия. Философия джайнизма. Москва, Восточная литература РАН, 1994, 383 с.

46. Малявин В.В. Китайская цивилизация. Москва, Астрель, 2000, 632 с.
47. Масперо А. Даосизм (пер. Быстров В.Ю.). СПб., Наука, 2007, 294 с.
48. Мифология древнего мира. Сборник очерков (пер. с английского: древнеегипет, шумер, аккад, санскрита… ред. В.А.Якобсон). СП., Азбука-классика, 2005, 544с.
49. Мэл Томпсон. Восточная философия. (пер. с англ. Ю.Бондарева). Москва, ФАИР-ПРЕСС, 2002, 379 с.
50. Нуреев Р.М. Древний Шумер: учёт как основа организации государственного хозяйства. (Всемирная история экономической мысли: В 6 томах (Гл. ред. В.Н.Черковец). Москва, Мысль, 1987, 606 с.
51. Переломов Л.С. Конфуций и конфуцианство с древности по настоящее время (V в. до н. э.-XXI в.) Москва, Стилсервис, Институт Дальнего Востока РАН, 2009, 704 с.
52. Переломов Л.С. Конфуцианство и легизм в политической истории Китая. Москва, Наука, 1981, 334 с.
53. Петров А. А. Ван Чун - древнекитайский материалист и просветитель. Москва, АН СССР, 1954, 104 с.
54. Пол Оливер. Мировые религиозные верования. (пер. с анг. О.Перфильева). Москва, ФАИР-ПРЕСС, 2003, 240 с.
55. Пятигорский А.М. Материалы по истории индийской философии. Москва, Издательство Восточной Литературы, 1962, 255 с.
56. Радхакришнан С. Индийская философия. (пер. с англ. под ред.В.А.Малинин). Т. 1. Москва, 1956, 328 с.
57. Рой М. История индийской философии. (пер. с бенг. М.С.Андронова, И.С.Колобкова, Г.Н.Шестопалова, А.Ф.Исаенкова). Москва, Изд-во иностранной литературы, 1958, 548 с.
58. Стенли Уолперт. Индия. История, культура, философия (пер. с анг. А. Глушакова). Москва, КоЛибри: Азбука-

Аттикус, 2013, 320 с.
59. Титаренко М.Л. “Древнекитайский философ Мо Ди, его школа и учение”. Москва, “Наука”, 1985, 245 с.
60. Торчинов Е.А. Даосизм. “Дао-Дэ цзин”, 2-е изд. (Пер. Е.А.Торчинова). СПб., “Азбука-классика”, “Петербургское Востоковедение”, 2004, 256 с.
61. Торчинов Е.А. Даосизм. Опыт историко-религиоведческого описания. СПб., Андреев и сыновья, 1993, 310 с.
62. Удальцов С.Ф. История политических и правовых учений (Древний Восток). СПб., Издательский дом СПбГУ, 2007, 279 с.
63. Упанишады. (Пер. с санскрита, исслед., коммент. и прил. А.Я.Сыркина). 3-е изд., Москва, Вост. лит., 2003, 782 s.
64. Философский энциклопедический словарь. (Гл. редакция: Л.Ф.Ильичёв, П.Н.Федосеев, С.М.Ковалёв, В.Г.Панов). Москва, Советская энциклопедия, 1983, 840 с.
65. Фен Юлань. Краткая история китайской философии. (пер. с кит. Р.В. Котенко, науч.ред. Е.А. Торчинов). СПб., Евразия, 1998, 376 с.
66. Хрестоматия по истории древнего Востока: Учебное пособие в 2-х частях. Ч.2 (Под ред. А.М.Коростовцева, И.С.Кацнельсона, В.И.Кузищина). Москва, Высшая школа, 1980, 256 с.
67. Чанышев А.Н. История философии древнего мира. Учебник для вузов. Москва, Академический Проект, 2005, 608 с.
68. Чаттерджи С., Датта Д. Введение в индийскую философию (пер. с англ. под ред В.И.Кальянова). Москва, Издательство иностранной литературы, 1954, 408 с.
69. Чаттерджи С., Датта Д. Индийская философия (пер. с англ А.В.Радугин, Е.А.Тучинская, А.Р.Романенко под ред. В.И.Кальянова). 3-е изд. Москва, Академический проект, Альма Матер, 2009, 365 с.

70. Чаттопадхьяя Д. История индийской философии. (пер. с анг. В.А.Шишкин, В.П.Липеровский). Москва, Прогресс, 1966, 327 s.
71. Чаттопадхьяя Д. Живое и мертвое в индийской философии. (пер. с анг. Е.Н.Аникеева, Н.В.Бродова, И.П.Глушкова и др.). Москва, 1981, 416 с.
72. Чаттопадхьяя Д. От санкхьи до веданты. Индийская фи лософия: даршаны, категории, история (пер. с англ.). Москва, Сфера, 2003, 320 с.
73. Шохин В.К. Первые философы Индии. Учебное пособие. Москва, Ладомир, 1997, 302 с.
74. Шохин В.К. Школы индийской философии: Период формирования (IV в. до н.э.- II в. н.э.). Москва, Восточная литература, 2004, 415 с.
75. Щербатской Ф.И. Избранные труды по буддизму. Москва, Наука, 1998, 426 с.
76. Элиаде М. Йога: бессмертие и свобода. (Перевод С.В.Пахомова). СПб., Лань, 1999, 448 с.
77. Эррикер К.Буддизм. (пер. с англ. Бескова Л.) Москва, ФАИР-ПРЕСС, 2001, 304 с.

# MÜNDƏRİCAT

**Giriş**...................................................................3

**Fəsil 1. Fəlsəfə tarixi elm kimi .......................................6**
1. Fəlsəfə tarixinin predmeti. **.....................................6**
2. Fəlsəfi ideyaların meydana gəlməsi**........................10**

**Fəsil 2. Qədim hind fəlsəfəsi..........................................29**
1. Hindistanda fəlsəfi fikrin təşəkkülü və inkişafı ......29
2. Hind fəlsəfi sistemlərinin yaranması .......................47

**Fəsil 3. Qeyri-ortodoksal fəlsəfi məktəblər**...................55
1. Lokayata-çarvaka fəlsəfi sistemi.............................55
2. Caynizm fəlsəfəsi...................................................64
3. Buddizm fəlsəfəsi...................................................78

**Fəsil 4. Hindistanda ortodoksal məktəblər...................91**
1. Mimansa-vedanta fəlsəfi məktəblər.........................91
2. Sankhya-yoqa fəlsəfi məktəbləri .............................102
3. Vayşeşika-nyaya fəlsəfi sistemləri .........................119

**Fəsil 5. Qədim Çin fəlsəfəsi ..........................................132**
1. Çində fəlsəfi ideyaların meydana gəlməsi....................132
2. Qədim Çin fəlsəfi məktəbləri .......................................139
3. Xan sülaləsi dövründə fəlsəfə.......................................200

**Nəticə**...............................................................................211
**Ədəbiyyat**..........................................................................213

*Çapa imzalanmışdır 10.04.2018. Kağız formatı 60x84 1/16.*
*Həcmi 13,75 ç.v. Sayı 200.*

---

*«Bakı Universiteti Nəşriyyatı», Bakı, AZ 1148, Z.Xəlilov, 23.*